ISSN 2222-940X
DOI: 10.30546/155244

Naxçıvan Dövlət Universiteti

# ELMİ ƏSƏRLƏR



Nakhchivan State University
SCIENTIFIC WORKS

Нахчыванский Государственный Университет
НАУЧНЫЕ ТРУДЫ

2024 № 2 (127)

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**İSSN 2224-5529**
**DOI:10.30546/155244**

# ELMİ ƏSƏRLƏR

*№ 2 (127)*

- ***Filologiya***
- ***Psixologiya və pedaqogika***
- ***Sənətşünaslıq və memarlıq***
- ***Tarix, antropologiya və siyasi elmlər***
- ***Fəlsəfə və hüquq***
- ***İqtisadiyyat***
- ***Tibb və səhiyyə elmləri***
- ***Riyaziyyat və mexanika***
- ***Texniki elmlər***

**Naxçıvan – 2024**

*Jurnal 1997-ci il 13 fevral tarixdə*
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*qeydiyyatdan keçmişdir (Şəhadətnamə № 550).*

**TƏSİSÇİ:** ***Naxçıvan Dövlət Universiteti***

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***ELSEVƏR ƏSƏDOV***
*Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR**: ***ƏLİ HƏŞİMOV***
*Naxçıvan Dövlət Universiteti Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*

**SAHƏLƏR ÜZRƏ REDAKTORLAR**

**Tarix, antropologiya və siyasi elmlər üzrə sahə redaktoru:**
*Hacıfəxrəddin Yəhya oğlu Səfərli – tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

**Fəlsəfə və hüquq elmləri üzrə sahə redaktoru:**
*Məmməd Hüseyn oğlu Rzayev – fəlsəfə elmləri doktoru, professor*

**Təbiət elmləri üzrə sahə redaktoru:**
*Tariyel Hüseynəli oğlu Talıbov – biologiya elmləri doktoru, AMEA-nın həqiqi üzvü*

**Riyaziyyat və mexanika elmləri üzrə sahə redaktoru:**
*Cavanşir İbrahim oğlu Zeynalov – riyaziyyat elmləri doktoru, professor*

**İqtisad elmləri üzrə sahə redaktoru:**
*Teymur Abbas oğlu Abbasov – iqtisad elmləri doktoru, professor*

**Tibb və səhiyyə elmləri üzrə sahə redaktoru:**
*İsa Əli oğlu Abdullayev – tibb elmləri doktoru, dosent*

**Sənətşünaslıq və memarlıq elmləri üzrə sahə redaktoru:**
*İnara Eldar qızı Məhərrəmova – sənətşünaslıq elmləri doktoru, dosent*

**Filologiya üzrə sahə redaktoru:**
*Sədaqət Qurbanəli qızı Həsənova – filologiya elmləri doktoru, professor*

**Pedaqogika, psixologiya, metodika üzrə sahə redaktoru**:
*Taleh Fərman oğlu Xəlilov – pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Baytarlıq və kənd təsərrüfatı elmləri üzrə sahə redaktoru:**
*Mahir Musa oğlu Məhərrəmov – biologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Filologiya elmləri üzrə:***
***Philological sciences:***
***Филологические науки:***

**Kamal Mehdi oğlu Abdullayev**
*Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*
**İsa Əkbər oğlu Həbibbəyli**
*Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*
**Muxtar Kazım oğlu İmanov**
*Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*
**Möhsün Zellabdin oğlu Nağısoylu**
*Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*
**Mahirə Nağı qızı Hüseynova**
*Filologiya elmləri doktoru, professor*
**Əbülfəz Aman oğlu Quliyev**
*Filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*
**Əsgər Nadir oğlu Qədimov**
*Filologiya elmləri doktoru, professor*
**Arif Mamo oğlu Ağalarov**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
**İman Zeynalabdın oğlu Cəfərov**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
**Nicat Əsgər oğlu Yaqubov**
*Filologiya üzrə fəlsəfə doktoru*
**Şirməmməd Qüdrət oğlu Qulubəyli**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
**Ramazan Qorxmaz**
*Filologiya elmləri doktoru, professor (Türkiyə, Maltepe Universiteti)*
**Mişel Bozdəmir**
*Filologiya elmləri doktoru, professor (INALCO - National Institut, Fransa)*

***Psixologiya və pedaqogika elmləri üzrə:***
***Psychology and pedagogical sciences:***
***Науки психология и педагогика:***

**İsmayıl İsrafil oğlu Əliyev**
*Pedaqogika elmləri doktoru, professor*
**Bəxtiyar Həmzə oğlu Əliyev**
*Psixologiya üzrə fəlsəfə doktoru, professor, AMEA-nın müxbir üzvü*
**Müseyib İbrahim oğlu İlyasov**
*Pedaqogika elmləri doktoru, professor*
**Zərövşən Yaşar qızı Babayeva**
*Pedaqogika elmləri doktoru, dosent*
**Sevinc Vasif qızı Orucova**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*
**Bəhruz Qibləli oğlu Məmmədov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Çapay Qadir oğlu Quliyev**
*Psixologiya üzrə fəlsəfə doktoru*

***Sənətşünaslıq və memarlıq elmləri üzrə:***
***Art criticism and architectural sciences:***
***Современные искусствоведческие и архитектурные науки:***

**Tariyel Aydın oğlu Məmmədov**
*Sənətşünaslıq elmləri doktoru, professor*
**Aynur Elhan Nayir**
*Sənətşünaslıq elmləri doktoru, professor (Türkiyə, Nəcməddin Erbakan Universiteti)*
**Səidə Müslüm qızı Məmmədova**
*Sənətşünaslıq professoru*
**Günay Abbas qızı Məmmədova**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
**Gülnarə Qəzənfər qızı Qənbərova**
*Memarlıq üzrə fəlsəfə doktoru, dosent*
**Qadir Əli oğlu Əliyev**
*Memarlıq üzrə fəlsəfə doktoru, dosent*
**Gülxarə Mənaf qızı Əhmədova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***
***History, anthropology and political science:***
***История, антропология и политология:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*
**Kərim Kərəm oğlu Şükürov**
*Tarix elmləri doktoru, professor*
**Şahin Fazil oğlu Fərzəliyev**
*Tarix elmləri doktoru, professor*

**İbrahim Ethem Atnur**
*Tarix elmləri doktoru, professor*
*(Türkiyə, Milli Müdafiə Universiteti)*
**Emin Arif oğlu Şıxəliyev**
*Tarix elmləri doktoru, dosent*
**Xəzər Allahverdi oğlu Hüseynov**
*Tarix elmləri doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
**Şamxal Şükür oğlu Məmmədov**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə, hüquq və siyasi elmlər üzrə:***
***Philosophy, law and political science:***
***Философия, право и политология:***

**Əmir İbrahim oğlu Əliyev**
*Hüquq elmləri doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*Fəlsəfə elmləri doktoru, dosent*
**Azər Xoşbəxt oğlu Mustafayev**
*Fəlsəfə elmləri doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*Fəlsəfə elmləri doktoru, dosent*
**Timçenko Leonid Dmitriyeviç**
*Hüquq elmləri doktoru, professor*
**Cavid Sədulla oğlu Abdullazadə**
*Hüquq elmləri doktoru, professor*
**Anar Ramiz oğlu Bağırov**
*Hüquq üzrə fəlsəfə doktoru*
**Qəhrəman Novruz oğlu Behbudov**
*Hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Vüqar Gəncəli oğlu Rəhimzadə**
*Siyasi elmlər doktoru, professor*
**Elnarə İslam qızı Allahverdiyeva**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*

***İqtisad elmləri üzrə:***
***In economic sciences:***
***В экономических науках:***

**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*İqtisad elmləri doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*İqtisad elmləri doktoru, professor*
**Yuliya Vasiliyevna Cutceva**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*
*(Rusiya Dövlət Aqrar Universiteti)*
**Müslüm Əli oğlu Cabbarzadə**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Əşrəf Umud oğlu Ələkbərov**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Cavadxan Yusif oğlu Qasımov**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Elton Yulət oğlu İbrahimov**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*

***Tibb və səhiyyə elmləri üzrə:***
***On Medical Sciences:***
***По медицинским наукам:***

**Qalib Şolan oğlu Qarayev**
*Tibb elmləri doktoru, professor*
**Lalə İsmayıl qızı Allahverdiyeva**
*Tibb elmləri doktoru, professor*
**Cabbar Niyətulla oğlu Hacıyev**
*Tibb elmləri doktoru, professor*
**Çingiz Rəhim oğlu Rəhimov**
*Tibb elmləri doktoru, professor*
**Erkut Attar**
*Tibb elmləri doktoru, professor*
*(Türkiyə, Yeditepe Universiteti)*
**İlyas Yolbaş**
*Tibb elmləri doktoru, professor*
*(Türkiyə, Qaziantep Universiteti)*
**Cengiz Ara**
*Tibb elmləri doktoru, professor*
*(Türkiyə, Malatya Universiteti)*
**Məhbubə Nəbi qızı Vəliyeva**
*Əczaçılıq elmləri doktoru, professor*
**Müşviq Cəlal oğlu Həsənov**
*Tibb elmləri doktoru, dosent*
**İlhamə Rafiq qızı Mustafayeva**
*Tibb üzrə fəlsəfə doktoru, dosent*
**Gültəkin Budaq qızı Əliyeva**
*Tibb üzrə fəlsəfə doktoru, dosent*
**Rauf Mehralı oğlu Cəfərov**
*Tibb üzrə fəlsəfə doktoru*
**Elmar İlqar oğlu Rzayev**
*Tibb üzrə fəlsəfə doktoru, dosent*

***Riyaziyyat və mexanika elmləri:***
***Mathematical and mechanical sciences:***
***Математика и механика:***

**Sabir Sultanağa oğlu Mirzəyev**
*Fizika-riyaziyyat elmləri doktoru, professor*
**Yaqub Yaqub oğlu Məmmədov**
*Riyaziyyat elmləri doktoru, professor*
**Klaus Haenssgen**
*Riyaziyyat üzrə elmlər doktoru, professor*
*(Almaniya, Leypsik Texniki Universiteti)*
**Sahib Əli oğlu Əliyev**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
**Məhəmməd İman oğlu Namazov**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
**Məftun İsmayıl oğlu İsmayılov**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
**Cabir Hüseyn oğlu Əsədov**
*Texnika üzrə fəlsəfə doktoru, dosent*
*(Rusiya Dövlət Aqrar Universiteti)*

***Fizika və astronomiya elmləri üzrə:***
***On Physics and astronomy sciences:***
***По физике и астрономии:***

**Soltan Əli oğlu Əliyev**
*Fizika-riyaziyyat elmləri doktoru, professor*
**Qulu Əhməd oğlu Həziyev**
*Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
**Fərman Rza oğlu Qocayev**
*Fizika üzrə fəlsəfə doktoru, dosent*
**Billurə Təvəkkül qızı Hacıyeva**
*Fizika üzrə fəlsəfə doktoru, dosent*
**Aygün Hacı qızı Sultanova**
*Fizika üzrə fəlsəfə doktoru, dosent*
**Məftun Eynulla oğlu Əliyev**
*Fizika üzrə fəlsəfə doktoru, dosent*

***Biologiya və aqrar elmlər:***
***Biology and agrarian sciences:***
***Биология и аграрные науки:***

**Əlövsət Gülüş oğlu Quliyev**
*Aqrar elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*
**Saleh Heydər oğlu Məhərrəmov**
*Biologiya elmləri doktoru, professor*
*AMEA-nın müxbir üzvü*
**Etibar Nəsrulla oğlu Məmmədov**
*Biologiya elmləri doktoru, professor*
**Daşqın Şahbaz oğlu Qənbərov**
*Biologiya elmləri doktoru, dosent*
**Sevgi Kolaylı**
*Biologiya elmləri doktoru, professor (Türkiyə)*
**Oktay Yıldız**
*Biologiya elmləri doktoru, professor (Türkiyə)*
**Həbib Təyyar oğlu Hüseynov**
*Biologiya üzrə fəlsəfə doktoru, dosent*

***Kimya elmləri üzrə:***
***On Chemistry sciences:***
***По химическим наукам:***

**Tofiq Abbasəli oğlu Əliyev**
*Kimya elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*
**Yasin Nağı oğlu Babayev**
*Kimya elmləri doktoru, professor*
**Ələddin Dəyyan oğlu Abbasov**
*Kimya elmləri doktoru, dosent,*
*AMEA-nın müxbir üzvü*
**Hacalı Nəcəf oğlu Nəcəfov**
*Kimya elmləri doktoru, professor*
**Pərvin Heydər oğlu Quliyev**
*Kimya üzrə fəlsəfə doktoru*

***Coğrafiya və yer elmləri üzrə:***
***Geography and soil science:***
***По географии и почвоведению:***

**Zakir Naim oğlu Eminov**
*Coğrafiya elmləri doktoru, dosent*
**Nəriman Əziz oğlu Paşayev**
*Coğrafiya elmləri doktoru, dosent*
**Lətifə Mədət qızı Novruzova**
*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent*

# MÜNDƏRİCAT

## DİLÇİLİK

**CƏMİLƏ MƏHƏRRƏMOVA.** Kəngərli etnoniminin Naxçıvan toponimlərinə təsiri və onların etimoloji təhlili ............................................................ 13

**MİRYAQUB SEYİDOV.** Sihahül-fürs lüğətində dialekt sözlər ...............................17

**ƏLİ QASIMOV.** Azərbaycan və ingilis dillərində frazeologizmlərin sintaktik xüsusiyyətləri ............................................................ 20

## PEDAQOGİKA, PSİXOLOGİYA VƏ METODİKA

**SOLMAZ BAYRAMOVA, SEVİNC ORUCOVA.** Şagirdlərin təlimdə geridə qalmasının sosial-psixoloji səbəbləri ............................................................24

**SEVİNC SƏMƏDOVA .** Neyroelm əsaslı metodikaların ümumi psixoloji səciyyəsi.................... 29

## SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ

**ZƏMİNƏ NƏCƏFOVA.** Görkəmli kamança ifaçısı, ustad sənətkar Habil Əliyev ....................... 36

**İSMAYIL MÜRSƏLOV.** Naxçıvan tar məktəbinin xalq çalğı alətləri ifaçılığında tutduğu yer ... 40

## TARİX

**EMİN ŞIXƏLİYEV.** Ermənilərin "xristianlığın ilk şəhid milləti" iddiası və onun beynəlxalq siyasətdə yeri ............................................................ 47

**NURLANA ƏLİYEVA.** "Erməni vilayəti"nin yaradılması tarixi coğrafiyamıza edilən qəsddir.... 57

**NƏRMİNƏ SÜLEYMANOVA .** Qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər Xəzər dənizinin tarixi-coğrafi tədqiqatları............................................................ 62

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

**QƏRİB ALLAHVERDİYEV.** Cəmiyyət həyatında siyasi sferanın rolu və yeri ........................... 69

**ELNUR HÜMBƏTOV.** Virtuallaşmanın vətəndaş aktivliyinə təsiri: haktivizmin müsbət və mənfi tərəfləri ............................................................ 75

## İQTİSADİYYAT

**TEYMUR ABBASOV, MEHPARƏ MƏMMƏDOVA.** Mühasibat uçotu sistemində idarəetmə qərarlarının qəbul edilməsi ............................................................ 82

**GÜLŞƏN BAYRAMOVA.** İnnovasiya ekosistemlərinin təreib edilməsi: rolu regonal inkişafda bilik iqtisadiyyatı............................................................ 88

**NƏSRİN ƏLİYEVA.** Risklərin azaldılmasının əsas metodlarından olan diversifikasiyanın investisiya qoyuluşunda rolu ............................................................ 96

## TİBB

**RÜBABƏ QULİYEVA, ARZU İBİŞOVA, KƏMALƏ CAVADOVA, XURAMAN MİRYUSİFOVA.** Alzheimer xəstəliyinin eksperimental modelində torlu qişada histoloji dəyişikliklərə sarıkökün təsir effektinin tədqiqi ........ 101

**GÜNAY MƏLİKOVA, XURAMAN MİRYUSİFOVA.** Eksperimental epilepsiya və onun əmələgəlmə dinamikasının elektrofizioloji tədqiqi ........ 105

## FİZİKA – RİYAZİYYAT

**SEYFƏDDİN CƏFƏROV, SƏYYARƏ CƏFƏROVA.** Fizikadan məsələ həlli təliminin keyfiyyətinin yüksəldilməsində yeni informasiya texnologiyalarından istifadənin rolu ........ 109

**AYGÜN SULTANOVA, ARİFƏ ƏLİZADƏ.** Yüksək voltlu selen elementlərinin istehsalı və perspektivləri ........ 115

**FƏRMAN QOCAYEV, BİLLURƏ HACIYEVA.** Maye helium və onun əsas xassələri ........ 121

**VƏFA CƏFƏRLİ.** Soft topoloji fəzaların homotopik çoxluqları........ 125

## TƏBİƏT ELMLƏRİ

**NATƏVAN SOLTANOVA, GÜNEL MİRZƏLİYEVA, RUHƏNGİZ HÜSEYNOVA, AYGÜN ZEYNALOVA, TOFİQ ƏLİYEV, SEVİNC DADAŞOVA.** Susuz N-N dimetilformamid elektrolitindən tellur ionlarının elektroreduksiyası........ 134

**HACI AXUNDZADƏ.** İribuynuzlu heyvanlarda dırnaq xəstəliyinin yayılması ........ 143

**NADİR QULİYEV, MAHİR NURUYEV.** Böyümə stimulantlarının həkiyyəti tut külmələrinin inkişaf edilməsi üçün…........ 147

**AFAQ ƏLİYEVA.** Naxçıvan Muxtar Respublikası florasında *brassicaceae* burnett. Kələmkimilər fəsiləsinin çoxnövlü cinsləri və faydalı xüsusiyyətləri........153

**HÜSEYN FEYZULLAYEV.** Əsas becərmə üsullarının "Qobustan" yumşaq buğda sortunun dən məhsuldarlığına və məhsulun struktur elementlərinə təsiri........ 159

**ŞƏFA XASAYEVA.** Siyəzən rayonunda qeyd olunan bəzi hörümçək növlərinin (arachnıda, araneae) qida spektri ........ 163

**AİDƏ ABBASOVA.** Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında aqrar təsərrüfatın inkişafında dövlət proqramlarının rolu ........ 169

# CONTENTS

## LINGUISTICS

**JAMİLA MAHARRAMOVA.** The influence of Kangarli ethnonym on Nakhchivan toponyms and their etymological analysis ........ 13

**MIRYAGUB SEYIDOV.** Dialect words in the Sihahul-Furs dictionary ........ 17

**ALI GASIMOV.** Syntactic features of phraseologisms in Azerbaijani and English ........ 20

## PEDAGOGY, PSYCHOLOGY AND METHODOLOGY

**SOLMAZ BAYRAMOVA, SEVINDJ ORUCOVA.** Socio-psychological reasons for students falling behind in learning ........ 24

**SEVINDJ SAMADOVA.** General psychological characteristics of neurobiological methods ........ 29

## ART AND ARCHITECTURE

**ZAMINA NAJAFOVA.** Prominent kamancha player, master artist Habil Aliyev ........ 36

**ISMAYIL MURSALOV.** The position of the Nakhchivan tar school in the performance of folk instruments ........ 40

## HISTORY

**EMIN SHIKHALIYEV.** The claim of Armenians as "the first martyred nation of Christianity" and its place in international politics ........ 47

**NURLANA ALIYEVA.** The creation of "Armenian Province" is an insult to our historical geography ........ 57

**NARMINA SULEYMANOVA.** Historical and geographical studies of the Caspian Sea from ancient times to the beginning of the 20th century ........ 62

## SOCIAL SCIENCES AND LAW

**GARIB ALLAHVERDIYEV**. The role and place of the political sphere in social life ........ 69

**ELNUR HUMBATOV.** The impact of virtualization on civic activism: pros and cons of hacktivism ........ 75

## ECONOMY

**TEYMUR ABBASOV, MEHPARA MAMMADOVA.** Making management decisions in the accounting system ........ 82

**GULSHAN BAYRAMOVA.** Fostering innovation ecosystems: the role of knowledge economy in regional development ........ 88

**NASRIN ALIYEVA.** The role of diversification, which is one of the main methods of reducing risks, in investment ........................................................ 96

## MEDICINE

**RUBABA GULIYEVA, ARZU IBISHOVA, KAMALA JAVADOVA, KHURAMAN MIRYUSIFOVA.** Study of the effect of yellow carrot on the histological changes in the retina in the experimental model of Alzheimer's disease. ........................................................ 101

**GUNAY MALIKOVA, KHURAMAN MIRYUSIFOVA.** Electrophysiological study of experimental epilepsy and the dynamics of its formation ........................................................ 105

## PHYSICS - MATHEMATICS

**SEIFADDIN JAFAROV, SAYARA JAFAROVA.** The role of using new information technologies in improving the quality of physics problem solving training ................................. 109

**AYGUN SULTANOVA, ARIFA ALIZADE.** Production and prospects of high-voltage selenium cells ........................................................ 115

**FERMAN GOCAYEV, BILLURA HAJIYEVA.** Liquid helium and its main properties ......... 121

**VAFA JAFARLI.** Homotopic sets of soft topological spaces........................................................125

## NATURAL SCIENCES

**NATEVAN SOLTANOVA, GUNEL MIRZALIYEVA, RUHENGIZ HUSEYNOVA, AYGUN ZEYNALOVA, TOFIG ALIYEV, SEVINDJ DADASHOVA.** Electro recovery of tellurum ions from non-aqueous n-n dimethylformamide electrolyte ........................................................ 134

**HAJI AKHUNDZADEH.** Prevalence of hoof disease in cattle ........................................................ 143

**NADIR GULIYEV, MAKHIR NURUYEV.** The effect of growth stimulants on the development of mulberry cuttings ........................................................ 147

**AFAG ALIYEVA.** Brassicaceae burnett in flora of Nakhchivan Autonomous Republic. Multispecies of the cabbage family and useful properties ........................................................ 153

**HUSEYN FAYZULLAYEV.** The effect of the main cultivation methods on the grain yield and structural elements of the "Gobustan" soft wheat variety ........................................................159

**SHAFA KHASAYEVA.** Food spectrum of some species of spiders (arachnida, araneae) mentioned in Siyazan region ........................................................ 163

**AIDA ABBASOVA.** The role of state programs in the development of agriculture in Ganja-Dashkasan and Gazakh-Tovuz economic regions ........................................................ 169

# СОДЕРЖАНИЕ

## ЛИНГВИСТИКА

**ДЖАМИЛЯ МАГЕРРАМОВА.** Влияние этнонима Кенгерли на топонимы Нахчывана и их этимологический анализ........................................................................................................ 13

**МИРЬЯГУБ СЕИДОВ.** Диалектные слова в словаре Сихахуль-Фурс .................................. 17

**АЛИ ГАСИМОВ.** Синтаксические особенности фразеологизмов в азербайджанском и английском языках ........................................................................................................ 20

## ПЕДАГОГИКА, ПСИХОЛОГИЯ И МЕТОДОЛОГИЯ

**СОЛМАЗ БАЙРАМОВА, СЕВИНДЖ ОРУКОВА.** Социально-психологические причины отставания учащихся в учебе ........................................................................................ 24

**СЕВИНДЖ САМАДОВА.** Общая психологическая характеристика нейробиологических методов........................................................................................................................ 29

## ИСКУССТВО И АРХИТЕКТУРА

**ЗАМИНА НАЯФОВА.** Выдающийся кяманчист, мастер-художник Габиль Алиев ............. 36

**ИСМАИЛ МУРСАЛОВ.** Положение Нахчыванской тарной школы в исполнительстве на народных инструментах ........................................................................................ 40

## ИСТОРИЯ

**ЭМИН ШИХАЛИЕВ.** Претензии армян как «первой нации-мученика христианства» и их место в международной политике ........................................................................... 47

**НУРЛАНА АЛИЕВА.** Создание «Армянской провинции» является оскорблением нашей исторической географии ...................................................................................... 57

**НАРМИНА СУЛЕЙМАНОВА.** Историко-географические исследования Каспийского моря с древнейших времен до начала XX века.......................................................................... 62

## СОЦИАЛЬНЫЕ НАУКИ И ПРАВО

**КАРИБ АЛЛАХВЕРДИЕВ.** Роль и место политической сферы в общественной жизни .......................................................................................................................... 69

**ЭЛЬНУР ГУМБАТОВ.** Влияние виртуализации на гражданскую активность: плюсы и минусы хактивизма ............................................................................................... 75

## ЭКОНОМИКА

**ТЕЙМУР АББАСОВ, МЕХПАРА МАМЕДОВА.** Принятие управленческих решений в системе бухгалтерского учета.............................................................................. 82

**ГУЛЬШАН БАЙРАМОВА.** Содействие инновационным экосистемам: роль экономики знаний в региональном развитии ........................................................................................... 88

**НАСРИН АЛИЕВА.** Роль диверсификации, являющейся одним из основных методов снижения рисков, в инвестировании ............................................................................96

## ЛЕКАРСТВО

**РУБАБА ГУЛИЕВА, АРЗУ ИБИШОВА, КАМАЛА ДЖАВАДОВА, ХУРАМАН МИРЮСИФОВА.** Исследование влияния желтой моркови на гистологические изменения сетчатки на экспериментальной модели болезни Альцгеймера ............................................101

**ГЮНАЙ МАЛИКОВА, ХУРАМАН МИРЮСИФОВА.** Электрофизиологическое исследование экспериментальной эпилепсии и динамики ее формирования ....................... 105

## ФИЗИКА - МАТЕМАТИКА

**СЕИФАДДИН ДЖАФАРОВ, САЯРА ДЖАФАРОВА.** Роль использования новых информационных технологий в повышении качества обучения решению задач по физике ........................................................................................................................... 109

**АЙГЮН СУЛТАНОВА, АРИФА АЛИЗАДЕ.** Производство и перспективы высоковольтных селеновых элементов ......................................................................... 115

**ФЕРМАН ГОДЖАЕВ, БИЛЛУРА ГАДЖИЕВА.** Жидкий гелий и его основные свойства ..........................................................................................................................121

**ВАФА ДЖАФАРЛИ.** Гомотопные множества мягких топологических пространств...........125

## ЕСТЕСТВЕННЫЕ НАУКИ

**НАТЕВАН СОЛТАНОВА, ГЮНЕЛЬ МИРЗАЛИЕВА, РУХЕНГИЗ ГУСЕЙНОВА, АЙГЮН ЗЕЙНАЛОВА, ТОФИГ АЛИЕВ, СЕВИНДЖ ДАДАШОВА.** Электровосстановление ионов теллура из неводного n-n-диметилформамидного электролита ...................................................................................................................... 134

**ГАДЖИ АХУНДЗАДЕ.** Распространенность болезней копыт у крупного рогатого скота ................................................................................................................................ 143

**НАДИР ГУЛИЕВ, МАХИР НУРУЕВ.** Влияние стимуляторов роста на развитие черенков шелковицы .......................................................................................................................147

**АФАГ АЛИЕВА.** Brassicaceae кровохлебка во флоре Нахчыванской Автономной Республики. Многовидность семейства капустных и полезные свойства .............................153

**ГУСЕЙН ФАЙЗУЛЛАЕВ.** Влияние основных приемов возделывания на урожайность зерна и структурные элементы сорта мягкой пшеницы Гобустан ........................................ 159

**ШАФА ХАСАЕВА.** Спектр питания некоторых видов пауков (arachnida, aranaee), отмеченных в Сиязаньском районе ..........................................................................................163

**АИДА АББАСОВА.** Роль государственных программ в развитии сельского хозяйства Гянджа-Дашкасанского и Газах-Товузского экономических районов .................................. 169

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 13-16
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 13-16
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 13-16

# DİLÇİLİK

**CƏMİLƏ MƏHƏRRƏMOVA**
*CemileNihatMeherremova@gmail*
*AMEA Naxçıvan Bölməsi*

**DOI: 10.30546/155244.2024.2.127.004**

## KƏNGƏRLİ ETNONİMİNİN NAXÇIVAN TOPONİMLƏRİNƏ TƏSİRİ VƏ ONLARIN ETİMOLOJİ TƏHLİLİ

*Məqalədə Kəngərli tayfa adı ilə bağlı yaranan Naxçıvan ərazisinə daxil olan toponimlərdən və bu toponimlərin etnolinqvistik təhlilindən bəhs olunur. Tayfa adları ilə bağlı yaranan toponimlər etnotoponim hesab olunur. Etnonim səciyyəli toponimlərin yaranmasında qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsas rol oynayır. Ərazidə mövcud olan Kəngərli tayfa adı ilə sıx bağlı olan bu toponimlərin, xüsusilə də oykonimlərin qədim mənbələrdə mövcudluğu araşdırılmış və bu faktlar məqalədə öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası ərazisinə daxil olan Kəngərli tayfa adı ilə bağlı yaranan-etnonim səciyyəli toponimlərdən bir neçəsi (Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş) etnolinqvistik təhlili aparılmışdır.*

***Açar sözlər:*** *Naxçıvan, etnotoponim, oykonim, toponim, Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş*

### Giriş

Naxçıvan ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin toponimlərində də öz təsirini göstərmişdir. Toponimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Onların bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınır ki, onların daha çoxu qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsasında formalaşır.

Naxçıvanda qədim dövrlərdən bəri yaşayan güclü tayfa ittifaqlarından biri də Kəngərli tayfalarıdır. Bu tayfalar və onların müxtəlif tirələrinin yaşadığı ərazilər Naxçıvanın geniş bir hissəsini əhatə edir. V.Qriqoryev Naxçıvan dairəsinin əhalisindən danışarkən qeyd edir: "Diyarbəkirdən gəlmiş Kəngərli tayfaları öz döyüşkənliyi ilə digər tayfalardan fərqlənirlər. Dairə üzrə onlar 920 həyətdə yaşayırlar və müxtəlif tayfa və ya nəsillərə bölünürlər" (11, s.31). V.Qriqoryevin fikrincə, burada VI və VII əsrdən etibarən yaşayan müsəlmanlar müxtəlif tayfalara bölünürlər ki, bunlardan da Kəngərlilər və Qaracalar xüsusi qeyd olunur (11, s.31). Kəngərlilər özləri də müxtəlif tirələrdən ibarətdir. Müəllif burada Kəngərli tayfalarının adlarını sadalayır, onların yaşadıqları kəndləri göstərir: Yurtçu (Cəhri kəndində), Gümüşlü (Gaurarx, Xök, Şahtaxtı, Gildəsər kəndlərində), Xalxallı (Vayxır kəndində), Qaraxanbəyli (Vayxır kəndində), Ağabəyli, Cığataylı, Qaracalı, Billici, Qaratulaqlı, Gecələr, Sarvanlar, Şahbanlı, Əlixanlı (Naxçıvan şəhərində), Ərovanlı (Dizəçi Kərimbəy kəndində), Salayçı (yarısı şəhərdə, digər yarısı Nəhəcir, Külüs, Mahmudoba kəndlərində), Qızıllı (Kültəpə kəndində), Pirxaxanlı (Qahab kəndində), Qızıl Qışlaqlı (Bulqan kəndində), Kəlfirli (Tirkeş, Sələsüz kəndlərində), Qarabağlar (Qarabağlar kəndində) (11, s.32). K.N.Smirnov qeyd edir ki, Nax yurdunda türk tayfalarından, əsasən, bayat, Kəngərli və Cavanşirlər məskunlaşmışlar. O, kəngərlilərin Qafqaza, o cümlədən Naxçıvan ərazisinə əsrlər öncə gəldiyini, hətta bir rəvayətə görə, onların min il bundan əvvəl Cavanşirlər tayfası ilə birlikdə Zaqafqaziyanı işğal etmək üçün Qarabağ və Nax yurduna gəldiyini yazır. Rəvayətə görə, onlar Türküstan ərazisindən - Amudərya və Sırdərya (Seyhun və

Ceyhun) arasındakı torpaqlardan köçüb gəlmişlər (13, s.12). Bu tayfaların Naxçıvanın idarəçiliyində rolundan bəhs edən K.Smirnov yazır ki, Naxçıvanda, demək olar ki, bütün bəy soyadları Kəngərli nəsillərinin adlarından əmələ gəlmişdir (13, s.26).

Beləliklə, XIX-XX əsr mənbələrində qeydə alınmış Qarabağlar, Qaraxanbəyli, Qalasər, Yurdçu-Girdəsər, Ərəfsə, Kəmərli, Xal-xal, Türkeş oykonimləri Kəngərli tayfalarının adlarını özündə saxlayan yer-yurd adlarımızdandır.

**Ərəfsə.** Hazırda, Culfa rayonunda kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Əlincəçay mahalına (14, s.488), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd adıdır (12, s.51). V.Qriqoryev Ərəfsə və Ləkətağ kəndlərinin Əlincəçayın lap yuxarılarında yerləşən iki qarışıq kənd olduğunu yazır (11, s.158). Adil Bağırov bu toponimlə bağlı tədqiqatlarında oykonimin 1590-cı il tarixli mənbədə Sisyan nahiyəsində Ərəfsəcik, Əlincə nahiyəsində Böyük Ərəfsaq, Kiçik Ərəfsaq kəndləri, 1728-ci il tarixli mənbədə Qarabağ nahiyəsinə aid Ərəfşağı köçəri yalı qışlağı kəndləri kimi qeydə alındığını göstərmişdir (4, s.232-233, 242).

Tədqiqatçılar bu adın tarixinin XIV əsrdə Kiçik Asiyada Xett (Het) dövlətinin mövcud olduğu bir vaxta gedib çıxdığını yazırlar. Belə ki, Het dövlətinin hökmdarı II Murşilinin qayaüstü yazısında *Aripsa* adlı kiçik ölkə və qalanın adı çəkilir. Tədqiqatçılar bu adın sonradan Ərəfsə şəklinə düşərək Naxçıvana gətirildiyini düşünürlər. VI əsr Bizans mənbələrində *Arabis*, orta əsr erməni mənbələrində *Arevis* şəklində qeyd olunmuşdur (2, s.263; 8, s.64).

K.N.Smirnov kənd adını *Ərəvs* və ya *Ərəvsək* kimi qeyd edir və fars mənşəli sözdən yarandığını, “dağ yamacı” mənasını ifadə etdiyini yazır (13, s.50). Tədqiqatçı daha bir qeydində *ərəfsəkli* tayfasını kəngərlilərin bir qolu kimi təqdim edir (13, s.15). İ.Bayramov da bu fikirdədir ki, toponim Kəngərli türk tayfasından olan *ərəfsəli* etnonimindən əmələ gəlmişdir (5, s.146). Lakin digər bir mənbədə göstərilir ki, hazırda Culfa rayonunda olan Ərəfsə kəndi kəngərlilər buraya köçməzdən əvvəl mövcud olmuşdur. Kəngərlilərin sofulu tirəsi sonradan bu toponimi özlərinə nəsil adı olaraq götürmüşdür (8, s.64).

**Kəmərli**. XX əsrin əvvəllərində Şərur-Dərələyəz qəzasına aid Kömürlü kəndi qeydə alınmışdır. XIX əsrdə isə Naxçıvan əyalətinin Dərələyəz mahalında Gümürlü kəndi olmuşdur (14, s.499). K.N.Smirnov Kəmərli şəklində qeyd edir. Fikrimizcə bu, eyni kənd adının müxtəlif variantlarıdır. K.N.Smirnov buranın Kəmər xan Kəngərlinin kəndi olduğunu qeyd edir (13, s.52).

**Qıvraq.** Hazırda, Kəngərli rayonunun mərkəzi kəndidir. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.498), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd adıdır (12, s.164). 1925-ci ildən 1930-cu ilə qədər 19 kəndi əhatə edən rayon adı olmuşdur.

K.N.Smirnov *Kivraq* şəklində qeyd edir və yazır ki, toponim türk dilində “cəsur” mənasında işlənir. Tədqiqatçı bu kənddə üzərində yazı olan qədim daş qoyun heykəllərinin olduğuna da diqqət çəkir (13, s.52).

Qıvraq toponimi həm oykonim, həm də oronim kimi mövcuddur. Bir sıra tədqiqatçıların fikrinə görə oykonim oronim əsasında formalaşmış, digər bir fikrə görə, kəngərlilərə məxsus tirə adı əsasında yaranmışdır. Belə ki, kənd kəngərlilərə məxsus mülkün adı olmuşdur və burada kəngərlilərə aid ailələr məskunlaşmışdır. Bəzi tədqiqatçıların fikrincə, *qıvraq* – “yığcam, balacaboylu, kiçik” deməkdir (7, s.86). Azərbaycan dilində *qıvraq, cəld* həmçinin də “cəsur” mənasında işlənir.

**Qarabağlar.** Hazırda Kəngərli rayonunda kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.496; 11, s.150), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd olmuşdur (12, s.147). Azərbaycan ərazisində Qarabağ, Qarabağlar, Qarabağlı kənd adları geniş yayılmışdır. Bu hal XX əsr mənbələrində əksini tapmışdır. Hazırda Xanlar, Göyçay rayonlarında da Qarabağlar kəndi mövcuddur. Tədqiqatçılar kənd adını eramızın əvvəllərində hun tayfalarının tərkibində Cənubi Qafqaza gəlmiş türkdilli Kəngərlər-Peçeneqlərin Qarabağlar tayfasının adı ilə bağlayırlar (3, s.18). Kənd adı etnonim xarakterlidir.

**Qaraxanbəyli**. Hazırda Naxçıvan şəhərində kənddir. XIX əsrdə Naxçıvan əyalətinin Naxçıvan mahalına aid kənd olmuşdur (14, s.497).

Fikrimizcə, kənd adı XI-XII əsrlərdə Orta Asiyada hökmranlıq etmiş Türk sülaləsinin adı ilə bağlı yaranmış toponimdir. Mənbələrdə göstərilir ki, Qaraxanbəyli tirəsi Kəngərli tayfasına aid olmuşdur (3, s.27).

**Yurdçu-Girdəsər.** Hazırda Kəngərli rayonunda Yurdçu kənd adı kimi qeydə alınmışdır. XIX əsrdə Naxçıvan əyalətinin Xok mahalına (14, s.508; 11, s.150), XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid kənd olmuşdur (12, s.331). Adil Bağırov tədqiqatlarında qədim mənbələrə əsasən, oykonimin 1590-cı il mənbəsində Dərəşahbuz nahiyəsinə aid *Kərdəsər* kəndi, 1727-ci il mənbəsində Dərələyəz nahiyəsinə aid Muğanlı kəndinin digər adının *Yurdçu* olduğunu və XIX əsrə qədərki mənbələrdə bu kənd haqqında məlumatın olmadığını qeyd etmişdir (4, 217, 255). Çox güman ki, Girdəsər sözünün fonetik variantıdır.

K.N.Smirnov adı *Yurçi* şəklində qeyd edir və yazır ki, bu, Türk tayfalarından birinin adıdır. Toponimin birinci komponenti "yurdçu/yurçi" Kəngərli nəsillərindən birinin adıdır (13, s.15). Bu barədə K.N.Smirnovun 1934-cü ildə nəşr olunmuş əsərində də məlumat vardır. Mənbələrdə yurdçu sözünün rütbə adı olması göstərilir: "Hülakülər dövlətinin ordusunda inaq, bakaul, yasaul, yurdçu, bəlarğuçi, bəxşi və s. məmurlar xidmət edirdi. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər - yurdlar yurdçular tərəfindən salınırdı" (1, s.236). Kəngərlilərin bir qolu yurdçu vəzifəsini icra etdiyindən sonralar bu ad tirə adı kimi sabitləşmişdir.

**Nəticə**

Naxçıvan ərazisində Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimləri müəyyənləşdirmək üçün müraciət etdiyimiz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcə də bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə elmi nəticəyə gəlirik ki, Naxçıvan ərazisindəki Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Sovet Ensiklopediyası. XIX c., Bakı: 1986
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə. I c., Bakı: 2007, "Şərq-Qərb", s.304
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə, II c., Bakı: 2007, "Şərq-Qərb", s.304
4. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: 2008, "Nurlan", s.336
5. Bayramov İ. Qərbi Azərbaycanın Türk mənşəli toponimləri. Bakı: 2002, "Elm", s.346
6. Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri, Bakı: 1988, Nafta Press
7. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: 2004, Nafta Press, s.120
8. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti (əlyazma): 4 cilddə, III c., s.218
9. Eyvazlı Ə. Naxçıvan qədim Türk torpağıdır. Bakı: 2006, "Elm", s.154
10. Qeybullayev Q.Ə. Naxçıvanın bəzi oykonimləri haqqında. Bakı: 1977, "Elm və həyat", №6, s.12-14
11. Григорев В.В. Статистическое описание Нахичеванской провинций, Санкт-Петербург: 1833, с.264
12. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карт Кавказского края. Тифлис: 1913, Типография К.П.Казловского, с.530
13. Смирнов Н.К. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис: 1934 г), Баку: 1999, Озан ст. 156
14. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: 1852, с.644
15. Vəliyev (Baharlı) M. Azərbaycan, (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı: 1993, "Azərnəşr", s.208

## SUMMARY

**Jamila Maharramova**

**INFLUENCE OF KANGARLI ON NAKHCHIVAN TOPONYM AND THEIR ETYMOLOGICAL ANALYSIS**

The article deals with the toponyms of Nakhchivan regions, which arose in connection with the name of the Kangarli tribe, and the ethnolinguistic analysis of these toponyms. Toponyms arising from tribal names are considered ethnotoponyms. Ancient Turkic names of tribes, descendants, peoples, tribes play a key in the creation of toponyms with ethnonym characteristics. The existence of these toponyms, especially oikonyms, which are closely related to the name of the Kangarli tribe existing in the area, was investigated in ancient sources and these facts were reflected in the article. Ethnolinguistic analysis of some ethnonym-like toponyms (Karabakhlar, Karakhanbeyli, Galasar, Yurdcu-Girdasar, Arafsa, Kamarli, Khal-khal, Türkesh) arising from the name of the Kangarli tribe included in Nakhchivan regions was conducted.


***Key words:*** *Nakhchivan, Kangarli, ethnotoponym, oikonym, toponym, Karabakhlar, Karakhanbeyli, Galasar, Yurdcu-Girdasar, Arafsa, Kamarli, Khal-khal, Türkesh*


## РЕЗЮМЕ

**Джамила Магаррамова**

**ВЛИЯНИЕ КЕНГЕРЛИНСКИХ ЭТНОНИМОВ НА НАХЧЫВАНСКИЕ ТОПОНИМЫ И ИХ ЭТИМОЛОГИЧЕСКИЙ АНАЛИЗ**

В статье рассматриваются включенные на территорию Нахчывана топонимы, возникшие в связи с названием племени Кенгерли, и этнолингвистический анализ этих топонимов. Топонимы, возникшие в связи с названиями племен, считаются этнотопонимами. В образовании топонимов этнонимического характера основную роль играют древнетюркские племенные, родовые, народные, тирские, родоплеменные названия. Существование этих топонимов, особенно ойконимов, тесно связанных с существовавшим на территории племенем Кенгерли, было исследовано в древних источниках, и эти факты нашли отражение в статье. Проведен этнолингвистический анализ некоторых топонимов (Карабахлар, Караханбейли, Галасар, Юрдчу-Гирдесар, Арафса, Кемарли, Хал-хал, Тюркеш), возникших в связи с названием племени Кенгерли, входящего на территорию Нахчыванской Автономной Республики выполненный.


***Ключевые слова:*** *Нахчыван, этнотопоним, ойконим, топоним, Карабаглар, Караханбейли, Галасар, Юрдчу-Гирдесар, Арафса, Кемарлы, Хал-хал, Тюркеш*

---

***Məqaləni çapa təqdim etdi: :*** *filologiya elmlər doktoru, professor Sədaqət Qurbanəli qızı Həsənova*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 17-19
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 17-19
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 17-19

**MİRYAQUB SEYİDOV**
*miryaqub.seyidov92@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.014**

# SİHAHÜL-FÜRS LÜĞƏTİNDƏ DİALEKT SÖZLƏR

*Digər xalqlarla dostluq əlaqələri Azərbaycan xalqı üçün tarix boyu əsas prioritet olub. Xüsusilə, tarix boyu qonşu xalqlarla çox yaxın və səmimi münasibətlərimiz mövcud olub. Məhəmməd ibn Hinduşah Naxçıvani öz dövrünün müxtəlif xalqlarının dilləri, adət-ənənələri, dinləri və mədəniyyətləri haqqında ensiklopedik biliyə malik idi. Azərbaycan xalqının görkəmli nümayəndəsi olan M.Naxçıvani özünün "Sihahül-fürs" lüğətində başqa xalqlara məxsus bəzi dialekt sözlər haqqında da məlumat vermişdir. O dövrdə yaşamış müxtəlif xalqların mədəniyyətlərini daha dərindən başa düşmək üçün bu leksemləri ehtiva edən sözləri araşdırmaq və öyrənmək xüsusi əhəmiyyət kəsb edir. Lüğətdə Türk şəhərlərinin bir çoxunda məskunlaşan tarixi xalqların dialektləri haqqında məlumat verilir. "Sihahül-fürs" lüğətini həm şərqşünaslıq, həm də Türk dünyası üçün dəyərli mənbə hesab etmək olar.*

***Açar sözlər:*** *Sihahül-fürs, dialekt sözlər, poeziya, lüğət, Türk xalqları*

Görkəmli Azərbaycan alimi Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Sihahül-fürs" lüğəti 2300 sözdən ibarətdir. Lüğətdə türk, fars, ərəb, yunan, hind, pəhləvi və s. dillərə məxsus leksemlər mövcuddur. M.Naxçıvani "Sihahül-fürs" lüğətində qədimdə fars dilindən istifadə edən müxtəlif xalqların dillərində mövcud olan dialekt sözlər barədə də məlumat vermişdir. Lüğət müəllifi fars mənşəli sözlərin izahı zamanı fərqli xalqlara məxsus dialekt sözlərdən məharətlə istifadə etmişdir. Lüğətdə işlənən dialekt sözlərin məxsus olduğu bölgələrdən bəzilərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

**Xorasan dialekti:**

İslam dininin yayılmasından sonra, İran və müsəlman xalqları arasında ticari münasibətlərin inkişafı səbəbindən, fars dilinin önəmi artdı. İran daxilində Xorasan və Rey bölgələrində fars dilinin yayılması səbəbindən, orada yaşayan digər yerli xalqların dilləri sıradan çıxmağa başladı. Xorasanda və onun hüdudlarından kənarda qurulan Türk dövlətlərində fars dili saray və inzibati dil kimi məşhurlaşdı (1, s.188).

"Sihahül-fürs" lüğətində bəhs edilən dialektlərdən biri də Xorasan bölgəsinə məxsusdur. M.Naxçıvani fars mənşəli "خزند" (xəzənd) lekseminin izahı zamanı Xorasan bölgəsinə məxsus olan "اشنان" (əşnan) leksemindən istifadə etmişdir. Lüğətdə yazılmışdır:

خزند: گیاهی باشد که به اشنان ماند در خراسان آن را شخار گویند و قلیا از آن سازند و گازران و رنگریزان بکار دارند.

**Transkripsiya: "Xəzənd"** – "Giyahi başəd ke be "əşnan" manəd dər Xorasan an ra "şəxar" quyənd və "qəlya" əz an sazənd və qazeran və rəngrizaz bekar darənd".

**Tərcümə "Xəzənd"** – "Xorasan da "Əşnan"a bənzəyən bitkidir. Ona "Şəxar" da deyirlər. Ondan "Qəlya" hazırlayırlar. Təmizlikçilər və rəngkarlar ondan istifadə edirlər" (2, s.77).

**Buxara dialekti:**

Samanilər dövləti yarandıqdan sonra Buxarada ərəb dili ilə yanaşı tədricən fars dili də yayılmağa başlandı. Özbəkistanda fars dilinin yayılması nəticəsində, özbək xalqı da fars dili və poeziyasının inkişafına öz töhfələrini verməyə başladı. Buxarada poeziya dili kimi fars dilindən istifadə etsələr də, əhali öz ana dilində danışırdı (3, s.59). Sihahül-fürs lüğətində bəhs olunan "Buxara dialekti" isə, Özbəkistanın Buxara şəhərində yaşayan xalqa məxsus dialektin adı mənasındadır.

کرک: به زبان بخارا «آسمانه» گویند.

**Transkripsiya: "Kerk"** – "Be zəbane Buxara "asemane" quyənd".

**Tərcümə: “Kerk”** – “Buxara dilində “asemane” deməkdir” (2, s.185).

**Bəlx dialekti:**

Mövlana Cəlaləddin Məhəmməd Ruminin də vətəni olan bu diyarın görkəmli şəxsiyyətləri fars dili və poeziyasının inkişafında önəmli xidmətlər göstərib. Qəznəvilər dövründən başlayaraq əsrlər boyunca Türk dövlətlərinin idarə etdiyi Bəlx şəhəri fars dilinin əsas mərkəzlərindən birinə çevrildi (4, s.14). Lüğətdə qeyd olunan “Bəlx dialekti” Əfqanıstanın Bəlx şəhərində yaşayan xalqa məxsus olan dialektin adıdır.

فیال: به لغت اهل بلخ «آغاز» باشد، یعنی زمینی که اول بکارند.

**Transkripsiya: “Feyal”** – “Be loğəte əhle Bəlx “ağaz” başəd, yəni zəmini ke əvvəl bekarənd”.

**Tərcümə: “Feyal”** – “Bəlx əhalisinin dilində “ağaz”, yəni “ilk əkilən yer” deməkdir” (2, s.209).

**Mərv dialekti:**

Hal-hazırda Türkmənistanda yerləşən Mərv şəhəri tarix boyunca Türk xalqlarının ən mühüm şəhərlərindən biri olmuşdur. 651-ci ildə Orta Asiya coğrafiyasının ən mühüm strateji mərkəzlərindən biri hesab edilən Mərv şəhərinin tutulmasından sonra ərəb işğalları genişləndi (5, s.31). Səlcuq Türk imperiyasının paytaxtlarından biri olan Mərv öz dövrünün ən inkişaf etmiş şəhərlərindən birinə çevrildi. Tarix boyunca Türk xalqlarının önəmli mədəniyyət mərkəzlərindən biri olan Mərv şəhərinin dəyərli ziyalıları digər xalqların da mədəni inkişafına köməklik göstərmişdir. X əsrdə Mərv şəhərində yaşamış Türk şairi Məsudi Mərvazinin Türk xalqlarının qəhrəmanlıq dastanları əsasında yazdığı “Şahnamə” fars şairi Əbülqasim Firdovsi üçün ilham qaynağı olmuşdur (5, s.311). Lüğətdə qeyd olunan “Mərv dialekti” Türkmənistanın Mərv şəhərində yaşayan xalqa məxsus olan dialektin adıdır.

ریکاسه و یا ریکاشه: به زبان مرو، خارپشت باشد.

**Transkripsiya: “Rikase və rikaşe”** – “be zəbane Mərv “xarpoşt” başəd”.

**Tərcümə: “Rikase və ya rikaşe”** – “Mərv dilində “xarpoşt” deməkdir” (2, s.278).

**Fərqanə dialekti:**

M.Naxçıvaninin bəhs etdiyi leksemlərdən biri də, qədim Türk məmləkəti olan Fərqanə xalqına aiddir. Lüğətdə qeyd olunan “Fərqanə dialekti” Özbəkistanın Fərqanə şəhərində yaşayan xalqa məxsus olan dialektin adıdır. Lüğətdə bu bölgəyə aid leksem barədə yazılıb:

فغ: به زبان فرغانه صنم و بت را گویند.

**Transkripsiya: “Feğ”** – “Be zəbane Fərğane sənəm və bot ra quyənd”.

**Tərcümə: “Feğ”** – “Fərqanə dilində sənəm və bütə deyilir” (2, s.164).

Fars dilinin poeziya dili kimi inkişaf və tərəqqisi nəticəsində danışıldığı coğrafiya da sürətlə genişləndi. Sihahül-fürs lüğətində qeyd olunan sözlər sırasında Xarəzm, Mavəraünnəhr, İsfəhan və İraqda istifadə olunan bir leksem haqqında məlumat mövcuddur. Lüğətdə həmin leksem barəsində yazılıb:

استوار: امین و معتمد بود. در ولایت خوارزم و ماوراءالنهر و اصفهان و عراق عادت چنان باشد که بر شخصی که اعتماد مشهور باشد، او را استوار گویند.

**Transkripsiya: “Ostovar”** – **“**Əmin və motəmed bud. Dər velayəte Xarəzm və Mavəraənnəhr və Esfəhan və Eraq adəte çenan başəd ke bər şəxsi ke etemade məşhur başəd, u ra ostovar quyənd”.

**Tərcümə: “Ostovar”** – “Əmin və etimadlı demək idi. Xarəzm, Mavəraünnəhr, İsfahan və İraqda belə bir adət mövcuddur ki, etimadı ilə məşhur olan hər bir şəxsə “ostovar” deyirlər” (2, s.98).

## ƏDƏBİYYAT


1. محمدامین ناصح، شواهد 60 واژهٔ گویشی خراسان بزرگ در پنج متن کهن فارسی، دانشگاه شیراز، مجله زبانشناسی و گویشهای ایرانی، شماره ۲، پاییز و زمستان، ۱۴۰۱
2. محمد ابن هندوشاه نخجوانی صحاح الفرس ( به اهتمام عبد العلی طاعتی) ، تهران، انتشارات بنگاه ترجمه و نشر کتاب، ۱۹۷۶
3. Richard N.F., (2012) Bukhara: The Medieval Achievement. Oklahama: University of Oklahama Press Norman
4. محمدآصف فکرت، لهجه بلخ و دریافت بهتر سخن مولوی، مجله آیینه پژوهش، موسسه انتشارات عرفان ۱۳۷۷ شماره ۵۴
5. Muxtarova Ə. Türk xalqlarının tarixi (Qədim dövr və orta əsrlər), Bakı: 2013, “Adiloğlu” nəşriyyatı

**SUMMARY**

**Miryagub Seyidov**

**DİALECT WORDS İN SİHAHUL-FURS DİCTİONARY**

Amicable ties with other nations have been a top priority for the Azerbaijani people throughout history. Especially, throughout history, we have had very close and sincere relations with neighboring nations. Muhammad Nakhchivani had an encyclopedic knowledge of the languages, customs, religions, and cultures of the various peoples of his era. Muhammad ibn Hindushah Nakhchivani who was a prominent representative of the Azerbaijani people, has provided information about some dialect words belonging to other nations in his “Sihahul-furs” dictionary. For a deeper understanding of the cultures of the various peoples that lived throughout that time, it is especially crucial to examine the words that contain these lexemes. The dictionary gives information pertaining to the dialects of the historical peoples which inhabited many of the Turkish cities. The Sihahul-furs dictionary can be considered a valuable source for both oriental studies and the Turkic world.

***Key words:*** *Sihahul-Furs, dialect words, poetry, vocabulary, Turkic peoples*

**РЕЗЮМЕ**

**Мирягуб Сейидов**

**ДИАЛЕКТНЫЕ СЛОВА В СЛОВАРЕ СИАХУЛЬ-ФУРС**

На протяжении всей истории Азербайджанский народ придавал большое значение дружественным отношениям с другими народами. Особенно тесные отношения у нас были с соседними странами. Мухаммад ибн Хиндушах Нахчивани обладал энциклопедическими сведениями о языке, религии, традициях, культуре и других областях разных народов. Видный представитель Азербайджанского народа Хиндушах Нахчивани в своем словаре “Сихахул-фурс” привел информацию о некоторых диалектных словах, принадлежащих другим народам. Изучение слов этих лексем особенно важно для лучшего изучения культуры разных народов, живших в тот период. Словарь дает информацию о диалектах исторических народов, населявших многие турецкие города. Словарь Сихахул-фурс можно считать ценным источником как для востоковедения, так и для тюркского мира.

***Ключевые слова:*** *Сихахул-фурс, диалектные слова, поэзия, словарь, Тюркские народы*

---

***Məqaləni çapa təqdim etdi:*** *filologiya elmlər doktoru, professor Sədaqət Qurbanəli qızı Həsənova*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 20-23
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 20-23
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 20-23

**ƏLİ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.005**

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FRAZEOLOGİZMLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycan və ingilis dillərinin frazeologiyasından danışılır. Bu məqsədlə hər iki dildəki cümlə xarakterli frazeoloji vahidlər ön plana çəkilir. Həmin dil faktlarının sintaktik mövqeyinə münasibət bildirilir. Azərbaycan və ingilis dillərində cümlə şəklində olan frazemlərin araşdırılması göstərir ki, onların içərisində daha çox adi intonasiya ilə deyilən fikirlər əsas yer tutur. Yəni frazeoloji vahidlər içərisində cümlənin məqsəd və intonasiyaya görə növlərindən daha çox nəqli cümlələrə rast gəlirik.*

*Tədqiqat nəticəsində məlum olur ki, ingilis və Azərbaycan dillərində həm qarşılığı olan, həm də məna fərqinə görə seçilən frazeoloji cümlələr vardır. Məqalədə irəli sürülən elmi-nəzəri fikirlər hər iki dildən alınmış faktlarla əsaslandırılır.*

***Açar sözlər:*** *söz, dil, cümlə, birləşmə, frazeoloji vahid*

Çağdaş dövrümüzdə aparılan araşdırmalar frazeologiya elmi ilə bağlı bir sıra problemlərin həllini tapmaqda dəyərli qaynaqlardan biri kimi diqqəti çəkir. “Müasir frazeologiyanın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, məhdudiyyət prinsiplərinin, qeyri-frazeoloji tipə aid olan sabit söz birləşmələrində frazeoloji söz yığımı prinsip məhdudiyyətlərinin dəqiqləşdirilməsi frazeologiyanın ümumi nəzəriyyəsinin inkişafı nəticəsində mümkün olmuşdur” (1, s.3). Dilçilik elminin fonetika, leksikologiya, söz yaradıcılığı və qrammatika bölmələri ilə müqayisədə frazeologiya yeni sahə sayılır. Ona görə də bu elm sahəsi ilə bağlı çoxsaylı mübahisəli fikirlərlə qarşılaşırıq. Məlumdur ki, son zamanlara qədər frazeologiya müstəqil dilçilik sahəsi kimi dəyərləndirilməmiş və o, leksikologiyanın tərkib hissəsi hesab edilmişdir. Halbuki, bu elmin özünəxas tədqiqat obyekti mövcuddur. Buna görə də artıq o, sərbəst bir elm sahəsi kimi fəaliyyət göstərir. Maraqlıdır ki, frazeoloji dil vahidləri həmişə geniş üslub imkanlarına malik olmuş və sadədən mürəkkəbə, sözdən cümləyə qədər olan dil vahidlərini əhatə etmişdir.

Frazeoloji birləşmələr dünya dillərində diqqəti cəlb edən vahidlərdəndir. “Hər hansı milli dilin frazeologiyasının dərindən öyrənilməsi həmin dilin tam mənimsənilməsində əsas halqadır və eləcə də dilin daşıyıcılarının zəngin, rəngarəng və bir qədər də sirli aləmlərinə açılan pəncərədir” (3, s.25). Bu mənada, Azərbaycan və ingilis dilləri zəngin materiallara malikdir. Həmin material əsasında konkret qrammatik-leksik sahələrin, o cümlədən də frazeologiyanın öyrənilməsi üçün geniş imkanlar vardır. Bu mənada, cümlə quruluşlu frazeoloji vahidlərin öyrənilməsi aktual məsələlərdən biri kimi qarşıda durur.

İngilis və Azərbaycan dillərində söz və birləşmə kimi özünü göstərən frazeoloji birləşmələrdən başqa, cümlə şəklində olan frazemlər də vardır ki, onlar maraqlı linqvistik xüsusiyyətlərə malikdir. Çoxobyektli elm sahəsi olan frazeologiyada cümlə kimi özünü göstərən frazeoloji vahidlər qrammatika elminin sintaksis bölməsi ilə bağlıdır və fikrin ifadəsində obrazlılığı təmin edən orijinal dil faktlarıdır. Azərbaycan və ingilis dillərində cümlə quruluşlu frazeologizmlərin bir hissəsini atalar sözləri təşkil edir. Belə atalar sözləri ilə həm xalq danışıq dilində, həm də bədii əsərlərin məzmununda qarşılaşmaq olar.

Sintaktik səviyyəli frazeologizmlərin adi qrammatik cümlələrlə oxşar və fərqli cəhətləri mövcuddur. Sintaksis sahəsinə aid olan cümlələr kimi frazeologiyanın tədqiqat obyektinə aid olan cümlələr də bitmiş fikir ifadə edərək müəyyən bir intonasiyaya malik olur və onların hər ikisinin materialı eynidir - söz və birləşmələrdir. Lakin onlar arasında ciddi fərq cümlə quruluşlu frazeologizmlərin xüsusi obrazlılıq ifadə etməsindədir. Bundan başqa, “Cümlə tipli frazeoloji vahidlər həm bütövlükdə, həm də onun ayrı-ayrı komponentləri paradiqmatik planda sərbəst predikativ vahidlərdən və onun komponentlərindən fərqlənirlər.

Sərbəst predikativ vahidlərdə hər bir element özünəməxsus leksik məna və qrammatik formaya malikdir, frazeoloji vahiddə isə bunları parçalamaq mümkün deyil, onları tamlıqda götürmək lazım gəlir”

(2, 4). Məsələn, Azərbaycan dilindəki "Bir dəri, bir sümüyə dönüb", dünyasını dəyişdi (vəfat etdi) və ya ingilis dilindəki "A skin, turned into a bon", "Passed away" sintaktik frazeologiya örnəkləri frazeoloji vahidin ən azı iki sözdən ibarət olduğunu və müstəqil fikir ifadə etdiyini göstərir. Əslində, frazeoloji vahidlərin mənasını müəyyən etmək olduqca çətindir, çünki onlar, bir çox əlavə mənalarla bağlıdır.

Cümlə şəklində olub, bitkin fikir bildirən frazeoloji vahidlərin çoxu deyimlər və atalar sözləri səviyyəsində olan mənaları ifadə edir. İki dilin belə vahidlərini hər zaman olduğu kimi tərcümə etmək mümkün olmasa da, mənanı saxlamaqla bu prosesi həyata keçirmək olur. Məsələn:

Two rams' heads do not boil in one pot - İki qoçun başı bir qazanda qaynamaz.

Where there's smoke, there's fire -Tüstü olmayan yerdən od çıxmaz.

Two heads are better than one - Ağıl ağıldan ötkün olar.

There is no place like home - Vətənə gəldim, imana gəldim.

Honesty is the best policy - Dürüstlük ən yaxşı siyasətdir.

İngilis və Azərbaycan dilinin frazeologiyasının araşdırılması bir-birindən fərqli xalqların bu ifadələrin işlənməsinə münasibətini, onların fərdi səviyyəsini müəyyən etmək baxımından maraqlı məsələlərdəndir. Belə ki, frazeologiyada metaforik mənalar üstünlük təşkil etsə də, onların çoxu xalq etimologiyası haqqında müəyyən qədər təsəvvür yarada bilir. Hər bir xalqın psixologiyası, həyat tərzi və adət-ənənələri onun dilindəki frazeologiyada əks oluna bilir. Bu mənada, frazeoloji vahidlərin tarixi kökləri vardır. Onlardakı məna qatları maraqlı üslub çalarları əmələ gətirir. Frazeologiyanı bir termin kimi qəbul və təklif edən Çarlz Balli də üslubiyyat və frazeologiyanın yaxın olduğunu göstərmişdir. Maraqlıdır ki, üslubiyyata yanaşma da ilkin olaraq ona aiddir və o, bunu "dil intizamı" kimi dəyərləndirir (4).

İstər birləşmə, istərsə də cümlə faktlarının xüsusi tipi olan frazeoloji vahidlər işarə və ifadə etmə xüsusiyyətlərinə malik olaraq hansı dil materialından təşkil edilməsinə görə seçilir. Belə ki, onlar leksik vahidlərdən ibarət olaraq birləşmə və ya hər hansı bir fikri ifadə edərək cümlə kimi işlənə bilir. Onların tərkib hissələrinə diqqət etdikdə məlum olur ki, leksik-qrammatik vahidlərdən ən fəalı isim və feillərdir. Nitq hissələri arasındakı qrammatik vasitə və əlaqələr frazeoloji vahidlərin funksional mövqeyinə təsir edərək onların birləşmə və ya cümlə kimi işlənmələrini əsaslandırır.

Araşdırma göstərir ki, ingilis və Azərbaycan dillərindəki cümlə xarakterli frazeoloji vahidlər daha çox nəqli xüsusiyyətə malikdir. Belə ki, cümlənin məqsəd və intonasiyaya görə növləri baxımından ən çox nəqli cümlə tipləri ilə qarşılaşırıq. Məsələn:

Grass grows on its own roots - Ot kökü üstündə bitər.

The fruit does not fall far from the tree - Meyvə ağacından uzaq düşməz (və ya The apple doesn't fall far from the tree - Alma ağacından uzaq düşməz).

He left the World - Dünyadan əlini üzdü.

Things have come to a halt - İşlər düyünə düşüb.

It was as if he was looking into the eyes of death - Sanki ölümün gözünün içinə baxırdı.

The light tip is not visible - İşıq ucu görünmür.

His name is in the black book - Adı qara dəftərə düşüb və s.

Yuxarıdakı örnəklər ayrı-ayrı xalqların düşüncə mədəniyyətində ümumi cəhətlərin olduğunu əks etdirən nümunələrdir.

Müxtəlif dillərin frazeologiyası təsdiq edir ki, dil və məna intizamı sabit birləşmələrdə də özünü göstərir. Bu, xüsusilə də bütöv fikir ifadə edən frazeoloji vahidlərə aiddir. Məsələn, ingilis dilində "Baxılan qazan heç vaxt qaynamaz" mənasında olan "A watched pot never boils" frazemi maraqlı bir deyim kimi diqqəti çəkir. O, Azərbaycan dilində həmin fikrin qarşılığı olan "Qapağı tez-tez açılan çaydan qaynamaz" cümləsinin anlamındadır.

İngilis dilində cümlə tipli elə deyimlər vardır ki, onlar Azərbaycan dilində də eyni mənada işlənir. Bu baxımdan, aşağıdakı cümlə səciyyəvidir: "Birds of a feather flock together". Bu sintaktik-frazeoloji vahid Azərbaycan dilində "Taylı tayını tapar" cümləsi ilə bir məna səviyyəsinə malikdir və ya "Beauty is in the eye of the beholder" cümləsi eyni ilə Azərbaycan dilinə çevrilə bilir: "Gözəllik baxanın gözündədir". Bizim dilimizdə "Gözlərin gözəldir" cümləsi işlənir və buradakı "gözəl" sözü gözlərə aid deyil, görünən, baxılan obyektə münasibəti ifadə edir. Hər hansı insan, geyim və ya hadisə haqqında müsbət fikir söyləyənə cavab olaraq "Gözlərin gözəldir", yəni "Gözəl gözlə (baxışla, münasibətlə) baxırsan" cümləsi işlənir. Bu cümlənin

özü məcazi anlamdadır. Lakin onun həqiqi mənada işləndiyi məqamlar da vardır.

İngilis dilində cümlə şəklində olan bir sıra frazeologiya faktları vardır ki, Azərbaycan dilində eyni ilə ifadə edilməsə də, həmin mənanı özündə saxlaya bilir. Məsələn, "Toyuqlarınızı yumurtadan çıxmamış saymayın" mənasını verən "Don't count your chickens before they hatch" cümləsi Azərbaycan dilindəki "Cücəni payızda sayarlar" atalar sözlərinə uyğundur. Bu baxımdan, aşağıdakı cümlə də maraqlıdır: "Don't put off until tomorrow what you can do today". Bu cümlə Azərbaycan dilindəki "Bu günün işini sabaha qoyma" atalar sözləri ilə bir məna daşıyır.

Fikrimizcə, cümlə quruluşlu frazeologizmlərin "sintaktik frazeologiya" və ya "frazeoloji sintaksis" termini ilə adlandırılması məqsədəuyğundur. Ona görə ki, belə dil vahidlərində həm sintaksisin, həm də frazeologiyanın əlamətləri vardır.

Frazeologiyanı ikinci dilin mənimsənilməsində bir sıra çaşqınlıqlara səbəb olan sahələrdən biri kimi dəyərləndirsələr də, dillərin öyrənilməsində dilçilik elminin bu bölməsinin rolu böyükdür. Yəqin ki, həmin fikri əsaslandıran belə dil-nitq faktlarının sabitlik xüsusiyyətidir. Ona görə də ayrı-ayrı dillərin frazemlərini həmişə eyni mənada başa düşmək olmur.

Hazırda, frazeoloji vahidlərin semantikası, strukturu və mürəkkəbliyi məsələsinə müxtəlif yanaşmaları ifadə edən tədqiqlər genişlənmişdir. Həmin araşdırmalarda frazeoloji vahidlərin tam və ya qismən məcazi mənalı sözlərin birləşməsi nəticəsində yaranması haqqındakı fikirlər geniş yayılmışdır. Bir çox mənaların dərk edilməsində frazeologiyanın əhəmiyyəti çoxdur.

Tədqiqatlar göstərir ki, dillərdəki yarım deyimlər formasında olan və ya terminoloji frazeoloji vahidlər doğrudan da, mürəkkəbdir və onlar müxtəlif istiqamətlərdə öyrənilməyə layiqdir.

## ƏDƏBİYYAT

1. Abdullayeva R. Dildə frazeoloji vahidlərin klassifikasiyası. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi), BSU, 2018, №5, s.3-6
2. Abdullayeva R. Frazeoloji cümlələrin növləri. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi), BSU, 2019, №1, s.3-8
3. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası, I cild. Bakı: 2009, "Nurlan", s.216
4. Curea A. Stylistique, science de l'expression, linguistique de la parole. Notes sur la nature du fait linguistique selon Charles Bally. Stylistique, science de l'expression, linguistique de la parole. Notes sur la nature du fait linguistique selon Charles Bally. Synergies Espagne n°6 - 2013 p. 41-54

## SUMMARY

**Ali Gasimov**

## SYNTACTIC CHARACTERISTICS OF PHRASEOLOGISM IN AZERBAIJAN AND ENGLISH LANGUAGES

The article talks about the phraseology of the Azerbaijani and English languages. For this purpose, sentence-type phraseological units in both languages are brought to the fore. The relation to the syntactic position of those language facts is reported. The analysis of phrases in the form of sentences in the Azerbaijani and English languages shows that ideas spoken with more common intonation occupy the main place in them. That is, within phraseological units, we find more narrative sentences than types of sentences according to purpose and intonation.

As a result of the research, it is known that there are phraseological sentences in the English and Azerbaijani languages that are chosen for both their equivalent and their difference in meaning. The scientific-theoretical ideas put forward in the article are based on the facts obtained from both languages.

***Key words**: word, language, sentence, combination, phraseological unit*

## РЕЗЮМЕ

**Али Гасимов**

## НА АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ СИНТАКСИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ФРАЗЕОЛОГИЗМОВ

В статье говорится о фразеологии азербайджанского и английского языков. С этой целью на первый план выдвигаются фразеологизмы типа предложения в обоих языках. Сообщается связь с синтаксическим положением этих языковых фактов. Анализ фраз в форме предложений в азербайджанском и английском языках показывает, что главное место в них занимают мысли, произнесенные с более общей интонацией. То есть внутри фразеологизмов мы встречаем больше повествовательных предложений, чем типов предложений по цели и интонации. В результате исследования известно, что в английском и азербайджанском языках существуют фразеологизмы, имеющие как противоположность, так и разницу по смыслу. Научно-теоретические идеи, изложенные в статье, основаны на фактах, полученных из обоих языков.

***Ключевые слова***: *слово, язык, предложение, сочетание, фразеологизм*

---

***Məqaləni çapa təqdim etdi:*** *Filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qüdrət oğlu Qulubəyli*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may  2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 24-28
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 24-28
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 24-28

## PEDAQOGİKA, PSİXOLOGİYA VƏ METODİKA

**SOLMAZ BAYRAMOVA**
**SEVİNC ORUCOVA**
*slmzbrm@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.026**

# ŞAGİRDLƏRİN TƏLİMDƏ GERİDƏ QALMASININ SOSİAL-PSİXOLOJİ SƏBƏBLƏRİ

*Məqalədə gənc nəslin tərbiyəsində, onların şəxsiyyət kimi formalaşmasında təlim fəaliyyətinin rolu və əhəmiyyəti açıqlanır. Təlim prosesinin necə təşkili və qurulmasından asılı olaraq şagirdlərin müvəffəqiyyətlə oxuduqlarından və öyrənməyə qabilliyin müxtəlifliyindən bəhs olunur. Eyni zamanda, şagirdlərin bilikləri və təlim fəaliyyəti tərzlərini nə dərəcədə mənimsəmələri göstərilir. Bununla yanaşı olaraq, bəzi şagirdlərin təlim materialını yaxşı qavramamasından, öyrənməkdə çətinlik çəkmələrindən və nəticədə təlim fəaliyyətində öz yoldaşlarından geri qalmalarından bəhs olunur. Həmçinin şagirdlərin təlim fəaliyyətində sinif yoldaşlarından geridə qalaraq müvəffəqiyyət qazana bilməmələrinin səbəbləri xüsusilə vurğulanır. Bu səbəblər sosial və psixoloji səbəblər olduğu qeyd olunur.*

*Məqalədə təlimdə geridə qalan şagirdlərin düzgün şəkildə inkişaf etdirilməsi yolları və vasitələri açıqlanmışdır. Həmçinin geridə qalan şagirdlərlə dərs aparan müəllimlərin qarşısında duran vəzifələrdən bəhs edilmiş və təlimdə geridə qalan şagirdlərlə səmərəli pedaqoji tədbirlər keçirməyin əhəmiyyəti vurğulanmışdır.*

***Açar sözlər:*** *şagird, müəllim, təlim, təhsil, sosial-psixoloji səbəblər*

Uşaqları sevməklə yetinməməliyik, dövlətimizin və millətimizin gələcəyi baxımından öyrənməyi və hərtərəfli şəkildə inkişaf edən bir şəxsiyyət kimi yetişdirməyi bir vəzifə hesab etməliyik.

Hər bir uşaq başlı-başına bir dünyadır. İlk aylarda və illərdə uşaqlar arasında oxşarlıqlar çox olsa da, zaman keçsə də, uşaq şəxsiyyətindəki fərqliliklər özünü qabarıq göstərməyə başlayır.

Məlumdur ki, gənc nəslin tərbiyəsində, onların bir şəxsiyyət kimi formalaşmasında təlim fəaliyyətinin rolu yüksəkdir. Təlim mürəkkəb bir proses olmaqla yanaşı, məqsədəyönəlmiş bir prosesdir. Bu proses, eyni zamanda ümumi məqsədə - məktəbliləri müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnməyə xidmət edir.

Təlim fəaliyyətinə bəslənən maraqlı və laqeyd münasibət ilk növbədə təlim prosesinin və onun ayrı-ayrı ünsürlərinin hansı şəkildə olmasından, daha dəqiq ifadə etsək, təlim fəaliyyətinin necə təşkili və qurulmasından asılıdır. Bəzən təlim prosesi düzgün təşkil olunsa da, şagirdlərin müxtəlif müvəffəqiyyətlə oxuduqlarının, öyrənmə qabilliyinin müxtəlifliyinin şahidi oluruq. Bu özünü bəzi şagirdlərin bilikləri və təlim fəaliyyəti tərzlərini nə dərəcədə mənimsəmələrində göstərir. Belə ki, şagirdlərin bir qismi təlim materiallarını yaxşı başa düşür, yaxşı yadda saxlayır və gec unudurlar. Həmçinin, onların hafizəsi yaxşı inkişaf edir, hər hansı mövzu ilə bağlı müstəqil fikir yürütməyi bacarır, sərbəst və məntiqi mühakimə ilə öz fikirlərini ifadə edirlər.

Bununla yanaşı olaraq, bəzi şagirdlər təlim materiallarını yaxşı qavramır, yaxşı başa düşmür, öyrənməkdə çətinlik çəkir və eyni zamanda öyrəndiklərini tez yaddan çıxarırlar. Nəticədə isə belə şagirdlər təlim fəaliyyətində öz yoldaşlarından geridə qalır, müvəffəqiyyət qazana bilmirlər. Geridə qalan şagirdlər üzərində iş aparan və xüsusi eksperimental şəraitdə onların təfəkkürünü tədqiq edən psixoloqlar belə bir nəticəyə gəlmişlər ki, bu cür şagirdlər deduktiv əqli nəticə apara bilmir, eyni

zamanda əsas əlamətləri, xüsusilə bir neçə belə əlamət olduqda onları ayırmaq və onların əsasında ümumiləşdirmə aparmaqda çətinlik çəkirlər.

Şagirdlərin təlim fəaliyyətində öz sinif yoldaşlarından geridə qalaraq müvəffəqiyyət qazana bilməmələrinin səbəbləri üzərində araşdırma aparan mütəxəssislər müxtəlif fikirlər irəli sürərək belə qənaətə gəlmişlər ki, bu səbəblərə şagirdlərin məişət şəraitlərinin olmaması, müəllimin şagirdlərlə düzgün olmayan davranış qaydaları və bundan yaranan düzgün olmayan münasibət, həmçinin müəllimin iş üsullarındakı nöqsanlar, irsiyyətdə və fiziki qüsurlardan doğan çatışmamazlıqlar və s. daxil edilir.

Təlim prosesində geridə qalma halları və təlimi yerinə yetirməmək son dərəcə mürəkkəb hadisədir. Sosial səbəblərlə yanaşı, psixoloji səbəbləri öyrənmədən təlimdə geriqalma hallarının mahiyyətinə düzgün nüfuz etmək olmaz.

Şagirdlərin hər biri özünəməxsus idrak imkanlarına, hissi emosional sabitliyə, iradəyə, xarakterə, qabiliyyətlərə malikdir və eyni zamanda onların hər biri fərdi yanaşma tələb edir.

Çox zaman pedaqoji fəaliyyət zamanı müəllimlərin buna imkanı çatmır və ya verdiyi məsləhətlər, apardıqları işlər səmərəsiz qalır. Bildiyimiz kimi məktəbdə təlimin səmərəsiz keyfiyyəti hər bir müəllim qarşısında duran əsas və həlledici vəzifələrdən biridir.

Şagirdlərin müvəffəqiyyətlə oxuması motivlərdən çox asılıdır. Şagirdlərdə motivlərin zəif inkişaf etməsi onların təlimdə geridə qalmalarına səbəb olur.

Məktəblilərdə motivlər müxtəlif şəkildə özünü göstərir. Müşahidələr əsasında müəyyən edilmişdir ki, zəif oxuyan şagirdlərin müəyyən qismini səhv olaraq əqli cəhətdən geridə qalmış hesab edirlər. Belə şagirdlər təlim materiallarını anlamağa, onun haqqında müstəqil düşünməyə cəhd göstərməyərək mexaniki əzbərləməyə meyilli olurlar.

Bununla yanaşı olaraq, geridə qalan şagirdlər təhlil aparmaqda çətinlik çəkir, mücərrədləşdirmə və ümumiləşdirmə səviyyələri problemin məhsuldar və düzgün şəkildə həlli üçün lazım olan səviyyədən çox aşağı olur.

Təlimdə geridə qalan şagirdlərin müəyyən hissəsində düzgün vərdiş və adətlər yaranmadığı müşahidə olunur. Çox vaxt belə şagirdlər haqqında "oxumağı bacarmırlar" fikri formalaşır. Belə şagirdlər dərs öyrənmə tərz və üsullarından düzgün istifadə etmirlər. Çox zaman zəhməti çox olan tərzlərdən istifadə etdikləri üçün səmərəsi də az olur.

Təlimi yerinə yetirməyən, bu gün şagirdlərin sözlü məntiqi, təfəkkürünün inkişafı, əyani əməli təfəkkürdən geridə qaldığından şagirdlər qaydanın izahını və mahiyyətini başa düşmür, yaxud da qayda haqqında formal biliklər məsələnin düzgün həllinə gətirib çıxarmır.

Tədris prosesində nöqsanlardan biri də müxtəlif şəkildə olan çalışmaların hansı qaydada istifadə edərək icra etməsinə aiddir. Bəzən şagirdlər yazı yazarkən, məsələ həll edərkən, şəkil çəkərkən müxtəlif səhvlər edirlər ki, bunları da şagirdlərin diqqətsizliyi ilə izah edirlər.

Dərsdə geri qalmanın səbəblərindən biri də ümumiyyətlə, tədris işini düzgün təşkil etməyi bacarmamaqdan irəli gəlir. Bəzi hallarda şagird tədris rejiminə düzgün riayət etməyərək dərsi fasilə vermədən hazırlamağa başlayır. Dərslə fasiləsiz məşğul olmaq, eyni zamanda arada çox və ya tez-tez fasilə vermə də işin səmərəsinə təsir göstərmiş olur. Geridə qalan şagirdlərin içərisində eləlləri var ki, müstəqil iş icra edərkən uzun vaxt sərf etdiyindən, bir işdən digərinə keçməkdə çətinlik çəkir və ya keçə bilmir. Bu da şagirdlərin əməyə, eyni zamanda təlim əməyinə düzgün olmayan münasibət bəsləmələrindən irəli gələn bir prosesdir. Məhz buna görə də, şagirdləri qarşılaşdıqları çətinliyə qarşı maneələri aradan qaldırmaq uğrunda mübariz tərbiyə etmək lazımdır və zəruridir. Əks halda isə şagirdlər qarşılaşdıqları hər hansı bir çətinliklərdən qorxar və onlarda əməyə düzgün olmayan münasibət formalaşmış olar. Nəticədə isə belə şagirdlərdə əməyə qarşı sevgi hissi olmur, dərslərinə ciddi yanaşmır, verilən ev tapşırıqlarını icra etmədən məktəbə gəlməyi normal hesab edirlər. Belə şagirdlərdə əməksevərlik tərbiyə olunması vacibdir. Bunun üçün onları məktəbin ictimai işlərinə cəlb etmək lazımdır ki, onlarda əməyə qarşı sevgi hissi yaransın.

İdrak proseslərinin düzgün inkişafı şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün olduqca böyük əhəmiyyət kəsb edir. Təlimdə geridə qalan şagirdlərdə təfəkkürün inkişafı fərqli cəhətlərdə özünü göstərir, belə ki, şagirdlərin sözlü məntiqi təfəkkürünün inkişafı əyani əməli təfəkkürünün

inkişafından geri qalır. Ona görə də, belə şagirdlər verilmiş qaydaların izahını başa düşmür, ya da qaydalar haqqında formal biliklərə malik olurlar ki, bu da məsələnin düzgün həllinə gətirib çıxarmır. Dərsdə istifadə olunan əyani material onlardan bəzilərinə nəinki kömək etmir, həmin materialdakı ikinci dərəcəli olan əlamətlər şagirdlərin diqqətlərinin yayınmasına səbəb olur.

Təfəkkür prosesinin qeyd olunan cəhətləri, şagirdlərin digər psixi proseslərinin, xüsusilə hafizənin və diqqətin xüsusiyyətlərinə də özünəməxsus şəkildə təsir edir. Baxmayaraq ki, həmin şagirdlərdə hafizənin və diqqətin xüsusiyyətlərini yerinə yetirən şagirdlərin diqqət və hafizəsinin xüsusiyyətlərindən əsaslı şəkildə fərqlənmir. Ona görə də, çox vaxt geridə qalan şagirdlər ayrı-ayrı elementləri, sözləri və rəqəmləri yaxşı yadda saxladıqları halda, mənalı və məzmunlu materialı yadda saxlayarkən onun əsas əlamətlərini və cəhətlərini buraxır, yada salmaqda çətinlik çəkir, yada sala bilmirlər.

Geridə qalan şagirdlərdə psixi proseslərin qeyd olunan xüsusiyyətləri, eyni zamanda onlarda özünütəşkilin zəifliyi, diqqətlərini ixtiyari olaraq idarə edə bilməmələri ilə əlaqədardır.

Bu cür şagirdlər çox zaman əqli əməkdən qaçmağa cəhd göstərir, onları fikirləşməkdən azad edəcək qeyri-müəyyən yollar axtarmağa çalışırlar.

Belə şagirdlərdə idrakın formalaşdırılması və tərbiyə edilməsi olduqca vacibdir. Çünki idrak maraqlarının şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün böyük əhəmiyyəti vardır. Bu marağa şagirdlərin malik olması onların müvəffəqiyyətlə oxumalarına böyük təkan verir. Bu marağa malik olan şagirdlər üçün təlim prosesi cəlbedici və asan olur.

Belə marağın olmaması şagirdi dərsi oxumaqdan və öyrənməkdən uzaqlaşdırır, dərslərə səthi yanaşır, bu da şagirdin geri qalmasına səbəb vermiş olur. Ümumiyyətlə tədris olunmuş fənlərə maraqlar şagirdləri həmin fənləri daha dərindən öyrənməyə və dərk etməyə yönəldir.

Buna görə də, geridə qalan şagirdlərdə maraqları inkişaf etdirmək vacibdir. Şagirdlərdə maraqların yaranması isə müəllimin dərsi necə tədris etməsindən, pedaqoji ustalığından və məharətindən, dərsin düzgün təşkilindən, lazımi əyani vəsaitlərdən istifadə etməyin, tədrislə bağlı yeni kitabları mütaliə etməyin və s. böyük təsiri, əhəmiyyəti vardır.

Öyrənməyə qabilliyi zəif olan şagirdlər səmərəli pedaqoji tədbirlər görmədikdə sinif yoldaşlarından getdikcə daha da geridə qalmağa başlayırlar. Tədricən belə şagirdlərə sinif yoldaşları tərəfindən müəyyən münasibət yaranır, müəllimin həmin şagirdlər haqqında stereotip fikri formalaşır, ən başlıcası isə belə şagirdlər özləri özlərinə, öz güclərinə, bilik səviyyələrinə, hətta ən asan və gücləri çatan məsələlərin həllinə, imkanlarının olmasına inanmırlar, bir sözlə, özlərini həddindən artıq qeyri-real aşağı qiymətləndirməyə başlayırlar. Psixoloji tədqiqatlar təlimdə geridə qalan şagirdlərin bir sıra tiplərini müəyyənləşdirməyə imkan vermişdir. Belə şagirdlərdən bir qrupu özlərinin öyrənməyə qabilliyinin aşağı səviyyəsi ilə, lakin təlimə qarşı müsbət münasibətləri ilə xarakterizə olunurlar.

İkinci tip geridə qalan şagirdlər fikri fəaliyyətlərinin yüksək keyfiyyətləri ilə, bununla yanaşı təlimə qarşı mənfi münasibətləri və məktəbli mövqelərinin qismən və ya tamamilə itirilmələri ilə fərqlənirlər (1, s.90).

Geridə qalan şagirdlərin müəyyən bir qismi təlim işindəki hər cür çətinlikdən qaçmağa çalışırlar. Belə şagirdlər təlimdə uğur qazanmaq üçün çox vaxt qadağan olunmuş yollardan istifadə etməyə çalışırlar, yoldaşlarından köçürür, onların gizlincə dediklərinə istinad edirlər.

Çox zaman bu cür şagirdlər başqa işlərinə də təlimə yanaşdıqları kimi yanaşırlar. Ətraf gerçəklik haqqında onların təsəvvürləri olduqca məhdud olur, hətta təlim tapşırıqlarının mahiyyətini anlamağa cəhd göstərmirlər. Bir qayda olaraq onlar gələcəkləri barədə heç nə düşünmürlər.

İkinci tipə aid olan, geridə qalan şagirdlər, adətən məktəbdə yaxşı oxumaq istəyi və marağı ilə gəlsələr də, evdə səbirlə oturub dərslərini öyrənməyə alışdırılmamış olurlar. Belə şagirdlərdə yalnız xoşlarına gələn işlə məşğul olmaq adəti özünü göstərir, ona görə də diqqəti cəmləşdirmək, hafizəni gərginləşdirmək və fəal şəkildə fikirləşmək onlarda narazılıq yaradır. Nəticədə isə təlimdə yaranan uğursuzluq mənəvi gərginliyin yaranmasına gətirib çıxarır. Bu da istər-istəməz təlimə qarşı mənfi münasibət yaratdığından onların gələcək planları təlimlə bağlı olmur.

Təlimdə geridə qalan şagirdlərlə işin təşkili günümüzün vacib tələblərindəndir. Geridə qalma, təlimdə müvəffəqiyyətsizliyin səbəblərinin təhlili müəllim üçün, şübhəsiz böyük əhəmiyyətə malikdir. Çünki bu zaman məktəbdə özünə yer edən bu problemin qarşısını almaq və aradan

qaldırmaq imkanı yaranır. Hələ də psixoloji tədqiqatlar bu problemin qarşısını almağın tam səmərəli yollarını aşkara çıxara bilməsələr də, bu sahədə aparılan ayrı-ayrı tədqiqatlara istinad edərək təlimdə geridə qalmanın aradan qaldırılmasına kömək edə biləcək bəzi yolları nəzərdən keçirmək zəruridir.

Təlimdə geridə qalan şagirdlərlə işin sistemli təşkili müəllimdən şagirdin şəxsiyyətinə, mənəvi-psixoloji və ailə vəziyyətinə yaxından bələd olmasını tələb edir. Müəllimin bu istiqamətdə tətbiq etdiyi iş prinsipinin və şagirdlərlə pedaqoji-psixoloji yanaşmanın xüsusiyyətlərinin həlledici rolu böyükdür.

Hər bir müəllim dərs prosesində maraqlı faktları əks etdirən sənədli filmlərə baxış təşkil etməli, təlimdə geridə qalan şagirdləri mütəmadi olaraq sinifdənkənar tədbirlərə cəlb etməli, onlara həmin tədbirlərə məsul vəzifələri həvalə etməlidir. Eyni zamanda onların psixoloji gərginliklərini aradan qaldırmaq üçün maraqlı situasiyaların yaradılması, valideynləri ilə sistemli olaraq maarifləndirici görüşlərin və tədbirlərin təşkil olunması, onların ailə vəziyyətini öyrənib lazımi pedaqoji-psixoloji dəstəyin verilməsi vacibdir.

Təlimdə geridə qalan şagirdlərin asudə vaxtlarının səmərəli təşkili şagirdlərin təlimə marağının təmin olunmasında təlimə geriliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayan amillərdən biridir (2, s.4).

Müasir informasiya-kommunikasiya dövründə şagirdlər asudə vaxtlarını daha çox telefonlarla, kompüterlə keçirməyə, şəbəkə oyunlarından istifadə etməyə üstünlük verdiklərindən onların əksəriyyəti intellektual inkişafdan geri qalmış olurlar. Buna görə də, müəllimlər şagirdləri sistemli mütaliəyə cəlb etməklə onların asudə vaxtlarının səmərəli keçməsinə - həm intellektual inkişafına, həm də təlimə maraqlarının təmin olunmasına imkan yaratmış olarlar.

Mütaliənin səmərəliliyini, onun təlimin keyfiyyətinə təsirini daha da artırmaq üçün mükəmməl əsərlərin oxunmasına üstünlük verilməli, əsərlər təhlil olunmalıdır. Təhlil zamanı şagirdlərin oxuduqları əsərləri sosial və mənəvi istiqamətdə araşdırmalarına, əsərlərin sosial-psixoloji mahiyyətini meydana qoymalarına imkan yaradılmalıdır.

Şagirdlər daha çox oxuduqca, mütaliə etdikcə intellekt səviyyələri yüksəlir, hadisələrə qarşı münasibəti formalaşır, münasib olmayan, zərərli adətlərə yönəlmir, dərslərinə diqqət ayırmağa daha çox vaxt əldə edirlər. Nəticə olaraq, təlimdə geri qalan şagirdlər fikir mübadiləsi aparmaq üçün müzakirələrə ciddi şəkildə hazırlaşır və fikirlərini maraqlı ifadə etməyi bacarırlar.

Bu kimi tədbirlər, ekskursiyalar, "dəyirmi masa"lar, ədəbi-bədii kompozisiyalar, bütün sinfi əhatə etməklə, nəticə etibarilə şagirdlərin təlim qabiliyyətinin aradan qaldırılmasına yol açır. Qeyd olunanları məharətlə həyata keçirməyə isə müəllimin yaradıcı fəaliyyəti, yenilikləri tətbiqetmə ustalığı, qabaqcıl təcrübələrdən bəhrələnmə bacarığı, innovativliyi, yenilikləri öyrənməyə marağı imkan verir. Nəticə olaraq, təlimin keyfiyyəti yüksəlir.

Təlimin keyfiyyətinin yüksəldilməsi, müasirləşməsi fonunda təlimdə geri qalan şagirdlər də verilən tapşırıqları mənimsəyir, gerilik müəyyən mənada aradan qalxır, sinif ən yaxşı şagirdlərin təhsil aldığı nümunəvi və qabaqcıl sinifə çevrilmiş olur.

Müşahidələr və təcrübələr göstərir ki, neçə-neçə şagirdlər tətbiq edilən yanaşmalar sayəsində təlim geriliyini aradan qaldırmış və ən yaxşı şagirdlər sırasına qoşulmuşlar. Məhz buna görə də səbirlə, təmkinlə pedaqoji yanaşmaları zamanında elmi aspektdə tətbiq etməklə, istənilən nəticə əldə etmək və uğur qazanmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991. (90)
2. Cəfərov O. Təlimdə geri qalan şagirdlərlə işin təşkili. "Azərbaycan müəllimi" qəzeti. 14 iyul 2018
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: 2008
4. Əmrahlı L.S., Rzayeva M.T. Uşaq psixologiyası. Bakı: 2015

## SUMMARY

**Solmaz Bayramova, Sevindj Orujova**

## SOCIO-PSYCHOLOGICAL REASONS FORACADEMIC FAILURE OF STUDENTS

This article describes the role and significance of educational activities in the development and formation of the personality of the younger generation. The success of learning and the diversity of learning abilities depend on how the educational process is organized and structured. It shows the degree to which students have mastered knowledge and methods of learning activities. At the same time, it is noted that some students do not understand the educational material well, experience difficulties in learning and, as a result, lag behind their classmates in educational activities. The reasons why students lag behind their classmates and do not achieve success in educational activities are also especially emphasized. Both social and psychological reasons are called such reasons.

This work identifies ways and means of providing assistance to students who are lagging behind in their studies for their adequate development. It also discusses the challenges faced by teachers teaching struggling students and emphasizes the importance of effective educational interventions for struggling students.


***Key words:*** *student, teacher, training, education, social and psychological reasons*


## РЕЗЮМЕ

**Солмаз Байрамова, Севииндж Оруджова**

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРИЧИНЫ АКАДЕМИЧЕСКОЙ НЕУСПЕВАЕМОСТИ УЧАЩИХСЯ

В данной статье описывается роль и значение образовательной деятельности в развитии и формировании личности подрастающего поколения. От того, как организован и структурирован образовательный процесс, зависит успешность обучения и разнообразие учебных способностей. Он показывает степень овладения учащимися знаниями и способами учебной деятельности. В то же время отмечается, что некоторые ученики плохо понимают учебный материал, испытывают трудности в обучении и, как следствие, отстают от своих одноклассников в учебной деятельности. Также особо подчеркнуты причины, по которым ученики отстают от своих одноклассников и не добиваются успехов в учебной деятельности. В качестве таких причин называются как социальные так и психологические причины.

В данной работе определены пути и способы оказания помощи отстающим в учебе ученикам для их адекватного развития. Также обсуждаются проблемы, с которыми сталкиваются учителя, обучающие отстающих учеников, и подчеркивается важность эффективных образовательных мероприятий для отстающих учеников.


***Ключевые слова:*** *студент, педагог, обучение, воспитание, социально-психологические причины*

***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127), 29-35
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127), 29-35
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127), 29-35

**СЕВИНДЖ САМАДОВА**
*baku_2007@mail.ru*
*Образовательный Институт Азербайджанской Республики*

**DOI: 10.30546/155244.2024.2.127.024**

# ОБЩИЕ ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ НЕЙРОБИОЛОГИЧЕСКИХ МЕТОДОВ

*Основная цель статьи-исследование общепсихологических характеристик нейробиологических методов. Методы, используемые для младших школьников, должны соответствовать тенденциям времени. Одной из проблем при выборе методов обучения, применяемых в начальных классах, является вопрос о том, как пробудить в учащемся постоянный интерес к учебе, знаниям и исследованиям. Другими словами, как усилить познавательную деятельность этого ученика. Необходимо понимать, что невозможно донести до детей все важные достижения науки и научить всему сразу. В начальных классах учителю следует выбирать эффективные методы обучения, чтобы учащиеся могли приобретать эти знания самостоятельно, а также развивать свои навыки, используя различные средства обучения. Кроме того, не следует игнорировать вопрос формирования интеллектуальных, коммуникативных и творческих навыков и научного мировоззрения у студентов, соответствующих реалиям жизни.*

***Ключевые слова:*** *Педагогика, методы преподавания, различные методы обучения, учебные сообщества, достижение учащегося*

Быстрое внедрение технологий в образовательные системы привело к увеличению количества исследований в направлении улучшения образовательной системы, методологий и прочего. Но мы должны отметить,что полезно создавать методы обучения, включающие менеджмент, биология, нейробиология, психология, лидерство, личностное развитие и т. д. (Кантор, Ошер, Берг, Стейер и Гюль, 2018; Ошер, Кантор, Берг, Стейер и Роуз, 2018). Они направлены на создание методологий, включающих культуру, окружающую среду, социальную среду, семейные структуры, психологическое состояние учащихсяя, учителей и различные методы обучения.

На протяжении более двух десятилетий исследователи, преподаватели, политики и лидеры бизнеса подчеркивали необходимость поддержки навыков “двадцать первого века” в контексте быстро расширяющихся знаний, быстро меняющихся технологий и бизнес-процессов. Навыки “XXI века” означают навыки критического мышления и решения проблем, способность приобретать знания, анализировать, синтезировать и применять их в новых, различных ситуациях (практический интеллект); навыки, которые позволяют строить отношения в сотрудничестве и межкультурном контексте; управлять собственным бизнесом и сложными проектами; навыки самоуправления, самоконтроля; предполагаются навыки достижения и использования необходимых ресурсов. Ученые, изучающие концепции обучения, подчеркивали, что развитие перечисленных выше навыков достигается в результате обучения с использованием различных методов обучения в образовательных учреждениях.

Изменения в окружающей среде, создающие персонализированную среду, предлагающую возможности для более тесных связей между взрослыми и учащимися, могут создать более продуктивный контекст для обучения. Например, небольшие школы или небольшие учебные сообщества с индивидуализированной структурой (например, системы

наставничества, общие преподавательские группы или одни и те же учителя на протяжении нескольких лет) оказывают положительное влияние на успеваемость учащихся, их вовлеченность, удержание и отношение к школе, поведение, мотивацию и процент выпускников (Bloom & Unterman, 2014; Darling-Hammond, Ross & Milliken, 2006; Felner, Seitsinger, Brand, Burns & Bolton, 2007).

Обзор исследований школьной среды показал, что учащиеся получают пользу, когда они находятся в небольшой, узнаваемой среде. Было обнаружено, что эти эффекты более эффективны для студентов, испытывающих экономические трудности и нуждающихся в академической поддержке (Darling-Hammond et al., 2006). В эту среду входят как небольшие школы, так и небольшие учебные сообщества (где школьный персонал и учащиеся тесно связаны), созданные в больших школьных зданиях. Более интимная обстановка позволяет учителям лучше развивать то, чему они учат, создавая внутри школы сообщество, где люди узнают друг друга по-разному. Такая среда также позволяет учащимся участвовать в различных внеклассных мероприятиях и демонстрировать лидерские качества, что вселяет в них большую уверенность и вовлеченность (Lee et al., 1993).

Оптимальный размер варьируется в зависимости от потребностей учащихся и дизайна школы; Было обнаружено, что средние школы с числом учащихся менее 900 человек более благоприятны для успеваемости учащихся, чем крупные школы. Для учащихся с высокими потребностями размер школы в 300-400 учащихся был наиболее благоприятным фактором в повышении посещаемости, оценок и количества выпускников, поскольку они обеспечивают прочные отношения, поддержку и доверие между учителями и учениками (Darling-Hammond et al., 2006). Исследования, проведенные в районах с низким социально-экономическим статусом, выявили положительные результаты в успеваемости учащихся в небольших школах. Например, в исследовании 143 средних школ Чикаго, проведенном Уэсли и его друзьями (2000), после учета расы, социально-экономического статуса и успеваемости учащихся, школы с 400 или менее учащимися имели лучшую посещаемость, меньше издевательств, большую вовлеченность родителей  и удовлетворенность, учащихся, были выявлены низкие показатели отсева (по сравнению с большим количеством студентов). Корпорация демонстрационных исследований трудовых ресурсов (MDRC) изучила случайно выбранные небольшие школы в Нью-Йорке и обнаружила, что вероятность поступления выпускников маленьких школ на 9,5 процента выше, чем выпускников крупных школ (Bloom & Unterman, 2014).

Мало того, что школа маленькая. Например, в исследовании 820 средних школ Ли и Смит (1995) обнаружили, что успеваемость учащихся была выше в небольших школах и в школах, в которых использовалось больше “социальных” практик - например, разделенная ответственность, индивидуальное обучение, адаптированное к потребностям.

В эффективных системах наставничества каждый учитель наставляет и защищает небольшую группу учеников (обычно 15-20 учеников) в течение 2-4 лет. Учителя систематически поддерживают консультирование в классе, чтобы поддержать успеваемость, обучать социально-эмоциональным навыкам и стратегиям, а также создавать сообщество учащихся, которые поддерживают друг друга. Преподаватели-наставники поддерживают студентов в академических и неакадемических вопросах. Наставник действует как мост между учеником, школой и домом, предоставляя ученикам необходимую поддержку, позволяя ученикам чувствовать себя творчески и уверенно. Многие исследования, обнаружившие положительный эффект от небольших школ или обучающихся сообществ, подчеркивают важность консультационных услуг в достижении этих эффектов (Darling-Hammond et al., 2006; Felner et al., 2007).

“Блочное планирование” - это практика, которую учителя используют в определенный день, чтобы снизить общую нагрузку учащихся и продлить учебное время. Например, школы могут запланировать только три урока по 90 минут каждый день вместо шести уроков по 45 минут. Это позволяет учителям больше сосредоточиться на каждом ученике и получить более глубокий опыт обучения. Было обнаружено, что “блочное планирование” способствует

улучшению поведения и успеваемости учащихся, включая получение более высоких классов и переход из одного класса в другой, особенно если оно длится один учебный год (Felner et al., 2007; Woronowicz, 1996).

Кроме того, Фелнер и др. (2007) указывают на важность построения междисциплинарной команды с общим планированием времени для учителей. Такая структура обеспечивает большую согласованность в практике и нормах, которые поддерживают учащихся эмоционально и познавательно, в то же время позволяя учителям делиться с учащимися соответствующей информацией при планировании учебной программы с учетом потребностей учащихся.

Школы, школьный персонал нуждаются в структурах и практиках, основанных на формировании общего опыта и доверительных отношений с учениками. Непрерывность отношений является ключевым принципом в этом отношении, особенно для детей с низкой посещаемостью школы.

Школьная жизнь основана на непосредственных и долгосрочных отношениях (несколько исследований выявили связь между успеваемостью учащихся и переходом в школу; в основном было обнаружено, что переход в школу в пятом или шестом классе влияет на успеваемость по чтению и математике (например, Rockoff & Lockwood, 2010; Schwerdt & West, 2013; Simmons & Blyth, 1987). Эти результаты согласуются во многих штатах, а также в городских, пригородных и сельских районах.

Школьные и классные сообщества, предлагающие безопасные и персонализированные условия для обучения. Обучение - это процесс, посредством которого и учащиеся, и преподаватели учатся понимать и общаться друг с другом, и он включает в себя снижение доверия, заботы, увеличение усилий, действий и мотивации (Felner et al., 2007). Исследования показывают, что отношения наиболее полезны, когда они соответствуют эмоциональным потребностям детей, последовательны (стабильны) и поддерживают когнитивные функции детей (Бергин и Бергин, 2009).

Дизайн и управление классом. В школах, ориентированных на развитие, управление классом организуется совместно с учащимися. То есть студенты участвуют в организации этого процесса. Продуктивные классы организованы не вокруг режима, который делает упор на выявление и наказание за неэтичное поведение, а путем разработки общих норм и распорядков с участием учащихся и поощрения ответственности учащихся (ЛеПейдж, Дарлинг-Хаммонд и Акар, 2005 г.). Учащиеся могут взять на себя такие роли, как правила и нормы в классе - конституция класса - управление используемыми материалами или классный библиотекарь, классный руководитель, создание для них возможностей брать на себя ответственность и быть полезными и т. д. Эффективное учебное сообщество в классе способствует уважительным отношениям между учителями и учащимися, а также самими учащимися, поскольку учащихся учат развивать социальную компетентность. Учителя находят время, чтобы познакомить учащихся с их ролью членов сообщества (Brophy, 1998).

Вместе преподаватели и учащиеся формируют нормы поведения в различных ситуациях, чтобы учащиеся могли научиться вести себя уважительно, правильно выражать свои потребности и мысли, решать возникающие проблемы. Активная роль учителя в совместном регулировании поведения детей помогает усилить развитие ребенка в направлении саморегуляции, предоставляя словарный запас и стратегии для управления различными ситуациями. В ходе метаанализа 54 исследований, проведенных в направлении программных исследований по управлению классом, было установлено, что мероприятия, направленные на социально-эмоциональное развитие учащихся, были эффективны по успеваемости учащихся (общий ES = .22) (Корпершук, Хармс, де Бур, ван Куйк и Дулаард, 2016).

Хорошо изученным примером такого подхода, основанного на развитии, является управление отношениями (управление согласованностью) и совместная дисциплина, где между учителями и учениками устанавливается общая ответственность за обучение и организацию занятий. Учитель создает среду обучения вместе с учащимися, создавая правила,

процедуры, управление временем и совместный план академического обучения, который регулирует класс. Когда ученики создают конституцию и чувствуют ответственность, они становятся “гражданами” класса. По мере обучения гражданским навыкам и появления возможностей для лидерства учащиеся приобретают необходимый опыт для самодисциплины. В серии оценок городских государственных школ исследователи обнаружили рост вовлеченности учащихся и учителей; снижение дисциплинарных санкций; и обнаружили улучшение условий в классе, времени обучения и долгосрочных успехов учащихся (Freiberg, Huzinec, & Templeton, 2009; Freiberg & Brophy, 1999).

Развитие обучающегося сообщества в классе помогает учителям управлять своими классами, поскольку они становятся более компетентными и уполномоченными, поскольку учащиеся чувствуют себя связанными, более полезными и готовыми к сотрудничеству со своими сверстниками. Важно развивать общественные практики, которые укрепляют отношения. Эти практики могут включать классные собрания, “проверку” эмоционального состояния учащихся в начале урока, эффективную групповую работу и уважительные дискуссии. В этот рейтинг можно включить и регулярно организуемые студенческо-преподавательские конференции. В сообществах, где сотрудничество имеет ключевое значение, члены заинтересованы в росте и обучении друг друга.

Как мы уже упоминали, здоровое развитие и обучение требуют как физической, так и психологической безопасности и защищенности. Одним из аспектов этой безопасности является обучение студентов тому, как общаться друг с другом и защищать их от насилия и травм, своевременно решая проблемы. Не менее важно, чтобы учителя создавали среду, в которой учащиеся получают одобрение и справедливую поддержку. Учителя играют ключевую роль в формировании обучения учащихся посредством своих убеждений и обратной связи, которую они предоставляют своим ученикам. Отношение к студентам формирует ожидания, которые предсказывают успеваемость учащихся (Двек, 2000; Ладсон-Биллингс, 1995, 2009).

К сожалению, существуют случаи предвзятого отношения и навешивания ярлыков на учеников со стороны учителей (Ирвин, 2003; Каплан, Гин и Мидгли, 2002), (Тененбаум и Рак, 2007), (Оконофуа и Эберхардт, 2015). Предвзятое отношение влияет на обучение и поведение учащихся. Предрассудки приводят к стрессу, снижению памяти и внимания и, в конечном итоге, к снижению работоспособности. (Шмадер и Джонс, 2003 г.), (Ладсон-Биллингс, 2009 г.; Ньето, 2002 г.). Целью оценки учителей может быть диагностика существующих навыков, которые можно развивать в дальнейшем, а не измерение навыков. Исследования показали, что в отсутствие угроз, страха и тому подобного чувство компетентности и ценности учащегося постоянно повышает успеваемость на тестах, оценки и академические достижения (Steele, 2011). Позитивный настрой может существенно повлиять на результаты (Cherng and Halpin, 2016; Egalite, Kisida and Winters, 2015; Egalite and Kisida, 2017).

Исследование учителей латиноамериканских учеников показало, что роль учителей испанского языка в обучении, использовании знаний учащихся, а также самокритика, осведомленность и поведение учителей были положительно связаны с результатами чтения учащихся. По итогам года читательские достижения учеников преподавателей, показавших наиболее высокие результаты по перечисленным критериям, были существенно выше (СО 0,85 для тех, кто ценил испанский язык; 0,60 СО для тех, кто использовал знания студентов; и 1,70 СО для тех, кто ценил испанский язык).

Если мы посмотрим на опыт и тенденции, связанные с гуманистической педагогикой, мы увидим, что:

(а) признание культурного опыта учащихся в качестве основы, на которой строятся знания;

(б) взаимодействие со студентами и семьями;

(в) этика внимания и обоснованность идей учащихся;

(г) сознательно передавать учащимся чувство компетентности в обучении и создании изменений для обеспечения равенства (Carter & Darling-Hammond, 2016; Villegas & Lucas, 2002). В заключение мы можем сказать, что когда учителя ценят опыт, личности и различия

учащихся, они создают безопасную и привлекательную атмосферу для обучения. В результате достигается мастерство учащихся.

Программы по укреплению доверия в отношениях:

Недавние исследования определили положительное влияние доверия в отношениях между учителями, родителями и руководителями школ на учебный процесс и успеваемость учащихся. Доверие возникает из понимания целей и усилий друг друга, а также из чувства взаимной приверженности, основанной на общей миссии. Как отмечают Брик и Шнайдер “доверительные отношения являются мощным инструментом для улучшения обучения и благополучия детей:”

1) небольшие школы, которые поощряют людей к общению;

2) стабильные школьные сообщества;

3) добровольные объединения работников школ и учащихся;

4) компетентные школьные руководители, которые активно прислушиваются к мнению всех сторон;

5) партнерство с семьями для содействия развитию учащихся.

Мы также хотели бы рассмотреть возможность сотрудничества семьи и школы в обучении учащихся. Построение прочных отношений между школой и семьей влияет на обучение учащихся и повышает успеваемость. Это нашло отражение в серии метаанализов, исследующих влияние сотрудничества родителей со школой на удовлетворенность учащихся и, следовательно, на успеваемость учащихся. Метаанализ 51 исследования, проведенного в этой области от детского сада до 12 класса был рассмотрен в результате метаанализа 28 исследований. Стратегии, которые поощряют родителей читать вместе со своими детьми, а также стратегии сотрудничества и коммуникации между родителями и учителями, были упомянуты как наиболее эффективные стратегии.

После создания благоприятной среды для обучения, каковы дизайн учебной программы, подходы к преподаванию и методы оценки, которые позволят учащимся развить глубокое понимание содержания дисциплины и развить навыки, которые позволят им решать сложные проблемы, эффективно общаться и, в конечном итоге, управлять и решать свои проблемы?

**Результат**

Современная теория обучения подчеркивает ситуативную и социальную природу смыслообразования, в которой “разум, поведение, восприятие и действие полностью интегрированы”.

Дети являются естественными учениками и, естественно, стремятся узнать то, что важно в их повседневной жизни. Чтобы поддержать обучение детей, взрослые устанавливают связи между новыми ситуациями и знакомыми ситуациями, концентрируют внимание детей, структурируют опыт и помогают детям разрабатывать стратегии целенаправленного обучения и решения проблем, организуя получаемую информацию (Брансфорд, Браун, Кокинг и Национальный исследовательский совет (NRC), 2000).

## ЛИТЕРАТУРА

1. Bergin C. & Bergin D. (2009). Attachment in the classroom. Educational Psychology Review, 21, 141-170)
2. Bloom H.S. & Unterman R. (2014). Can small high schools of choice improve educational prospects for disadvantaged students? Journal of Policy Analysis and Management, 33(2), 290-319
3. Brophy J. (1998). Classroom management as socializing students into clearly articulated roles. Journal of Classroom Interaction, 33 (1), 1-4)
4. Cantor P., Osher D., Berg J., Steyer L. & Rose T. (2018). Malleability, plasticity, and individuality: How children learn and develop in context. Applied Developmental Science, 1. doi:10.1080/10888691.2017.1398649
5. (Carter & Darling-Hammond, 2016 - Cherng, H.-Y. S., & Halpin, P. F. (2016). The importance of

minority teachers: Student perceptions of minority versus White teachers. Educational Researcher, 45(7), 407-420

6. Cherng H.Y. S., & Halpin P.F. (2016). The importance of minority teachers: Student perceptions of minority versus White teachers. Educational Researcher, 45(7), 407-420
7. Darling-Hammond, L., Ross, P., & Milliken M. (2006). High school size, organization, and content: What matters for student success? Brookings papers on education policy, 2006 (9), 163–203. Washington, DC: Brookings Institution Press
8. Dweck C.S. (2000). Self-theories: Their role in motivation, personality and development. London, UK: Psychology Press.; Ladson-Billings, 1995, 2009 - Ladson-Billings, G. (1995). Toward a theory of culturally relevant pedagogy. American Educational Research Journal, 32 (3), 465-491. Ladson-Billings, G. (2009). The dreamkeepers: Successful teachers of African American Children (2nd Ed.). San Francisco: Wiley Publishers)
9. Felner R.D., Seitsinger, A. M., Brand, S., Burns, A., & Bolton, N. (2007). Creating small learning communities: Lessons from the project on high-performing learning communities about “what works” in creating productive, developmentally enhancing, learning contexts. Educational Psychologist, 42(4), 209–221)
10. Freiberg H.J. Huzinec A.C. & Templeton S.M. (2009). Classroom management: A pathway to student achievement: A study of 14 innercity elementary schools. Elementary School Journal, 110(1), 63-80.; Freiberg ve Brophy, 1999 - Freiberg, H. J., & Brophy, J. E. (1999). Beyond behaviorism: Changing the classroom management paradigm. Boston, MA: Allyn and Bacon.)
11. Irvine J.J. (2003). Educating teachers for diversity: Seeing with a cultural eye. NY: Teachers College Press.; Kaplan, Gheen, & Midgley, 2002 - Kaplan A., Gheen M., & Midgley C. (2002). Classroom goal structure and student disruptive behaviour. The British Journal of Educational Psychology, 72(Pt 2), (191–211)
12. Korpershoek H., Harms T., de Boer H., van Kuijk M., & Doolaard S. (2016). A meta-analysis of the effects of classroom management strategies and classroom management programs on students’ academic, behavioral, emotional, and motivational outcomes. Review of Educational Research, 86(3), 643-680)
13. Lee V.E., Bryk A.S., & Smith J.B. (1993). The organization of effective secondary schools. Review of Research in Education, 19, 171-267)
14. LePage P., Darling-Hammond L., & Akar H. (2005). Classroom management. In L.Darling-Hammond & J. Bransford, (Eds.), Preparing teachers for a changing world: What teachers should learn and be able to do (pp. 327-357). San Francisco, CA: Wiley)
15. (NRC, 2000, s. 119 - National Research Council (NRC). (2000). How people learn: Brain, mind, experience, and school, Expanded edition. J.D.Bransford, A.L.Brown and R.R.Cocking (Eds.), Washington, DC: National Academy Press)
16. Rockoff J.E., & Lockwood B.B. (2010). Stuck in the middle: Impacts of grade configuration in public schools. Journal of Public Economics, 94(11–12), 1051–1061
17. Simmons R.G., & Blyth D.A. (1987). Moving into adolescence: The impact of pubertal change and school context. Hawthorne, NY: Aldine)
18. Schmader T. & Johns M. (2003). Converging evidence that stereotype threat reduces working memory capacity. Journal of Personality and Social Psychology, 85(3), 440-452)
19. Steele C.M. (2011). Whistling Vivaldi: How stereotypes affect us and what we can do. New York: W.W.Norton & Company)
20. Woronowicz S. (1996). Block sche65duling in the high school. Researchers digest. Princeton NJ: Educational Research Service)

**XÜLASƏ**

**Sevinc Səmədova**

**NEYROELM ƏSASLI METODİKALARIN ÜMUMİ PSİXOLOJİ SƏCİYYƏSİ**

Məqalənin əsas məqsədi nevrologiyaya əsaslanan metodların ümumi psixoloji xüsusiyyətlərini araşdırmaqdır. Kiçikyaşlı məktəblilər üçün tətbiq olunan metodlar dövrün tendensiyalarına uyğun olmalıdır. İbtidai siniflərdə tətbiq olunan təlim metodlarının seçilməsi zamanı problemlərdən biri də şagirddə öyrənməyə daimi maraq, biliyə və onda araşdırma həvəsini necə oyatmaq məsələsidir. Başqa sözlə, bu şagirdin idrak fəaliyyətini necə gücləndirməkdir. Anlamaq lazımdır ki, uşaqlara elmin mühüm olan bütün nailiyyətlərini çatdırmaq və hər şeyi birdən öyrətmək mümkün deyil. İbtidai siniflərdə müəllim elə səmərəli tədris metodları seçməlidir ki, şagirdlər bu bilikləri özləri əldə etsin, eləcə də müxtəlif təlim vasitələrindən istifadə etməklə öz bacarıqlarını inkişaf etdirə bilsinlər. Bundan əlavə, şagirdlərdə həyat həqiqətlərinə uyğun olan intellektual, ünsiyyət və yaradıcılıq bacarıqlarının, elmi dünyagörüşün formalaşdırılması məsələsi də diqqətdən kənarda qalmamalıdır.

***Açar sözlər:*** *Pedaqogika, təlim metodları, fərqli öyrənmə metodları, öyrənmə icmaları, şagird nailiyyəti*

**SUMMARY**

**Sevindj Samadova**

**GENERAL PSYCHOLOGICAL CHARACTERISTICS OF NEUROSCIENCE-BASED METHODS**

The main purpose of the article is to research general psychological characteristics of neuroscience-based methods. The methods used for young schoolchildren should be in accordance with the trends of the time. One of the problems during the selection of teaching methods applied in primary classes is the question of how to awaken the student's constant interest in learning, knowledge and research. In other words, it’s how to strengthen the cognitive activity of the student. It is necessary to understand that it is impossible to convey to children all the important achievements of science and to teach everything at once. In primary classes, the teacher should choose effective teaching methods so that students can acquire this knowledge by themselves, as well as develop their skills using various teaching tools. In addition, the issue of forming intellectual, communication and creative skills and scientific worldview in students that are in accordance with the realities of life should not be ignored.

***Key words:*** *Pedagogy, teaching methods, different learning methods, learning communities, student achievement*

---

***Məqaləni çapa təqdim etdi:*** *pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Fərman oğlu Xəlilov*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 36-39**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 36-39**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 36-39**

# SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ

**ZƏMİNƏ NƏCƏFOVA**
*zaminajafova@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.028**

## GÖRKƏMLİ KAMANÇA İFAÇISI, USTAD SƏNƏTKAR HABİL ƏLİYEV

*Bəşəriyyətin yaşı qədər tarixi olan musiqi insanlığın kəşf etdiyi ən əsrarəngiz dəyərlərdəndir. Gözəl musiqilərin səsləndirilməsi üçün hər bir xalq öz ruhuna uyğun musiqi aləti kəşf edib. Beləliklə, çox sayda sirli, sehirli musiqi alətləri yaranıb ki, bunlardan biri səsi ilə insan qəlbinin tellərini titrədən, sanki ana laylasını xatırladan kamançadır.*

*Azərbaycan muğamlarını nəsildən-nəslə varislik yolu ilə ənənəvi şəkildə ötürən sazəndələr vardır ki, onların hər biri bu şərəfli yolda öz dəsti-xətti, ifaçılıq prinsipi ilə seçilən musiqiçilərdən olmuşlar. Belə musiqiçilərimizdən biri də Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli ustad sənətkar, mahir kaman ifaçısı Habil Əliyevdir.*

*XX əsrin ikinci yarısında xüsusilə tar və kamança ifaçılığı daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan kamança ifaçılığı tarixinə nəzər saldıqda milli alətlərimizin görkəmli ustad ifaçılarının özünəməxsus ifa üslub keyfiyyətlərinə malik olduğunu görə bilərik. Bu ifaçılardan Habil Əliyev və bir çox peşəkar ifaçılar bu alətlərin çalğı texnikasını, ifaçılıq imkanlarını daha yüksək səviyyəyə qaldırmışlar və onların ifalarında sənətə estetik yanaşma üstünlük təşkil edir.*

***Açar sözlər:*** *Azərbaycan, musiqi, xalq, çalğı, alət, kamança, ifaçı, Habil Əliyev, sənətkar, ustad*

Azərbaycan musiqi mədəniyyətinin maraqlı sahələrindən biri də ifaçılıq sənətidir. Xalq musiqisinin qədim və zəngin ənənələri üzərində qurulmuş ifaçılıq sənətinin tarixi əhəmiyyəti çox böyükdür. Tarixi abidələr üzərində həkk olunmuş rəsmlərdən, miniatürlərdən və digər qədim mənbələrdən aydın olur ki, ifaçılıq sənəti bütün dövrlərdə sevimli və sayğılı sənət sahəsi olmuşdur.

Azərbaycan muğamlarını nəsildən-nəslə varislik yolu ilə ənənəvi şəkildə ötürən sazəndələr vardır ki, onların hər biri bu şərəfli yolda öz dəsti-xətti, ifaçılıq prinsipi ilə seçilən musiqiçilərdən olmuşlar. Belə musiqiçilərimizdən biri də Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli ustad sənətkar, mahir kaman ifaçısı Habil Əliyevdir.

Habil Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində dünyaya göz açmışdır. Ustadın xatirələrindən bəlli olduğu kimi sənətə gəlməyində iki insanın əvəzsiz xidməti olmuşdur. Bunlardan biri Üzeyir Hacıbəylinin yaxın qohumu olan Əhməd Ağdamski, digəri isə anasıdır. 6 yaşlı uşaq saatlarla Əhməd Ağdamskinin tarda olan ifasına qulaq asaraq, ondan mənəvi qida alırdı.

Uşaqlıq illəri Böyük Vətən müharibəsinin (1941-45-ci illər) qızğın vaxtına düşdüyündən sənətkar çox keşməkeşli və əziyyətli bir dönəmdə yaşamışdır. Balaca Habil müharibənin ağrı-acısına məhəl qoymayaraq saatlarla eyvanlarında əyləşib öz kamança alətində ifa edərmiş. Eyni zamanda təhsilini yarımçıq qoyub erkən yaşlarından el şənliklərində kamança ifa etməyə başlamışdı ki, ailəsinin maddi tələbatını qarşılaya bilsin. Uşaqlıq dostu Fikrətin təkidi ilə Bakıya gəlib, 1952-ci ildə Asəf Zeynallı adına musiqi məktəbinə (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə) uğurla qəbul olur. Burada o, kamança alətinin sirlərini dərindən mənimsəyir.

Tezliklə, Habil Əliyev 1953-cü ildə tarzən Hacı Məmmədovun dəvəti ilə Filarmoniyaya gəlir. Filarmoniyaya gəlişi sənətkarın peşəkar səhnə fəaliyyətinin başlanğıcı olmaqla yanaşı, səhnədə olan ustadların - Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Şövkət Ələkbərova, Həqiqət Rzayeva, Sara Qədimova və bir çox başqa sənətkarları müşayiət etməklə, onların yaradıcılığından bəhrələnərək ifasının daha da təkmilləşdirilməsi ilə nəticələndi.

Təhsilini bitirdikdən sonra gənc ifaçı tezliklə, yəni 1955-ci ildən Filarmoniyada solist ştatına keçirilir. Bundan sonra onun solo səhnə fəaliyyətində canlanma baş verir. Özünəməxsus ifası ilə dinləyici kütləsinin ürəyini fəth edən Habil durmadan çalışır, ifa texnikasını təkmilləşdirərək kamançada yeni xallar, çalarlar üzərində işləyir, bilik və bacarığını artırmağa başlayır. 1961-ci ildə Azərbaycan Dövlət Televiziyasında ustadın ilk solo konserti oldu. "Segah" muğamının yeni çalarda ifası dinləyici kütləsi, eləcə də, musiqi ifaçıları tərəfindən rəğbətlə qarşılandı. Təsadüfi deyil ki, "Segah" muğamını bir çox ifaçılar səsləndirmişlər. Lakin ustadın ifa etdiyi "Segah" muğamında başqa çalarlar var. O, "Segah" muğamına yeni nəfəs verərək, öz ürəyini, ifa improvizasiyasını, "melizm", "trel", "qlissando" kimi melodik boyalarını əlavə etməklə Azərbaycan muğam ifaçılıq sənətində "Habil Segaha" möhürünü vurmuşdur.

Habil Əliyevin müxtəlif vaxtlarda ifa etdiyi "Segah" muğamını müqayisə etsək, hər ifada təkrarsız, misilsiz çalğı, yeni tembr boyaları, yeni çalarlar müşahidə edərik. Bu da təbii ki, ustadın keçdiyi yaradıcılıq yolunun nəticəsidir. "Segah", "Bayatı Qacar", "Rahab", "Bayatı Şiraz" və digər muğamlar sənətkarın idrakından gələn biliyin canlandırılması üçün təşəkkül hadisəsini yaşayaraq, yaradıcılıq prosesi keçməklə, hər bir mərhələni ruhən yaşayaraq mənəvi cəhətdən ucalaraq, nurlanma zirvəsini fəth etdiyi şah əsərlər silsiləsindəndir.

Muğam ifaçılığında öz dəsti-xətti, ifa üslubu olan ustad sənətkar, Azərbaycan musiqi mədəniyyətinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Belə ki, sənətkar Azərbaycanın simli yaylı musiqi aləti olan kamançanın səslənməsinə yeni xallar və rənglər qatmış, eyni zamanda onun konstruktiv quruluşunda dəyişikliklər edərək ifa imkanlarını genişləndirmişdir. Belə ki, ustadın kamança musiqi alətində etdiyi rekonstruksiya işi onun ifasının özəlliyinə də təsir etmişdir. Muğam ifaçılığında ustad sənətkar daxilindən gələn, onun idrak təfəkküründən süzülən səsləri əldə etmək üçün alətdə təkmilləşmə işi aparmaq məcburiyyətində qalır. Belə ki, Xalq artisti Habil Əliyev öz alətində daxilindən, ruhi aləmindən gələn səsləri əldə etmək üçün mövcud olan alətin qolunu qısaltmışdır. Standart uzunluğu 29 sm olan kamança yaylı musiqi alətinin qolunu iki sm qısaldaraq 27 sm etmişdir.

Özünəməxsus ifa prinsipi ilə seçilən Habil Əliyevin yaradıcılıq yolu tezliklə Xalq şairi Bəxtiyar Vahabzadə ilə kəsişir. Sonradan bu kəsişmə onların birgə fəaliyyəti möhkəm bağlara söykənərək əsil dostluğa çevrilir. "İlk məhəbbət", "Güləsən gərək" B.Vahabzadənin sözlərinə bəstələnmiş mahnılar silsiləsindəndir. Ustadın ifasından ilhamlanan Xalq şairi Bəxtiyar Vahabzadə: "Habil əslində xalq musiqi yaradıcılığının ifaçısıdır. Lakin onun ifasında "Habil çaları" da var. Bizi valeh edən də budur. Çünki biz bu çalarları Habilə qədər heç bir kaman ifasında görməmişik. O, sadəcə çalmır, yaradır. Bəziləri kimi yaradıcılıqla axtarışlarını eninə-uzununa yox, dərin qatlara tuşlayan Habil düşündüyünə görə bizi də düşündürməyi bacarır. Düşündürməyən sənət sənət deyil. Buna görə də, biz Habilə çalğıçı, yaxud ifaçı deyil, sənətkar deyirik" (6).

Sənətkarın ifasının özünəməxsusluğunu ifadə edən şair "Habilin kamana gətirdiyi səs neylə kaman arasında özünəməxsus bir səsdir. Bəlkə də bu səs insan səsinə bir qədər yaxındır. Bu səsdə bəzən vahimə, bəzən inilti, bəzən də cəngavərlik duyuram. Biz Habilin ifasından sonra kamançanın nə qədər böyük imkanlara malik olduğunu görürük" (3).

Muğamın düzgün səsləndirilməsi ifaçının şəxsi yaradıcılığından və onun ifaçılıq fantaziyasının zəngin olmasından bilavasitə asılıdır. Muğam fenomeni zəngin bilik mənbəyidir. Bu baxımdan onda mövcud olan biliyin dinləyiciyə ötürülməsi üçün ifaçıdan yüksək fitri istedad və xüsusi improvizə tələb olunur. İmprovizə öz yaradıcılıq fantaziyasını "ixtiraçılıq" əzmini nümayiş etdirmək üçün muğam ifa edən xanəndə və sazəndə-ifaçı qarşısında geniş imkanlar açır.

Habil Əliyev ifasına "vibrasiya", "glissando", "pizzicato", "forşlaq", "mordent", "trel" kimi müxtəlif melizmlərdən istifadə etməklə, eyni zamanda bu xırda melizmlərə öz böyük ürəyini qatmaqla mükəmməl sənət əsəri yaratmışdır. Ustad çaldıqca hər ifasında yeni vəcd, hər vəcdə yeni nəfəs, hər nəfəsdə yeni aləm, yeni dünyanı kəşf edir.

Öz dünyasından gələn zəngin fikirləri isə bu alət vasitəsilə dinləyici kütləsinə barmaqları vasitəsilə ötürür. Kamança aləti bir növ burada əldə olunan zəngin informasiyanın ötürülməsi üçün rabitə rolunu icra edən cihaz funksiyasını daşıyır. Sənətkarın muğam ifasında, yaradıcılıq prosesinə qovuşmaqla həmin anda təxəyyülündən əldə olunan improvizasiyaların yeni variantları əmələ gəlir. Mahir kamança ifaçısı ənənəyə sadiq qalaraq muğam dəstgahlarımızı ənənə konteksti çərçivəsində ifasına, eyni zamanda müasirliyi, yeniliyi özündə ehtiva edən "Cücələrim"in özünəməxsus ifası, özünün bəstələdiyi bir sıra mahnıları ilə ifaçılığını davam etdirirdi. "Ənənəni məhsuldar zəmin, onun

özünəməxsus yasaqlarını isə yol göstəriciləri kimi qavrayan, duyan və öz peşəsini bu yönümdə təqdim edən sənətkar mütləq ənənəni zənginləşdirir" (4).

Sənətkarın ifası ruhi proses vasitəsilə insanı başqa aləmə qovuşdurur. Belə ki, zahiri baxışdan sadə görünsə də, daxili zənginliyi ilə əks-səda yaradan sənətkar öz ifası ilə, həmçinin aləti ilə zamanın keçmişindən obrazlı şəkildə xəbər verir. Akademik Vasim Məmmədəliyev Habil ifaçılığını aşağıdakı təsnifata uyğun qruplaşdırmışdır:

1. Habil Əliyev kamançaya Azərbaycan ruhu, Azərbaycan nəfəsi, Azərbaycan layihəsi gətirib, onu bizimkiləşdirdi. Başqa sözlə desək, Habil Əliyev kamançanı "texnar" erməni ifaçılarının əlindən alıb yenidən millətimizə qaytardı.
2. Habil Əliyev kamançanın səs palitrasını, texniki imkanlarını genişləndirib, ona özünəməxsus yeni tembr, səslənmə və çalarlar gətirdi.
3. Habil Əliyev kamança alətini müşayiətçi alətdən qüdrətli solo alətinə çevirdi. Habil kamançadan istədiyi səsi, istədiyi effekti ala bilir. Onun kamançasının səsi tamam başqadır.

Bu da təsadüfi deyil ki, Habil sənətindən, onun alətinin ahəngdar tembrindən mənəvi qida alan görkəmli Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESCO-nun "Sülh naminə incəsənət xadimi" Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" ordenli, professor Firəngiz Əlizadə "Habilsayağı" pyesini bəstələmişdir. Əsər Şərq və Qərb mədəniyyət konteksti çərçivəsində yaranmışdır. Ustad: "Habilsayağı" - xüsusi musiqidir. Bu Azərbaycan bəstəkarı tərəfindən yaradılmış müasir klassik musiqidir. Onda mənim üslubum çox ilhamla təcəssüm olunmuşdur, eyni zamanda mənim ruhum saxlanılmışdır. Firəngiz xanım mənim üslubumu təhrif etməmiş, mənim musiqi dilimin özünəməxsusluğunu pozmamışdır. O, muğamın dilini düzgün ifadə etmiş, əhəmiyyətli dərəcədə zənginləşdirmiş, öz fantaziyası ilə dolğunlaşdırmışdır..." (5).

Sənətkarın ifasında muğam ifaçılığına xas olan nadir improvizasiya bacarığı, misilsiz ifaçılıq texnikası, Şərq mədəniyyət paradiqmasına məxsus incə musiqi duyumu, gözəl zövq və dəqiq ölçü hissi vardır. Bu da danılmaz həqiqətdir ki, Şərq mədəniyyəti daim zəka və biliyin mənbəyi hesab olunaraq, özü-özünü dərk etməyə, daxili etiqad zənginliyinə malik olub, intuitivizmə və irrasionalizmə istiqamətləndirən bir bilik sahəsi olmuşdur (1).

Məhz Habil ifasında biz bu intuitivliyi, Şərq mədəniyyətinə məxsus olan zəka və biliyi duyuruq. O, batindən gələn yüksək məna çalarlarını öz kamança alətində məharətlə ifa edərək, zahirən canlandırır. Ustaddan pedaqoji fəaliyyəti barəsində sual olunduqda "Yetişdirməm olmayıb... Əgər olsaydı, onlara zülm edərdim. Çünki bir musiqini bu gün bir cür, sabah isə başqa cür çalırdım. Bir gündə 10-12 saat məşğul olurdumsa, yenə də azdır, - deyirdim. Mənim tələbələrim olmayıb, amma mənim lent yazılarıma baxıb mənim kimi çalırlar. Kimsə deyib ki, əsl müəllim odur ki, o dərs demədən tələbələri olsun. Mənimki bu deyimə bənzəyir..." (2).

Nəticə olaraq qeyd olunmalıdır ki, ifaçılıq sənəti tarixən inkişaf etmiş, texniki, bədii baxımdan təkmilləşərək müasirləşmişdir. XIX əsrin ikinci yarısından başlayaraq Bakı, Şamaxı və Qarabağda keçirilən musiqi məclisləri xanəndəliklə yanaşı, sazəndəlik sənətini də yeni inkişaf mərhələsinə qaldırmış və bir çox məşhur ifaçıların yetişməsinə səbəb olmuşdur.

XX əsrin ikinci yarısında, xüsusilə tar və kamança ifaçılığı daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan kamança ifaçılığı tarixinə nəzər saldıqda milli alətlərimizin görkəmli ustad ifaçılarının özünəməxsus ifa üslub keyfiyyətlərinə malik olduğunu görə bilərik. Bu ifaçılardan Habil Əliyev və bir çox peşəkar ifaçılar bu alətlərin çalğı texnikasını, ifaçılıq imkanlarını daha yüksək səviyyəyə qaldırmışlar və onların ifalarında sənətə estetik yanaşma üstünlük təşkil edir.

XX əsrin ortalarında Habil Əliyev Azərbaycanda muğamın əsl ruhunu geri qaytara bildi. Onun istifadə etdiyi ahəngli və lirik çalğı texnikası İran ifaçılarını da Azərbaycan kamança ifaçılığına doğru yönəldə bildi. Habil Əliyev sələfləri olan ustad sənətkarların ifa üslubuna hörmətlə yanaşaraq, ənənəyə sadiq qalmaqla bərabər, öz fərdi yaradıcılıq yolunu cızan, özünəməxsus ifa üslubuna malik musiqiçi idi. Bu özünəməxsusluq həm ustadın ifa etdiyi kamança musiqi alətində, həm də onun canlandırdığı (səsləndirdiyi) musiqidə öz əksini tapmışdır.

## ƏDƏBİYYAT


1. Bayramlı Y. Azərbaycan simli musiqi alətləri milli mədəni ənənənin tərkib hissəsi kimi. Fəlsəfə doktoru dissertasiya işi. Bakı: 2014
2. Daşdəmirli Ə. Mən kamançaya borclu qalmamışam. "Azərbaycan müəllimi". 11 noyabr 2011 s.12-13

3. Ələkbərov A. Kaman əfsanəsi. H.Əliyev haqqında. Bakı: 2012, "Aspoliqraf", s.160
4. Rəhimli İ.Ə. Habil Kaman (Sənətdə keçən ömür). Bakı: 1987, "İşıq", s.112
5. Manafova C. Firəngiz Əlizadənin "Habilsayağı" əsərində muğamdan istifadə prinsipləri. "Mədəni həyat". 2013, 12 s.63-65
6. Xəlilzadə F. Möcüzəli tərənələr dünyası. "Azərbaycan", 14 iyun 2012, s.6

## SUMMARY

**Zamina Najafova**

## HABIL ALIYEV, THE SKILLFUL MASTER AND PROMINENT KAMANCHA PLAYER

Music, which is as old as the mankind, is one of the most mysterious values discovered by humanity. Each nation has discovered a musical instrument close to that nation's spirit to perform beautiful music. As a result, a lot of mysterious and magical musical instruments have been found. One of them is kamancha the sound of which touches the human heart reminding a mother's lullaby.

Traditional Azerbaijani mughams are passed down from generation to generation by certain performers. Every one of them was a musician with a unique style of performing. These musicians include Habil Aliyev, the People's Artist of the Republic of Azerbaijan and a talented master with "Shohrat" and "Istiqlal" orders.

In the second half of the 20th century, especially the performance of tar and kamancha has riched its higher stage of development. If we look through the history of playing the kamancha in Azerbaijan, we can see all these musicians have acquired their own performance style. Among these performers, Habil Aliyev and numerous other professional musicians have promoted the technique of playing these instruments to a higher level, and their performances are characterized by their aesthetic sensibility.

***Key words:*** *Azerbaijan, music, folk, playing, instrument, kamancha, performer, Habil Aliyev, master*

## РЕЗЮМЕ

**Замина Наджафова**

## ВЫДАЮЩИЙСЯ ИСПОЛНИТЕЛЬ, МАСТЕР ГАБИЛЬ АЛИЕВ

Музыка, которая стара как человечество, является одной из самых загадочных ценностей, открытых человечеством. Каждый народ нашел музыкальный инструмент, подходящий его душе для исполнения прекрасной музыки. Так было создано большое количество загадочных и волшебных музыкальных инструментов, одним из которых является кяманча, звук которой вибрирует струны человеческого сердца, словно напоминая материнскую колыбельную.

Во второй половине XX века на более высокую ступень развития вступило особенно исполнение тара и кяманчи. Если мы посмотрим на историю игры на кяманче в Азербайджане, то увидим, что выдающиеся мастера игры на наших национальных инструментах обладают уникальными стилевыми качествами исполнения. Среди этих исполнителей Габиль Алиев и многие профессиональные исполнители подняли технику игры на этих инструментах на более высокий уровень, в их выступлениях преобладает эстетический подход к искусству.

***Ключевые слова****: Азербайджан, музыка, народный, инструмент, инструмент, кяманча, исполнитель, Габиль Алиев, художник, мастер*

***Məqaləni çapa təqdim etdi:*** *Sənətşünaslıq elmləri doktoru, dosent İnara Eldar qızı Məhərrəmova*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 40-46
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 40-46
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 40-46

**İSMAYIL MÜRSƏLOV**
*ismayilmurselovv355@gmail/com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.013**

# NAXÇIVAN TAR MƏKTƏBİNİN XALQ ÇALĞI ALƏTLƏRİ İFAÇILIĞINDA TUTDUĞU YER

*Məqalədə Naxçıvanda yaşayıb-yaratmış peşəkar musiqiçilərin tar alətinin geniş şəkildə inkişaf etməsindən və onun nəticəsində tarın böyük inkişaf yolu keçməsindən ətraflı surətdə bəhs olunur. Zaman-zaman insanlar musiqini dildəki zümzümədən barmaqlara köçürdərək bu sehirli səsi özünün icad etdiyi müxtəlif musiqi alətlərində-nəfəsli, simli, zərb alətlərində ifa etməyə başlamışdır. Zaman-zaman insanlar musiqi ifaçılığını inkişaf etdirərək musiqi alətlərində musiqi əsərlərini yüksək yaradıcılıq səviyyəsində ifa etmə hesabına öz mənəvi tələbatlarını ödəyir, əsərin məzmununu, ideyasını dinləyicilərə çatdırmağa çalışmışlar.*

***Açar sözlər:*** *Naxçıvan, tar, musiqi, sənət, muğam, müəllim, bəstəkar, əsər, mədəniyyət, məktəb*

Musiqi insan həyatının ayrılmaz parçası olub ilk insanın yarandığı gündən bu günədək laylalarımızın, ağılarımızın, nəğmələrimizin dillərdə zümzüməsilə yaşamış, inkişaf etmiş, təkmilləşərək öz zirvəsinə ulaşmışdır. İnsanlar həm sevincini, həm də qəm-kədərini musiqi dili ilə paylaşaraq sevincini çoxaltmış, kədərini isə azaltmağa çalışmışdır. Zaman-zaman insanlar musiqini dildəki zümzümədən barmaqlara köçürdərək bu sehirli səsi özünün icad etdiyi müxtəlif musiqi alətlərində-nəfəsli, simli, zərb alətlərində ifa etməyə başlamışdır. Zaman-zaman insanlar musiqi ifaçılığını inkişaf etdirərək musiqi alətlərində musiqi əsərlərini yüksək yaradıcılıq səviyyəsində ifa etmə hesabına öz mənəvi tələbatlarını ödəyir, əsərin məzmununu, ideyasını dinləyicilərə çatdırmağa çalışmışlar.

Bəli, ifaçılıq sənəti sözsüz, fikir söyləməyə qadir olan möcüzəli bir sənətdir. İfaçılıq sənətini bəstəkarlığı tamamlayan yaradıcılıq sənəti kimi qəbul etmək daha düzgün olardı. Şübhəsiz ki, eyni musiqi əsərini, hər bir ifaçı özünəməxsus yaradıcılıqla ifa etməyə çalışır. Bəzən ifaçı müəyyən bəzəklərlə, özünəməxsus xallarla əsəri daha da gözəlləşdirərək, özünün əsərə yaradıcı münasibətini, yaradıcılıq qabiliyyətini nümayiş etdirir.

Xalq arasından çıxan yaradıcı musiqiçilər Azərbaycan xalq çalğı alətlərini yaradaraq, onları təkmilləşdirmişlər. Azərbaycan xalq çalğı alətləri, bu alətlərin təkraredilməz yaradıcılıq qabiliyyətinə malik olan ifaçıları, ta qədim dövrdən başlayaraq şifahi xalq ədəbiyyatında, sonralar isə yazılı şəkildə görkəmli şair və ediblərin əsərlərində vəsf edilərək, onlardan bəzilərinin adları, təsvirləri bu günümüzə gəlib çatmışdır. XII əsrdən başlayaraq, bu adlara, onların bədii təsvirlərinə Şərqin böyük dühaları Nizami Gəncəvinin, Sədi Şirazinin və Şərq ədəbiyyatının bir çox görkəmli nümayəndələrinin əsərlərində rast gəlirik.

XVI əsrdə Azərbaycan şairi Məhəmməd Füzulinin yaratdığı “Yeddi cam” lirik fəlsəfi poemasında bir sıra Azərbaycan xalq çalğı alətləri ilə bədii şəkildə təsvir olunan söhbətlər, bu alətlərin həmin dövrdə Azərbaycan musiqi mədəniyyətinə daxil olmalarını, eləcə də şairin musiqi sənətinə olan böyük məhəbbətini, onun qüdrətini göstərir.

XVIII əsrdə zəmanəsinin mahir ifaçısı sayılan Muradağa Naxçıvanlının, eləcə də bir çox görkəmli musiqiçilərin yüksək yaradıcılıq zirvələrinə qalxmaları, Azərbaycan, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ifaçılıq sənətinin inkişafından xəbər verir. XIX əsrin dahi sənətkarı Aşıq Ələsgərin Naxçıvan səfəri, 1912-ci ildə istedadlı müğənni Məcid Behbudovun, 1928-ci ildə görkəmli xanəndə Xan Şuşinskinin, eləcə də bir çox tanınmış xanəndə və musiqiçilərin Naxçıvan toy mərasimlərində, musiqi məclislərində, konsert salonlarında çıxışları Naxçıvan musiqi həyatının

yadda qalan səhifələrindən olaraq, onun inkişafında müstəsna rol oynamışdır.

Həmyerlimiz olan böyük ədib Mirzə Cəlilin yaxşı tütək, ney, kamança və Azərbaycan rəssamlıq sənətinin banilərindən biri olan Bəhruz Kəngərlinin skripka çalmaları bir daha Naxçıvanın yüksək səviyyəli musiqi aləmindən danışır. Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın xatirələrindən məlum olur ki, Qarabağın Kəhrizli kəndində olan bir toyda camaatın xahişi ilə Mirzə Cəlil tütəkdə "Segah" çalmış, qardaşı Mirzə Ələkbər isə oxumuşdur.

Lakin bu dövrlər musiqimizin inkişafı, əsasən, fərdi şəxslərin adları, onların yaradıcılıqları ilə bağlı olur. 1887-ci ildə Naxçıvan şəhərində gənc dram həvəskarlarının iştirakı ilə M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah", "Molla İbrahim Xəlil kimyagər" komediyaları tamaşaya qoyulmuşdur. Şübhəsiz ki, bu komediyalarda musiqiçilərdən ibarət müəyyən tərkibli ansambldan istifadə olunmuşdur.

Azərbaycan, eləcə də Naxçıvan musiqi həyatını zənginləşdirərək, onu inkişaf etdirmişdir. Xalq mahnı və rəqslərimiz, aşıq havalarımız saz, balaban, qara zurna, tütək, yan tütək, tulum, ud, tar, kamança, zəngin simli və zərb alətlərimizin ifasında mədəniyyətimizdə, məişətimizdə səslənmiş və rəqslərin, müxtəlif janrlarda əsərlərin yaranmasına səbəb olmuş, ifaçılar yetirmişdir.

Aşıq dəstələri qədim zamanlardan, əsasən, kəndlərdə çalıb-oxuyardılar. Orta əsrlərdən başlayaraq xanəndələrin çıxış etdiyi yerlər yalnız şəhərlər və şəhər əyanlarının, tacir və sənətkarların qurduqları cah-cəlallı ziyafət məclisləri idi. Artıq XIX əsrin axırlarından kənd toylarına xanəndə dəstələrini də dəvət edirdilər. Dahi bəstəkarımız Ü.Hacıbəyovun qeyd etdiyi kimi xanəndələrin toy məclislərinə dəvət olunması tədricən aşıq dəstələrini sıxışdırmışdır. Tədricən toy məclislərində tar, kamança və xanəndədən ibarət şərq üçlüyü bu alətləri sıxışdırıb çıxarmış və sonralar isə öz yerini müxtəlif instrumental ansambllara vermişdir.

İfaçılıqdan söz açılanda ilk olaraq, Azərbaycan xalq musiqi alətlərinin şahı sayılan tar və onun ifaçılıq xüsusiyyətləri yada düşür. Əbəs yerə tar alətinə alətlərin şahı deməyiblər. Yarandığı gündən bu günə kimi daim aparıcı missiyasını daşıyan tar keçib gəldiyi bütün enişli-yoxuşlu yollarda özünü daim yeniləmiş və bu günümüzə tam püxtələşərək professional bir alət kimi gəlib çıxmışdır. Tar alətindən istifadə Naxçıvanda da qədimlərə dayanır.

Naxçıvanda ilk musiqi məktəbinin əsasını qoyan sənətkarların adı çəkiləndə Yusif Əliyevin adı hörmətlə çəkilir. Yusif İsmayıl oğlu Əliyev 1913-1977-ci illərdə yaşamış, tanınmış Naxçıvan musiqiçilərindən biri olmuşdur. İstedadlı tarzən, pedaqoq, bacarıqlı təşkilatçı, muxtar respublikada xalq musiqisinin yorulmaz təbliğatçısı olan Yusif Əliyev, tar ifaçılığı sənətində əsas yerləri tutan bir çox musiqiçilərin ilk müəllimi, şərq üçlüklərinin, xalq çalğı alətlərinin ansambllarının yaranmasında və inkişafında fəal iştirak etmiş nüfuzlu musiqiçilərdən biri olmuşdur. O, bir çox tanınmış Azərbaycan xanəndələrini tarda müşayiət edərək, eyni zamanda Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbində muğam fənnini tədris etməklə, muğam sənətinin təbliğində mühüm xidmətlər göstərmişdir. Onun pedaqoji və ictimai fəaliyyəti qiymətləndirilərək Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi kimi fəxri ada layiq görülmüşdür. Yusif Əliyev Naxçıvan Radio Verilişləri Komitəsində xalq çalğı alətləri ansamblı yaradılanda həmin ansambla bir neçə il rəhbərlik etmişdir. Xalq musiqisinin vurğunu tarzən Yusif Əliyevin xatirəsi Naxçıvan musiqiçiləri üçün bu gün də əziz olaraq yaşamaqdadır.

Naxçıvanda professional və virtuoz tar ifaçılığı sənətinin 1926-1958-ci illərdə naxçıvanlı tarzən, adı kimi kamil tar ifaçısı olan Kamil İsgəndər oğlu Abdullayev ilə başladığını desək, yanılmarıq. Çünki Kamil Abdullayevə kimi başqa bir virtuoz tarzənin adı heç bir mənbədə çəkilmir. Bu illərdə Kamil Abdullayev ifaçılıq sənətini Naxçıvanda özünəməxsus, yüksək səviyyədə inkişaf etdirirdi. XX əsrin ortalarında yaşamış virtuoz tarzən Kamil İsgəndər oğlu Abdullayev haqqında onu tanıyanlar bu gün də böyük ehtiramla danışırlar. Kamil Abdullayevin rəhbərliyi ilə 1943-1948-ci illərdə Naxçıvan Radio Verilişləri Komitəsinin nəzdində yaradılan şərq üçlüyü mütəmadi olaraq radio dalğalarında çıxışlar etmişdir. Tarzən Kamil Abdullayevin, kamança ifaçısı Ələsgər İsfəndiyarlının və dəf ifaçısı Səfər Rəcəblinin müşayiəti ilə geniş diapazonlu səsə malik, istedadlı xanəndə Abbas Axundovun sənətkarlıqla yaratdığı "Rast", "Bayatı-Şiraz" muğamları, bir çox mahnı və təsnifləri tezliklə öz pərəstişkarlarını tapmışdır. Deyilənlərə görə, onun dövründə tar ifaçılığı sahəsində tayı-

bərabəri olmayıb. Kamil Abdullayevin ifa etdiyi "Orta mahur", "Çahargah" muğamları hələ də musiqiçilərin dilindən düşmür. Deyilənlərə görə, bu sənətkarın ifaçılığı elə bir yüksək səviyyədə idi ki, hətta Kamilin radio lentinə yazdırdığı muğamları bəzi "sənətkarlar" onun vəfatından sonra pozdurmuşlar.

K.Abdullayev haqqında danışarkən onun sənətinin davamçısı, muğam ustası, xoş rəftarı tarzən Vahid Axundovu xatırlamamaq olmur.

Dahi bəstəkar Üzeyir Hacıbəyli qədim milli musiqi alətimiz tar haqqında yazırdı: "Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür". Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə müasir tar ən mükəmməl və təkmilləşdirilmiş çalğı aləti hesab olunur. Tar hər zaman muxtar respublikamızda musiqi ifaçılarının maraq dairəsində olub.

Naxçıvan tar ifaçılığı sənətinin sütunlarını araşdırarkən gözəl tarzən, pedaqoq, bəstəkar Vahid Axundovu xüsusilə qeyd etmək lazımdır. Vahid Həmzə oğlu Axundov 1924-cü ildə Mirbəşir rayonunun Borsunlu kəndində anadan olmuşdur. Kəndlərində tez-tez keçirilən musiqi məclislərində, el şənliklərində saz-söz ustalarının çıxışları balaca Vahidin qəlbini riqqətə gətirmiş, onda musiqiyə sönməz maraq oyatmışdır. Lakin musiqiyə ciddi münasibəti Böyük Vətən müharibəsinin odlu-alovlu illərindən sonra başlamışdır. Azərbaycan xalq muğamlarını məşhur tarzən Hacı Məmmədovdan öyrənən Vahid 1947-ci ildən ailəsi ilə birlikdə həmişəlik həyatını Naxçıvan şəhəri ilə bağlayır.

Naxçıvan Dövlət Dram Teatrında, xalq çalğı alətləri orkestrində tarzən, Naxçıvan dövlət konsert briqadasında ilk bədii rəhbər, 1950-ci ildən ömrünün sonuna kimi Naxçıvan Uşaq Musiqi Məktəbində müəllim işləmiş V.Axundov Azərbaycan xalq musiqisinin, xüsusən muğamların təbliğində, istedadlı tarzənlərin, musiqisevərlərin yetişməsində mühüm xidmətlər göstərmişdir.

Azərbaycan xalq musiqisinin bilicisi, Naxçıvanın əksər musiqisevərlərinin ilk müəllimi olan, görkəmli tarzən – pedaqoq Səfər Rəcəblinin xidməti əvəzsizdir. Səfər Abdulla oğlu Rəcəbli 1915-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. İki yaşında olarkən dünya balaca Səfər üçün zülmətə çevrildi. O, həyat işığından məhrum oldu. Lakin uşaq yaşamaq ümidini itirmədi. Başı qarışsın deyə, atası ona qaval aldı. Səfər qavalı əlindən yerə qoymadı. Günlər ötüşdü, bir müddətdən sonra Səfəri Naxçıvanda qavalın gözəl ifaçısı kimi tanıdılar. Uzaqdan onun məharətli, ritmik çalğısını eşidənlər deyirdilər ki: "Səfər çalır!". Xalq şənlikləri Səfərsiz ötüşməzdi.

Naxçıvanda məşhur tarzən kimi şöhrət tapan Səfər Rəcəblini o illərdə fəaliyyət göstərən tar dərnəyinə rəhbərlik etmək üçün Naxçıvan pioner və məktəblilər evinə dəvət edirlər. O Azərbaycanın ən gözəl musiqi alətlərindən birini gənc nəslə sevdirmək sahəsində öz səyini əsirgəmir. Səfər müəllimin bu nəcib zəhməti hədər getmir. Onun səyi nəticəsində Naxçıvanda bir çox istedadlı musiqiçilər, əsl mənada sənət vurğunları yetişərək ömürlərini musiqiyə bağladılar. Səfər sənətinin də ən böyük mənası məhz bundadır. Səfər Rəcəblinin şagirdlərinin sorağı bu gün respublikamızın müxtəlif musiqi ocaqlarından gəlməkdədir. Sevimli bəstəkarımız Nəriman Məmmədov, Azər Abbasov, Afət Novruzov, Ələkbər Ələkbərov, Nazim Kazımov, Aydın Məmmədov, Tariel Abbasov, Tağı Tağıyev və bir çox musiqisevərlər, ilk dəfə tar tutmağı Səfər müəllimdən öyrənmişlər.

Muxtar respublikanın 40 illik yubileyi günlərində şagirdi, bəstəkar Nəriman Məmmədovun təqdimatı ilə, Səfər Rəcəbliyə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adı verilir.

Naxçıvanda daha sistemli şəkildə musiqi təhsilinə ehtiyac duyulduğu zaman 1937-ci ildə Naxçıvan SSRİ Ali Sovetindən deputat seçilən dahi bəstəkarımız Üzeyir Hacıbəyov Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin əsasını qoydu. O, hətta musiqi məktəbinə "Berlin" markalı pianinonu və başqa musiqi alətlərini hədiyyə verib. Muxtar respublikamızın musiqi həyatının inkişafında bu musiqi məktəbinin xidməti əvəzsizdir.

Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Tapdıq Bağırov, Sahib Axundov, Səyavuş Əlizadə, Elxan Muradov, Azər Abbasov, Əkrəm Məmmədli, Nazim Quliyev, Nizami Məmmədov, Ələkbər Ələkbərov, Rəfail Kərimov, Vidadi Heydərov, Namiq Teymurov, Natiq Teymurov, Həsənağa Qurbanov, Tağı Tağıyev, Tariel Abbasov, Dünyamalı Abdullayev, Çingiz Axundov, İmamqulu Əhmədov, Zeynalabdin Babayev, Elman Əliyev, Əliağa Seyidov və bir çox başqaları öz yaradıcılıqları ilə muxtar respublikanın musiqi tarixinə səhifələr yazmışlar. Bu sənətkarlar, eyni zamanda pedaqoji fəaliyyət göstərərək yeni musiqiçilər nəsli yetirmişlər. Musiqi

məktəbinin əsasını qoyan ilk müəllimlərin əməyi daha diqqətəlayiqdir.

Naxçıvan musiqiçiləri arasında Rəşid Məmmədovun öz xüsusi yeri, çəkisi vardır. R.Məmmədov Naxçıvan şəhərinin qədim məhəllələrinin birində, Sarvanlılar məhəlləsində 2 fevral 1936-cı il tarixdə dünyaya göz açır. Taleyin çox ağır məşəqqətli günlərini yaşayan, hər iki valideynini vaxtsız itirən Rəşid Məmmədov uzun illər ailə qayğısı çəkmək, bacı, qardaşlarını böyütmə yükünü öz çiyinlərində daşımaq məcburiyyətində qalır. Lakin bütün çətinliklərə baxmayaraq qəlbində musiqi sənətinə duyduğu sevgi, məhəbbətdən də vaz keçə bilmədi. Musiqi elminə yiyələnmək üçün Rəşid Məmmədov 1953-cü ildə Naxçıvan şəhər Musiqi Məktəbini, 1957-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1967-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (Musiqi Akademiyası) bitirdi. Bu dövrdə Rəşid bir sıra görkəmli bəstəkar, musiqiçi, tanınmış pedaqoqlardan dərs almış və addım-addım istədiyinə nail olmuşdur. Onlardan Yusif Əliyev, Vahid Axundov, Məmməd Cavadov, Əhməd Bakıxanov, Ağabacı Rzayeva və başqalarını misal göstərmək olar.

Rəşid Rza oğlu Məmmədov Naxçıvan Musiqi Məktəbinə rəhbərlik etməyə başladığı gündən qarşısına, əsasən, yerli müəllim kollektivinin gücündən səmərəli istifadə edərək məktəbi gənc musiqiçilərin yetişib boya-başa çatdığı tədris ocağına çevirmək kimi nəcib bir vəzifə qoyur. Onun yetişdirdiyi ifaçıların əksəriyyəti Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə (Musiqi Kolleci), Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəblərinə qəbul olundular. Təsadüfi deyildi ki, Naxçıvanda musiqiçilər arasında belə bir deyimə tez-tez rast gəlinir: "Naxçıvanda əlində tar tutan hər kəs ya Rəşid müəllimin şagirdi, ya da şagirdinin şagirdidir".

Rəşid müəllim şagirdlərin texniki imkanlarını artırmaq məqsədi ilə Naxçıvanda ilk dəfə olaraq Səid Rüstəmovun "Tar məktəbi" dərsliyində verilən etüd və qammaların yuxarı sinif şagirdlərinə kütləvi şəkildə beş-altı, bəzən isə yeddi-səkkiz ştrixlə çaldırmağa başlamışdır. Bununla yanaşı, o "Melodik etüdlər" məcmuəsindən ayrı-ayrı nömrələri tədris proqramlarına daxil etmiş və istedadlı şagirdlərə öyrətməyə başlamışdır. Rəşid müəllim o dövrədək məktəbdə ifa olunmayan bir sıra Qərb və rus bəstəkarlarının əsərlərinin Azərbaycan milli musiqi alətləri tar və kamançada ifa edilməsinə nail oldu.

Rəşid Məmmədovun əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1967-ci və 1974-cü illərdə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanına, 1973-cü ildə Naxçıvan MSSR Əməkdar mədəniyyət işçisi fəxri adına, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına, 2006-cı ildə Prezident mükafatına layiq görülmüşdür. Təəssüflə qeyd etməliyəm ki, ürəyində cərrahiyyə əməliyyatı keçirmiş Rəşid Məmmədov həmin il haqq dünyasına qovuşdu.

Təxminən 1962-ci ildə Naxçıvan Musiqi Məktəbində Azərbaycanın çox gözəl bəstəkarlarından biri, yaradıcılığı ilə Üzeyir Hacıbəyov sənətinin davamçısı hesab edilən Xəlil Cəfərov müəllimlik fəaliyyətinə başladı. Qısa müddət ərzində Naxçıvanda yaşayıb-yaratmağına baxmayaraq Xəlil müəllim özəl dəsti-xətti ilə musiqiçilərin könlündə taxt qurdu. Xəlil Cəfərov ixtisas fənni (tar) ilə yanaşı, məktəbdə xalq çalğı alətləri orkestri yaratdı.

İfaçılıq sənətindən danışarkən fitri istedada malik tarzənlərdən olan Ələkbər Ələkbərovun yalnız özünəməxsus şirin barmaqlarını, qeyd etməmək olmur. Azərbaycan Dövlət Televiziyası və Radiosunun "Dan ulduzu" instrumental ansamblının ilk tarzən ifaçısı Ələkbər Ələkbərov olmuşdur. Naxçıvanda fəaliyyət göstərən "Araz" mahnı və rəqs ansamblının bədii rəhbəri vəzifəsində çalışmışdır. Sonralar Ələkbər Naxçıvan Dövlət Filarmoniyasının solisti kimi geniş konsert salonlarında yadda qalan çıxışlar etmişdir.

1965-ci ildən başlayaraq daha bir virtuoz-tarzən Əkrəm Məmmədli öz ifaçılıq texnikası ilə musiqisevərləri valeh edir. C.Cahangirovun tar üçün "Konserti", H.Xanməmmədovun tar üçün "Konsertləri", Ş.Qunonun "Faust" operasından "Valsfantaziya" əsəri, "Orta Mahur", "Çahargah" muğamları və eləcə də Cahangir Cahangirovun, Tofiq Quliyevin lirik mahnıları Əkrəmin repertuarının bəzəyi olmuşdur. Əkrəm Məmmədli 1944-cü ildə oktyabr ayının 1-də Naxçıvan şəhərində anadan olmuşdur. Fitri istedada malik olan Əkrəm çox erkən tar çalmağa başlayır. Bir çoxları kimi onun da bəxti gətirir. İlk dəfə onun da barmaqlarına, mizrab vuran əlinə görkəmli tarzən - pedaqoq Səfər Rəcəbovun "yüngül əli" dəyir, bəstəkar Rəşid Məmmədovdan ixtisas fənnini öyrənir.

A.Zeynallı adına Bakı şəhər Orta İxtisas Musiqi Məktəbində oxuyan zaman, onun iki hissədən ibarət verdiyi solo konsertləri, hələ də bir çox tanınmış musiqiçilərin xatirəsindən silinməyibdir. Qeyri-adi ifa texnikasına malik olan Əkrəmin tarının səsi, onun ifaçılıq mədəniyyətinin səviyyəsi, yaradıcılığı haqqında söz-söhbətlər bu gün də eşidilməkdədir.

Nazim Kazımov 4 aprel 1950-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Tanınmış tarzən Nazim Kazımov 1961-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinə daxil olmuşdur. Burada o, ixtisas müəllimi Sahib Axundov, muğam ustadı Vahid Axundovdan mükəmməl təhsil alır. Eyni zamanda gənc tarzən Naxçıvan şəhər Pioner və Məktəblilər Evinin (Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzi) tar dərnəyində ustad pedaqoq Səfər Rəcəbovdan da tar çalmağın sirlərini öyrənir. O, 1966-cı ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə, 1968-ci ildə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur. Beləliklə, Nazim Kazımov Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində, Azərbaycan Dövlət Universitetində təhsil almaqla yanaşı, Əli Bayramlı şəhər Uşaq Musiqi Məktəbində də bacarıqlı müəllim kimi fəaliyyət göstərir. Böyük zəhmət hesabına Nazim müəllim bu işlərin üçünü də bir arada tutmağa nail olmuşdur.

1978-ci ildə Nazim Kazımov Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. Nazim Kazımov gərgin iş cədvəlinə bir an da olsun ara verməmiş və son illər Azərbaycanın mədəni həyatına dair 5 monoqrafiya, 3 həmmüəllifi olduğu dərs vəsaiti, onlarla elmi-publisistik məqalə yazmışdır. Göründüyü kimi, Nazim müəllim bu gün də yorulmadan yaradıcılıq fəaliyyətini davam etdirir. O, Azərbaycan Milli Konservatoriyasının professoru kimi üzərinə düşən vəzifənin öhdəsindən şərəflə gəlir. Fərəhli haldır ki, dövlətimiz professorun əməyini layiqincə qiymətləndirərək onu 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görmüşdür.

Görkəmli musiqiçilərdən Tariyel Abbasqulu oğlu Abbasov 10 mart 1953-cü ildə Naxçıvan şəhərində milyonçu ailəsində anadan olmuşdur.

1964-cü ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin tar sinfinə daxil olan Tariyel ixtisas üzrə əvvəlcə gənc mütəxəssis Azər Abbasov, sonra virtuoz-tarzən Əkrəm Məmmədli, muğam sənətini isə qocaman ustad Yusif Əliyevdən öyrənmişdir. 1969-cu ildə Tariyel musiqi məktəbini bitirir. Hərbi xidməti başa vuran və bir müddət əmək fəaliyyəti ilə məşğul olan Tariyel Abbasov 1975-ci ildə yenicə açılmış Üzeyir Hacıbəyov adına Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbinə daxil olur. Məktəbin ilk şagirdləri kimi o və onun tələbə dostları böyük məsuliyyət hissləri keçirirdilər. Belə ki, məktəbin gələcəyi bir musiqiçi kimi onların peşəkarlığından əldə ediləcək nailiyyətlərdən çox asılı idi. Onu da qeyd etməliyəm ki, ixtisas müəllimi Arif Məhərrəmov başda olmaqla gənc Tariyel Abbasov və onun həmkarları Tağı Tağıyev, Məmməd Xəlilov, Səyavuş Heydərov, Bəxtiyar Hümbətov bu işin öhdəsindən bacarıqla gələrək Naxçıvan tar və kamança ifaçılıq məktəbinin möhtəşəm ənənələrini davam etdirmiş və solo ifaçıları kimi müxtəlif qələbələrə imza atmışlar. 1979-cu ildə Orta İxtisas Musiqi Məktəbini bitirən Tariyel Abbasov Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (Musiqi Akademiyası) daxil olur. Konservatoriyada o, görkəmli bəstəkar, dirijor, Azərbaycan Respublikasının Xalq artisti, professor Səid Rüstəmovun sinfinə təyin edilir. Səid Rüstəmov gənc tarzənin təhsilə münasibətindən, ifaçılıq qabiliyyətindən çox razı idi. Verilən tapşırıqları qısa müddətdə yerinə yetirən tələbənin boş vaxtlarının çox olduğunu hiss edən professor ona musiqi məktəblərinin birində işləməyi tövsiyə edir. Beləliklə, Tariyel Abbasov II kursda oxuya-oxuya (1980) Bakı Şəhər 3 saylı Uşaq Musiqi Məktəbinə işə düzəlir. Uğurlu müəllimlik fəaliyyəti tezliklə Tariyeli yeni iş yerinə, Azərbaycan Dövlət Konservatoriyasına gətirir. 1988-1955-ci illərdə burada çalışan Tariyel müəllim paralel olaraq Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblında solo tarzən kimi də fəaliyyətini davam etdirir.

Azərbaycan musiqi mədəniyyəti tariximizi hər dəfə araşdırdıqda onun zənginliyinin nə qədər geniş kök üzərində qurulduğunun bir daha şahidi olursan. Bu mədəniyyətin yaradılmasında isə görkəmli şəxsiyyətlərdən biri də musiqi tariximizdə xüsusi yeri olan tarzən Tağı Tağıyevdir.

Tağı Fərman oğlu Tağıyev 27 may 1951-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbini 1970-ci ildə bitirən istedadlı balaca Tağının yetişməsində, mükəmməl musiqiçi kimi formalaşmasında müəllimləri Vahid Axundovun və Azər Abbasovun

xüsusi əməyi olub. Musiqi məktəbində təhsil almaqla bərabər Tağı müəllim həm də pionerlər tar dərnəyində iştirak edirdi. Pionerlər dərnəyində müəllimi Səfər Rəcəbli gözlərindən əlil olmasına baxmayaraq Tağı Tağıyevə həvəslə tarın sirlərini öyrədirdi. 1969-cu ildə Tağı Tağıyev musiqinin 5-ci sinfində təhsil alarkən müəllimlərinin dəstəyi ilə gənc yaşında müəllim işləməyə başlayır. İllər keçdikcə özünü sənətində təkmilləşdirən tarzən yaşının az olmasına baxmayaraq saysız-hesabsız tələbələr yetişdirir. Tarzən 1975-ci ildə müəllim işləməklə bərabər təhsilini də davam etdirir və Orta İxtisas Musiqi Məktəbinə daxil olur. Burada təhsilini daha da möhkəmləndirən Tağı Tağıyevin müəllimi istedadlı tarzən Arif Məhərrəmov olub. O, Arif Məhərrəmovdan sadəcə tarın deyil, muğamın da sirlərini öyrənir. 1979-cu ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilən xalq çalğı alətləri ifaçılarının müsabiqəsində iştirak edən Tağı Tağıyev müsabiqənin laureatı olur. Azərbaycan muğamının sirlərinə daha dərindən yiyələnmək üçün tarzən 1980-ci ildə Konservatoriyaya daxil olur və elə həmin ildə də Sultan Hacıbəyov adına Musiqi Texnikumunda müəllim vəzifəsinə təyin olunur. 2007-ci ildə Tağı Tağıyev dövlət tərəfindən də öz layiqli qiymətini alır. Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi adına layiq görülür.

Son illər muxtar respublikada geniş vüsət alan ifaçılıq məktəbi sayəsində yeni simalar üzə çıxır. Bir də bu sənəti yorulmadan təbliğ edən, bu yolda Fərhad kimi külüng çalan Dünyamalı Abdullayev kimi müəllimlər də var. Dünyamalı müəllim 1955-ci ildə Naxçıvan şəhərində anadan olub. Kiçik yaşlarından tara maraq göstərən sənətkar 1962-ci ildə Naxçıvan Mədəniyyət Evində tar dərsləri alır. 3 il burada təhsil alan tarzən 1965-ci ildə Naxçıvan 1 №-li Uşaq Musiqi Məktəbinə daxil olur. Məktəbdə o, tarın sirlərini geniş şəkildə öyrənir. Tarı ona daha çox sevdirən isə muğam və ixtisas müəllimləri tanınmış tar ifaçılarından Yusif Əliyev və Rza Abbasov olur. 1970-ci ildə Uşaq Musiqi Məktəbini bitirdikdən sonra, 1971-ci ildə “Araz” mahnı və rəqs ansamblında işləyir. 1976-cı ildə Üzeyir Hacıbəyov adına Orta İxtisas Musiqi Məktəbinə daxil olur. Kollecdə müəllimi Əkrəm müəllim olub. Musiqi məktəbini bitirdikdən sonra 1976-cı ildə Babək rayon Musiqi Məktəbində müəllim işləyir. 1981-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsini qiyabi bitirir. 1982-ci ildə Babək rayon Cəhri kənd Uşaq Musiqi Məktəbinə dərs hissə müdiri və 1985-ci ildə isə direktor vəzifəsinə təyin olunur. 2006-cı ildən Naxçıvan Musiqi Kollecində müəllim işləyir. 2015-ci ildə isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adını alır.

İllər ötüb keçdikcə gələn yeni nəsillər özlərindən əvvəlki korifeylərin yaradıcılıq potensialının sirlərini öyrənərək onların yaradıcılığının üstün keyfiyyətlərini mənimsəməklə özlərinin yeni istedadlarını üzə çıxaracaq, tar ifaçılıq sənətinin daha da inkişaf etdirilməsinə öz töhfələrini verəcəklər.

## ƏDƏBİYYAT


1. Abdullayeva Səadət. Azərbaycan xalq çalğı alətləri. Bakı: 2002, “Adiloğlu”
2. Bakıxanov Tofiq. “Humayun” simfonik muğamı. Bakı: 2007, “E.L” Nəşriyyat və Poliqrafiya Şirkəti MMC
3. Bədəlbəyli Fərhad., Abdullazadə Gülnaz., Rəcəbov Oqtay. Azərbaycan bəstəkarlarının uşaq mahnıları. I cild. Bakı: 2010, “Mütərcim”
4. Babayev Elxan. Azərbaycan muğam dəstgahlarında ritm intonasiya problemləri. Bakı: 1996, “Ergün”
5. Bakıxanov Tofiq. Azərbaycan və İran musiqiçilərinin qarşılıqlı əlaqələri. Bakı: 2006, “Adiloğlu”
6. Dadaşova L., Qalabəyova A. Azərbaycan musiqi ədəbiyyatı müntəxəbatı. Bakı: 2011, “E.L” Nəşriyyat və Poliqrafiya Şirkəti MMC
7. Əbdülqasımov Vaqif. Azərbaycan tarı. Bakı: 1989, “İşıq”
8. Əmirov Fikrət. Musiqi səhifələri. Bakı: 1978, “İşıq”
9. Hacıbəyli Üzeyir. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: 2010, “E.L” Nəşriyyat və Poliqrafiya Şirkəti MMC
10. Hacıbəyli Üzeyir. Azərbaycan xalq musiqisinin əsasları, 1999. Bakı: 2010, “Apostrof”

11. İsazadə Əhməd., Məmmədov Nəriman. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı: 1984, “Elm”
12. Rəhmətov Əvəz. Azərbaycan xalq çalğı alətləri. Bakı: 1975, “İşıq”
13. Kərimov Rafael. Naxçıvan musiqi mədəniyyəti tarixindən. Bakı: 2012
14. Qulamova Jalə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqinin rolu və əhəmiyyəti. Bakı: 2011, “Mars-Print”
15. Qasımova Solmaz., Hacıbəyov Üzeyir., Maqomayev Müslüm. Azərbaycan el nəğmələri. Bakı: 1985, “İşıq”
16. Səfərova Zemfira. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: 2006 , “Azərnəşr”
17. Vəzirov Cəlil. İllərin nəğmə yaddaşı. Naxçıvan: 2001
18. Zöhrabov Ramiz. Azərbaycan muğamları. Bakı: 2013, “Təhsil”
19. Zeynalova F., İsmayılov M. İbtidai musiqi nəzəriyyəsi. Bakı: 2008, “İnkişaf şirkəti”
20. Zöhrabov Ramiz. Azərbaycan muğamları. Bakı: 2013, “Təhsil”
21. Səfərova Zemfira. Azərbaycanın musiqi elmi. Bakı: 2006, “Azərnəşr”

## SUMMARY

**Ismayıl Mursalov**

## NAKCHIVAN TAR SCHOOL'S PLACE IN THE PERFORMANCE OF FOLK INSTRUMENTS

The article describes in detail the extensive development of the tar instrument by professional musicians who lived and created in Nakhchivan, and as a result, the tar went on a great path of development. From time to time, people transferred the music from the hum of the tongue to the fingers and began to play this magical sound on various musical instruments invented by him - wind, string, and percussion instruments. From time to time, people have developed their musical skills and tried to convey the content and idea of the work to the listeners.

***Key words:*** *Nakhchivan, tar, music, art, mugham, teacher, composer, work, culture, school*

## РЕЗЮМЕ

**Исмаил Мурсалов**

## МЕСТО НАХЧИВАНСКОЙ ТАРСКОЙ ШКОЛЫ В ИСПОЛНЕНИИ НАРОДНЫХ ИНСТРУМЕНТОВ

В статье подробно описано широкое развитие тарного инструмента профессиональными музыкантами, жившими и творившими в Нахчыване, в результате чего тар пошел по большому пути развития. Время от времени люди переносили музыку с гула языка на пальцы и начинали играть этот волшебный звук на различных изобретенных им музыкальных инструментах — духовых, струнных, ударных. Время от времени люди развивали свои музыкальные способности и пытались донести до слушателей содержание и идею произведения.

***Ключевые слова:*** *Нахчыван, тар, музыка, искусство, мугам, учитель, композитор, произведение, культура, школа*

---

***Məqaləni çapa təqdim etdi:*** *Sənətşünaslıq elmləri doktoru, dosent İnara Eldar qızı Məhərrəmova*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 47-56
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 47-56
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 47-56

# TARİX

**EMİN ŞIXƏLİYEV**
*emin.amea@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.007**

## ERMƏNİLƏRİN "XRİSTİANLIĞIN İLK ŞƏHİD MİLLƏTİ" İDDİASI VƏ ONUN BEYNƏLXALQ SİYASƏTDƏ YERİ

*Məlum olduğu kimi, heç bir hüquqi və elmi əsası olmayan erməni iddiaları tamamilə mifoloji düşüncələr üzərində qurulub möhkəmlənmişdir. Həmin iddialardan biri də "xristianlığın ilk şəhid milləti" iddiasıdır. Ümumiyyətlə, ermənilər region dövlətlərinə qarşı ərazi iddialarını qanuniləşdirmək və törətdikləri əməllərə bəraət qazandırmaq üçün din amilini başlıca silah olaraq əldə tuturlar. Həmin strategiyanın əsası isə bundan ibarətdir: dünya ictimaiyyətinin gözündə "dünyanın ilk xristian etnosu və dövləti", "xristianlığın Qafqazdakı varisləri və qalası", "xristianlığın ilk şəhid milləti" kimi obrazların yaradılması. Şübhəsiz ki, bu strategiyanın pərdə arxasında müəyyən gizli planlar yatır. Məqalədə ermənilərin "xristianlığın ilk şəhid milləti" iddiası və onun beynəlxalq siyasətdəki yeri bütün təfsilatı ilə araşdırılaraq təhlil edilmişdir.*

***Açar sözlər:*** *Erməni kilsəsi, din strategiyası, "ilk xristian dövlət" iddiası, "xristianlığın ilk şəhid milləti" iddiası, "böyük Ermənistan" ideologiyası*

### Giriş

Məlum olduğu kimi, ermənilər "böyük erməni tarixi"ni yaratmaq üçün "Nuhun nəvələri və varisləri", "vəd olunmuş torpaqlar", "yer üzünün ilk xristian etnosu və dövləti" kimi iddialar ortaya atmaqda, tarixlərini real olaraq deyil, görmək istədikləri kimi dəyişdirməyə çalışmaqdadırlar. Bu cəhdlər ermənilərin tarixini əfsanə və mifologiyalarla sıx surətdə birləşdirmişdir. Digər iddialardan biri də "xristianlığın ilk şəhid milləti" iddiasıdır ki, bu da 1915-ci il hadisələrinə dini don geyindirərək məsələni müsəlman-xristian toqquşması kimi bütün dünya ictimaiyyətinə təhrif olunmuş şəkildə tanıtmaqdan ibarətdir. Ermənilər bu vasitə ilə qonşu ölkələr üzərindəki ekspansionist əməllərini gerçəkləşdirmək niyyətindədirlər. Bu strategiyanın qaranlıq pərdəsi altında əlbəttə ki, müəyyən gizli planlar yatır. Qədim sivilizasiya, inzibati-ərazi, dini iddiaları özündə ehtiva edən bu strategiya ilə yola çıxan erməni kilsəsinin, millətçi ideoloqların qarşısında duran başlıca məqsəd və hədəf "böyük Ermənistan" ideologiyasının reallaşmasıdır. Bir məsələni qeyd etmək lazımdır ki, bu kimi iddiaların ortaya atılması sadəcə ermənilər üçün deyil, bundan siyasi və dini vasitə kimi istifadə etməyən çalışan aparıcı güclər üçün də son dərəcə əlverişli bir vasitə olmuşdur.

***1915-ci il hadisələrinin pərdəarxası və tarixi reallıqları***

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, 1915-ci il hadisələri ermənilərin milli düşüncəsində **"Böyük Fəlakət – Meds Yeqhern"** (20, s.3), Qərb dünyasında isə **"tarixdə soyqırımına məruz qalmış ilk xristian millət"** olaraq xarakterizə olunur. Məhz bu düşüncənin təsiridir ki, ermənilər Qərb xristian dünyasından ilham alaraq hər il aprel ayının 24-də soyqırımı iddialarını bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirirlər. Halbuki ermənilərin iddia etdikləri bu hadisə soyqırımı olmayıb. Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərə qarşı törədilən qırğınların qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Belə ki, 24 aprel 1915-ci ildə erməni komitələri və partiyalarının fəaliyyətinə son verilmiş, İstanbulda yüzlərlə erməni terroristi həbs edilmişdir. Bəzi tədqiqatçılara görə, bu rəqəm **2345** (5, s.186; 9, s.213; 18, s.22; 19, s.146), digərlərinə görə isə **235**-dir (24, s.88; 27, s.78). Yəni

burada heç bir ölüm və cinayət hadisələrindən söhbət gedə bilməz. Ermənilər komitə üzvlərinin həbs edildiyi 24 aprel tarixini soyqırımı günü elan etmişlər. Əgər söhbət osmanlılar tərəfindən ermənilərin təhcirindən gedirsə, onların yerlərinin dəyişdirilməsinə qərar verilən təhcir (köç) qanunu 27 may 1915-ci ildə qəbul edilmişdir (12, s.61; 19, s.259; 22, s.131). Yəni "24 aprel" ermənilərin iddia etdikləri kimi soyqırımına səbəb olan köçürülmə tarixi deyil, Daşnaksütyun, Hınçak, Ramqavar kimi komitə üzvlərinin həbs olunduğu tarixdir. Həbs olunan ermənilər sıravi vətəndaş olmayıb, komitə və terror təşkilatlarının üzvləri olduqları ingilis kəşfiyyat orqanları tərəfindən də doğrulanmışdır. Misirdəki ingilis hərbi idarəsinə göndərilən məlumatda göstərilir: 24 aprel 1915-ci il tarixdə 3 erməni ruhanisi, erməni qəzeti "Puzantion"un sahibi də aralarında olmaqla çox sayda erməni ələ keçirilmişdir, tezliklə onlar Ankaraya göndəriləcəklər. Həbs olunanların 500-ü Daşnak, 500-ü Hınçak, digərləri isə Ramqavar təşkilatının üzvləridir (5, s.186).

Qeyd edilməsi vacib olan məsələlərdən biri budur ki, təhcir (köçürülmə) və buna bağlı olaraq "erməni soyqırımı" adıyla önə sürülən hadisələrin əsl kökü Osmanlı dövlətinin hər müstəqil dövlət kimi müharibə əsnasındakı qanuni müdafiə hüquqlarını qorumaq istəməsindən qaynaqlanmışdır. Bu da bir həqiqətdir ki, 1915-ci ildə qəbul edilən "Təhcir Qanunu" sadəcə ermənilərə deyil, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edənlərə qarşı tətbiq edilmişdir. Qanun mətnləri incələndiyində "erməni" kəlməsinə rast gəlinmir (3, s.124; 19, s.149; 23, s.605).

Burada soyqırımı ifadəsinə həm lüğət baxımından, həm də beynəlxalq hüquq qaydaları baxımından açıqlıq gətirməyi son dərəcə vacib hesab edirik. Etnik, milli və dini səbəblər üzündən silahsız və müdafiəsiz insanların kökündən məhv edilməsi soyqırımıdır (21, s.630-631). Həqiqətən də Osmanlı vətəndaşı olan silahsız və müdafiəsiz erməni xalqı türklər tərəfindən milli və dini səbəblər üzündən soyqırımına məruz qaldımı?

Tarix boyunca etnik azlıqlarla münasibətlərini müasir dövlətlərdən belə üstün bir səviyyədə quran Osmanlı dövlətinin XX əsrdə belə bir cinayətə baş vura biləcəyini düşünmək son dərəcə yanlışdır. Hər şeydən əvvəl ona görə ki, əgər milli baxımdan sırf ermənilər hədəf alınsaydı, Osmanlı dövründə onlardan paşa, nazir, millət vəkilləri çıxa bilərdimi?

Osmanlı imperiyasındakı azlıqların vəziyyəti obyektiv baxışla dəyərləndirilərsə, ermənilərin və hətta rumların dil və din azadlığına sahib olduqları, hərbi xidmətə çağırılmadıqları, ticarət haqqını əldə etdikləri, dövlətin üst səviyyəli postlarında yer tutduqlarını görmək olar. Tarixi materiallarda vaxtilə milləti-sadıka (sadiq millət) olaraq xarakterizə edilən ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 başkonsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur olduğu göstərilir (ətraflı məlumat üçün bax: 3, s.121; 15, s.137-152; 19, s.9; 38). Hətta Osmanlı dövlətində ermənilərə "əhli-kitab" statusu içərisində dini tolerantlıq da göstərilmiş, çox sayda erməni kilsəsinin açılmasına icazə verilmişdir (7, s.156-158).

Göründüyü kimi, çoxsaylı uydurma və yalanların əksinə, ermənilər Osmanlı dövlətində maddi rifaha və xoş güzərana, iqtisadi və mədəni tərəqqiyə nail olmuşdular. Onlar bir sıra aparıcı amilləri əsas götürərək, xeyli sərvət toplamış və iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdilər (1, s.56).

Başbakanlıq Osmanlı arxivindəki sənədlər və bir çox elmi araşdırmaların nəticələri də bu fikrə şərik çıxır ki, XVIII-XIX əsrlərdə Osmanlı iqtisadiyyatında ermənilər olduqca üstün mövqelərə malik olmuşlar (36; 37). Belə bir vəziyyətdə osmanlının ermənilərə soyqırımı tətbiq etdiyi şəklində önə sürülən iddiaların əsassız olduğu ortaya çıxır. Erməni iddialarının əksinə soyqırımına məruz qalan onlar deyil, türklər olmuşdular. Türkiyənin "Hərbi Tarix və Strateji Etüd Dairəsi Başqanlığı Arxivi"nin (Askeri Tarih ve Stratejik Etüt Dairesi Başkanlığı Arşivi - ATASE) sənədlərində qeyd olunan məlumatlara görə, erməni kilsəsi və təşkilatlarının da bilavasitə dəstəyi ilə Anadolu türklərinə qarşı soyqırımı gerçəkləşdirilmişdir (32, s.1; 33, s.33; 34, s.83; 35, s.159). Yenə eyni sənədlərə görə, türklərə qarşı genişmiqyaslı cinayətlər törədən Hınçaq, Daşnaksütyun və digər təşkilatlar Osmanlı Məclisindəki millət vəkilləri tərəfindən dəstəklənmişdi (33, s.41).

Erməni tarixçisi Dikran Kevorkyan yazır ki, Osmanlı dövlətinin ermənilərə qarşı yaxşı niyyətini, müsəlmanların ermənilərə eyni vətənin övladları olaraq göstərdikləri qardaşlıq duyğularını istismar edən komitələr dövlətin təməlinə dinamit qoymaqdan, vətən xaini olmaqdan, iki xalq arasında kin və nifaq toxumları əkməkdən əl çəkməmişlər. Onlar hər fürsəti dəyərləndirmiş, məqsədlərinə çatmaq üçün

hər yola baş vurmuşlar. Xüsusilə bu yolda ruhani liderlərindən, müəllimlərdən, əli qələm tutanlardan öz niyyətlərinin həyata keçirilməsində istifadə etmişlər (14, s.245).

Ermənilərin təşkilatlanaraq silahlı dəstələr yaratdıqları sənədlərlə isbatlandığına görə, cərəyan edən hadisələrə birmənalı olaraq "soyqırımı" demək yerinə, ermənilərdən qaynaqlanan və onların başlatdığı "üsyan" və bu üsyana qarşı Osmanlı dövlətinin öz qanuni səlahiyyətlərindən istifadə edərək aldığı tədbirlər, desək, daha doğru bir ifadə olar. Dünya miqyasında dövlətlərin bu cür tədbirlər aldığına dair çoxlu nümunələr mövcuddur. Məsələn, 1939-40-cı illərdə Fransa hökuməti Almaniyanın sərhəd bölgələrində yaşayan elzasları Fransanın cənub-qərbində yerləşən Dordoqnaya köçürmüşdü. Eyni şəkildə Amerikan hökuməti də Yaponiyanın gerçəkləşdirdiyi Pörl Harbur hücumundan sonra yapon mənşəli amerikan vətəndaşlarını Pasifikdən alaraq Missisipi vadisinə köçürmüşdü (24, s.42).

Təhcir qanunu çərçivəsində ermənilərin maddi baxımdan zərər görməmələri və geridə qalan mallarının tam dəyəri hesablanaraq sahiblərinə verilməsinə dair dövlət tərəfindən alınan tədbirlər soyqırımı iddialarını tarixi faktlarla çürüdən dəlillərdir (bu barədə bax: 32, s.129). Təhcir məsələsini soyqırımı olaraq dünya dövlətlərinin müzakirəsinə çıxaran ermənilər köç vaxtı ölən insanların sayını da mübaliğəli olaraq artırmaqdadırlar. Onlar bu rəqəmi 1,5 milyon olaraq göstərirlər. Halbuki, o tarixlərdə Osmanlı imperiyasının sərhədləri daxilində bu qədər erməni yaşamırdı. Amerikalı tarixçi Prof. Dr.Stanford Şav (Stanford Shaw) həm Osmanlı, həm də Qərb mənbələrinə istinad edərək, 1890-cı ildə Osmanlı dövlətində 12.585.950 müsəlmana qarşılıq 1.139.053 erməninin, 1897-ci ildə 14.111.945 müsəlmana qarşılıq 1.162.853 erməninin, 1906-cı ildə 15.518.478 müsəlmana qarşılıq 1.140.563 erməninin və 1914-cü ildə isə 15.044.846 müsəlmana qarşılıq 1.229.007 erməninin yaşadığı haqda çox maraqlı məlumatlar ortaya qoyur (28, s.330).

Göründüyü kimi, XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlı dövlətinin sərhədləri içərisində yaşayan ermənilərin sayı 1 milyon ilə təxminən 1,3 milyon arasında dəyişir. Digər bir tərəfdən, tarixi mənbələrdə təhcir qərarına əsasən, 700 min erməninin köçürülməsi ilə bağlı məlumatlar göstərilir (29, s.300; 30, s.34; 31, s.25). Görkəmli türk tarixçisi Kamuran Gürün qeyd edir ki, ermənilər tərəfindən göstərilən ölü sayısı 1915-ci ildə 300 mindən başlamış, 1980-ci illərdə 2 milyona çatmışdır. İllər keçdikcə bir millətin əhalisinin artması normal bir hadisədir, lakin müəyyən bir tarixdə ölmüş insanların zaman keçdikcə sayının artması isə çox qəribə bir icaddır (9, s.223).

Müqayisəli təhlillər əsasında ortaya çıxan məqam budur ki, 1,5 milyon ermənininin soyqırımına uğradığı şəklində ortaya atılan iddialar heç bir reallığı əks etdirmir. Tərəfsiz olaraq məsələyə yanaşılarsa, ortada soyqırımı kimi bir hadisənin baş vermədiyi açıqca görülə bilər. Əgər bu qədər insan kütləvi qırğına məruz qalıbsa, o zaman Birinci Dünya müharibəsi sonunda sayları 1 milyonu keçən erməni əhalisi necə sağ qalmışdır? Eyni zamanda 1915-ci ildən sonra Fransa, ABŞ, İngiltərə, Rusiya, İran, Suriya və s. ölkələrə gedən ermənilərin saylarının o ölkələrin əhalisinin qeydiyyata alınması ilə bağlı statistik materialları əsasında öyrənilməsi və hal-hazırda bu ölkələrdə yaşayan ermənilərin sayının təsbit edilməsi iddia edilən soyqırımın törədilib-törədilmədiyini ortaya qoyur.

Burada diqqəti çəkən başqa bir məqam da var. Əgər iddia edildiyi kimi, 1,5 milyon erməni öldürülübsə, onlar harada dəfn olunublar? Kütləvi məzarlıq haradadır? Soyqırımı kimi ağır ittihamlarla çıxış edən ermənilər sübut üçün kütləvi məzarlığı göstərmək məcburiyyətindədirlər.

Köç əsnasında insanların müxtəlif xəstəliklərdən ölməsi mümkündür. Bu inkaredilməz həqiqətdir, lakin bu hadisələri soyqırımı adlandırmaq mümkündürmü? Digər bir tərəfdən, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edən erməni fəaliyyətləri qarşısında hökumət hansı addımı atmalıydı? Bu dövlətin sərhədləri daxilində yaşamasına baxmayaraq, xəyanət edənlərə qarşı osmanlının həm hüquqi baxımdan, həm də təhlükəsizliyini qorumaq düşüncəsi ilə belə bir yola baş vurması qanun çərçivəsində deyildirmi?

Amerikalı tarixçilər Castin və Karolin Makkarti qardaşları yazırlar ki, ermənilərin bəzi bölgələrdən köçürülməsinə yönəlik Osmanlı hökumətinin niyyəti xarici qüvvələrlə əməkdaşlıq içərisində olan ermənilərin üsyan hərəkətlərinin təhlükəli səviyyəyə çatmasına mane olmaqdı. Bu niyyət tamamilə hərbi təhlükəsizlik səbəbindən qaynaqlanırdı. Ermənilərin strateji bölgələrdəki varlığını dövlət üçün təhlükə olaraq dəyərləndirən hökumət onları bu bölgələrdən uzaqlaşdırmağı

qərara aldı (26, s.52).

Hadisələri sırf obyektivlik prizmasından dəyərləndirsək, görərik ki, hər iki tərəfdən də ölənlər və öldürülənlər olmuş, hər iki tərəf də ağır nəticələrlə qarşılaşmışdır. Amma bu soyqırımı deyil, müharibə idi. Eyni zamanda məsələnin dərinliyinə endikcə, köçürülmə hadisəsinə rəvac verən amilin Osmanlı dövləti deyil, bilavasitə erməni komitələri və təşkilatları olduqları açıqca görülə bilər. Əgər onların başlatdıqları üsyanlar və Osmanlı dövlətinin parçalanmasına yönəlik xarici qüvvələrlə əməkdaşlıq fəaliyyətləri olmasaydı, heç şübhəsiz ki, təhcir (köç) hadisəsinə ehtiyac qalmayacaqdı.

Osmanlı dövlətinin ermənilərin düşmənlərlə əməkdaşlıq çərçivəsində üsyan və qırğın hərəkətlərinin artması səbəbiylə aldığı tədbirlər və bu tədbirlərin tətbiq olunması əsnasında müxtəlif səbəblərdən dolayı meydana gələn itkilər ermənilər tərəfindən dünya dövlətlərinin diqqətini çəkmək üçün təbliğat silahı olaraq istifadə edildi. Bugünkü siyasət də eyni istiqamətdə aparılmaqdadır. Lakin diqqəti çəkən əsas məqam ondan ibarətdir ki, ermənilər 1915-ci il hadisələrini dini motivlərlə süsləyərək təhlükəli bir strategiyaya baş vurmaqda və beləliklə, xristian dünyasının diqqətini öz üzərlərinə çəkməyə çalışmaqdadırlar.

**Dini motivlər üzərində qurulan 1915-ci il hadisələri: "xristianlığın ilk şəhid milləti" iddiası və Qərb dünyasının mövqeyi**

Bu iddia bilavasitə 1915-ci ildə baş vermiş hadisələrlə bağlıdır ki, həmin iddiaların arxasında erməni kilsəsi dayanır. Kilsə "qondarma erməni soyqırımı hekayəsi"ni əfsanələşdirmiş, uydurulan soyqırımı ilə Nuh tufanı arasında məntiqsiz bir əlaqə quraraq, erməni-türk düşmənçiliyini daha da gərginləşdirmişdir. Bu əfsanəyə görə, guya Tanrı tərəfindən "seçilmiş bir millət" olan ermənilərin Tufan hadisəsindən sonra nə qədər dözümlü və əzmli bir xalq olduğu ortaya çıxmışdır. Yəni Tanrı onları Nuh tufanı ilə sınağa çəkmiş, ermənilər də bu sınaqdan uğurla çıxmışlar. İddiaya görə, birinci imtahandan müvəffəqiyyətlə çıxan erməniləri Tanrı ikinci dəfə də imtahana çəkib ki, bu imtahan da əfsanələşdirilən "erməni soyqırımı" iddiasıdır. Guya ermənilər kütləvi surətdə məhv edilmək istənilmiş, amma bütün bunlara baxmayaraq öz iradəsi, dözümü və əzmi sayəsində millət olaraq tarix səhnəsindən silinməmişlər. Ermənilər arasında yayılan inanca görə, birinci fəlakət tufandırsa, ikinci fəlakət də türklərdir. Buna görə də, türklər ermənilər tərəfindən insan kimi deyil, simvolik olaraq təbii fəlakətlərin meydana gətirdiyi hadisələrin sinonimidir (16, s.41). Erməni kilsəsi tərəfindən şüuraltına belə düşüncələr yerləşdirilmişdir ki, guya ermənilər Allahın lütfü ilə necə ki, tufanda məhv olmamış və ardından bütün dünyaya yayılaraq ana vətənlərinə qayıtmaq gücünü özlərində tapa bilmişdilərsə, 1915-ci il hadisələrindən sonra da həyatda qalmağı bacarmışlar (17, s.103). Amerikan tədqiqatçısı Səmyuel Uimz bu barədə yazır: "Ermənilər xristian dünyasının içində dönə-dönə nağıllar söyləyərək, özlərinin İisus Xristos yolunda əzabkeş millət olması haqqında xristian dünyasında ictimai fikir yaratmaq istəmişlər. Ermənilər xristian olmayan hər şeyin xristianlığa qarşı ziyan, qorxu və nifrət olması təsəvvürünü formalaşdırırlar. Bu günlər ermənilərin danışdığı ən böyük nağıl isə bundan ibarətdir ki, guya 1915-ci ildə onların 1.5 milyon nəfər ulu babası türklər tərəfindən qətlə yetirilmişdir və bu, iyirminci əsrin ilk genosid nağılıdır..." (2, s.62).

Daha sonra o, yazır: "...Ermənilər iddia edirlər ki, onlar əvvəlcə öldürülmüş və sonra - onlar bu cür yaxşı xristian olduğundan 1.5 milyon nəfəri İisus kimi zühur etmişdir. Hər şey bir yana, erməni liderləri xəyali genosidi "çarmıxa çəkilmə", yeni diktator ölkənin yaradılmasını isə İisus kimi "zühur etmək"lə müqayisə edirlər. Bu saxtakarlıqdır!..." (2, s.177).

Bu soyqırımı əfsanəsindən bir amil olaraq istifadə edib millətin beynini zəhərləyən erməni kilsəsi terror təşkilatlarını da hər vəchlə dəstəkləmişdir. Ermənilərin milli psixologiyasına görə, dünyanın bütün xristian ölkələrinin ermənilərin haqq səsinə cavab və dəstək vermələri zəruridir. Hər şeydən əvvəl ona görə ki, ermənilər "xristianlığın ilk şəhid milləti"dir. Bu metod da ermənilərin "din" strategiyasının əsas istiqamətlərindən biridir. "Xristianlığın ilk şəhid milləti" iddiası ilə ermənilər 1915-ci il hadisələri ilə yəhudi soyqırımı arasında əlaqə qurmağa çalışaraq, həmin metodla torpaq və təzminat almaq niyyətindədirlər.

Məlum olduğu kimi, faşistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdi. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin kütləvi surətdə öldürülmələrinə hökm verilmiş və bu hökm dövlət siyasəti olaraq həyata keçirilmişdi. Kütləvi soyqırımı yəhudiləri vahid mərkəzdə birləşməyə aparıb çıxardı. Nəticədə

onlar öz milli və dini birliklərini qorumaq üçün Yaxın Şərqdə bir dövlət qurdular. Bu dövlətin yaradılması, eyni zamanda Qərb dövlətlərinin də maraqlarına uyğun idi. Yəhudilərin bu sayədə qazanclar əldə etdiyini fürsət bilən ermənilər 1990-cı illərdə "soyqırımı" kəlməsi ilə birlikdə "xolokost" kəlməsindən də istifadə etməyə başladılar. Onlar, eyni zamanda beynəlxalq siyasətdə bu vəziyyətdən istifadə etməyi planlaşdıraraq tarixdə soyqırımına məruz qaldıqlarını iddia etməklə və tarixi əraziləri önə sürməklə heç bir zaman olmayan "böyük Ermənistan" dövlətini bərpa etmək, həmçinin "məzlum və zavallı" xalq kimi müxtəlif imtiyazlar, güzəştlər və eyni zamanda təzminat almaq niyyətinə düşdülər. Bugünkü siyasət də o istiqamətdə aparılmaqdadır. Hər il dünya ölkələrinin parlamentlərinin müzakirəsinə çıxarılan "soyqırımı" iddialarının pərdə arxasında həmin niyyətlər dayanır. Diqqəti çəkən bir məsələ də ondan ibarətdir ki, ermənilər 1915-ci il hadisələri ilə yəhudi soyqırımı arasında paralellik aparmaq niyyətində olsalar da, tarixi həqiqətlər ermənilərin yəhudilərdən fərqli olaraq soyqırımına məruz qalmadığını, əksinə törətdiklərini isbat edir. Bu isə "qondarma erməni soyqırımı" ilə "yəhudi xolokostu" arasındakı oxşarlığı tamamilə təkzib edir.

İkinci bir tərəfdən, ermənilərdən fərqli olaraq yəhudi xolokostunda silahlı bir üsyan olmamış, yəhudilər ilə toplum içərisindəki qruplar arasında silahlı münaqişələr cərəyan etməmişdir. Bütün cinayətlər faşist Almaniyasının təktərəfli şiddət siyasəti şəklində həyata keçirilmişdir. Eyni zamanda ermənilərdən fərqli olaraq yəhudilərə heç bir dövlət tərəfindən siyasi və hərbi baxımdan dəstək də verilməmişdir.

Üçüncüsü, yəhudilər bir bölgədən digər bir bölgəyə köçürülməyə də məruz qalmamış, sırf məhv edilmələri planlaşdırılmışdır.

Dördüncüsü, yenə də ermənilərdən fərqli olaraq yəhudilər ilə alman dövləti arasında olduqca güc fərqi də vardı. Yəhudilər gizli yerlərdə silahlanaraq qruplar meydana gətirməmişdilər.

Bütün bunlar həqiqət olsa da, ermənilərin yeritdiyi siyasət dünya ictimaiyyətinə haqq-ədalətin öz yerini tapması şəklində təqdim olunur. Bəzi nüfuzlu elitalar guya Hitler tərəfindən söylənən "kim erməni soyqırımını xatırlayır ki?" sözlərindən hər fürsətdə istifadə etməkdə (25, s.115) və Hitlerin bu soyqırımı fikrini türklərdən mənimsədiyini önə sürməkdə, eyni zamanda dünya ictimaiyyətinə faşistlər tərəfindən törədilən yəhudi soyqırımı ilə qondarma erməni soyqırımı arasında əlaqə qurmaq məqsədilə "türklərin gizli yazışmaları" adı altında ermənilərin vəhşicəsinə öldürülmələrini əmr edən saxta sənədlər təqdim etməkdədirlər (13, s.62). Həqiqətdə isə bu sənədlərin və Hitlerə aid edilən sözlərin heç bir əsası yoxdur. Əsas məqsəd "soyqırımı" iddialarını dünyanın aparıcı dövlətlərinin müzakirəsinə çıxarmaqla bu dövlətlərin dəstəyini qazanmaq və onların vasitəsilə Türkiyə üzərində təzyiq qura bilmək, nəticədə Türkiyəni üzr istəməyə məcbur etməklə torpaq və təzminat almaqdır. Ümumiyyətlə, ermənilərin "din" strategiyasının qaranlıq pərdəsi altında ərazi iddiaları və "dənizdən-dənizə böyük Ermənistan" dövləti yatır. Bəs yaxşı, bu strategiyanın beynəlxalq siyasətdəki yeri nədir? Dünyanın aparıcı dövlətlərinin "soyqırımı" iddialarını gündəmə gətirmələrindəki əsas məqsədləri və hədəfləri nədən ibarətdir? Qənaətimizcə, bu iddiaların Qərb dünyasında dəstəklənməsi antitürk və antiislam münasibətlər çərçivəsində dəyərləndirilə bilər ki, bunun da səbəblərindən birini Qərb-Türk sivilizasiyalarının toqquşmasında axtarmaq lazımdır. Digər bir səbəb, Qərb-xristian dünyasının şüuraltında gizlənən "günahlardan arınma (təmizlənmə) psixologiyası"dır. Bu psixologiyanın pərdə arxasında gizlənən məqamları nələrdir? Məlum olduğu kimi, xristian Avropa ölkələri yəhudiləri Hz.İsanın, dolayısı ilə Tanrının qatilləri **(Godkiller)** olaraq görmüş və bu səbəbdən ilk günah inancında olduğu kimi, bütün yəhudi nəslini məsul tutmuşlar (6, s.381). Beləliklə, Tanrının öldürülməsi günahından təmizlənməsi mümkün olmayan "qanı kirli ikinci dərəcəli insanlar sinfi" kimi adlandırılan yəhudilər ən aşağı millət olaraq qəbul edilmişlər. Qeyd edək ki, eramızdan əvvəlki dövrlərdə də Assuriya, Babil və Roma tərəfindən sürgünə məruz qalan yəhudilər 1290-cı ildə İngiltərədən, 1394-cü ildə Fransadan, 1492-ci ildə də İspaniyadan deportasiya olunmuşdular.

Yəhudilərin adı çəkilən ölkələrdən sürgün edilmələri xristianlar tərəfindən bu millətin dini səbəblərdən qovulması şəklində xarakterizə olunmuş və xristian dünyasının ən qaranlıq dövrlərindən biri kimi qəbul edilmişdir. Nəticədə, antisemitizm ideologiyası formalaşmışdır. XX əsrin əvvəllərində də nasistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdir. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin

kütləvi surətdə öldürülmələrinə hökm verilmiş, bu hökm dövlət siyasəti olaraq mənimsənilmiş və həyata keçirilmişdi. Beləliklə, yəhudilərin Nasist Almaniyası tərəfindən soyqırımı gerçəkləşdirilmişdir. Yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşsə də, xristian olmaları səbəbi ilə ümumilikdə Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır.

Yəhudilərə qarşı nifrətin müəyyən mənada digər səbəblərlə birlikdə dini antisemitizm – "antijudaizm", yəni xristian-yəhudi düşmənçiliyi üzərində qurulduğunu etiraf edən Adolf Hitler "Mənim mübarizəm" adlı kitabında yazırdı: "...İsa yəhudi milləti haqqında bəslədiyi düşüncələrini heç bir zaman gizlətməmişdir. Hətta lazım gəldiyi vaxt bəşəriyyətin düşməni olan bu yəhudiləri Allahın ibadətgahından qamçı ilə qovmuşdur... Yəhudilər bu gün olduğu kimi, keçmişdə də dindən vasitə kimi istifadə etmişlər. Məhz bu səbəbdəndir ki, İsa çarmıxa çəkilmişdir. Hər yəhudinin ruhu öz məzhəblərinin qurucusuna nə qədər yaddırsa, xristianlığa da o qədər yaddır..." (11, s.314-315).

"Müqəddəs dəhşət: dini cinayətlər tarixi" kitabının müəllifi Ceyms A.Haut təkzibedilməz materiallar əsasında göstərir ki, insanlıq tarixinin ən bağışlanılmaz ləkələrindən olan nasistlər tərəfindən yəhudilərə qarşı tətbiq edilən soyqırımı cinayəti eyni zamanda dini zəmində də gerçəkləşdirilmişdir. Bu cinayət əsrlərdir xristianlığın musəvilik haqqındakı təlimlərinin acı meyvəsi idi. Əgər Tanrının adından musəvilərə qarşı nifrət aşılanmamış olsaydı, bu cinayətlər baş verməzdi. Nasistlər eyni xristian ənənələrinə görə hərəkət etdilər. Hitlerin törətdiyi soyqırımı musəvilərə qarşı uzun illərdən bəri qidalanan nifrətin ən yüksək həddi idi (10, s.105-106).

Müəllif digər bir yerdə də qeyd edir ki, nasistlərin törətdikləri cinayətlər yeni bir canilik deyildi. Onlar sadəcə olaraq 2 min illik tarixi olan musəvi əleyhdarlığına əsaslanan xristian ənənələrini davam etdirdilər. Faşistlərin ölüm düşərgələrinin kökləri xristianlığın tarixi strukturunda axtarılmalıdır. Musəvilərin şeytani rolları ilə əlaqəli əfsanələr əsrlər boyunca xristianlığı onlara qarşı hücuma sövq etmişdir (10, s.108).

Müəllif, eyni zamanda vaxtilə rahib olan ilahiyyatçı alim Peter de Rosanın 1988-ci ildə nəşr olunan "Məsihin kəndli keşişləri" adlı kitabından sitat gətirərək yazır ki, Müqəddəs Papanın qəbul etdiyi qərarlarla qətliamlar, qaz otaqları və nasistlərin ölüm düşərgələrindəki insan sobaları arasındakı faciəvi əlaqələr inkar edilə bilməz (10, s.108).

Xristian rahibləri və ümumilikdə kilsə tərəfindən insanların beyinlərinin musəvi düşmənçiliyi ilə doldurulduğunu da qeyd edən Ceyms A.Haut onu da göstərir ki, din xadimləri sizə kimi öldürəcəyinizi söyləməz, sadəcə kimdən nifrət edəcəyinizi deyərlər. Kilsə daim gənclərə onların ən həssas dövrlərində musəvilərin İsanı öldürdüyünü və bu səbəblə Tanrının yəhudiləri əbədiyyətə qədər lənətlədiyini öyrətmişdir. 2 min il boyunca musəvilərə qarşı törədilən bütün cinayətlərdə kilsənin barmağı vardır. Harada xristian kilsəsi varsa, orada musəvi düşmənçiliyi vardır. Nasistlər də hakimiyyətə gəldiklərində öz cinayətlərini məhz bu reallıq üzərində qurdular (10, s.109-110).

Fikirlərimizi bir daha əsaslandırmaq üçün valideynləri İkinci Dünya müharibəsi dövründə nasistlər tərəfindən öldürülən yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözlərinə müraciət etməyi məqsədəuyğun sayırıq. O, yəhudi soyqırımı barəsində xristian kilsəsini ittiham edərək deyirdi: "Hitlerin musəvilərə qarşı törətdiyi vəhşi cinayətlər onsuz da daha əvvəllər xristian kilsəsi tərəfindən yəhudilərə tətbiq edilirdi. Bu ilk zərbə deyildi... Musəvi kitablarının və yəhudilərin yandırılması... Hitler bunların hamısını kilsədən öyrəndi. Keçmiş dövrlərdə kilsə yəhudi uşaqlarını və qadınları diri-diri yandırarkən, Hitler onlara daha sürətli ölüm bağışladı. Əvvəlcə qaz otaqlarında öldürdü, sonra da yandırdı" (10, s.109).

Göründüyü kimi, yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşmür. Bütün yəhudilərin düşüncəsinə görə, kilsə aşılamış olduğu fikirlərdən dolayı yəhudi soyqırımından ötrü məsuliyyət daşımaqdadır. Məhz bu baxımdan Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır. Yəhudilərə qarşı törədilən xolokostun (yəhudi soyqırımının) Qərb-xristian şüuru üzərindəki təsirləri o qədər dərindir ki, onun səbəb olduğu dərin psixoloji gərginlik xristianların heysiyyətinə toxunmuş və bu təsir üstündən illər keçsə də, özlərini günahkar hiss etmələrinə yol açmışdır. Onların erməni məsələsinə baxışı daha çox bu şüurun bilavasitə tarixdən miras qalmış hadisələri ilə əlaqəlidir. Bu günahlardan tamamilə silkinib arınmaq üçün guya türklər tərəfindən törədilən qondarma "erməni soyqırımı"nın yəhudi soyqırımına öncüllük təşkil etdiyi iddiası ortaya atılmış, hətta musəvilərin məhv edildiyi qaz otaqlarının türklər tərəfindən icad edildiyi və Hitlerin

belə bir addım atmasında türklərin başlıca rol oynadığı da iddia edilmişdir (40).

Almaniya Parlamentinin nəzdində fəaliyyət göstərən "Elmi Tədqiqat Xidməti" adlı təşkilatın 3 aprel 2000-ci il tarixli raportunda göstərilməkdədir: "Alman Nasional-Sosialistlərinin gerçəkləşdirdikləri kütləvi yox etmə metodları əslində 1915-ci ildə ermənilərə qarşı türklər tərəfindən həyata keçirilmişdir. Ermənilər ağır şərtlər altında işlədilərək məhv edilmiş, insanlar heyvan vaqonlarına doldurulmuş və onların üzərində vəhşicəsinə tibbi təcrübələr aparılmışdır. Erməni əsgərləri və sivillər müxtəlif viruslara yoluxduruldular. Trabzonda erməni uşaqları hamama aparılmaq bəhanəsilə onlar üçün təşkil edilmiş otaqlarda zəhərli qazla öldürülmüşdülər. Gəldiyimiz nəticə bundan ibarətdir ki, Adolf Hitler türklər tərəfindən törədilən soyqırımı barəsində mükəmməl məlumatlara sahib olmuş və bunu özü üçün nümunə kimi mənimsəmişdir" (4, s.184-185).

Halbuki, yuxarıda da sitat gətirdiyimiz yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözləri bu iddiaları kökündən təkzib etməkdədir. Əgər Hitler həqiqətən türklərdən nümunə götürsəydi, o zaman Daqobert Ranes kilsəni deyil, türkləri ittiham edər, ya da ən azından bu barədə məlumat verərdi. "Hitler soyqırımını türklərdən öyrəndi" şüarı əsl həqiqətdə "biz əslində belə cinayətlərə yol vermərik, bu işdə müsəlman türklərin barmağı var" məntiqi ilə işləyən bir mexanizmlə günahlardan arınma metoduna baş vurulmuşdur (39). Yəni burada musəvilərin düşməni olaraq xristianlar deyil, guya xristianlara yol göstərən və onları kütləvi cinayətlərə sövq edən müsəlman türklər göstərilir.

Yuxarıda da qeyd edildiyi kimi, yəhudilərlə xristianlar arasında keçmişdən miras qalan düşmənçiliyin hökm sürdüyü tarixi həqiqətdir. Lakin İsrailin milli dövlət olaraq ortaya çıxması "yəhudi məsələsi"nin fərqli yöndə aktuallaşmasına yol açmışdır. Qərb yüzillərlə Avropa məkanında yəhudi-xristian qarşıdurması olaraq xarakterizə olunan yəhudi məsələsini müsəlman-yəhudi münaqişəsinə çevirərək Yaxın Şərqə ixrac etmişdir (6, s.380). Halbuki, Avropada əsrlərlə davam edən yəhudi məsələsi xristian teologiyasından qaynaqlanan antisemit hərəkət olsa da, İkinci Dünya müharibəsindən sonra Yaxın Şərqə ixrac edilən İsrail məsələsinə qarşı bölgədəki müsəlman ictimaiyyətin göstərdiyi reaksiya antisemit deyil, siyasi əsası olan antisionist bir reaksiyadır (6, s.381). Yəni burada əsas məqsəd xristian-yəhudi düşmənçiliyinin tədricən unutdurulması və öz yerini yəhudi-müsəlman münaqişəsinə verməkdən ibarət olmuşdur. İsrail ilə Ərəb dövlətləri arasında yəhudi-müsəlman düşmənçiliyi yaradıldığı kimi, ermənilərlə türklər arasında da belə bir problem meydana gətirilmişdir. Erməni məsələsi bilavasitə, türklərə qarşı tarixdən miras qalan səlibçilik zehniyyətindən qaynaqlanır ki, Qərb xristian dövlətlərinin bu məsələdə tutduğu mövqe həmin zehniyyətin bariz təcəssümüdür.

Qondarma erməni soyqırımı qərar layihələrinin nəyə görə hər il gündəmə gəlməsinin açıqlanmasında Qərb-xristian dövlətlərinin şüuraltında gizlənən günah duyğularının və səlibçi zehniyyətin payı olduqca böyükdür. Ancaq burada vacib bir sual ortaya çıxır: İkinci Dünya müharibəsindən sonra Qərb-xristian dünyasında "günahkarlıq, məzlumluq psixologiyası" atmosferinin yarandığı həqiqətdir, ancaq günahkarların və zərər çəkənlərin kimlər olduğuna hansı dövlətlər qərar vermişlər? Türk tədqiqatçısı Erol Göka haqlı olaraq yazır ki, həqiqi mənada məzlumluq psixologiyasından yararlananlar və yararlandıranlar bu psixologiyanın arxasında gizlənən Qərb-xristian dövlətləridir. Onlar istər Birinci Dünya müharibəsindən, istərsə də İkinci Dünya müharibəsindən, eyni zamanda milyonlarla insanın ölümündən məsuliyyət daşıyırlar. Məsələ burasındadır ki, əsl günahkarlar işlədikləri cinayətləri təmizə çıxarmaq üçün belə bir "məzlumluq" oyununu oynamaqdadırlar (8, s.133).

Çox önəmli bir məsələni də vurğulamaq lazımdır ki, Birinci Dünya müharibəsinin baş verməsindən heç bir formada məsuliyyət daşımayan xalqlar arasına nifaq salanlar hal-hazırda hakimlik kürsüsünə əyləşərək, türkləri ittiham etməkdədirlər. Heç kim "iki böyük dünya müharibəsinin başlanmasının əsl səbəbləri nə idi?", "dünyadakı güc mübarizələri və rəqabətləri nə deməkdir?" kimi imperialist əməlləri və mövqeləri ortaya çıxaracaq suallar verməməkdə, bunun yerinə "ermənilər türklər tərəfindən soyqırımına məruz qaldılar" şəklində ittihamlar yağdırmaqdadırlar.

Məzlumluq psixologiyasının altında gizlənən həqiqət hər iki dünya müharibəsinin cavabdehlərinin günah və cinayət psixologiyasıdır. Ümumilikdə yəhudilərin tarix boyu başına

gətirilənlərdən məsuliyyət daşıdıqları halda baş vermiş cinayətlərə bəraət qazandırmaq üçün Qərb-xristian dünyası "biz əslində belə cinayətlərə yol vermərik, bu işin arxasında müsəlman türklərin barmağı vardır" tezisini ortaya ataraq, gülünc yolla günahlarından təmizlənməyi ümid edirlər.

Ortaya çıxan məqam budur: müəyyən mənada Qərb-xristian dünyası günahlardan arınmaq və özlərinə bəraət qazandırmaq üçün tarixdə ilk soyqırımı törədənlərin xristianlar deyil, ilk dəfə məhz xristian erməniləri soyqırımına məruz qoyan müsəlman türklər olduğunu önə sürürlər. Bu baxımdan Qərb-xristian ictimaiyyətinin nəzərində öz dini və siyasi mənafelərinə uyğun olaraq ermənilərə xüsusi rəğbət yaratmaq məqsədi ilə "xristianlığı rəsmən qəbul edən ilk dövlət və millət Ermənistan və ermənilərdir. Tarixdə ilk dəfə xristian ermənilər müsəlman türklər tərəfindən soyqırımına məruz qalmışlar" şəklində təbliğatlara geniş yer ayırmaqdadırlar.

Göründüyü kimi, dini, siyasi motivlər üzərində qurulan erməni iddiaları Qərb dövlətlərinin dini, siyasi maraqlarına xidmət edir ki, bu da bilavasitə antitürk zehniyyətdən və "günahlardan arınma psixologiyası"ndan qaynaqlanır. Azərbaycanın və Türkiyənin "erməni məsələsi" ilə bağlı beynəlxalq münasibətlər sistemində qarşılaşdıqları problemlər açıqca ortaya qoymuşdur ki, yeni strategiyaların müəyyən edilməsi və gücləndirilməsi qaçılmazdır. Bu mübarizədə uğurlar əldə etməyin başlıca yolu isə psixoloji müharibəyə daha yaxşı hazırlaşmaq və bunu qarşı tərəfə qəbul etdirə bilməkdir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Musayev İ. Erməni genosidi yoxsa türk-müsəlman soyqırımı. Bakı: 2001, Bakı Universiteti nəşriyyatı
2. Uimz Səmyuel A. Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: 2004, OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya şirkəti

**Türk dilində**

1. Aktar A.Y. Ermeni mezalimi ve soykırım iddialarına ilişkin kavram karmaşası / Osmanlı'dan günümüze ermeni sorunu, (editör: Hasan Celal Güzel). Ankara: 2000, Yeni Türkiye yayınları, s.121-128
2. Aydoğan Metin. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: 2003, Kumsaati yayınları
3. Başak T. İngiltere'nin Ermeni Politikası (1830-1923). İstanbul: 2008, IQ Kültür Sanat yayıncılık
4. Davutoğlu Ahmet. Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. İstanbul: 2010, Küre yayınları
5. Ercan Y. Osmanlı Devleti'nde müslüman olmayan topuluklar (millet sistemi) / Osmanlı'dan günümüze ermeni sorunu. (editör: Hasan Celal Güzel). Ankara: 2000,Yeni Türkiye yayınları, s.145-161
6. Göka Erol. Ermeni sorununun (gözden kaçan) psikolojik boyutu // Ermeni Araştırmaları Dergisi, 2001, sayı: 1, s.128-138
7. Gürün K. Ermeni dosyası. Ankara: 1985, Türk Tarih Kurumu
8. Haught James A. Kutsal dehşet: dinsel cinayetler tarihi. İstanbul: 1999, Aykırı yayınları
9. Hitler Adolf. Kavgam. İstanbul: 1994, Toker yayınları
10. İlter E. Ermeni kilisesi ve terör. Ankara: 1996, Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları
11. Kaya İbrahim. Ermenilerin yahudi soykırımıyla benzerlik kurma stratejisi // 2023 Dergisi, 2002, sayı: 12, s. 62-65
12. Kevorkyan D. Ermeni meselesinde tehcire amil olan sebepler / Tarih boyunca türklerin ermeni toplumu ile ilişkileri, Erzurum: 1984, 8-12 Ekim
13. Kırmızı A. Son dönem Osmanlı bürokrasisinde akraba ermeniler // Ermeni Araştırmaları dergisi, 2003, cilt: 2, sayı: 8, s.137-152
14. Laçıner Sedat. Türkiye-Avrupa ilişkilerinde kültür ve medeniyet: tarihsel ve ideolojik kökenler // Liberal Düşünce Dergisi, 1999, cilt: 4, № 13, s.39-57
15. Laçıner Sedat. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: 2003, Ankara Üniversitesi basımevi, s.95-122
16. Metel A.B. Ermeni mezalimi ve gerçekler. İstanbul: Yeni Batı Trakya Dergisi yayınları, 4. baskı, seri №6
17. Özkan Z. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: 2001, Er Ofset

San. ve Tic. AŞ
18. Palabıyık M.S. 1915 olaylarını anlamak: Türkler ve ermeniler. İstanbul: 2015, Beta yayınları
19. Sönmezoğlu F. Uluslararası ilişkiler sözlüğü. İstanbul: 2000, DER yayınları
20. Süslü A. Ermeniler ve 1915 tehcir olayı. Van: 1990, Yüzüncü Yıl Üniversitesi Rektörlüğü
21. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: 1987, Belge yayınları

**Rus dilində:**

1. Файгл Э. Армянская мифомания. Москва: 2007

**İngilis dilində:**

1. Lowry Heath W. The U. S. Congress and Adolf Hitler on the Armenians // Institute of Turkish Studies, Washington D.C.: Pre-Print from: Political Communication and Persuasion, 1985, Volume: 3, Number: 2, p. 111-139
2. McCarty J., McCarty C. Turks and Armenians, a manual on the Armenian Question. Washington, 1989
3. Sarınay Y. What happened on April 24, 1915, a case study on the circular of 24 April 1915 and arrest of the Armenian committee members in Istanbul // International Journal of Turkish Studies, 2008, volume: 14, №1-2, p. 75-101
4. Shaw S. The Ottoman census system and population (1831-1914), International Journal of Middle East Studies, 1978, vol. 9, №.3, p. 325-338
5. Sonyel S.R. The Ottoman Armenians, victims of great power diplomacy. London, 1987
6. Sonyel S.R. Falsification and disinformation, negative factors in turco-Armenian relations. Ankara, 2000
7. The Armenians Issue in nine questions and answers. Ankara, 1982

**Arxiv materialları və rəsmi sənədlər:**

1. Genelkurmay Askeri Tarih ve Stratejik Etüd (ATASE) Başkanlığı, Askeri Tarih Belgeleri Dergisi (ATBD): mart 1983, sayı. 83, belge no: 1901
2. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1903
3. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1906
4. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1923
5. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi – T.C. BOA: dosya. Yıldız Sadaret Hususi, dosya №20, karton №1311, iç № 1355/1853, 283/31
6. T.C. BOA: Yıldız Evrak, zarf № 156, iç sayısı: 24

**İnternet adresləri:**

1. Anahit Astoyan. Osmanlı idari sisteminde ermeniler, mühtedi ermeni görevlileri. http://akunq.net/tr/?p=14355
2. http://www.doguturkistan.net/modules.php?name=AvantGo&file=print&sid=4741
3. http://www.1001kitap.com/Guncel/Tamer_Andrea_Bacinoglu/modern_alman_oryantalizmi/almanyaveermeni.html

**SUMMARY**

**Emin Shikhaliyev**

**THE ARMENIAN'S "THE FIRST MARTYR NATION OF THE CHRISTIANITY" CLAIM AND ITS PLACE IN INTERNATIONAL POLITICS**

As well known that Armenain claims are based on mythological stories with forged documents and infotmation. These claims are from any scientific and historical basis. One of these pretentions is the claim of "the first martyr nation of Christianity". Generally, the Armenians use religion as a major weapon in order to justify their claims against the regional states. The strategy includes these: in the eyes of international community the Armenians are "the first Christian ethnos and the state" "the enclave and inheritance of Christianity in Caucasus region" and "the first martyr nation of Christianity". Without doubt there are some secret plans behind this religious strategy. In this article the Armenian's "the first martyr nation of the Christianity" claim and its place in international politics is fully analyzed and researched.

***Key words:*** *The Armenian church, religious strategy, "the first Christian state" claim, "the first martyr nation of Christianity" claim, the ideology of "Great Armenia"*

**РЕЗЮМЕ**

**Эмин Шихалиев**

**ПРЕТЕНЗИИ "ПЕРВАЯ МУЧЕНИЧЕСКАЯ НАЦИЯ ХРИСТИАНСТВА" АРМЯН И ЕЕ МЕСТО В МЕЖДУНАРОДНОЙ ПОЛИТИКЕ**

Как известно, что армянские претензии опираются на поддельные документы и информацию, обоснованную далекими от исторических и научных фактов мифологическими легендами. Одно из таких заяавлений тезис об армянах как "первом в мире христианском народе – мученике". Армяне для легитимизации своих территориальных претензий против государств региона и, оправдания совершенных ими деяний как главнейшее оружие используют религию. Основное содержание этой стратегии в следующем: создание в глазах мировой общественности таких образов как "первый христианский этнос и государство мира", "наследники и крепость христианства на Кавказе" и "первого народа-мученика в христианстве". Несомненно, что под завесой "религиозной" стратегии скрываются определенные тайные планы. В статье со всеми подробностями и нюансами были изучены претензия "первая мученическая нация христианства" армян и место этой претензии в международной политике.

***Ключевые слова****: Армянская церковь, религиозная стратегия, претензии "первого христианского государства", претензия "первого народа-мученика в христианстве", "идеология" великой Армении*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 57-61
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 57-61
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 57-61

**NURLANA ƏLİYEVA**
*aliyevanurlana71@gmail.com*
*AMEA Naxçıvan Bölməsi*

**DOI: 10.30546/155244.2024.2.127.020**

# "ERMƏNİ VİLAYƏTİ"NİN YARADILMASI TARİXİ COĞRAFİYAMIZA EDİLƏN QƏSDDİR

*Məqalədə Rusiya ilə İran arasında imzalanmış Gülüstan və Türkmənçay müqavilələrindən sonrakı hadisələrdən bəhs olunur. Məqalədə tarixi coğrafi faktlar ortaya qoyulmuş, "Erməni vilayəti"nin ərazisi, sərhədləri dəqiqliklə göstərilmişdir. 1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsindən sonra da bu dövlətlər arasındakı münasibətlər gərgin olaraq qalırdı. XIX əsrin əvvəllərində böyük dövlətlər, başda Rusiya imperiyası olmaqla öz çıxarlarına və mənafelərinə görə Cənubi Qafqazda möhkəmlənmək, bu bölgədə söz sahibi olmaq istəyirdilər. Azərbaycan II Rusiya-İran müharibəsindən sonra, daha dəqiq desək, Türkmənçay müqaviləsinə görə iki yerə parçalandı. Rusiya çarı I Nikolay Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda və qədim Türk yurdu olan İrəvan ərazisində qondarma "Erməni vilayəti" yaratdı. "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycanın tarixi-coğrafiyasına böyük dəyişiklik edildi.*

***Açar sözlər:*** *Naxçıvan, Erməni vilayəti, Gülüstan müqaviləsi, Türkmənçay müqaviləsi, tarixi coğrafiya, XIX əsr*

## Giriş

1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsindən sonra da bu dövlətlər arasındakı münasibətlər gərgin olaraq qalırdı. Çünki Rusiya Qacarlardan yeni torpaqlar qoparmaq məqsədindən əl çəkməmişdi. Hər iki dövlət məxfi şəkildə müharibəyə hazırlaşırdı. Gülüstan müqaviləsi bölgədə müvəqqəti sakitliyə səbəb olsa da, onun nəticələri nə Rusiyanı, nə də Qacarlar İranını qane etmirdi. İran tərəfi müharibənin əsassız yerə uduzulduğunu, Rusiya tərəfi isə qarşıya qoyulan məqsədin tam surətdə həyata keçirilmədiyini hesab edirdi. Müqavilə Rusiyanın Cənubi Qafqazdakı hərbi uğurlarını təsdiq etsə də, bu dövlət bölgədə hələ də lazımınca möhkəmlənə bilməmişdi. Başlıca məqsəd - iki dövlət arasındakı sərhəd xəttini Arpaçay və Araz çaylarından müəyyənləşdirməklə Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsi planı hələ də reallaşmamışdı (7, s.325-326). Buna görə də Rusiya ilə İran dövləti arasında 1826-cı ildə yenidən müharibə başlandı.

1827-ci ilin iyununda Naxçıvana yürüş etməyi qərarlaşdıran rus generalı Paskeviç qoşunlarını Gərniçaydakı düşərgəyə toplamışdı. İyunun 19-da qoşunlar hərəkətə başlayıb, əvvəlcə Dəvəli kəndinə girdilər. İrəvan sərdarı əvvəlcədən əhalini İrəvana köçürdüyünə görə, kənd bomboş idi. V.Umudlu Naxçıvanda ruslara qarşı hər hansı müqavimət göstərilməsi barədə məlumatın olmadığını qeyd edir və ehtimal edir ki, Kərim xan müqavimət göstərə bilməyəcəyini zənn edib xanlığı tərk etmişdi. Buna görə iyunun 26-da Naxçıvan ələ keçirilmişdi (9, s.167). Musa Quliyev isə apardığı tədqiqatlarda yazır ki, Paskeviç Naxçıvana hücum edəndə II Rusiya-İran müharibəsinin ən qanlı döyüşləri məhz Naxçıvanın 25 kilometrliyində yerləşən Xok kəndində baş vermişdir. Araşdırmalar göstərir ki, kənd sakinləri ruslarla əlbəyaxa döyüşlərə girmişlər. Bu döyüşlərdə ruslar xeyli itki vermişdilər (4, s.127). Bütün bunlara baxmayaraq, Naxçıvan xanlığı işğal edilmişdi. Nəhayət, Naxçıvanın işğalından sonra İrəvan xanlığı da işğal edilmiş və ruslarla qacarlar dövləti danışıqlara yenidən başlamışdılar.

1828-ci ildə fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinə görə Naxçıvan və İrəvan xanlıqları da Rusiya imperiyasının tabeliyinə keçdi. Elə bu müqavilədən sonra Azərbaycanın tarixi coğrafiyasında böyük dəyişiklik edildi. Birincisi Azərbaycan iki yerə - Şimali və Cənubi Azərbaycana bölündü. İkincisi bu müqavilədən bir az sonra tarixən Azərbaycan torpaqları olan Naxçıvan və İrəvan xanlıqları ərazisində,

həmçinin Qafqazda, həm də Azərbaycan torpağında ilk dəfə olaraq ermənilərin fiziki-coğrafi ərazisi - qondarma “Erməni vilayəti” yaradıldı (11, s.257).

**Erməni vilayətinin yaranması.** 1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İranla müharibənin başa çatması və Rusiya ilə İran arasında sülh imzalanması haqqında manifest verdi. Bu manifestdə yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi “qədim Ermənistanın bir hissəsi” elan olundu. Bununla da, I Pyotr dövründən başlayaraq Azərbaycan torpaqlarının işğalı üçün onun etnik mənsubiyyətinin zorla dəyişdirilməsinə dair dövlət siyasəti və strateji məqsədin yerinə yetirilməsi burada təsbit edildi. Erməni vilayəti yaradılması haqqında Çar I Nikolayın martın 21-də verdiyi fərmanda deyilirdi: “İranla bağlanmış müqaviləyə əsasən, İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqları bundan sonra “Erməni vilayəti” adlandırmağı hökm edir və öz titulumuzu daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali Senat lazımi fərmanları öz vaxtında alacaqdır”. İ.Kazımbəyli yazır ki, “Erməni vilayəti” İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi (3, s.108). Bu vilayət 26,9 min $km^2$ ərazini əhatə edirdi. Naxçıvan qəzasının tərkibinə 5 mahal - Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz daxil idi (14, s.342).

“Erməni vilayəti”nin Cənub-Şərq hissəsini təşkil edən Naxçıvan əyaləti $39^0$ və $41^0$ genişlikdə və Qarabağın Şimal-Şərqi ilə sərhəddə yerləşirdi, buradan isə Bombaks dağ silsiləsi davam olunurdu (Bundan sonra bu dağları yerlərinə görə adlandıracağıq, məsələn Qarabağ dağları - N.Ə.); Cənub və Cənub-Qərb tərəfdən İran əyaləti Azərbaycanla sərhəddə yerləşir və Araz çayına sərhəd xətti ilə yolu var idi; Şimal-Qərb tərəfdən isə İrəvan əyaləti ilə sərhəddə idi, - bu tərəfdən sərhəd xətti Arazın sol sahilindən başlayır, əvvəl Araz çayı boyunca Dərələyəz kəndi Danzik mahalına qədər 40 verst yuxarıya, daha sonra isə Göyçə gölünə və Yelizavetpol dairəsinə birləşən və Zəngəzur, Eyvaz Xan və Damçerman kimi sahələr üzrə Qarabağ qoluna qədər uzanırdı. Cənub-Şərqdən Şimal-Qərbə (Qorçevan kəndindən Damçerman qoluna qədər) əyalətin məsafəsi 150 verstdir, Cənubdan Şimala qədər və ya Abbas-Abaddan Salvartı sərhəd boyu dağlarına qədər orta genişlik isə - 60; təxmini hesablamaya görə Naxçıvan əyalətinin sahəsi 4.500 kvadrat verst və ya 450 m.desyatindən çox təşkil edirdi. Yerli mülahizəyə görə bu miqdarın ¾ hissəsini dağ kimi ehtimal etsək, 1,125 verst təşkil edəcək və ya 112,500 desyatin (10, s.1-2).

Bir məsələni vurğulamaq istərdik ki, Erməni “tədqiqatçıları” “Naxçıvan XIX əsrin əvvəllərində də Ermənistanın tərkibində olmuşdur”, - kimi yanlış və qeyri-obyektiv fikirlər söyləyirlər. İlk növbədə qeyd etməliyik ki, həmin dövrdə Ermənistan dövləti yox, “Erməni vilayəti” yaradılmışdır. Həm də, Rusiya imperatoru I Nikolay 21 mart 1828-ci ildə xüsusi fərmanla İrəvan və Naxçıvan xanlıqları ərazisində yaratdığı “Erməni vilayəti”ndə erməni dövlətçiliyindən heç bir əsər-əlamət yox idi. Yaradılan bu qondarma quruma qondarma ad seçilməsi də heç bir məntiqə uyğun deyildi. Çünki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisi Azərbaycan ölkəsinin bölgəsi idi. Bu ərazilərdə yaşayan əhalinin tərkibində müsəlmanlar mütləq əksəriyyət təşkil edirdilər. Bütün bunlara əhəmiyyət verməyən çar Rusiyası “görünür, bu qondarma adı qoymaqla onlar Ermənistan coğrafi anlayışını dirçəltmək və hansısa mərhələdə “Erməni vilayəti” bazasında Ermənistan dövləti yaratmaq barədə düşünürlərmiş”. Ermənilərin kütləvi surətdə Naxçıvana köçürülməsi bunu bir daha təsdiq edir (2, s.113).

Çarın fərmanından da göründüyü kimi “Erməni vilayəti” inzibati planda iki qəza və bir dairədən ibarət idi. İrəvan, Naxçıvan qəzaları və Ordubad dairəsi. Qəza rəhbərləri kimi Ehsan xan və Şıxəli bəy öz vəzifələrində saxlanılmışdı. Qəzalar rayonlara bölünürdü. Rayonların rəhbərliyində mirablar, məliklər, ağalar saxlanıldı. Ermənilər isə güman edirdilər ki, Rusiya qoşunlarının vilayətə gəlməsi ilə hər şey onların dediyi kimi olacaq, azərbaycanlı bəylər və xanlar qarşısında olan borclarını daha yerinə yetirməyəcəklər. Vilayət idarəsinin rəisi vəzifəsinə A.Çavçavadze təyin edildi. İdarənin üzvlüyünə iki rus hərbçisi, erməni və azərbaycanlılardan ibarət imtiyazlı təbəqənin nümayəndələri daxil idi. Vilayətin idarəçiliyi, polis, məhkəmə orqanları, maliyyə təsərrüfatı rus hərbçilərinin, mülki məmurların əlində idi.

İki ildən sonra, 1830-cu ildə “Erməni vilayəti”nin idarəsi əslən erməni olan D.Bebutova həvalə edildi. D.Bebutov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başladı. Azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. D.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi.

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul

olundu. Ermənilərin təkidi ilə qəbul olunmuş bu gerbdə həmin ərazilərin türklərlə bağlılığını xatırladan bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ağrı dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin (Üçmüəzzin) monastırı, gerbin yuxarı hissəsində isə Rusiya taxt-tacının emblemi olan ikibaşlı qartal təsvir edilmişdi. Gerb Rusiya çarı tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu.

Çar hökuməti 1833-cü il iyunun 23-də "Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi:

1. İrəvan dairəsi. Buraya Dərəçiçək, Qırxbulaq mahalları daxil idi;
2. Şərur dairəsi. Buraya Şərur, Vedibasar, Qarnibasar, Zəngibasar mahalları daxil idi;
3. Sürməli dairəsi. Buraya Sürməli, Dərəkənd-Parseniç mahalları daxil idi;
4. Sərdarabad dairəsi. Buraya Saatlı, Talin, Seyidli-Ağsaxlı, Abaran, Karpi, Sərdarabad mahalları daxil idi.

Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı. Paskeviçin tapşırığı ilə "Cənubi Qafqaz diyarının statistik təsviri"ni yazmış O.Evetski isə Naxçıvan və Ordubad dairələrinin birlikdə Naxçıvan əyalətini meydana gətirdiyini yazmışdır (12, s.103). V.Qriqoryev də "Naxçıvan əyalətinin statistik təsvirində" Naxçıvan vilayətinin sərhədlərini təsvir edərkən Naxçıvan və Ordubad dairələrini Naxçıvan əyalətinin tərkibində göstərmişdir (10, s.2). V.Qriqoryev Naxçıvan dairəsinə daxil olan mahallar sırasında Naxçıvan, Əlincə, Xok və Dərələyəz mahallarının adını çəkmişdir (10, s.64). XIX əsrin 30-cu illərindən sonrakı dövrdə Naxçıvan əyalətinin inzibati ərazi quruluşundan bəhs edən Z.Şahverdiyev Naxçıvan əyalətində 5 mahalın (Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz, Məvazi-Xatun) olduğunu yazmışdır (9, s.100). Akademik İ.Hacıyev isə Naxçıvan əyalətinə 5 mahal (Naxçıvan, Əlincəçay, Məvazixatın, Xok, Dərələyəz), Ordubad dairəsinə isə 5 mahal (Ordubad, Əylis, Dəstə, Biləv, Çənnəb) daxil olduğunu qeyd etmişdir (2, s.31). İ.Şopen də öz tədqiqatlarında Naxçıvan və Ordubad əyalət və dairələrinin hər birinin 5 mahaldan ibarət olduğunu bildirmişdir.

1833-cü il Əsasnaməsi Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və qardaşı Şıxəli bəy bilavasitə "Erməni vilayəti" rəisinə tabe idi. Məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məhkəməsi yaradıldı. Çar Rusiyasının və onun işğalçılıq siyasətinə xidmət edən ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan əyalətlərini "Erməni vilayəti" kimi qələmə verməsini təkzibedilməz tarixi faktlar rədd edir. Çünki, çar Rusiyasının erməniləri İran və Türkiyədən həmin ərazilərə kütləvi surətdə köçürməsindən əvvəl, sonradan "Erməni vilayəti" adlandırılan ərazinin əhalisi 107224 nəfər idi. Əhalinin 76,5 faizini azərbaycanlılar, 24,5 faizini ermənilər təşkil edirdi. Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlük təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edir. Bütün bunlara baxmayaraq "Erməni vilayəti" ərazisində demoqrafik vəziyyəti dəyişdirmək mümkün olmadı. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik" (15, s.21).

Fransız mənşəli rus tədqiqatçısı İ.Şopen Paskeviçin tapşırığı ilə 1829-32-ci illərdə "Erməni vilayəti"ndə kameral siyahıyaalma keçirmişdir. Burada kəndlərin və əhalinin sayı göstərilmişdir. "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü (16, s.510).

1829-cu il sentyabrın 2-də Ədirnədə Osmanlı dövləti və Rusiya arasında bağlanmış müqavilənin 13-cü maddəsi isə Osmanlı imperiyasında yaşayan ermənilərin kütləvi şəkildə, 18 ay müddətində daşınan əmlakları ilə birlikdə Azərbaycan torpaqlarına köçürülməsini rəsmiləşdirmişdi. Qeyd edək ki, bu müqavilənin 13-cü maddəsinin işlənib hazırlanmasında Rusiya tərəfinin təkidi böyük rol oynamışdı (1, s.179).

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi yerli əhali olan azərbaycanlıların kəskin müqaviməti ilə müşayiət olunurdu. Erməniləri Azərbaycana köçürməklə Çar Rusiyası Cənubi Qafqazda - Azərbaycan torpaqlarında bugünkü erməni dövlətinin əsasını qoydu (5, s.25).

Çar I Nikolayın 10 aprel 1840-cı ildə imzaladığı qanuna əsasən, Cənubi Qafqazın yeni inzibati

quruluşu yaradılır. Yeni qanunla "Erməni vilayəti" buraxıldı. "Naxçıvan qəzası" adlı inzibati ərazi bölgüsü yaradıldı. Yaradılan yeni qəza Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. 1844-cü ildə Qafqaz canişinliyi yaradıldı. 14 dekabr 1846-cı il qanunu ilə Qafqazın yeni inzibati bölgüsü təsdiq edildi (13, s.118). İrəvan və Aleksandropol qəzaları yeni yaradılan Tiflis quberniyasının tərkininə daxil edildi. Senatın 9 iyun 1849-cu il fərmanı ilə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bəyazid qəzalarından ibarət İrəvan quberniyası təşkil edildi.

AMEA-nın müxbir üzvü H.Səfərli qeyd edir ki, artıq bu zamandan etibarən, yəni işğaldan sonra, Rusiya hakimiyyəti altında olduğu zamanlarda Naxçıvan adlı inzibati ərazi bölgüsünün sahəsi bir sıra torpaqların digər inzibati ərazilərə verilməsi hesabına süni surətdə kiçildilir. Belə ki, Naxçıvan qəzasının sahəsi 1917-ci il Qafqaz təqviminin məlumatına görə 3939 kv verst (1 verst = 1,0668 $km^2$), yəni 4202 $km^2$ müəyyənləşdirilmişdir (6, s.28).

1849-cu ilin 9 iyununda İrəvan quberniyası yaradıldı və quberniya 5 qəzaya bölündü:

1. İrəvan qəzası;
2. Aleksandropol qəzası;
3. Novo-bəyazid qəzası;
4. Naxçıvan qəzası;
5. Ordubad qəzası, Zəngibasar, Sürməli, Şərur, Sərdarabad mahalları İrəvan quberniyasına, Naxçıvan və Dərələyəz mahalı isə Naxçıvan qəzasına aid hesab edildi (17).

**Nəticə**

Beləliklə, Azərbaycan II Rusiya-İran müharibəsindən sonra, daha dəqiq desək, Türkmənçay müqaviləsinə görə iki yerə parçalandı. Rusiya çarı I Nikolay Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda və qədim Oğuz türklərinin yurdu olan İrəvan ərazisində qondarma "Erməni vilayəti" yaratdı. Bu torpaqların çox qədim zamanlardan əsl sakinləri olan azərbaycanlıların etirazlarına isə Rusiya tərəfi məhəl qoymadı. "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycanın tarixi-coğrafiyasına böyük dəyişiklik edildi. Bundan sonra həmin ərazilərdə etnik dəyişikliklər etdilər ki, əhalinin say dinamikasını ermənilərin xeyrinə dəyişdirsinlər, ancaq bu məsələ baş tutmadı.

## ƏDƏBİYYAT


1. Əliyev E. II Rusiya və İran müharibəsi və erməni vilayətinin yaradılması. Bakı Universitetinin "Xəbərləri". Humanitar elmlər seriyası, 2015, №1. s.177-183
2. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: 2012, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, s.192
3. Kazımbəyli İ. Naxçıvan və İrəvan qalalarının çar Rusiyasına qarşı müqavimət hərəkatı. AMEA Naxçıvan Bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2017, № 1, s.103-110
4. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: 2013, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, s.184
5. Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: 2007, "Təhsi", s.216
6. Səfərli H. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012. №1. Cild 8. s.26-31.
7. Süleymanov M.S. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: 2008, Hərbi nəşriyyat, s.400
8. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: 2008, "Elm", s.264
9. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: 2004, "Elm", s.184
10. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург: 1833, тип. Деп.внеш.торг., с.263
11. Гусейнзаде Р.А. Кавказ и армяне. Баку: 2014, Печатный дом "Апострофф", с.486
12. Эвецкий О. Статистическое описание Закавказского края. Санкт-Петербург: 1835, Типогпафий Штаба ОКВС, с.308
13. Нефедьев Н.А. Записка о Нахичеванской провинции, 22 ноября 1837 года. Система русского колониального управления в Азербайджане в половине XIX в. Колониальная политика российского царизма в Азербайджане. Москва-Ленинград: 1936, у. 1

14. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в Баку: 1964, Изд-во АН Азербайджана ССР, с.501
15. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911, с.63
16.Шопен И. Исторической памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. Санкт-Петербург: Типография Имперадской Академии Наук, 1852, с.1231
17. http://www.wikiwand.com/az/Sərdarabad_mahalı

## SUMMARY

**Nurlana Aliyeva**

## THE CREATION OF THE ARMENIAN PROVINCE IS AN ATTACK ON OUR HISTORICAL GEOGRAPHY

In this article is talked about the events happened after the sign contracts Gulustan and Turkmencay between Russia and Iran. Historical geographic facts were revealed, Armenian province and its borders were shown accurately in this article. There were tense relationships between these states after Gulustan contract were signed between Russia and Iran. The beginning of the XIX century powerful states, specially Russian Empire wants to be strong in the southern Caucasus and to have a say in this territory according to their interests. Azerbaijan was divided into two parts after II Russia and Iran war, excatly according to Turkmencay contract. The tshar of Russia I Nikolay formed fictional Armenian province in Nakhchivan was the part of Azerbaijan and Yerevan was an old part of Turkish land. A big change was made in historical geography of Azerbaijan with creation of Armenian province.

***Key words:*** *Nakhchivan, Armenian province, Gulustan contract, Turkmencay contract, historical geographic, XIX century*

## РЕЗЮМЕ

**Нурлана Алиева**

## ИСТОРИЯ СОЗДАНИЯ “АРМЯНСКОЙ ПРОВИНЦИИ” ЭТО НАПАДЕНИЕ НА НАШУ ИСТОРИКО-ГЕОГРАФИЮ

В статье говорится о событиях после подписания Гюлистанского и Туркменчайского соглашений между Россией и Ираном. В статье раскрыты историко-географические факты, точно указаны территория и границы “Армянской провинции”. Даже после подписания Гюлистанского договора между Россией и Ираном в 1813 году отношения между этими государствами оставались напряженными. В начале XIX века великие державы, особенно Российская империя, хотели укрепиться на Южном Кавказе и иметь право голоса в этом регионе за счет собственных ресурсов и интересов. После II русско-иранской войны, точнее, в результате “Туркменчайского” договора, Азербайджан был разделен на две части. Царь Николай I в России создал так называемую “Армянскую провинцию” в Нахчыване, который является частью Азербайджана, и на территории Иревана, древней турецкой родины. С созданием “Армянской провинции” в истории и географии Азербайджана произошли большие перемены.

***Ключевые слова:*** *Нахчыван, Армянская провинция, “Гюлистанский” договор, “Туркменчайский” договор, историческая география, XIX век*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127), 62-68
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127), 62-68
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127), 62-68

**НАРМИНА СУЛЕЙМАНОВА**
*Narmina.Suleymanova@adpu.edu.az*
*Азербайджанский Государственный Педагогический Университет*

**DOI: 10.30546/155244.2024.2.127.017**

# ИСТОРИКО-ГЕОГРАФИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ КАСПИЙСКОГО МОРЯ С ДРЕВНЕЙШИХ ВРЕМЕН ДО НАЧАЛА 20 ВЕКА

*Изучение Каспийского моря является важной в научном и практическом отношении задачей. Особенно это актуально в нынешнюю эпоху когда значимость этого водоема приобрела большую важность для стран расположенных вокруг него.*

*Каспийское море с древних времен привлекало внимание, как путешественников так и ученых историков и географов. Главное заключалось в том, что это море находясь на стыке между Европой и Азией, как бы соединяло эти два континента. Каспий был важной частью великого шелкового пути и поэтому был подвержен тщательному изучению, как его физико-географической так и социально-экономической составляющей.*

*С древних времен море играло значительную роль в установлении контактов между различными народами, Каспийское море не было исключением, поэтому играло роль моста межкультурного общения народов проживающих на его берегах.*

***Ключевые слова:*** *Каспийское море, Путешественники древности, Российские исследователи, Изучение природных условий моря*

## Древние исследования Каспийского моря

Географы, писатели, историки и путешественники прошлого в своих работах дают много информации о Каспийском море, но в большей степени они очень запутаны или противоречат друг-другу. Некоторые ученые древнего периода , опираясь на песни Гомера (VIII-VII вв. до н. э.) думали, что герои его произведений аргонавты посредством Кума-Манычского пролива перешли на Каспийское море (1).

Мысль о том, что Каспийское море было одним из заливов мирового океана, появилась у древних греков совсем не случайно. Можно считать данное предположение было обусловлено таянием ледников, талые воды которых заполнили большие пространства суши. В результате этого Каспийское море значительно расширилось на север, следствием которого было его соединение посредством вышеуказанного пролива с Черным морем (2).

Жившие в более поздние времена греческие путешественники и географы Гекатей Милетский, Геродот, Аристотель, Эратосфен и другие считали Каспийское закрытым водоемом или заливом океана (3).

Из записей Геродота, становится ясным, что он был хорошо знаком с Каспийским морем. В частности он пишет, что это море замкнутое у него нет никакой связи с каким либо другим морем. Данная мысль , была подтверждена лишь во втором веке н.э. Птолемеем.

По его записям вдоль западного побережья находятся широкие и высокие массивы Кавказских гор , заселенные различными племенами (4).

На восточном побережье, находится большая незаселенная пустыня, по этим долинам протекает река Араз.

Приведенные сведения Геродота по Аразу, наверное относятся к впадающем в Аральское море рекам Амударья и Сырдарья. По предположению Геродота эти две реки сливаясь образовывали одну реку. Помимо этого он считал, что Араз делился на два рукава,

одна из которых впадала в Каспийское море.

Действительно от нижнего течения Амударьи до Туркменского залива Каспийского моря протягивается покрытое песком древнее русло реки Узбой. Действительно в историческом прошлом один из рукавов Амударьи по этому ложу впадал в Каспийское море (5).

Геродот не упоминает Куру, он говорит о двух крупных реках впадающих в Каспийское море, видимо он имеет ввиду реки Волгу и Урал. К примеру Эратосфен на карте мира показывает две реки впадающих в Каспийское море в восточной его части.

Страбон представлял Каспийское море в форме озера простирающего с запада на восток. В его воображении суша со всех сторон окружена океаном или окраинными морями, "океан же в свою очередь, с востока четырьмя большими заливами врезаетсяв глубь суши: первый северный залив- Гирканское море (Каспийское море)" Страбон не знал о Волге, поэтому о ней не упоминает (6).

Второй по размерам был западный залив, именовавшийся внутренним морем (Средиземное море), третьим и четвертым были заливы именующиеся сегодня Красным морем и Персидским заливом. Страбон писал: "…племя исчезло но имя его живет" (7).

Клавдий Птолемей в своей книге впервые, отмечает, что в Каспийское море втекает река Ро, это река Волга. О Каспийском море пишут арабские путешественники и писатели, одни отмечают, что оно было овальной формы, а другие отмечают, что оно было удлиненной формы и располагалось вдоль параллелей.

Проживающий в X веке арабский путешественник и географ Абу-Исхак-Ибрахим-Ибн-Мухаммед-Аль Фарах-Аль Истахри в своей работе "Дороги государств" демонстрировал карту Каспийского моря в виде окружности. И называл этот водоем Бахру Хазар. На этой карте вокруг моря демонстрируется несколько государств, а самом море выделяется два острова. Абу-Абдуллах Мухаммед Аль-Идриси (1099-1165) на своей карте показывает протягивающемся в проекции север-юг. По поводу Каспия писали Аль Фергани, Аль-Масуди, Ибн-Хаукаль и Газвини,

В своих заметках о Каспийском море, проживающий в конце XIV начале XV века известный азербайджанский ученый Абд ар-Рашид ал-Бакуви отмечает подъем уровня моря.

Надо указать, что в течении столетий, Каспийское море различные исследователи и путешественники по разному именовали этот водоем, всего насчитывается около 75 наименований. Очень часто эти названия соответствовали или наименованию народов проживающих на его берегах или отражали в себе названия прибрежных городов или стран.

К примеру арабы, называли Каспий, Кюрканом, в честь одноименной страны, или в честь города Абескун, находящегося на берегу море называлось Абескуном. Присуще были и другие названия, такие, как Дайлен, Джурджан, Колзум. В итоге море получило свое название в честь хазарских племен проживающих на севере-западном побережье Каспийского моря. Проживающие в XIII веке восточные исследователи именовали Черное море Каспийским, **Каспийское море Тейласаном,)** Китайцы называли Каспийское море Си Хай т.е Западное море, в свое, а татары называли это море Аг дениз (8).

Соседние страны называли Каспийское море в честь находящихся на берегу государств и городов: Мазандаран, Тебирастан, Гюлсюм, Гилян, Фапс, Пехлеви, Рус, Хаштархан, Сара, Бакы, Сльян, Ширван Муган, Албан, и Дербент (9).

В свою очередь европейские народы именовали это море Каспийским в честь проживающих на юго-западном побережье моря племен называемых каспиями.

**Экспедиционные работы на Каспийском море**

Как известно любое географическое исследование того или иного природного объекта требует экспедиционных исследований и Каспийское море не является исключением, особенно это интересно с историко-географической точки зрения. В этом контексте, следует отметить, что каспийские экспедиции имеют длительную историю.

Еще в 909 году иранский историк Ибн Исфандийар сообщал что русские мореплатели совершали плавание и заезжали в порт Абескун. В период правления Князя Игоря (Игорь -

сын новгородского князя Рюрика. До 912 года - князь новгородский. В 912-945 годах, после смерти князя Олега, великий князь киевский) русское войско в количестве 50 тысяч человек на 500 судах с юга России прибыли на Каспийское море (10).

По реке Днепр они прибыли на Черное море, потом посредством Керчь-Еникальский пролива (Дл. пролива 22 м, шир. 8-22,5 м;) (11). перешли в Азовское море, после чего в районе станицы Качалинской (ныне населенный пункт в Иловлинском районе Волгоградской области России) (12). Передвинули свои корабли реке Волга и в дальнейшем двинулись к юго-западному побережью Каспийского моря.

В 943-944 году было организовано еще одно посещение русскими мореплавателями Каспийского моря. В этот раз русские мореплаватели дошли до Апшеронского полуострова, а также продолжили свой путь до Куры и далее продолжили свой путь до Барды (13).

Следует отметить, что до XVIII века практически не было сколь-либо серьезной экспедиции нв Каспийском море, тем не менее Каспийское море использовалось в качестве транспортного пути до Индии, Ирана, Хивы и Бухары. Иными словами водоем был частью Шелкового пути, который хотят возродить сейчас.

В начале XVIII века по указанию Петра Первого началось научные изыскания на Каспийском море. В этот период на Каспий были организованы экспедиции А. Бекович-Ческасского, А.Кожинина, В.Верденина, И.Токмачева, Ладыдена, С.Кинина, М.И.Войковича, Н.И.Е.Х Ленсина, Н.М.Книповича и других исследователей (14).

Петр Первый впервые поручил исследование Каспия князю А.Бекович-Черскасскому, причиной было то, что данный исследователь был родом с Северного Кавказа и в какой-то мере знал нравы и обычаи местных народов.

Для первой экспедиции ему было выделено 1500 солдат и 5 тысяч рублей золотом. Весной 1715 года вышел из Астрахани и двинулся по направлению к восточному берегу Каспийского моря и начал проводить свои исследования (15).

За месяц до возвращения Бековича-Черкасского в январе 1716 года, на Каспийское море был направлен А.Кожинин, его приезд был связан с подготовкой детальной карты Каспийского моря (16).

Надо отметить, что основным итогом первой экспедиции А.Бекович-Черкасского, было, следующее он определил, что Аму Дарья впадает не в Каспийское море, а в Аральское.

15 сентября 1716 года под руководством А.Бекович-Черкасского экспедиция А.Кожинина и Травинина начала свои исследования. Следует отметить, что в составе этой группы было триг полка состоящих из 1500 уральских и 500 гребенских казаков. В работе принимало участие 500 вольнонаемных татар. Понимая всю сложность данной работы и в целях безопасности в деятельности экспедиции были подключены и высоко квалифицированное офицерские кадры (17).

В 1719 году на Каспий была отправлена новая экспедиция, руководителем экспедиции был назначен Карл фон. Верден, ему помогали Лебедев, Урусов, Дорошенко и Золотарев.

К концу мая 1719 года была составлена карта Каспийского моря. Между тем, следует отметить, что главной целью этой экспедиции было проникновение через Каспий в Центральную Азию (18).

В 1764 году уже Екатерина Вторая, отправляет экспедицию на Восточную часть Каспийского моря, руководителем экспедиции назначается капитан И.В.Токмачев и А.П.Ладыжинский, которая 31 мая 1764 года вышла из устья Волги и двинулась на юг. По результатам описных экспедиций И.В.Токмачева, А.П.Ладыженского удалось установить, что наиболее удобный и глубоководный залив Каспийского моря - Красноводский (19).

29 июня 1796 года М.И.Войнович начал исследования на островах Жилой (Çılov), и Огурчинский (Ogurjaly-туркм.) (20). Среди исследователей Каспия можно, также выделить Н.Н.Муравьева, он 18 июня 1819 года с двумя судами вышел из Баку и направился на восточный берег моря, там он проводил исследование по различным направлениям гидрографии Каспийского моря. Его вторая экспедиция была организована 25 июня 1820 года. Исследования проводились в различных районах Каспийского моря (21).

Следует отметить и экспедицию зоолога Э.И.Эйхвалд (1825), который изучал, как флору Каспия, так и его побережья (22).

В 11 мая 1832 года началась экспедиция Г.С.Карелина, он вышел в море из Гурьева и двинулся на юг, целью ученого был сбор образцов почв, фауны и флоры островов Каспийского моря, также проводились и метеорологические изыскания (23).

В конце 1835 года Российской Академии Наук было принято решение по организации комплексного исследования Каспийского моря и уже в мае 1836 года новая экспедиция возглавляемая Г.С.Карелиным экспедиция отправилась в путь на этот раз из Астрахани в восточную часть Каспийского моря, где проводила многоцелевые изыскания (24).

В 1853 году экспедиция под руководством члена Российской Академии Наук, академиком Н.В.Ханыковым определила, что изменения уровня Каспийского происходит не под воздействием геологических факторов, а климатических (25).

В 1853-1856 году научные экспедиции К.М.Беры (26) и Даниловского изучала ихтиофауну и гидрохимию Каспия.

В 1856 году экспедиция под руководством Н.А.Ивашникова (26) начала проводить комплексные стационарные научные исследования на Каспийском море. Работы были завершены в 1867 году. Собранные материалы были в дальнейшем обработаны и опубликованы в 1877, из значимых результатов, следует отметить, что исследователями впервые был подсчитан водный баланс Каспийского моря.

В 1897 году экспедиция Н.И.Андрусова провела исследования залива Кара-Богаз Гёля, изыскания были связаны с изучением гидрографии, гидрохимии и геологией этого морского объекта (27).

В 1904 году А.А.Лебединтаев провел гидрохимические исследования на Каспии. Им в различных частях моря был проведен химический анализ морской воды (28).

Известный исследователь морей профессор Н.И.Книтович в период с 1904 по 1915 год провел на Каспийском море три экспедиции. Результаты этих исследований были опубликованы в 1921 году, здесь особенно хотелось бы выделить последнею третью экспедицию 1914-15 г.г. Из отчетов становится понятным, что были проведены значительные работы по физико-географической характеристики Каспийского моря, даются представления о водных потоках и изменений уровня моря (29).

**Картографические исследования Каспийского моря**

Как указывалось выше многие европейские ученые древности нечетко определяли границы Каспийского моря, только карта Франка - Мауро (1459) (30) заслуживает некоего внимания. На этой карте, как море целиком, так и отдельные его части представлены сравнительно соответствующе их истинному состоянию.

Далее можно говорить о границах моря сделанного по приказу Ивана IV, выражаясь нынешней терминологии, в рамках проекта все государства Московии, был сделан чертеж, как самого водоема, так и прилегающих государств (31).

В 1636 году Адам Олеари создал карту Каспийского моря Изображение моря на этой карте, также соответствовало его положению на местности. Он в частности пишет "…здесь не надо, для зажигания ламп, как принято у нас, использовать для этого кипяченный жир выловленной рыбы, так как здесь для этого используется привозимая из Баку в бурдюках на верблюдах нефть…" (32).

В 1715 году князь А. Бекович-Черкасский, а в1718 году Урусовым, Кожининым и Трахиным по поручению Петра Первого составили карту восточного берега Каспийского моря, а в 1720 году Ван Верден и Ф.М. Соймонов составили карту дали описание западного и южного берега моря (33).

Эта карта была отправлена Петром Первым во Французскую Академию наук, где была издана на французском языке. На основе этой карты в странах Западной Европы издавались более четкие карты Каспийского моря. Эта карта до сих пор не потеряла своего научного значения (34).

В 1720 году работающие под руководством Александра Бековича Черкасского гидрографы составили гидрографическую карту Каспийского моря (35).

В 1731 году М.Ф. Соймонов создал первый атлас карт Каспийского моря и составил впервые лоцию моря. В этом труде показывается площадь Каспийского моря, его западные и восточные берега, дается глубина и показывается особенность ложа моря. Этот атлас охватывает пространство от устья Волги и озера Жарково в России, до реки Астрабад в Иране. В 1762 году И.Панин составил карту южного берега Каспийского моря, в 1764-65 И.В.Токмачев разработал карту восточного побережья моря (36).

В 1826 года у был издан атлас Каспийского подготовленного на основе материалов экспедиций А.Е.Колодина проведенного им в 1813-1817 годах (37).

В 1838-1839 г.г. по поручению генштаба российской Армии была проведены хронометрические изыскания в целях совершения атласа А.Е. Колодина (38).

Можно также отметить и работу экспедиции Г.С.Карелина, занимающегося изучением восточного побережья Каспия, ими было составлено 10 карт данного района. Работы по каспийской тематики были продолжены в 1856-1857 годах Н.А.Ивашинцева. На основе материалов этих экспедиций в 1867 году были опубликованы 25 карт, 24 подробных плана и 2 атласа Каспийского моря (40).

**Заключение**

Безусловно вопросы историко-географического исследования Каспийского моря представляют важную в научном и практическом отношении задачу. Каспий является уникальным по своему географическому положению водоему и носит евразийский характер, на его берегу находится шесть государств и не случайно, что ему придается столь большое значение в современную эпоху.

С древних времен он привлекал внимание исследователей и путешественников как с востока, так и с запада. Все отмечали его природные особенности, уделяли внимание, как его фауне, так и флоре. Большое значение имели нефтегазовые резервы моря, еще ученые древности отмечали это в своих описаниях Каспийского моря.

Нельзя не отметить и военно-стратегическое значение Каспия, не случайно все Русские цари от Ивана Грозного до Петра Первого и Николая Второго отправляли сюда экспедиции, которые подробно исследовали, как и само море, так и его берега. Большое внимание уделялось и биологическим ресурсам моря. Тщательно проводилось и картографирование Каспийского моря.

В заключении следует отметить, что вопросы историко-географического исследования Каспия требуют новых подходов и методов, так как это позволить по новому взглянуть на его прошлое и раскрыть еще неизвестные страницы его истории.

## ЛИТЕРАТУРА


1. Толстой И.И. Аэды: Античные творцы и носители древнего эпоса. М., “Наука”, 1958. с.63
2. Сейран Велиев. Каспий. 2010. 31 июля. 8,10
3. https://dzen.ru/a/YyA9tNPJjBnVRAtH
4. https://azerhistory.com/?p=6685
5. Туркменский залив-обширный незамерзающий залив в восточной части Каспийского моря, формирующий часть береговой линии Туркменистана.
6. Страбон, Лодомир, М., 2004, с.309, (пер. Г.А.Стратановского)
7. Там же с.314-315
8. Зонн И.С. Каспийская энциклопедия. М., 2004 с.165
9. Военная энциклопедия Том 12 Кальяри-Коалиционные войны, Санкт-Петербург, Издательство Сытина 1913, с.513-514
10. Насанов А.Н.М., 1951. “Русская земля” и образование территории древнерусского государства: историко-географическое исследование источник М.,1951 с.163

11. Земля Донскаго войска. Список населённых мест по сведениям 1859 года. СП (б). 1864. с.42
12. Гайдашев А.В. Казачьи станицы как объект культурного наследия (на примере станицы Качалинской Волгоградской области) //Грани Познания электронный научно-образовательный журнал, № 4 (9) 2010 с.18-21
13. Керимова Т.С. Из истории научного изучения каспийского моря, 5, 2019, научные известия, с.22
14. Торопицын И.В. "Имперская замашка": попытка России закрепиться на Восточном побережье Каспийского моря в эпоху Петра I Великого// Журнал Фронтирных Исследований. 2022. No 1, с.20
15. Боевая летопись русского флота: хроника важнейших событий военной истории русского флота с IX в. по 1917 г //под ред. Н. В. Новикова. М.: изд-во и 7-я тип. Воен. изд-ва, 1948. с.58
16. Там же с.180
17. http://militera.lib.ru/research/bezgin_ig/01.html
18. К.З.Насыров участие военно-морских офицеров русского флота в установлении сухопутно-морского пути в среднюю азию в XVIII – первой половине XIX в. Диссертация на соискание ученой Степени Кандидата исторических наук, Уфа, 2021г. С.66
19. Соколов А.П. Описи Каспийского моря с начала восемнадцатого века по настоящее время // "Записки Гидрографического департамента Морского министерства". СПб., 1852. Ч.Х. с.1-44.
20. Жилой остров // Евклид -Ибсен. М.: Советская энциклопедия, 1972. с.642.
21. Задонский Н.А. Жизнь Муравьева. М.: Современник, 1985. с.87
22. https://www.ras.ru/win/db/show_per.asp?P=.id-52888.ln-ru.
23. Штейнберг Е.Л. Первые исследователи Каспия (XVIII-XIX вв.). М.: Географгиз, 1949. с.193
24. https://www.rgo.ru/ru/article/nikolay-hanykov-osnovatel-pervogo-filiala-rgo-kavkazskogo
25. https://bigenc.ru/c/ber-karl-maksimovich-531709
26. М.Ю.Яковлева. Каспийская экспедиция Императорского Русского географического общества, Вестник Истории № 4-2012, с.18
27. https://silkadv.com/en/content/istoriya-zaliva-kara-bogaz-gol
28. Зонн И.С., Жильцов С.С. Новый Каспий: география, экономика, политика. М. АСТ Восток–Запад, 2008. с.138
29. Книпович Н.М. Каспийское море и его промыслы. Берлин: ГИЗ РСФСР, 1923.
30. https://violity.com/ru/new/5341-vpechatlyayucshaya-detalizaciya-karta-fra-mauro
31. Зимин А.А., Хорошкевич А.Л. Россия времён Ивана Грозного. М., 1982. с.89-92
32. https://www.wikimedia.az-az.nina.az/Adam_Oleari.html
33. Лебедев Д.М. Федор Иванович Соймонов / Д.М.Лебедев // Люди русской науки. Очерки о выдающихся деятелях естествознания и техники. Геология и география. Москва: 1962. Государственное изд-во физико-математической литературы, с.298-305.
34. https://blog.mediashm.ru/?p=4648
35. Ж.Д.Адилов. Изучение экспедиции александра бековича-черкасского в хиву в контексте историко-географических исследований// Проблемы истории, археологии и этнологии Центральной Азии / международный научный сборник, Ташкент: 2018, с.6-15
36. Лебедев Д.М. Федор Иванович Соймонов / Д.М.Лебедев // Люди русской науки. Очерки о выдающихся деятелях естествознания и техники. Геология и география. Москва: 1962. Государственное изд-во физико-математической литературы, с.298-30
37. https://stepnoy-sledopyt.narod.ru/geologia/kmore/issled.htm
38. https://www.anl.az/down/meqale/kaspi/2010/iyul/129354.htm
39. http://elib.shpl.ru/ru/nodes/8727-karelin-g-s-puteshestviya-g-s-karelina-po-kaspiyskomu-moryu-spb-1883-zapiski-imp-rus-geogr-o-va-po-obschey-geografii-t-10

## XÜLASƏ

**Nərminə Süleymanova**

### QƏDİM DÖVRLƏRDƏN XX ƏSRİN ƏVVƏLLƏRİNƏ QƏDƏR XƏZƏR DƏNİZİNİN TARİXİ-COĞRAFİ TƏDQİQATLARI

Xəzər dənizinin tədqiqi elmi və praktiki baxımdan mühüm vəzifədir. Bu, su hövzəsinin əhəmiyyətinin onun ətrafında yerləşən ölkələr üçün böyük əhəmiyyət kəsb etdiyi indiki dövrdə xüsusilə doğrudur.

Qədim dövrlərdən Xəzər dənizi həm səyyahların, həm də alimlərin, tarixçilərin və coğrafiyaçıların diqqətini cəlb etmişdir. Ən əsası, bu dəniz Avropa ilə Asiyanın qovşağında olmaqla, sanki bu iki qitəni birləşdirirdi. Xəzər dənizi Böyük İpək Yolunun mühüm hissəsi idi və buna görə də onun həm fiziki-coğrafi, həm də sosial-iqtisadi komponentləri diqqətlə öyrənilməli idi.

Qədim dövrlərdən bəri dəniz müxtəlif xalqlar arasında əlaqələrin qurulmasında mühüm rol oynamışdır, buna görə də onun sahillərində yaşayan xalqların mədəniyyətlərarası ünsiyyəti üçün körpü rolunu oynamışdır.


***Açar sözlər:*** *Xəzər dənizi, qədim səyahətçilər, rus tədqiqatçıları, dənizin təbii şəraitinin öyrənilməsi*


## SUMMARY

**Narmina Suleymanova**

### HISTORICAL AND GEOGRAPHICAL STUDIES OF THE CASPIAN SEA FROM ANCIENT TIMES TO THE BEGINNING OF THE XX CENTURY

The study of the Caspian Sea is an important task from a scientific and practical point of view. This is especially true in the current era, when the importance of the watershed is of great importance to the countries located around it.

Since ancient times, the Caspian Sea has attracted the attention of travelers, scientists, historians and geographers. Most importantly, this sea, being at the junction of Europe and Asia, seemed to connect these two continents. The Caspian Sea was an important part of the Great Silk Road, and therefore both its physical-geographical and socio-economic components had to be carefully studied.

Since ancient times, the sea has played an important role in establishing relations between different peoples, therefore it has played the role of a bridge for intercultural communication between the peoples living on its shores.


***Key words:*** *Caspian Sea, ancient travelers, russian explorers, study of the natural conditions of the sea*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 69-74
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 69-74
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 69-74

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.021**

## CƏMİYYƏT HƏYATINDA SİYASİ SFERANIN ROLU VƏ YERİ

*Məqalədə cəmiyyət həyatında siyasi sferanın yeri və rolu təhlil edilir. Siyasət dövlətin, insanların və dövlətin, insanlar və sosial qrupların fəaliyyəti və ünsiyyəti ilə əlaqələndirilir. Siyasəti həyata keçirən dövlətin xarakter xüsusiyyətləri, hakimiyyət strukturlarının formaları araşdırılır. Cəmiyyətin, "siyasi mühiti" anlayışına tərif verilir.*

*Siyasi rejim forması kimi demokratiya və totalitarizmin xüsusiyyətləri, siyasi mühitdə "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları arasında fərqlər müəyyənləşdirilir. Belə nəticəyə gəlinir ki, totalitar rejimdə bir növ vətəndaş cəmiyyətinin dövlət tərəfindən mənimsənilməsi baş verir. Yalnız demokratik rejim dövlətlə vətəndaş cəmiyyəti arasında balanslaşdırılmış və ahəngdar münasibətlərin mexanizmini formalaşdırmağa qadirdir.*

***Açar sözlər:*** *Siyasət, siyasi sfera, dövlət, sosial qruplar, hakimiyyət, cəmiyyət, totalitar rejim, demokratiya, vətəndaş cəmiyyəti*

Son onilliklərdə siyasət getdikcə daha çox sosial subyektin digər subyektlərə və ya obyektlərə münasibətdə şüurlu şəkildə həyata keçirilən davranış xətti kimi müəyyən edilir. Sovet dövründə mövcud olan, onu bir sinif və ya dövlətlə məhdudlaşdıran izahlardan fərqli olaraq, subyekt dedikdə, ümumi olaraq sosial qruplar - (və hər şeydən əvvəl, əlbəttə ki, dövlətlər, siniflər), xalqlar, millətlər, siyasi partiyalar və insanların bir çox başqa birlikləri başa düşülür. Siyasətin özü istənilən halda, təkcə başqa siniflərə və dövlətlərə münasibətdə deyil, həm də başqa xalqlara, müxtəlif inanclara, demoqrafiyaya, ətrafdakı coğrafi mühitlə qarşılıqlı əlaqələrdə və s. münasibətdə həyata keçirilə bilər. Bu baxımdan, getdikcə daha çox "insanların davranış xətti", "cəmiyyətin idarə olunması" və s. kimi qeyri-sinfi anlayışlarla əlaqələndirilən "siyasət" anlayışının tərifi diqqətəlayiqdir. Onu da yaddan çıxarmamaqla yanaşı, əlbəttə ki, "cəmiyyətin siyasi mühiti" anlayışının aşağıdakı tərifini qəbul edə bilərik: siyasi mühit - cəmiyyətdə siyasi münasibətləri tənzimləyən dövlət və siyasi təşkilatların, institutların və müəssisələrin məcmusudur. Siyasi mühitin əsas altsistemlərinə dövlətlər, siyasi partiyalar, ictimai təşkilatlar (həmkarlar ittifaqları və s.), siyasi münasibətlər, o cümlədən beynəlxalq əlaqələr, siyasi şüur və s. aiddir.

Cəmiyyətin sinifə qədərki təşəkkülü zamanı siyasət insanları idarə etmək sənəti kimi sosial-qrup, sinfi yönümlərə malik deyildi, sadəcə birgə aksiyalar təşkil etmək, insanlar və tayfalar arasında münasibətləri tənzimləmək zərurəti yaranırdı. Bu da müvafiq səlahiyyətlərə malik olan rəhbərlərin, ağsaqqalların namizəd irəli sürməsi ilə kifayətlənirdi. Lakin zaman keçdikcə belə hakimiyyət dövlət formasını aldı: idarəetmə halqası özünü göstərdi, orduya, polisə, həbsxanalara, müxtəlif növ məcburetmə qurumlarına ehtiyac yarandı; hakimiyyətin qanunverici, icra və məhkəmə orqanlarına bölünməsi baş verdi. Dövlətin strukturuna, xüsusilə orta əsrlərdə kilsə təşkilatları da daxil idi. Kilsə maraqları çox vaxt feodal sinfinin və bu kiçik sosial qrupun siyasətini həyata keçirən dövlətin maraqları ilə üst-üstə düşürdü.

Dövlətin xarakterik xüsusiyyətlərinə qeyd olunan strukturlardan (hakimiyyət, ordu, polis və ya milis, məhkəmə sistemi və s.) əlavə olaraq, həmin dövlətin yurisdiksiyasına daxil olan ərazinin mövcudluğu, müəyyən sayda əhalinin olması, dövlət tərəfindən sanksiyalaşdırılan normalar sistemini

müəyyən edən qanunun olması, dövlət orqanının, onun bölmələrinin, ordunun, məhkəmə institutlarının saxlanması üçün zəruri olan vergi yığım xidmətinin olması və s. aid edilir.

Hakimiyyət strukturunun üç altsistemi də öz aralarında funksiyaların müvafiq bölgüsünə əsaslanır: Qanunverici hakimiyyət orqanları qanunvericilik, qanunların hazırlanması və qəbulu funksiyalarını həyata keçirir; İcra hakimiyyəti mərkəzdə və yerlərdə qəbul edilmiş qanunların reallaşdırılmasını hədəfləyir; Məhkəmə hakimiyyəti məhkəmə icraatı funksiyasını yerinə yetirir.

Qeyd olunan üç funksiyadan başqa dövlət sisteminin normal fəaliyyətini təmin etmək vəzifəsi olan dövlətin bir sıra başqa funksiyaları da var. Əgər dövlətin bir sıra funksiyaları hakim sosial təbəqənin maraqlarını kifayət qədər lakonik şəkildə ifadə edirsə, o zaman digər funksiyaları yerinə yetirərkən, xüsusən də təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasını təşkil edərkən, cinayətkarlığa qarşı mübarizəyə başladıqda, ölkənin hərbi müdafiəsinin təşkili zamanı və s. hallarda siyasi mühitin bu mərkəzi orqanının ilkin anlayışına uyğun olaraq, özünün sinifüstü, universal xarakterini nümayiş etdirə bilər və nümayiş etdirməlidir. V.S.Barulin dövlətin mahiyyətinin vulqar-sosioloji şərhinə qarşı çıxış edərək yazır: "Dövlət müəyyən mənada bütün insanların mənafeyini ifadə edir, o, hər kəsin münasibətlərini tənzimləyən, onların mənafeyini uyğunlaşdıran, hər bir insanın həyatı və fəaliyyəti üçün şərait, imkanlar təmin edən orqandır... Dövlətin sinfi mahiyyəti – onun fəaliyyətinin bir sinfin xeyrinə olan obyektiv tendensiyasıdır, bu, həmin sinfin mənafeyinin üstünlüyüdür, lakin heç bir halda dövlətin bir sinifin daxilində "əriməsi" və heç bir halda bir sinifin digər siniflərə qarşı mütləq qarşıdurma vəziyyətində olması demək deyil" (2, s.150).

Cəmiyyət tarixində ali dövlət hakimiyyətinin iki əsas təşkil forması mövcud olub: monarxiya və respublika. Monarxiya idarəetmə forması dövlət başçısının dəyişdirilməsinin irsi prinsipi ilə xarakterizə olunur. Monarxın səlahiyyətlərindən asılı olaraq, bu idarəetmə formasının mütləq monarxiya və konstitusiyalı monarxiya kimi növləri var. Üstəlik, əgər mütləqiyyətin əlaməti dövlət başçısının praktiki olaraq qeyri-qanuni hakimiyyətidirsə, konstitusiyalı monarxiya onun səlahiyyətlərinin məhdudlaşdırılması ilə xarakterizə olunur. Hazırda dünyada qırxa yaxın ölkə monarxiya idarəetmə forması ilə idarə olunur, onların əksəriyyəti parlamentli monarxiyalardır (Böyük Britaniya, Yaponiya, İsveç, Norveç və s.) (7, s.299-300).

Respublika dövlət hakimiyyətinin elə bir idarəetmə formasını özündə əks etdirir ki, dövlət hakimiyyətinin ali orqanları ya seçilir, ya da ümummilli nümayəndəlik institutu tərəfindən formalaşdırılır. Respublika idarəetmə formasının üç əsas növü var: 1) güclü prezident hakimiyyəti – ümumi səsvermə yolu ilə dövlət başçısının parlamentdən asılı olmayaraq seçilməsi, dövlət başçısının və hökumət başçısının səlahiyyətlərinin prezidentin əlində cəmləşdirilməsi, prezident tərəfindən hökumətin təyin edilməsi, hökumətin prezident qarşısında cavabdeh olması (məsələn, ABŞ); 2) parlament respublikası – prezidentin parlament vasitəsi ilə seçilməsi, hökumət başçısının, baş nazirin idarə olunmasında həlledici rol, parlament yolu ilə hökumətin formalaşdırılması, hökumətin parlament qarşısında məsuliyyəti; yarıparlamentli respublika – ümumxalq səsverməsi yolu ilə parlamentdən asılı olmayaraq prezidentin və ya dövlət başçısının seçilməsi, güclü prezident hakimiyyəti, hökumətin parlament qarşısında cavabdeh olması (Fransa, Portuqaliya, Finlandiya və s.). Burada müxtəlif idarəetmə formalarının fərqləndirilməsinin əsasını dövlət hakimiyyətinin ali orqanlarının hüquqi statusu və münasibətləri təşkil edir (7, s.299).

Dövlətlər həm də siyasi rejimlərlə səciyyələnir ki, onlar təkcə müxtəlif dövlətlər üçün deyil, həm də mövcudluğunun müxtəlif dövrlərində eyni dövlət üçün fərqli ola bilər. Bəşəriyyət tarixində, əsasən, iki tip siyasi rejimin mövcudluğu qəbul edilir: demokratik rejim və diktatura rejimi (totalitar və avtoritar).

"Demokratiya" ilk dövlətlərin təşəkkül tapmasından əvvəl yaranmış və insanların bir çox müxtəlif birliklərinin fəaliyyətində mövcuddur. Tədqiqatçıların fikrincə, ilk sinifli cəmiyyətlərin yaranması ilə, şəhər-polislərin formalaşması ilə bu növdən olan bilavasitə və ya birbaşa demokratiya 5-6 mindən çox olmayan əhalini bir yerə toplamaq mümkün olan yerlərdə mövcud idi. Məhz bu sayda əhalinin mövcudluğu şəraitində rəqəmlə çoxluğu və azlığı dəqiq nəzərə almaq, səslərin hesablanmasının nəticələrini iki dəfə yoxlamaq və ümumi olaraq mübahisəsiz qərar qəbul etmək mümkün idi. Belə bir demokratiya bu gün də "istehsalat demokratiyası" qismində mövcuddur. İctimai təşkilatların fəaliyyəti çox vaxt birbaşa demokratik idarəetmə prinsipinə tabe edilir. Dövlət-siyasi

quruluşun demokratiyası uzun əsrlər boyu əhalinin bilavasitə iştirakı ilə deyil, dolayı yolla, məsələn, seçicilərin nümayəndələri vasitəsilə dövlət işlərində iştirakı ilə əlaqələndirilib. Demokratik xarakter daşıyan dövlət aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: çoxluğun iradəsinin hakimiyyət mənbəyi kimi tanınması, vətəndaşların hüquq və azadlıqlarının bərqərar olması və onlara riayət edilməsi, onların bərabərliyi, ictimai həyatın proseslərini idarə etmək imkanları, əsas dövlət orqanlarının seçkili olması, qanunun aliliyi. Bir çox ictimai elmlər üzrə bir çox alimlər tərəfindən tanınan bu xüsusiyyətlərə tez-tez başqaları da əlavə olunur: çoxpartiyalı sistemin işləməsi, əhalinin yüksək həyat səviyyəsi və s. Bununla belə, onları konkret siyasi rejimin mahiyyətini müəyyən etmək üçün əvvəlkilər kimi qeyd-şərtsiz hesab etmək çətindir. Məsələn, çoxpartiyalı sistem bir partiyanın cəmiyyətdə hökmranlığı və diktatorun özbaşınalığı üçün pərdə kimi də mövcud ola bilər. Onu da nəzərə almaq lazımdır ki, demokratik çoxluğun iradəsinin təzahürü hələ ədalətli dövlətin zəmanəti deyil. Demokratiyadan oxlokratiyaya (kütlə hakimiyyəti) məsafə bir addımdır. Aristotel onu da qeyd edirdi ki, demokratiya qanunlara məhəl qoymayan oxlokratik hakimiyyətə çevrilə bilər, o zaman hər cür demaqoqlar və yaltaqların xalqın adından idarəçiliyi hökm sürər. Demokratiyanın mahiyyəti çoxluğun iradəsini ifadə etməsində deyil, xalqın öz seçilmiş nümayəndələri vasitəsilə ağlabatan qanunvericilik yaratmaq hüququndadır ki, buna xalq özü də tabe olmalıdır. Bununla belə, azlıq səsvermə hüququna və çoxluq tərəfindən dinlənilmə hüququna malik olmalıdır. Amerikalı filosof D.Dyui yazırdı: "Demokratik idarəetmə formalarını, ümumi seçki hüququnu, həm icra, həm də qanunvericilik orqanlarının səs çoxluğu ilə seçilməsi praktikasını həyata keçirən eyni qüvvələr həm də bütövlükdə dostcasına təşkilatlanmış cəmiyyətin əsl alətinə çevrilməsini tələb edən humanitar ideallarının həyata keçirilməsinə yönəlmiş sosial siyasətə mane olan şərait yaratmışdır. "İnsan münasibətlərinin yeni əsri" adekvat institusional dəstəyə malik deyil. Demokratik cəmiyyət bir çox cəhətdən hələ də başlanğıc mərhələsindədir, qeyri-mütəşəkkil vəziyyətdədir" (4, s.80). Deməli, yuxarıda sadalanan demokratiya əlamətləri dövlət rejiminə münasibətdə yalnız hərtərəfli, öz vəhdətində və lazımi şəraitdə götürüldüyü halda effektiv olur.

Böyük Britaniyanın məşhur siyasi və dövlət xadimi U.Çörçill vaxtilə qeyd edirdi ki, demokratik dövlət hələ də mükəmməllikdən uzaqdır. O, bununla belə əlavə edirdi: lakin bəşəriyyət hələ ondan daha yaxşı heç nə tapmayıb.

Rus filosofu İ.A.Qobozov demokratiyanın müsbət və mənfi cəhətlərini ətraflı araşdıraraq belə bir nəticəyə gəlmişdi ki, "müasir demokratiya elan etdiyi məqsəd və prinsiplərdən çox uzaqdır... Müasir demokratiya üçün köklü yenidənqurmaya ehtiyac var" (3, s.152). Əsl siyasi demokratiya necə olmalıdır? Bəzi filosoflar əsas xüsusiyyətləri aşağıdakılarla üst-üstə düşən siyasi demokratiya təsəvvürlərini bölüşürlər: məmurların ümumxalq seçkiləri, onların hakimiyyətdə qalma müddətinin qısa olması və tez-tez seçkilərin keçirilməsi. D.Dyui deyir: "Bu və ya digər dövlət məmurunun hakimiyyətdə qalıb-qalmayacağı və xidmətinə görə hansı mükafatı alacağı vətəndaşların özlərindən asılı olsaydı, o zaman məmurların şəxsi maraqları bütün xalqın, ən azından onun zəhmətkeş və mülkiyyətə malik olan hissəsinin maraqları ilə üst-üstə düşərdi. Ümumxalq səsverməsi yolu ilə seçilən məmurlar biləcəklər ki, onların vəzifəyə seçilmələri əhalinin mənafeyini nə qədər ciddi və məharətlə müdafiə edəcəklərindən asılıdır. Vəzifədə qalmağın qısamüddətli olması və tez-tez keçirilən seçkilər məmurların mütəmadi hesabatlılığını təmin edəcək, seçki məntəqələrinin açıldığı gün onların mühakimə günü olacaq. Bu günün qorxusu onları daim özlərinə nəzarət etməyə məcbur edəcək" (4, s.69).

İndi totalitar siyasi rejimin xarakterik xüsusiyyətlərini nəzərdən keçirək. Bu, dövlət və ictimai həyatın bütün sahələrinə nəzarət edən və idarə edən, həm ayrı-ayrı fərdlər, həm də sosial qruplar tərəfindən müstəqil fikir bildirmək cəhdlərini amansızca boğan bir rejimdir; ümumbəşəri və məsumluq iddiasında olan ideologiyanın intensiv fəaliyyət göstərməsi, cəmiyyətin və insanın, bütün dünyanın köklü transformasiyası, müxtəlif utopiyaların zorla həyata keçirilməsi; qarşıya qoyulmuş məqsədlərə çatmaq naminə cəmiyyətin bütün üzvlərini birləşdirmək məqsədi ilə daimi və davamlı siyasiləşdirilməsi; qeyd-şərtsiz loyallıq və müəyyən siyasi prosesdə fəal iştiraka nail olmaq üçün cəmiyyətin bütün üzvlərinin səfərbər edilməsi; daxili və xarici düşmənlərlə daimi mübarizə; ideologiyanın hər bir insanın gündəlik həyatına yeridilməsi üçün ən mühüm alət kimi terror və gizli

polisin geniş şəkildə istifadə edilməsi; müstəqil siyasi və ictimai təşkilatların ləğvi, bir qayda olaraq, kütləvi təşkilatlara rəhbərlik edən bir dövlət siyasi partiyasının yaradılması; fundamental hüquqların, xüsusilə toplaşmaq, nümayiş keçirmək hüququnun, mətbuat azadlığının, elmin, incəsənətin və ədəbiyyatın azad inkişafının qadağan edilməsi; mərkəzləşdirilmiş bürokratiya sistemi, qarşısında hətta dövlət partiyasının üzvlərinin də aciz qaldığı totalitar elitanın yaradılması; praktikada özbaşınalığa gətirib çıxaran partiya və dövlət orqanlarının dualizmi və ziddiyyətli fəaliyyəti, səlahiyyətlərin dəqiq bölünməməsi halları; totalitar idarəetmə, bir qayda olaraq, açıq-aşkar xarizmatik xarakter daşıyır, insanlar liderə, fürerə və ya din xadiminə təkcə onun qüsursuzluğuna və peyğəmbərlik möcüzələrinə inanaraq deyil, həm də sevgi ilə itaət edirlər.

Totalitar rejimdə dövlət hakimiyyəti ciddi mərkəzləşdirilmiş və faktiki olaraq hakim partiya aparatına, hakim təşkilatlara və ya hərbi xuntaya məxsusdur. Dövlət və hökumətin başında bir qayda olaraq ali qanunverici, icraedici, bəzən də məhkəmə funksiyasını öz əlində cəmləşdirən, heç kimə hesabat verməyən lider durur. Ölkə əhalisi praktiki olaraq dövlət idarəetmə sistemindən kənarlaşdırılır, belə ki, nümayəndəli orqanlar ya sadələşdirilir, ya da ümumi seçki hüququ pozularaq formalaşdırılır. Məsələn hitler Almaniyasında reyxstaq deputatların bir hissəsi birbaşa fürer tərəfindən, qalan hissəsi isə faşist partiyası tərəfindən seçilirdi. Muxtar hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanları yuxarıdan təyin edilmiş "emisarlar" əvəz edirdi.

Totalitar rejimin qurulması ilə idarə edən dairələr nəinki, gizlədir, hətta açıq şəkildə zorun müxtəlif metodlarını nümayiş etdirirdilər, həyata keçirilən kursa qarşı istənilən müqavimət cəhdi kəskin şəkildə əzir, güc strukturları olan ordunun, polisin və təhlükəsizlik orqanlarının ictimai həyatın bütün sahələrinə müdaxiləsi xeyli dərəcədə fəallaşır. İqtisadi sferada bir qayda olaraq dövlət tərəfindən inhisar nəzarəti hakimlik edir ki, buna islahat keçirməkdən tam imtina etmək deyildir.

"İdeal" totalitarizm üçün birpartiyalı sistem və yaxud ciddi nəzarət altında rejimi müdafiə edən bir neçə partiya və "rəsmi" həmkarlar ittifaqı xasdır. Müxalif partiyalar hərəkatların fəaliyyəti qəti qadağandır. Ona görə də onlar gizli şəraitdə və yaxud mühacirətdə fəaliyyət göstərirlər. Rejimin rəqibləri polis terroruna məruz qalır.

Totalitar rejimin özünə məxsusluğu konstitusiyanı qeyri-müəyyən vaxta qədər dayandırmaq və ya ləğv etməkdən ibarətdir. Bu halda dövlət başçısının fərmanı, icraedici hakimiyyət strukturlarının sərəncamları və ya ordu direktivləri qanun qüvvəsini alır, vətəndaşların demokratik hüquq və azadlıqları mühüm şəkildə məhdudlaşdırılır.

Onu da qeyd edək ki, totalitar sistemlər həm daxili – məhsuldar qüvvələrin, elmin, texnikanın, incəsənətin inkişafı, söz azadlığı, təşəbbüs və müstəqillik tələb etdiyinə görə, həm də xarici səbəblərdən – müharibələrin təsiri altında məğlubiyyətə məhkumdur, bu siyasi rejimlər tezliklə tarixən özünü tükəndirəcək. Bu elə bir quruluşdur ki, orada hüquqi subyektlər, qanunlar, qanunun aliliyi, hüquqi dövlət yoxdur. Burada hüquqi şüur psixi mexanizmlərlə – aclıq, qorxu, əzab və alçaltmaqla, yaradıcı iş isə kölə isterikası gərginliyinin psixofiziki mexanizmi ilə əvəz olunur.

"Ona görə də totalitar rejim nə hüquqi, nə də dövlət rejimidir... O, bütünlüklə heyvani və köləliyin "bədən-ruh" mexanizmlərinə; əmək nəzarətçilərinin hədə-qorxu dolu əmrlərinə; yuxarıdan verilən özbaşına sərəncamlara əsaslanır... Bu, görünməmiş ölçülərdə quldarlıq diktaturasıdır..." (5, s.111-113).

Fransız filosofu və sosioloqu R.K.F.Aron 1993-cü ildə rus dilində nəşr olunan "Demokratiya və totalitarizm" kitabında digərləri ilə yanaşı, totalitarizmin ideoloji terror kimi əlamətlərinə də diqqət yetirir. O yazırdı: "Hər hansı bir fəaliyyət dövlətə aid edildiyi və ideologiyaya tabe olduğundan, peşə sahəsində hər hansı bir günah ideoloji suça çevrilir. Nəticə – siyasiləşmə, ayrı bir fərdin bütün mümkün günahlarının ideologiyalaşması və son akkord – eyni zamanda siyasi və ideoloji terror" (1, s.231). Bu əlamətlərlə birinci – hər hansı bir partiyaya siyasi fəaliyyət üçün verilmiş monopoliya hüququ əsasında qurulmuş rejimdə totalitarizmin ortaya çıxması ilə əlaqəlidir. Totalitarizmdə onun bütün xüsusiyyətləri qarşılıqlı olaraq bir-birinə bağlıdır. R.Aron yazır: "Totalitarizmə tərif verəndə, əlbəttə ki, partiyanın müstəsna mövqeyini, yaxud iqtisadi fəaliyyətin milliləşdirilməsini və ya ideoloji terroru əsas hesab etmək olar. Lakin təzahürün özü yalnız bütün bu xüsusiyyətlər birləşdirildikdə və tam əks etdirildikdə, bütöv formasını əldə edir" (1, s.231).

Siyasi mühitə nəzər yetirərkən, "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları arasındakı fərqə

daha çox diqqət göstərildiyi məlum olur. Birinci anlayış siyasi strukturlarla möhkəm əlaqələndirilmişdirsə, ikincinin bir sıra mənaları var (bəzi hallarda, məsələn, "vətəndaş cəmiyyəti" və "burjua cəmiyyəti" anlayışları müəyyən edilir). Son onillikdə ən çox yayılan, dövləti istisna edən, dövlətə qarşı çıxan "vətəndaş cəmiyyəti"dir. "Vətəndaş cəmiyyəti", cəmiyyətdəki qeyri-siyasi münasibətlərin məcmusunu ifadə edən anlayışdır: iqtisadi, sosial, mənəvi, dini, milli və s. Bu, könüllü fəaliyyətlə assosiasiya və təşkilatlar yaradan azad vətəndaşların elə bir özünüidarə mühitidir ki, bu vətəndaşların və təşkilatların fəaliyyəti dövlət hakimiyyəti tərəfindən birbaşa müdaxilə və özbaşına tənzimləmə müvafiq qanunlarla qorunur. İ.A.Qobozov yazır: "Vətəndaş cəmiyyətində dövlətin bütün vətəndaşları özünüifadə edə bilir, rəsmi hakimiyyətin bu və ya digər fəaliyyətlərinə münasibətini açıq şəkildə ifadə edə bilir, dövlət orqanlarının müəyyən qərarlarına etiraz edə bilir və bir çox hallarda qeyri-rəsmi strukturların təsiri altında rəsmi strukturlar bu məsələyə yenidən baxmağa məcbur olur" (3, s.132). Vətəndaş cəmiyyətinin qeyri-siyasi, qeyri-dövlət mahiyyəti bu anlayışın aşağıdakı tərifində də yer alır: "Vətəndaş cəmiyyəti, fərdlərin əsas etibarilə qeyri-dövlət və qeyri-siyasi üsullarla ehtiyac və maraqlarının ödənilməsini təmin etmək üçün nəzərdə tutulmuş ictimai həyat fəaliyyətinin təbii formalarının məcmusudur" (6, s.314).

Tarixdə siyasi cəmiyyət (dövlət) vətəndaş cəmiyyəti ilə müxtəlif münasibətlərdə olub. Totalitar rejimdə bir növ vətəndaş cəmiyyətinin dövlət tərəfindən mənimsənilməsi baş verir. Yalnız demokratik rejim siyasi dövlətlə vətəndaş cəmiyyəti arasında balanslaşdırılmış və ahəngdar münasibətlərin mexanizmlərini formalaşdırmağa qadirdir.

## ƏDƏBİYYAT

1. Арон Р.К.Ф. Демократия и тоталитаризм. М., 1993
2. Барулин В.С. Социальная философия. М., 2000
3. Гобозов А. Философия политики. М., 2002
4. Дьюи Д. Общество и его проблемы. М., 2002
5. Ильин И.А. Собр. соч. В 10 т. Т. 2. Кн. 1. М., 1993
6. Федосеев А.А. Гражданское и политическое общество. Правовое государство // Основы современной философии. СПб., 2001
7. Федосеев А.А. Основные элементы современной политической системы // Основы современной философии. СПб., 1999

## SUMMARY

**Qarib Allahverdiyev**

**THE ROLE AND PLACE OF THE POLITICAL SPHERE IN SOCIETY LIFE**

The article analyzes the place and role of the political sphere in the life of society. Politics is associated with the activities and communication of the state, people and the state, people and social groups. The characteristics of the state implementing the policy, the forms of power structures are investigated. The concept of "political environment" of the society is defined.

The characteristics of democracy and totalitarianism as a form of political regime, the differences between the concepts of "state" and "civil society" in the political environment are determined. It is concluded that in a totalitarian regime, a kind of civil society is taken over by the state. Only a democratic regime is capable of forming a mechanism of balanced and harmonious relations between the state and civil society.

***Key words:*** *Politics, political sphere, state, social groups, power, society, totalitarian regime, democracy, civil society*

**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

**РОЛЬ И МЕСТО ПОЛИТИЧЕСКОЙ СФЕРЫ В ЖИЗНИ ОБЩЕСТВА**

В статье анализируется место и роль политической сферы в жизни общества. Политика связана с деятельностью и общением государства, народа и государства, народа и социальных групп. Исследуются характеристики государства, реализующего политику, формы властных структур. Определено понятие «политическая среда» общества

Определены характеристики демократии и тоталитаризма как формы политического режима, различия понятий «государство» и «гражданское общество» в политической среде. Делается вывод о том, что при тоталитарном режиме своеобразное гражданское общество находится под контролем государства. Только демократический режим способен сформировать механизм сбалансированных и гармоничных отношений между государством и гражданским обществом.

***Ключевые слова**: Политика, политическая сфера, государство, социальные группы, власть, общество, тоталитарный режим, демократия, гражданское общество*

---

***Məqaləni çapa təqdim etdi:** fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Hüseyn oğlu Rzayev*
***Məqalə daxil olmuşdur:** 20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:** 27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 75-81
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 75-81
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 75-81

**ELNUR HÜMBƏTOV**
*elnur_88@inbox.ru*
*Bakı Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.006**

# VİRTUALLAŞMANIN VƏTƏNDAŞ AKTİVLİYİNƏ TƏSİRİ: HAKTİVİZMİN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

*Virtuallaşmanın cəmiyyət üzvlərinə təqdim etdiyi geniş imkanlar heç də hər bir zaman hüquqa uyğun davranışlar üçün istifadə olunmur. Belə ki, virtual məkan vətəndaş aktivliyinin artmasına səbəb olan bir məkan kimi bir çoxları tərəfindən qeyri-leqal məqsədlər üçün istifadə edilir. Belə davranış formalarından biri kimi haktivizmin müsbət tərəfləri olsa da, onun səbəb olduğu nəticələr insan hüquq və azadlıqlarının təminatı baxımından müsbət qarşılana bilməz.*

*Məqalədə virtual reallıq formaları, onların təsiri ilə formalaşan vətəndaş aktivliyi, haktivizmin əsas xüsusiyyətləri və onun kibercinayətlərdən fərqli cəhətləri araşdırılmış, haktivizmin qarşısının alınmasında informasiya mədəniyyətinin rolu tədqiq edilmişdir.*

***Açar sözlər:*** *Virtuallaşma, virtual reallıq, vətəndaş aktivliyi, haktivizm, vətəndaş itaətsizliyi, informasiya mədəniyyəti, kiberhücum*

## Giriş

Qloballaşma və rəqəmsallaşma nəticəsində fərdlər yaşadıqları rəqəmsal dünyada heç bir zaman və məkan məhdudiyyəti olmadan informasiyanı istədikləri kimi əldə edə bilirlər. Fiziki şəxs yerini dəyişmədən bir kliklə bir çox sahədə əməliyyatlar həyata keçirə bilər. Məsələn, dünyanın istənilən yerində görüş təyin etmək, alış-veriş etmək, dostluq etmək və təlimlərə qatılmaq kimi bir çox fəaliyyəti həyata keçirə bilər. Beləliklə, fərdlər sosial şəbəkələrə qoşulduqca cəmiyyət həyatını internetsiz təsəvvür etmək çox çətinləşir. İnternet üzərindən bütün ehtiyaclara və bütün əməliyyatlara əlçatanlıq virtual həyata keçidi şərtləndirmişdir ki, bu proses dayanmadan sürətlənir.

Virtual dünyanı real dünyadan təcrid olunmuş bir məkan kimi təsəvvür etmək heç də düzgün deyil. Bununla bağlı, virtual məkanlara yenidən baxış kitabında çox maraqlı müqayisəli təhlil aparılmışdır. Belə ki, real dünyanın üç başlıca xüsusiyyətinə istinad olunaraq, həmin xüsusiyyətlərin virtual dünyada da mövcudluğu araşdırılmışdır:

1. Fiziki xüsusiyyətlər. Virtual məkanda real məkanın xüsusiyyətləri simulyasiya edilir;
2. Sosial qarşılıqlı əlaqə. Virtual məkanda avatar kimi təcəssüm olunmuş istifadəçilər arasında sinxron qarşılıqlı əlaqə mümkün olur;
3. Əlyetər fəaliyyətlər. Virtual məkanda da real məkanda olduğu kimi dizayn komanda işi, qrup layihələri, rollar üzrə oyunların təşkili mümkündür (8, p.199).

Virtual məkanda vətəndaş itaətsizliyi, elektron vətəndaş itaətsizliyi kimi anlayışların digər sinonimi qismində istifadə olunan haktivizmlə bağlı konsepsiyanın əsas problemi hüquqi doktrinada da mövcud olan hakerlik anlayışının birtərəfli qavranılmasıdır. Cinayət kimi qəbul edilə bilən hakerlik aktivlik anlayışı ilə birləşdikdə bu birtərəfli qavrayışdan heç nə itirmir. Lakin qeyd etməliyik ki, haktivizm internet üzərindən aparılan bir mübarizə növüdür (3, s.62).

Vətəndaş itaətsizliyinin dəqiq müəyyən edilməsinə dair ümumi razılıq olmasa da, onun mövcudluğu qanunu qəsdən pozmaq mənasına gəlsə də, onun insan cəmiyyəti üçün bir dəyəri olması barədə geniş yayılmış razılıq mövcuddur (14).

**Virtuallaşma və virtual reallıq texnologiyalarının təqdim etdiyi imkanlar**

Virtuallaşma həm məkan, həm də əhali baxımından təklif etdikləri nəhəng mühitlərdə istifadəçiyə özünü o dünyaya aid hiss etdirməyi və bu təcrübənin real dünya qədər yaxşı olduğunu

hiss etdirməyi hədəfləyir. Aşağıda qeyd edəcəyimiz reallıq texnologiyaları bu mühitlərdə simulyasiya edilən hərəkət və hisslərin istifadəçi tərəfindən beş duyğu orqanı ilə hiss edilməsi və virtual dünya təcrübəsinin yaxşılaşdırılması üçün inkişaf etdirilir və istifadəçinin reallıq qavrayışının idarə edilməsi bu texnologiyalar vasitəsilə həyata keçirilir.

Virtual Reallıq (Virtual Reality – VR) yüksək keyfiyyətli və üçölçülü foto, video, animasiya vizuallarını rəqəmsal mühitdə real vaxt rejimində modelləşdirmə və məkan izləmə kimi texnikaları birləşdirən və vizual eşitmə, toxunma reallığı təklif edən texnologiyadır. VR üçölçülü və stereoskopik baxış bucaqları təklif edən və hərəkəti aşkar etmək qabiliyyətinə malik olan xüsusi cihazlarla istifadəçiyə virtual mühitə tam daxil olmağa imkan verir. Virtual reallığı ən yüksək səviyyədə yaşamaq üçün hazırlanmış və inkişaf etdirilməkdə olan VR cihazları ilə toxunma, eşitmə, qoxu, temperatur, rütubət və hərəkət kimi hisslərin virtual aləmdə aktivləşməsi və istifadəçilər tərəfindən qəbul edilməsi mümkün olmuşdur. Məsələn, VR eynəklər.

Artırılmış Reallıq (Augmented Reality – AR) VR-dan fərqli olaraq, tamamilə virtuallaşdırılmış təcrübəyə deyil, virtual varlıqları və üçölçülü virtual obyektləri istifadəçinin real həyata köçürməyi hədəfləyən texnologiyadır. AR ilə istifadəçilər proqramda işlənmiş qrafik xüsusiyyətlərini öz reallıqlarına daxil edə bilərlər. Məsələn, dünyaca məşhur Pokemon Go oyununda xal qazanan virtual obyektlər AR texnologiyasından istifadə etməklə real dünya məkanlarına paylana, nümayiş etdirilə və yalnız bu yerlərdən toplana bilər. Göründüyü kimi, VR şəxsin tamamilə rəqəmsal mühitdə olmasını nəzərdə tutursa, AR real həyatla əlaqəli fəaliyyətə əsaslanır.

Qarışıq Reallıq (Mixed Reality – MR) virtual reallıqdakı virtual məkanlar və obyektlərlə fiziki dünyadakı reallıqla qarşılıqlı əlaqədə olmağa və virtual obyektlərdə dəyişikliklər etməyə əsaslanan texnologiyadır. İstifadəçi rəqəmsal dünyada yaradılmış virtual obyektləri öz fiziki dünyasında görür və bu dünyada onlarla qarşılıqlı əlaqədə olduğu üçün bu növ reallıq virtual və artırılmış reallığın birləşməsidir. Virtual reallıqda sabit və ya məhdud hərəkətə imkan verən simulyasiya mühiti olduğu halda, MR-də istifadəçinin hərəkətləri fiziki dünya ilə eyni vaxtda qəbul edilir və holoqrafik əməkdaşlıqla virtual mühitə ötürülür. Məsələn, ilk şəffaf holoqrafik kompüter olan Microsoft HoloLenslə istifadəçi real mühitdən ayrılmadan virtual mühitdə yaşayır.

Genişləndirilmiş Reallıq (Extended Reality - XR) texnologiyası VR, AR və MR texnologiyalarından fərqli olaraq, ayrıca hazırlanmış cihazlar və platformalar tələb etmir və bu üç anlayışı bir araya gətirmək və eyni alətlərlə bu təcrübələri eyni vaxtda yaşamaq məqsədi daşıyır. Qeyd etdiyimiz reallıq texnologiyalarının son nöqtəsi XR texnologiyasıdır və bütün reallıqların vəhdəti əsasında inkişaf etdirilən bu yeni texnologiya virtual dünya və real dünyanın birləşməsi ilə gələcəkdə yeni konsepsiyaya işarə edir. Bu konsepsiyaya uyğun olaraq, virtual aləmlər təkcə oyunların oynanıldığı məkanlar kimi qəbul olunmamalıdır, həm də sosial və işgüzar əlaqələrin inkişaf etdirilə biləcəyi, bədii və mədəni tədbirlərin təşkil edilə biləcəyi, ticarət və iş həyatının reallaşa biləcəyi bir mühit hesab olunmalıdır. Bu o deməkdir ki, insanlar artıq virtual aləmlərdə bir araya gələ, real dünyada edə biləcəkləri bir çox şeyi edə, qarşılıqlı ünsiyyət qura və işbirlikləri yaradaraq layihələr üzərində işləyə biləcəklər. Nəticədə virtual aləmlərin inkişafı insanların sosial, mədəni, kommersiya və işgüzar əlaqələrini qoruyan kanalların müxtəlifləşdiyi transformasiyanı təmsil edir (4, s.56).

Virtual aləmlərin bu gün gəldiyi son nöqtədən danışmaq üçün virtual dünya platformalarının mərkəzləşdirilməmiş və bir-birinə bağlı olmasını nəzərdə tutan Metaverse konsepsiyasına toxunmaq lazımdır. Metaverse istifadəçilərə müxtəlif növ virtual aləmlər, məzmun və xidmətlər yaşamağa və onlarla qarşılıqlı əlaqə qurmağa imkan verən mühiti nəzərdə tutur. Ənənəvi virtual aləmlərdən fərqli olaraq, Metaverse tək bir virtual dünya deyil, bir-biri ilə əlaqəli virtual aləmlər şəbəkəsidir. Təklif etdiyi müxtəlif və real təcrübələrə əlavə olaraq, Metaverse konsepsiyası üç əsas xüsusiyyəti ilə fərqlənir: davamlılıq, mərkəzsizləşdirmə və paylaşma.

Metaverse simulyasiya edilmiş və paylaşılan məkanı təmin etməklə yanaşı, istifadəçilərə virtual və paylaşılan zamanlıqda mövcud olmağa imkan verir. Bu o deməkdir ki, bu dünyada istifadəçilər eyni anda, eyni yerdə ola və bunu hiss edə bilərlər. Buna görə də Metaverse üçün hazırlanmış texnologiyalar fiziki dünyanı geridə qoymağı deyil, fiziki dünya ilə qarşılıqlı əlaqə və əlaqə qurmağı hədəfləyir. Bu baxımdan, Metaverse tərəfindən yaradılmış bu virtual dünya dəsti istifadəçini əhatə edən XR konsepsiyasını vəd edir.

Bütün bu qeyd olunan geniş imkanlar vətəndaş aktivliyinin artmasına səbəb olmuşdur. Belə aktivlik müsbət keyfiyyətləri ilə yanaşı, mənfi xarakterizə olunan xüsusiyyətlərlə müşayiət olunur ki, haktivizm onların arasında gündəmdə olan məsələlərdəndir.

**Virtual məkanda haktivizmi (vətəndaş itaətsizliyini) xarakterizə edən xüsusiyyətlər**

Ənənəvi olaraq, vətəndaş itaətsizliyi qəsdən qeyri-qanuni və prinsipial kollektiv etiraz aksiyası (həm qanuni etiraz, həm də “adi” cinayət əməllərindən və ya “məqbul olmayan” iğtişaşlardan fərqli olaraq) kimi təsvir edilir ki, onun əsasında xüsusi qanunları, siyasətləri və ya institutları dəyişdirməkdən ibarət olan siyasi məqsəd dayanır (7). Qəbul edilən ən məşhur ənənəvi itaətsizlik taktikalarından nümayişlər, oturaq aksiyalar, blokadalar, tətillər, vergi müqaviməti, vicdanlı etiraz misal göstərilə bilər.

Virtual vətəndaş itaətsizliyinin ifadə azadlığı və virtual toplaşmaq azadlığı istiqamətində şərh edən Mathias Klang bildirir ki, terror adı altında DoS hücumlarını kriminallaşdıran mövcud qanunvericilik meyilləri həddən artıq genişdir və fərdlərin mülki hüquqlarından istifadəyə ciddi şəkildə maneçilik törədir. Cəmiyyət daxilində vətəndaş hüquqlarının tam şəkildə məhdudlaşdırılmasına o halda yol verilməlidir ki, bu məhdudiyyət həm də bu məhdudiyyətlərlə üzləşən cəmiyyət üçün ciddi təhlükəni aradan qaldıracaq. Kiberterrorizm təhlükəsi həddən artıq şişirdilmiş və texnologiyanı başa düşməmək, hətta texnofobiya üzərində qurulmuşdur. Təhlükə terrorçulardan deyil, DoS texnikasının cinayətkar istifadəsindən qaynaqlanırsa, qanunvericilik nizam-intizam yaratmaq cəhdlərində həddən artıq irəli gedir (11, p.145).

Ənənəvi itaətsizlik üçün xarakterik olan əlamətlər virtual məkanda vətəndaş itaətsizliyi üçün də keçərli ola bilər. Bunlardan birincisi qanunsuzluqdur. İnternetdə vətəndaş itaətsizliyi yalnız cinayət hüququ normalarının pozulması kimi qəbul edilməməlidir. İstənilən qadağan olunmuş əməlin edilməsi haktivizmin əhatə dairəsinə düşməlidir. Hətta burada məhkəmə və müvafiq orqanların qərarlarının icra edilməməsi də daxildir. Məsələn, “İmamın ordusu” kitabının internetdə yayılmasını misal göstərə bilərik. Məhkəmə qərarı ilə müsadirə edilmiş kitabın layihəsini internetdə yayan şəxslər məhkəmənin qərarını bilərəkdən pozmuşlar (3, s.91).

Vətəndaş itaətsizliyinin ikinci xüsusiyyəti zorakılıqla müşayiət edilməməsidir. Fiziki məkanın olmadığı virtual mühitdə fiziki güc tətbiq etməklə yaranan zorakılıqdan danışmaq təbii ki, qeyri-mümkündür. Real virtuallıqda edilən hərəkətlərin heç bir fiziki məhvə səbəb olmaması o deməkdir ki, heç bir güc tətbiq edilmir. Burada güc anlayışının unikal bir vasitə kimi internetdəki informasiya vasitəsilə formalaşması, istifadə olunacaq gücü informasiya vasitəsilə görünən edir. İnformasiya vasitəsilə istifadə edilən əməl maddi ziyan, fundamental hüquq və azadlıqların pozulması ilə nəticələnir.

İnternetdə vətəndaş itaətsizliyinin vurduğu zərər istifadə olunan taktiki texniki hərəkət forması və hədəf internet saytının platforma infrastrukturu ilə bağlıdır. Başqa sözlə desək, istifadə olunan veb-sayt platformasının istifadəçi əsaslı və ya kommersiya xarakterli olması məsələsi əsas diqqət yetirilməli məqamdır. Əgər kommersiya məqsədli platformaya yönəlmiş əməldən söhbət gedirsə, vurulmuş ziyan külli miqdarda ola bilər. Lakin statik xarakter daşıyan hər hansı bir veb sayta qarşı hər hansı pozuntu törədilirsə, bu zaman vurulan ziyan çox aşağı səviyyəli ola bilər. Məsələn, 2012-ci ildə RedHack haker qrupu Analar Günü ilə əlaqədar Ailə və Sosial Siyasətlər Nazirliyinin saytını sındırmış və saytda “Hər müharibədə ancaq analar ölür. Anaları incitməyin, cənablar!” deyə mesaj yerləşdirmişdilər (2). Hədəf veb-sayt qurumun statik səhifəsi olduğundan, onun kommersiya və ya istifadəçi əsaslı platforma infrastrukturunun olmadığı açıq-aydın görünür.

Lakin Anonymous haker qrupunun “Payback” əməliyyatı 2010-cu ildə dövlət qurumlarına, siyasətçilərə və Visa, MasterCard, PayPal və Bank of America kimi şirkətlərə qarşı kiberhücumlarla

tarixdə qalmışdır ki, burada maddi ziyanın baş verməsi göz önündədir. Operation Payback adlanan hücumlar, əsasən, torrent axtarış sisteminin Pirate Bay-ın bağlanmasına cavab olaraq serverini sıradan çıxarmaq üçün vebsaytı trafiklə dolduran xidmətdən imtina (DDoS) hücumları idi. Məhkəmənin gəldiyi nəticələrə görə, hakerlər Internet Chat Relay (IRC) kanallarında DDoS hücumlarını əlaqələndirmək üçün sui-qəsd ediblər. Qrup təqribən 5000 dollar ziyan vurdu və ən azı 10 “qorunan kompüterə” təsir etdi (3).

İnternetdə “üçüncü şəxslər naminə” həyata keçirilən simvolik vətəndaş itaətsizliyi aktının

daşıdığı vicdan ünsürü daha çox prioritet olarsa, araşdırılması üçüncü şəxslər naminə həyata keçirilən hərəkətlə üçüncü şəxslərin pozulmuş hüquqları arasındakı sərhədi müəyyən etmək üçün vacibdir.

Virtual məkanda vətəndaş itaətsizliyinin üçüncü xüsusiyyəti vicdanlılıqdır. K.E.Himma bu barədə yazır ki, haktivizmin motivasiya çərçivələri insan haqlarını və ya Levinin müəyyən etdiyi haker etikasını dəstəkləmək üçün formalaşır. Haker etikasının əsas üç müddəasına daxildir: qeyri-məhdud giriş, məlumat azadlığı və mərkəzsizləşdirməyə əsaslanan etik elementlər (9, p.20). Anonymousun Operation Payback adı altında həyata keçirdiyi əməliyyat çərçivəsində Wikileaks-ə xidmət göstərən Mastercard, Paypal və Visa kimi kommersiya təşkilatlarının veb-saytlarına girişi bloklanması şəffaflıq prinsipi və informasiya əldə etmək hüququna xidmət edirdi (6).

Növbəti element olan ictimailik vətəndaş itaətsizliyi aktının ictimaiyyətin məlumatı ilə və mümkün dairəsində ictimaiyyətin iştirakını təmin etməklə həyata keçirilməsini nəzərdə tutur. Vətəndaş itaətsizliyini kibercinayətlərdən fərqləndirən başlıca xüsusiyyət elə bundadır. Belə ki, hər hansı haker əməliyyatını gizli icra edən şəxs bilavasitə cinayət törətmiş olur. İtaətsizlikdə isə məqsəd bu cür əməliyyatların ictimai formada həyata keçirilməsindən ibarətdir. Lakin vurğulamaq lazımdır ki, aksiyanın gizli olmaması aksiyanın anonim həyata keçirilməməsi demək deyil. Aksiyanın aşkarlıq elementi ondan ibarətdir ki, internetdə vətəndaş itaətsizliyi aksiyasının məzmunu açıq şəkildə və ictimaiyyətin iştirakı ilə həyata keçirilir. Anonimlik internetdə vətəndaş itaətsizliyinin məsuliyyət daşıma elementi ilə bağlı müzakirə kimi görünəcəkdir (3, s.98).

Nəhayət, sonuncu xüsusiyyət və element məsuliyyətin öz üzərinə götürülməsində ifadə olunur. Bu o deməkdir ki, virtual məkanda vətəndaş itaətsizliyi fəalı əvvəldən axıra qədər etdiyi hərəkətin qanunsuz olduğunu bilir və qarşısına çıxacağı ağır cinayət sanksiyalarından xəbərdardır. O, əksər hallarda iki səbəbdən "özünə arxayın olur". Birincisi, mövcud tənzimləmələrdəki boşluqlardan məlumatlı olan şəxs onun məsuliyyətə cəlb olunmayacağına güvənir. İkincisi, edilən əməliyyatlar anonim olduğu üçün şəxs bu əməllərin aşkara çıxarılmayacağını düşünür.

Beləliklə, fiziki məkanla müqayisədə virtual məkanda edilən vətəndaş itaətsizliyi daha çox təsir gücünə malikdir, çünki burada edilən əməliyyatların qarşısını almaqda həm mövcud normalar, həm də təcrübə çətinlik çəkir. Bununla belə, müəlliflərin izahına görə, istər kibermərkanda, istərsə də real dünyada, institusional siyasətə təcrid olunmuş səsləri daxil etmək üçün tətbiq edilən dağıdıcı, lakin qeyri-zorakılıq strategiyaları demokratik idealları qəbul edən istənilən hökumət tərəfindən mümkün qədər başa düşülməli və uyğunlaşdırılmalıdır (5).

**İnformasiya mədəniyyətinin formalaşdırılması və onun haktivizmin qarşısının alınmasında xüsusi rolu**

Virtual məkanı sosial aspektdən şərh edən müəlliflər onu mədəniyyətlərarası məkanla əlaqələndirirlər: Sosial və mədəniyyətşünaslığın hazırkı inkişafında mədəniyyətlərarası məkanın yaradıcı potensialından əhəmiyyətli dərəcədə istifadə olunur. Bunun səbəbi, ola bilsin, mədəniyyətlərarası məkanın hər hansı bir nəzəriyyəsinin olmamasıdır, lakin hər şeydən əvvəl, sosial elmlərdə statik, təkrarlanan və adaptiv ölçülərə əsaslanan hələ də dominant, funksional oriyentasiyaların davamlı, qırılmaz mövcudluğu ilə bağlıdır. Müasir dünyada mədəniyyətlərarası məkanın qeyd olunan xüsusiyyətləri daha aydınlıq qazanır və bütün dinamik aspektlərini tamamilə yeni, əvvəllər məlum olmayan virtual məkanın yüksəlişində təqdim edir [10, p.19]. Həqiqətən də mövcud informasiya resursları insan mövcudluğunun genişlənməsi hesabına artmışdır ki, bu da virtual məkana aiddir. Real və virtual resursların qarşılıqlı təsiri nəticəsində formalaşan bu yeni informasiya məkanı ənənəvi hüdudlardan kənarda olan informasiya mübadiləsi məkanına çevrilmişdir. Çox sayda subyektin qarşılıqlı fəaliyyəti nəticəsində formalaşan bu məkan dinamik və virtual ünsiyyət proseslərinin bir hissəsidir. Belə məkanın klassik və virtual elementlərinin birləşməsi mədəniyyətin həm virtuallaşdırılmasının, həm də mediallaşdırılmasının bir hissəsini təşkil edir. Məsələn, sosial media platformalarında məsafələr tanımadan insanlar öz mədəni irsi ilə bağlı paylaşımlar edib, fikir bildirə bilirlər.

S.Jaskula bu barədə yazır ki, insan varlığının virtual məkanda genişlənməsi mədəniyyətlərarası proseslərin yeni dərk edilməsinə ehtiyac və zərurət yaradır, bu da onların bir-birinə nüfuz etməsinə, sinergiyasına, konvergensiyasına və ya simbiozuna gətirib çıxarır. Oxşar transformasiyalara məruz qalan informasiya mədəniyyəti mədəni qarşılıqlı əlaqənin yeni üsulları hesabına yeni məna kəsb edir

(12, p.184). Ayrı-ayrı və özünə güvənən mədəniyyətlərdə təhlil edilən ayrı-ayrı məlumat parçaları müxtəlif mədəni kontekstlərin gücləndirilmiş birləşməsi şəraitindən fərqli məna kəsb edəcək.

Beləliklə, virtual məkanın yaradılması münasibətlər, birgəyaşayış, əlaqələr, istinadlar, köçürmələr, eyni zamanda ədəbiyyatda real kimi təsvir edilən, fiziki ölçü ilə ifadə olunan ənənəvi məkanla bağlı fərqlər haqqında getdikcə daha çox suallar doğurur. İnsanın eyni dərəcədə yaxın və uzaq olan iki dünyada hərəkət etmək, mövcud olmaq, birgə yaratmaq və eyni vaxtda fəaliyyət göstərmək qabiliyyəti heyranedicidir. Min illər boyu Yerdəki həyata uyğunlaşmaq üçün mübarizə aparan insana tanış reallığa uyğunlaşdığı virtual məkanda mövcud olmağı öyrənmək üçün cəmi bir neçə il lazım idi. Eyni zamanda bütün keçmiş təcrübələrini həm şüurlu, həm də şüursuz bu yeni dizayn sahəsinə köçürür. İnsan mövcudluğunun ikililiyi haqqında düşüncə, iki məkanın bir-birinə təsiri, yəni virtual məkanın real məkana necə təsir etdiyi və əksinə, sual doğurur. Virtual məkanı nə dərəcədə dərk etmək və ondan istifadə etmək mümkün olduğu açıq sual olaraq qalır.

Lakin unutmamalıyıq ki, virtual dünyalar utopik deyil. Virtual dünyalar kapitalist tamahı, dini dözümsüzlük və s. bu kimi neqativ keyfiyyətlərin inkişafı üçün əlverişli məkana çevrilərsə, real dünya üçün təhlükələrin formalaşması qaçılmazdır. Ona görə də virtual hər nə qədər reallıqdan kənar məkan qismində qiymətləndirilsə belə, burada formalaşan münasibətlərin hüquqi tənzimlənməsi bir o qədər də vacib və zəruridir.

Multikultural məkanda informasiya mədəniyyəti sahəsinə marağın artmasının səbəbləri arasında aşağıdakıları qeyd etmək olar:

- yeni multikultural məkanın inkişafı ilə yanaşı, virtual məkanı quran yeni elektron rabitə sistemlərinin qlobal şəbəkədə tətbiqi;
- real və virtual elementləri birləşdirən bir çox mədəni məkanlarda iştiraka imkan yaradan informasiya savadlılığının yeni formalarının inkişaf etdirilməsi zərurəti;
- mədəni cəhətdən müxtəlif informasiya sistemlərində informasiyanın idarə olunmasına kömək edəcək bacarıqların əldə edilməsi ehtiyacı;
- getdikcə müasirləşən informasiyanın, müasir medianın inkişafı ilə əlaqədar təhsilin innovativ və qeyri-ənənəvi perspektivləri;
- üst-üstə düşən mədəniyyətlərin çoxluğu şəraitində informasiya disfunksiyalarının aradan qaldırılması ehtiyacı;
- əhatə dairəsini real məkandan kənara çıxaran mədəniyyətlərarası təhsilə ehtiyac;
- transqressiv xarakterli mədəniyyətlərarası sosial sistemlərdə intensiv informasiya axını prosesləri və s. (12, p.193).

Hesab edirik ki, virtual məkanda informasiya mədəniyyətinin formalaşdırılması cəmiyyət üzvlərinin bu məkandan neqativ məqsədlər üçün istifadəsinin qarşısını alacaqdır. Daha dəqiq desək, informasiya mədəniyyəti yüksək olan vətəndaş virtual mühitin ona təqdim etdiyi imkanlardan hüquqauyğun formada bəhrələnməyə çalışacaqdır.

**Nəticə**

Virtual məkanda vətəndaş aktivliyini xarakterizə edən anlayışlardan biri də vətəndaş itaətsizliyidir. Ənənəvi formada itaətsizliyin virtual məkana transfer etməsi şəxslərin informasiya

texnologiyalarından öz məqsədi üçün daha geniş istifadəsinə səbəb olmuşdur. Çünki ənənəvi itaətsizlikdən fərqli olaraq, virtual məkanda anonimlik elementi haktivistlər üçün rahat imkanlar təqdim edir. Doktrinada belə itaətsizlik formasının bir sıra xüsusiyyətləri müəyyən olunmuşdur və hakimiyyət nümayəndələrinin qərarlarına təsir gücündən bəhs olunur. Lakin bir məqamı unutmamalıyıq ki, ictimailik elementi ön plana çəkilsə də, vətəndaş itaətsizliyini hüquqi cəhətdən qanunauyğun davranış forması kimi qiymətləndirmək düzgün deyil. Məsələn, müxtəlif sistemlərə Ddos hücumları hər hansı bir siyasi qərara etiraz qismində müsbət nəticələr versə də, həmin sistemin istifadəçisi olan üçüncü qrup şəxslərin hüquq və azadlıqları üçün məhdudiyyətlər yarada bilər. Ona görə də doktrinada haktivizmə nə qədər müsbət yönümlü şərh verilsə də, hüquqi baxımdan bu əməlləri məqbul saya bilmərik.

## ƏDƏBİYYAT


1. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: 2019, "Nurlar", s.448
2. RedHack: Annelere kıymayın efendiler! https://www.ntv.com.tr/turkiye/redhack-annelere-kiymayin-efendiler,wwS0ioimg06sA9a8UbRg8w
3. Serhan, Böyükçağlar. İnternette sivil itaatsizlik / Doktora tezi / İstanbul: 2013, s.119
4. Zeynep, Sena Saltık. Sanal dünyalarda marka koruması / Yüksek Lisans Tezi / İstanbul: 2023, s.133
5. Andrew, Calabrese. Virtual nonviolence? Civil disobedience and political violence in the information age // Emerald Group Publishing Limited, Volume 6, Number 5, 2004, pp. 326-338
6. Anonymous hackers plead guilty to 2010 PayPal cyberattack. https://www.cnet.com/news/privacy/anonymous-hackers-plead-guilty-to-2010-paypal-cyberattack/
7. Digital civil disobedience: tactics, tools and future threads. https://beatricemartini.it/blog/digital-civil-disobedience/
8. Erik Malcolm Champion. Rethinking Virtual Places. Indiana University Press, 2021, p.264
9. Kenneth, Einar Himma. Hacking as Politically Motivated Digital Civil Disobedience: Is Hacktivism Morally Justified? // Readings on Internet Security: Hacking Counterhacking, and Other Moral Issues, 2006, p.1-24
10. Leszek Korporowicz and Zuzanna Sławik. Intercultural space // Politeja, 2016. Vol, 5, No. 44, pp. 17-34
11. Mathias Klang, Andrew Murray. Human Rights in the Digital Age. Routledge-Cavendish; 1st edition, 2004, p.260
12. Sylwia Jaskuła. Information culture in intercultural space: moderation of values // Politeja, 2016. Vol, 5, No. 44, pp.183-198
13. Thirteen members of hacking group Anonymous indicted over "Operation Payback". https://www.cbsnews.com/news/13-members-of-hackng-group-anonymous-indicted-over-operation-payback/
14. Three Ways to Understanding Civil Disobedience in a Digitized World. https://www.hiig.de/en/three-ways-to-understanding-civil-disobedience-in-a-digitized-world/


## SUMMARY

**Elnur Humbatov**

### THE IMPACT OF VIRTUALISATION ON CITIZEN ACTIVISM: THE PROS AND CONS OF HACTIVISM

The wide range of opportunities that virtualization offers to members of society is not always used for legitimate behavior. Thus, virtual space is used by many for illegal purposes as a space that leads to an increase in civic activism. Although hacktivism as one of such forms of behavior has its positive aspects, its consequences cannot be welcomed from the point of view of guaranteeing human rights and freedoms.

The article examines the forms of virtual reality, citizen activism formed under their influence, the main features of hacktivism and its differences from cybercrimes, and the role of information culture in the prevention of hacktivism.

***Key words:*** *Virtualization, virtual reality, citizen activism, hacktivism, civil disobedience, information culture, cyber attack*

**РЕЗЮМЕ**

**Эльнур Гумбатов**

**ВЛИЯНИЕ ВИРТУАЛИЗАЦИИ НА АКТИВНОСТЬ ГРАЖДАН: ПОЗИТИВНЫЕ И НЕГАТИВНЫЕ СТОРОНЫ ХАКТИВИЗМА**

Широкий спектр возможностей, которые виртуализация предлагает членам общества, не всегда используется для законного поведения. Таким образом, виртуальное пространство используется многими в незаконных целях как пространство, ведущее к росту гражданской активности. Хотя хактивизм как одна из таких форм поведения имеет свои положительные стороны, его последствия нельзя приветствовать с точки зрения обеспечения прав и свобод человека.

В статье рассматриваются формы виртуальной реальности, сформировавшийся под их влиянием гражданский активизм, основные особенности хактивизма и его отличия от киберпреступлений, а также роль информационной культуры в профилактике хактивизма.

***Ключевые слова:*** *Виртуализация, виртуальная реальность, гражданский активизм, хактивизм, гражданское неповиновение, информационная культура, кибератака*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Hüseyn oğlu Rzayev*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, №2 (127), 82-87
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №2 (127), 82-87
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №2 (127), 82-87

# İQTİSADİYYAT

**TEYMUR ABBASOV**
*teymurabbasov56@mail.ru*
**MEHPARƏ MƏMMƏDOVA**
*aliyevamehpara@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.027**

## MÜHASİBAT UÇOTU SİSTEMİNDƏ İDARƏETMƏ QƏRARLARININ QƏBUL EDİLMƏSİ

*Elmi məqalədə mühasibat uçotu sistemində qərarların qəbulu prosesində müəssisənin qarşısında duran məqsəd və vəzifələrin müəyyən edilməsi araşdırılmışdır. Qeyd edilmişdir ki, təcrübədə, qərarların qəbulu müəssisənin məqsədlərinə ən çox cavab verən bir sıra alternativ variantların müqayisəli qiymətləndirilməsi və ən optimalın seçilməsini nəzərdə tutur.*

*Məqalədə qeyd edilir ki, düzgün qərarın qəbul edilməsində əvvəl məqsədi müəyyən etmək yaxud rəhbərliyi müəssisə fəaliyyətinə istiqamətləndirmək lazımdır ki, bu da bu və ya digər varianta üstünlük verilməsinə kömək edər.*

*Məqalədə mühasibat idarəetmə uçotu sistemində qərarların qəbul edilməsi müxtəlif metodların köməyilə həyata keçirilməsi fikri vurğulanır Qeyd edilir ki, qərarların qəbul edilməsinin kollektiv metodu daha üstün və əlverişli sayıla bilər. Strateji xarakter daşıyan qərarların qəbul edilməsi hallarında xərclərin və nəticələrin diskontlaşdırma metodlarından, müxtəlif metodiki əsasda hesablanan göstəricilər sistemindən istifadə edilir.*

***Açar sözlər***: *Mühasibat uçotu sistemi, qərar qəbulu, müəssisə, istehsalın təşkili, məqsəd və vəzifələr, müxtəlif metodlar, strateji xarakter*

### Giriş

Mühasibat (idarəetmə) uçotunun mühüm vəzifələrindən biri - müəssisənin rəhbərliyi və menecerləri tərəfindən düzgün idarəetmə qərarlarının verilməsi üçün faydalı olan məlumat toplanması və ümumiləşdirilməsidir.

Hal-hazırda istehsalın, məhsul satışının təşkili və inkişafı ilə bağlı rəhbərlik tərəfindən qəbul olunan qərarlar intuitiv xarakter daşıyır və idarəetmə uçotunun məlumat bazası əsasında aparılan hesablamalara əsaslanmır. Ən yaxşı halda belə hesablamaların yoxluğu müəssisə rəhbərliyinin zəngin istehsalat və təşkilati təcrübəsi ilə əvəzləşdirilir.

Qərarların qəbulu prosesi müəssisə qarşısında duran məqsəd və vəzifələrin müəyyən edilməsi ilə başlayır. Bundan son nəticədə ilkin idarəetmə məlumatının seçilməsi və qərarın seçilmiş alqoritmi asılıdır. Mühasibat (idarəetmə) uçotu ilkin məmulatı emal etmək və ümumiləşdirmək üçün xeyli sayda metod və üsullara malikdir.

### Metodologiya və material

Təcrübədə, qərarların qəbulu müəssisənin məqsədlərinə ən çox cavab verən bir sıra alternativ variantların müqayisəli qiymətləndirilməsi və ən optimalın seçilməsini nəzərdə tutur. Bunun üçün ilk növbədə bütün alternativ variantlar üzrə məsrəflər haqda məlumata malik olmaq lazımdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, söhbət gələcək dövrün xərclərindən gedir. Hesablamalar zamanı bir sıra hallarda müəssisənin əldən verilmiş səmərəsini də qeydə almaq lazım gəlir.

İdarəetmə uçotu informasiyası bazasında aşağıdakılar həll olunur:

1) Operativ məsələlər:

- müəssisənin zərərsizlik nöqtəsinin müəyyən edilməsi;
- satış üçün nəzərdə tutulan məhsulların (malların) çeşidinin planlaşdırılması;
- limitləşdirici amil nəzərə alınmaqla məhsul buraxılışının quruluşunun müəyyən edilməsi;
- əlavə sifarişlərin cəlb edilməsi və ya onlardan imtina;
- qiymətəmələgəlmə üzrə qərarların qəbulu (rəqabət mübarizəsi şəraitində müəssisə üçün xüsusi əhəmiyyət kəsb edir).

2) Perspektiv xarakterli, yəni uzunmüddətli strateji əhəmiyyətə malik məsələlər:
- kapital qoyuluşları haqda;
- biznesin quruluşunun dəyişdirilməsi haqda.

Məhsulun yeni növlərinin mənimsənilməsinin məqsədəuyğunluğu haqda.

İlk növbədə qeyd etmək lazımdır ki, kompüter modelləşdirmə laboratoriya işi fiziki seminarın aparılmasının ən gənc formasıdır. Bu cür işlərin inkişaf etdirilməsi cəhdləri, demək olar ki, ali təhsil müəssisələrində fərdi kompüterlərin meydana çıxması ilə eyni vaxtda başladı. Lakin yalnız kompüterin multimedia imkanlarının inkişafı ilə bu ideya tam şəkildə həyata keçirilə bilərdi. Hazırda həm texniki, həm də psixoloji baxımdan əminliklə deyə bilərik ki, müasir tədris prosesi kompüter modelləşdirmə emalatxanalarından tam istifadəyə hazırdır. Bu bir tərəfdən, sinif otaqlarının kompüterlərlə kifayət qədər yaxşı təchiz olunması, əmək bazarında bu mövzu ilə məşğul olmağa hazır olan çoxlu sayda ixtisaslı mütəxəssislərin olması ilə bağlıdır. Digər tərəfdən, universitetə gələn məktəblilər, adətən kompüterdə istifadəçi kimi kifayət qədər təcrübəyə malikdirlər, virtual reallığın imkanları və onunla real dünya arasındakı əlaqə haqqında aydın təsəvvürə malikdirlər. Texniki və psixoloji cəhətdən onlar kompüterdə müxtəlif hadisələrin modellərini öyrənməyə hazırdırlar. Fizikanın öyrənilməsində tələbələrin kompüter səriştəsinin bu potensialından istifadə etmək üçün yüksək keyfiyyətli təhsil proqram məhsulları yaratmaq lazımdır. Kafedralarda elmi məsləhətçi kimi ixtisaslı proqramçıların və təcrübəli müəllimlərin daxil olduğu elmi-pedaqoji laboratoriyaların yaradılması bu problemin səmərəli həllinə öz töhfəsini verir. Cəmiyyətin hərtərəfli informasiyalaşdırılması şəraitində idrak fəaliyyətinin aktivləşdirilməsi yalnız oyun və tətbiqi proqramların müasir səviyyəsini texniki cəhətdən qabaqlayan proqram məhsullarının köməyi ilə mümkündür.

Laboratoriya emalatxanalarının inkişafının texniki tərəfinin arxasında məzmun tərəfini də unutmaq olmaz. Hesab edirlər ki, modelləşdirmə laboratoriya işlərinin tədris prosesinə daxil edilməsində əsas məqsəd fiziki proseslərin və hadisələrin mövcud modellərini öyrənməkdir. Fiziki nəzəriyyə qurarkən çoxlu sayda modellər yaradılır: qravitasiyanın qarşılıqlı təsir modeli, hava müqavimətini nəzərə almadan sərbəst düşmə modeli, ideal qaz modeli, Bor modeli və s. Modellər qurarkən müəyyən fərziyyələr irəli sürülür. Buna görə də real prosesləri və hadisələri bu və ya digər modeldən istifadə etməklə yalnız təqribən təsvir etmək olar. Universitetə gələn müasir məktəblilərin əksəriyyəti fizikanın qanunları və modelləri ilə, əsasən, analitik şəkildə (düsturla təmsildə) tanış olurlar. Gündəlik təcrübə ilə öyrənilən qanunlar arasında heç bir əlaqə yoxdur. Məsələn, gündəlik həyatda məktəblilər çox vaxt mühitdə (havada) cismin sərbəst düşməsini müşahidə edə bilirlər, lakin vakuumda cismin düşməsini müşahidə edə bilmirlər. Fizika dərslərində isə əksinə, yalnız cismlərin vakuumda sərbəst düşməsi öyrənilir. Modelləşdirmə laboratoriya işlərinin tədris prosesinə daxil edilməsi formaları müxtəlifdir. Bu, fizika üzrə məktəb kursu və humanitar elmlər üçün müasir təbiətşünaslıq konsepsiyası kursu, universitetlərdə ümumi fizika kursu, fizika kafedralarında ümumi fizika kursu elit təlim elementləridir. Distant təhsilin inkişafı ilə modelləşdirmə fiziki emalatxanası inkişaf üçün əlavə təkan aldı. Eyni zamanda simulyasiya eksperimenti kimi bir istiqamət ortaya çıxdı ki, onun mahiyyəti təkcə proses və ya hadisənin modelini öyrənmək deyil, həm də bu təcrübənin həyata keçirilə biləcəyi real quraşdırmanın görünüşünü yenidən yaratmaqdır. Kompüter simulyasiyası laboratoriya işlərinin dizaynı və istifadəsi üçün bir sıra prinsipləri formalaşdıra və əsaslandıra bildilər:

* fəaliyyət və interaktivlik prinsipi;
* “sərbəst trayektoriya” prinsipi;
* görmə prinsipi;
* multivariantlıq prinsipi;
* nəticələrin reallığı prinsipi;
* dövrilik prinsipi;
* uyğunlaşma prinsipi;
* metodoloji təhlükəsizlik prinsipi.

Bu verilənlər didaktik prinsipləri kompüter modelləşdirmə laboratoriya işlərinin

layihələndirilməsi ilə bağlı təhsilin ümumi didaktik prinsiplərinin konkretləşdirilməsinin nəticəsidir. Prinsipləri vurğulayarkən modelləşdirmə emalatxanasının psixoloji və pedaqoji vəzifələrinə istinad edilir. Bu problemlərin nəzərdən keçirilməsi bizə yaradılmış proqram məhsullarının cavab verməli olduğu müvafiq texniki tələbləri formalaşdırmağa imkan verdi.

Laboratoriya emalatxanasının istifadəsi kompüter proqramlarına münasibətdə interaktivlik anlayışına çevrilən aktiv idrak fəaliyyəti nəzəriyyəsinə əsaslanır. Modelləşdirmə laboratoriya işlərinin yerinə yetirilməsində tələbənin rolu sadəcə fəal olmamalıdır. Tədqiqatın uğurlu olması üçün o, bir qədər, əsasən, də zehni səy göstərməlidir. Tələbə eksperimentin hazırlanmasına diqqət yetirməlidir: lazımi obyektləri, mühiti, cihazları seçin, lazım olduqda onları düzgün birləşdirin, təcrübəyə başlayın. Təcrübə zamanı müəyyən məlumatlar əldə etmək lazımdır. Buna görə də, modelləşdirmə işini inkişaf etdirərkən, tələbəni real və potensial mümkün cihazları simulyasiya edən lazımi proqram alətləri dəsti ilə “təmin etmək” lazımdır. Bu qurğulardan istifadə şagirdə öz aktiv funksiyasını yerinə yetirməyə imkan verəcək (12).

Hər bir şagirdin fərdi psixofiziki xassələrə malik olduğunu nəzərə alsaq, tələbələrdən eyni işi eyni ciddi şəkildə müəyyən edilmiş ardıcıllıqla yerinə yetirməsini tələb etmək mümkün deyil. İşin yerinə yetirilməsi üçün ümumi göstərişlərə diqqət yetirərək, tələbə təfərrüatlarla məhdudlaşmamalıdır. Buna görə də, modelləşdirmə laboratoriya işlərini hazırlayarkən, təcrübə şərtlərini və iş ardıcıllığını ixtiyari qaydada, hətta tövsiyə olunandan köklü şəkildə fərqləndirmək imkanını təmin etmək lazımdır. Yalnız proqram məhsulunun və tədqiq olunan fiziki sistemin bütövlüyünü qorumağa yönəlmiş məhdudiyyətlər məqbul hesab olunur. Bu yanaşma tələbələrin yaradıcı təfəkkürünün inkişafına təkan verəcəkdir.

Görünmə prinsipi modelləşdirmə laboratoriya işlərinin inkişafında başlanğıc nöqtələrdən biridir (6). Tələbə təkcə təklif olunan modeli başa düşmək deyil, həm də onun obrazlı təsvirini görmək imkanı əldə edir. Yolda dolayı vizuallaşdırmanın mənimsənilməsi problemi, məsələn, müəyyən bir cismin hərəkəti ilə eyni vaxtda onun koordinatlarının qrafiki qurulduqda həll edilə bilər. Tələbə prosesin qrafik təsvirinin xüsusiyyətlərini müəyyən etmək tapşırığı verilməsə belə, o, şüuraltı olaraq qrafikin müxtəlif nöqtələrini bədənin mövqeyi ilə əlaqələndirir. Beləliklə, şagirdlərin qrafikləri “oxumaq” bacarığını, daha məhsuldar öyrənmək problemi həll edilə bilər.

Çoxvariantlılıq prinsipi təkcə müəllimə müstəqil yerinə yetirilməyən işlərin sayını azaltmağa imkan vermir, həm də, əsasən, tələbələrə bu işin başqa hansı variantlarda yerinə yetirilə biləcəyini, eksperimentin hansı parametrləri və hansı məhdudiyyətlər daxilində dəyişə biləcəyini göstərir. Tələbələrin laboratoriya işləri zamanı əldə etdikləri bütün eksperimental məlumatlar həqiqi fiziki dəyərlərə və ölçülərə malik olmalıdır (8). Proqramın simulyasiya etdiyi virtual alətlər yalnız faktiki mövcud olan fiziki vahidlərdə dəyərləri göstərməlidir. “Cihazlar” hər hansı bir nisbi dəyərləri göstərirsə, tələbə simulyasiya proqramı ilə fiziki hadisə görəcək və simulyasiya laboratoriya işinin yerinə yetirilməsini artıq kompüterdə iş kimi qəbul etməyəcək. Bunun üçün belə bir interfeys və istifadəçinin proqramla ünsiyyət qurması üçün elə bir üsul hazırlamaq lazımdır ki, tələbə proqram məhsuluna uyğunlaşmaq üçün mümkün qədər az vaxt aparsın. İnkişaflarımızın təcrübəsi göstərdi ki, uyğunlaşma müddəti 15-20 dəqiqəyə qədər azaldıla bilər. Uyğunlaşma ilk modelləşdirmə işinin frontal formasında ən tez baş verir, sonra uyğunlaşma müddəti 7-10 dəqiqəyə qədər azalır. Bu nəticələrə nail olmaq üçün biz ən çox yayılmış standart Windows proqramlarının interfeysindən istifadə etdik: tələbələr tanış idarəetmələri görür və onlardan necə istifadə edəcəyini başa düşürlər. Maraq proqram məhsulunun strukturunu öyrənməkdən fiziki hadisə və ya prosesin öyrənilməsinə keçir. Modelləşdirmə laboratoriyası işinin interfeys dizaynının nümunəsi şəkil-1-də göstərilmişdir.




**Şəkil 1.** *Modelləşdirmə laboratoriya işi “Sönən rəqslər”*

Tələbənin öyrənilən prosesə ilkin marağını stimullaşdırmaq üçün nəzərdə tutulmuş amillərdən biri də metodiki vəsaitdir. Laboratoriya işlərinin tez-tez mühazirə kursunda öyrənilməmiş məsələləri həll etməsinə baxmayaraq, laboratoriya işlərinin yerinə yetirilməsi üçün metodiki vəsaiti tələbələrin ümumi rolunu artırmaq vasitəsi kimi qəbul etməmək lazımdır. Təlimatda çoxlu miqdarda əlavə, hətta çox maraqlı məlumatlar varsa, bu, öyrənilən prosesin qavranılmasının bütövlüyünə mənfi təsir göstərir və nəticədə işin yerinə yetirilməsini və başa düşülməsini çətinləşdirir. Eyni zamanda təlimatın həddindən artıq qısalığı və sxematik xarakteri, kifayət qədər təcrübəsi olmayan, təklif olunan materialı müstəqil şəkildə mənimsəyə bilməyən tələbələrin nəzərdən keçirilməsi üçün tədqiq olunan fenomenlə bağlı bir sıra sualları tərk edir. Beləliklə, eksperimentin bəzi məqamları tələbələr tərəfindən başa düşülməyə, hiss olunmaya bilər.

Asanlıqla görmək olar ki, modelləşdirmə laboratoriya işlərinin işlənib hazırlanması və istifadəsi üçün müzakirə olunan prinsiplər fizikaya xas deyil. Buna görə də həm təbiət elmləri, həm də humanitar elmlər üzrə, digər ixtisaslar üzrə modelləşdirmə laboratoriya işlərinin işlənib hazırlanmasında onları rəhbər tuta bilərlər.

Bu məqalədə təqdim olunan kompüter laboratoriyası işlərinin layihələndirilməsi və işləmə prinsipləri fizika və riyaziyyat fakültəsinin “Ümumi və nəzəri fizika” kafedrasında ümumi fizika kursu üzrə modelləşdirmə laboratoriya işləri kompleksinin yaradılması prosesində tərəfimizdən işlənib hazırlanmış və sınaqdan keçirilmişdir.

Yuxarıda təsvir olunan prinsiplərin tətbiqinin interfeysi şəkil 1-də göstərilən “Sönən rəqslər” kompüter simulyasiya laboratoriya işinin nümunəsi ilə təsvir edək. Təcrübəyə başlamazdan əvvəl yay, cism və mühit (fəaliyyət və interaktivlik prinsipi) seçmək lazımdır. Tədqiqat metodologiyası elə qurulmuşdur ki, müxtəlif sərtliyə malik yaylarla təcrübə aparmaq lazımdır. İstənilən qaydada yayları seçə bilərsiniz. İstəyirsə, tələbə təkcə yayları deyil, həm də kütləni və mühiti dəyişə bilər (prinsip “sərbəst trayektoriya”). Hər hansı bir parametr dəyişdirilərkən, modelin vizual ekranı sinxron şəkildə dəyişir.

Təklif olunan metodda işin hər bir variantı (multivariantlılıq prinsipi) mühitin özlülüyü və gövdənin ölçüsü ilə müəyyən edilən müəyyən zəifləmə əmsalına uyğundur. Hər bir təcrübə real vaxt rejimində baş verir. Bu işdə tədqiqat metodologiyasına uyğun olaraq iki virtual alət təqdim edilmişdir: hər bir təcrübədə beş tam rəqsin vaxtını ölçən avtomatik saniyəölçən və rəqslərin amplitudasını təyin etmək üçün “Koordinatların ölçülməsi” interaktiv hökmdarı. “Koordinatın ölçülməsi” sürüşdürmə çubuğunu hərəkət etdirməklə siz istənilən vaxt cismin koordinatını qrafikə uyğun olaraq 0,01 sm dəqiqliklə ölçə bilərsiniz. Hansı koordinatları ölçəcəyinə şagird özü qərar verir (nəticələrin reallığı, fəaliyyət və interaktivlik prinsipləri). Əldə edilmiş məlumatlara əsasən, o, metodik vəsaitdə təsvir olunan bir neçə üsulla zəifləmə əmsalını hesablamalı və əldə edilmiş nəticələri nəzəri dəyərlə (metodoloji təhlükəsizlik prinsipi) müqayisə etməlidir. Bu proqram məhsulunun uyğunlaşması tədqiq olunan modelin dinamik vizuallaşdırılması və standart idarəetmə vasitələri ilə aydın interfeysin kombinasiyası ilə təmin edilir. Tədris prosesində bu kompleksdən modelləşdirmə laboratoriya işlərindən istifadə edən müəllimlər ümumi təhsil kursu ilə əlaqədar tələbələrin psixoloji əhval-ruhiyyəsinin yaxşılaşdığını təsdiqləyirlər.

## ƏDƏBİYYAT


1. Стародубцев В.А., Федоров А.Ф. Применение мультимедиа в образовании: комплексный подход. XV Международная конференция “Применение новых технологий в образовании”, Троицк, 2004, с.171-172
2. Ерофеева Г.В., Малютин В.М., Стройнова В.Н., Склярова ЕЛ., Смекалина Т.В. Интерактивная обучающая система на базе компьютеров Макинтош 3. Оптика. Материалы VIII Международной научно-практической конференции “Новые информационные технологии в университетском образовании”, Новосибирск, 2001
3. Каетреea О.А., Королев А.А., Мельничих А.П., Смирнов А.В., Стафеев С.К. Система компьютеризованной проверки знаний по физике (результат работы в 2002/2003 учебном году). Материалы X Всероссийской научно-методической конференции “Телематика-2003”, Санкт- Петербург, 2003
4. Ларионов В.В., Гаранин Г.В. Лабораторная работа “Определение длины волны СВЧ генератора с помощью системы Лехера”. Физическое образование в вузах, т. 11, № 1, 2005, с.54-58
5. Данчев В.З. Компьютерные программы виртуальных лабораторных стендов. Материалы VI Международной конференции Украинской ассоциации дистанционного образования “Образование и виртуальность”, Харьков-Севастополь, 2002, с.61-64
6. Машинъян А.Л. Теоретико-методические основы формирования у будущего учителя физики умения проектировать персональные технологии обучения. Автореферат диссертации на соискание ученой степени доктора педагогических наук, Москва, 2001
7. Арнольд М.В., Гудзенко А.Ф., Федотов М.Б. Лабораторный практикум всредеLabVIEW. Материалы VIII Международной научно-практической конференции “Новые информационные технологии в университетском образовании”, Новосибирск, 2001



## SUMMARY

**Seyfaddin Jafarov, Sayara Jafarova**

## QUALITY OF PROBLEM SOLVING TEACHING IN PHYSICS THE ROLE OF USING NEW INFORMATION TECHNOLOGIES IN PROMOTING

Designing and operation of laboratory work using computers is one of the most actively developing areas of modern theory and teaching methods of physics. This article analyzes the contribution of information technology to modern educational practice. Based on the general pedagogical prerequisites, the development principles of computer modeling laboratory work from physics are put forward. In recent years, the process of teaching physics has become more colorful due to the application of information educational technologies. Physics as a science is equally based on both experimental and theoretical research. Accordingly, the process of teaching physics should equally reflect both theoretical and experimental nature of science. Currently, all types of training exercises used in teaching physics reflect both theoretical and experimental nature of this science to a greater or lesser extent. At the same time, it is impossible to imagine any training session without the use of multimedia and computer technologies, as well as its application methodology.


***Key words**: Computer, laboratory, pedagogical training, information, experience*

**РЕЗЮМЕ**

**Сеифаддин Джафаров, Саяра Джафарова**

**КАЧЕСТВО РЕШЕНИЯ ЗАДАЧ ПРЕПОДАВАНИЯ ФИЗИКИ РОЛЬ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРОДВИЖЕНИИ**

Проектирование и проведение лабораторных работ с использованием компьютеров является одним из наиболее активно развивающихся направлений современной теории и методики преподавания физики. В данной статье анализируется вклад информационных технологий в современную образовательную практику. На основе общепедагогических предпосылок изложены принципы развития компьютерного моделирования лабораторных работ по физике. В последние годы процесс обучения физике стал более красочным благодаря применению информационных образовательных технологий. Физика как наука в равной степени базируется как на экспериментальных, так и на теоретических исследованиях. Соответственно, процесс преподавания физики должен в равной степени отражать как теоретический, так и экспериментальный характер науки. В настоящее время все виды тренировочных упражнений, используемые при обучении физике, в большей или меньшей степени отражают как теоретическую, так и экспериментальную природу этой науки. При этом невозможно представить ни одно учебное занятие без использования мультимедийных и компьютерных технологий, а также методики их применения.

***Ключевые слова**: Компьютер, лаборатория, педагогическая подготовка, информация, опыт*

---

***Məqaləni çapa təqdim etdi:** Fizika-riyaziyyat elmləri doktoru, professor Sabir Sultanağa oğlu Mirzəyev*
***Məqalə daxil olmuşdur:** 20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:** 27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 115-120
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 115-120
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 115-120

**AYGÜN SULTANOVA**
**ARİFƏ ƏLİZADƏ**
*aygunsultanova60@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.003**

# YÜKSƏK VOLTLU SELEN ELEMENTLƏRİNİN İSTEHSALI VƏ PERSPEKTİVLƏRİ

*Son illər cisimlərin elektrik xassələrinin müasir fiziki üsullarla daha dərindən öyrənilməsi bərk və maye cisimlərdə elektronların paylanma, sərbəstləşmə və hərəkəti haqqında yeni düzgün təsəvvürlər yaratmışdır. Bir sıra bərk cisimlər qrupunda sərbəst elektronların (eləcə də, deşiklərin) konsentrasiyasını, sərbəst yaşama müddətini, yürüklüyünü və hərəkətini idarəetmək bacarığı həmin cisimlərin elektrik xassələrini texnikanın tələb etdiyi kimi məqsədəuyğun şəkildə dəyişdirməyə imkan vermişdir. Bu, elektrotexnikanı yeni inkişaf mərhələsinə qaldırmaqdadır.*

*Bunu qeyd etmək kifayətdir ki, yarımkeçiriciləri müasir elektrotexnikanın cəbbəxanası adlandırmaq olar, eləcə də yeni elmi və texniki sahələrin yaranmasında da rolu böyükdür. Yarımkeçiricilər vasitəsilə dəyişən elektrik cərəyanı düzləndirilir, zəif cərəyan gücləndirilir, istilik, adi və radioaktiv şüaların enerjisi elektrikə çevrilir, nüvə hissəcikləri sayılır, zəif elektron seli çoxaldılır, səs enerjisi elektrikə və əksinə çevrilir, elektriklə soyutma əldə olunur, bir sıra kimyəvi reaksiyalarda kataliz aparılır, elektrik xətlərində cərəyan və gərginlik tənzim edilir, mürəkkəb proseslər avtomatlaşdırılır, bir sıra yerlərdə ferromaqnit metallar əvəz edilir və s.*

*Bir sıra təcrübələrə əsaslanaraq müasir fizika təsdiq edir ki, atom müsbət elektrik yüklü nüvədən və mənfi elektrik yüklü elektronlardan təşkil olunmuş mürəkkəb elektrik sistemidir. Elektronlar nüvənin ətrafında mürəkkəb formalı orbitlər üzrə hərəkət edir.*

*Yarımkeçirici düzləndiricilər, eləcə də xüsusi selen düzləndiriciləri üçün istilikkeçirmənin öyrənilməsi elektrikkeçirmə kimi böyük əhəmiyyətə malikdir. Selen düzləndiricilərində düzünə müqaviməti azaltmaq məqsədilə yarımkeçiriciyə az miqdarda xlor, brom, yaxud yod aşqarları vurulur.*

***Açar sözlər:*** *Selen, radioaktiv, elektrod, ferromaqnit, gərginlik*

Selen düzləndiricilərində gedən fiziki proseslərin düzgün başa düşülməsi bu düzləndiricilərin xarakteristikalarının yaxşılaşdırılmasına imkan verir.

Düzləndiricilərin xarakteristikalarının yaxşılaşmasının fiziki əsası, onlarda mükəmməl, sabit və xarici mühitin təsirinə məruz qalmayan p-n keçidin yaradılmasındadır.

Selen düzləndiricinin işçi gərginliyinin artmasına imkan verən bəzi üsulları qeyd edək:

1. Kadmiumlanmış elementlərdə kükürdlü selen təbəqəsinin səthinə vakuumda buxarlanma yolu ilə kadmium, bunun üzərinə də kadmium-qalay ərintisi çəkilməsindən ibarətdir. Bu üsulla *p-n* keçidi nisbətən müstəviləşdirmək, gərginliyi 30 v-a qədər artırmaq köhnəlmə və formovkanın pozulmasını xeyli azaltmaq olur.

2. Tallium selen elementlərinin hazırlanması aid texnologiyadan üst elektroda 0,015-0,01% tallium qarışdırmaqla fərqlənir.

Bu üsulla işçi gərginliyi 30 v-a qədər artır. Görünür ki, üst elektroda tallium vurduqda əks xarakteristikasının yaxşılaşması *p* oblastında talliumun diffuziyası nəticəsində keçiriciliyin azalması ilə əlaqədardır.

Tallium Yer qabığında təvazökar dərəcədə bol element olsa da, konsentrasiyasının 0,7 mq/kq olduğu təxmin edilən, əsasən, gil, torpaq və qranitlərdəki kalium əsaslı minerallarla əlaqəli olsa da, tallium ümumiyyətlə iqtisadi cəhətdən bunlardan bərpa oluna bilməz. Talliumlu elementlərin düzünə müqaviməti

kiçikdir, lakin yüksək temperaturlarda çox tez köhnəlirlər. Q.Ə.Axundovun selen üzərinə *TlSe* təbəqəsi çəkərək, az zamanda formovka olan yüksək voltlu selen düzləndiriciləri almağa nail olmuşdur.

1. Yuxarıda dedik ki, sərt formovka elementə böyük gərginlik tətbiq etməkdən ibarətdir. Formovka zamanı element yağa salınarsa, işçi gərginliyi 30 *v*-dan böyük olur. Fərz etmək olar ki, yağa batırma bağlayıcı təbəqəni formovka zamanı oksigendən müdafiə edir, bircinsli qızdırır, mükəmməl *p-n* keçid yaradır. Yağda formovkalanmış elementlər daha yüksək gərginliyə davamlıdır. Bu hadisə bağlayıcı təbəqənin zəif yerlərinin izolənməsi və oksigen keçməməsi ilə əlaqədardır. Nisbətən sabitlik *p* oblastına halogenlərin kiçik diffuziyası ilə izah edilə bilər.

Kəskin *p-n* keçid formovka zamanı temperatur qradiyenti ilə də alınır. Bu cür formovka yarımkeçiricinin yaranmasını və elektrik sahəsi vasitəsilə aşqarların *p-n* keçiddən təmizlənməsini sürətləndirir.

2. Üst elektrod çəkilməmişdən elementi 0,001% bromlu kadmium duzu olan asetonda katod kimi götürdükdə nümunə 30 *v*-luq olur. Burada düzləndirmənin yaxşılaşması aşağıdakı kimi izah edilə bilər.

Elektrik sahəsində aseton qismən parçalanır və hidrogen ayrılır. Katodun üzərinə isə kadmium yığılır. Atomlar hidrogen seleninə birləşərək, selenli hidrogen yaradır. Səthin çıxıq yerlərində cərəyan sıxlığı böyüyür. Selenli hidrogenin əmələgəlmə intensivliyi çoxalır. Nəticədə, selenin səthi müstəviləşir. Kükürdlü hidrogen qazı səthdən uzaqlaşdıqda səthi kələ-kötürləşir (2).

Bundan başqa, halogen aşqarları (mənfi ionlar) sahə təsirilə selenin səth təbəqəsindən mayeyə keçir.

Üst elektrod çəkdikdə formovka üçün əlverişli şərait (müstəvi və aşqarsız yarımkeçirici səthi) yaranır ki, nəticədə çox elastikli və kəskin *p-n* keçid yaranır. Katod işlənməsinə üst elektrod maye olduqda elektrofarmovka kimi baxmaq və bu kimi təcrübələri vakuumda, müxtəlif qaz şəraitində aparmaq lazımdır.

1. “T” növ elementlər. Bunların hazırlanma prosesləri alüminium astar üzərinə kadmium, bunun üstündən isə selen çəkməkdən ibarətdir.

Üst elektrod bismutlanmış prosesi alüminium astar üzərinə kadmium, bunun üstündən isə selen çəkməkdən ibarətdir. Üst elektrod bismutlanmış alüminiumdan götürülür. Bu elementlərdə astarın üzərində *p-n* keçid əmələ gəlir. Həmin keçid üçün nəmliyin təsiri tamamilə qeyri-mümkündür və mexaniki deformasiyaya az uğrayır. Bu texnologiya 40 *v*-luq elementlər hazırlamağa imkan verir. Bu düzləndiricilər nəmliyə dözümlüdürlər, formovkaları demək olar ki, pozulmur və böyük gələcəkləri vardır. Aşağı temperaturlarda bu düzləndiricilərdə əks cərəyan kəskin artır. Bu hadisəni müəyyən istiqamətdə astar və selenin termik genişlənmə əmsallarının müxtəlifliyi nəticəsində *p-n* keçidin səthinin pozulması ilə izah etmək olar. Bu elementlərdə formovkanın effektivliyi aşqarların konsentrasiyasının azlığı, nəmliyi və oksigenin təsirinin olmaması, bağlayıcı təbəqə kristallaşma zamanı aşqarların azalması ilə izah etmək olar.

Beləliklə, selen düzləndiricilərinin təkmilləşdirmə texnologiyası üçün bir sıra real üsullar göstərilmiş və yaxşı nəticələr alınmaqdadır.

Təcrübələr göstərdi ki, selen düzləndirici elementlərinin üst elektrodu görünən işıq üçün şəffaf düzəldilərsə, adi günəş işığında elementlərin hər birində 0,4-0,5*v*-a qədər fotoelektrik hərəkət qüvvəti və 2-3 $ma/sm^2$ fotocərəyan yaranır.

Həm *CdSe-Se*, həm də *CdS-Se* üçün maksimum 5852A$^o$ dalğa uzunluğunda müşahidə edilmişdir.

Elektrik formovkasından və termoformovkadan sonra foto ehq-nin qiyməti kəskin artır ki, bu da *p-n* keçidin və düzləndirilmə təsirinin yaxşılaşması ilə əlaqədardır. Düzləndirməni yaxşılaşdıran proseslər, güman etmək olar ki, ventil fotoeffektini də yaxşılaşdırmalıdır. Bundan başqa, fotoeffekt və düzləndirmə yarımkeçiricinin səthində əmələ gəldiyindən effekti yüksəltmək üçün səthin müxtəlif kimyəvi yollarla işlənməsi vacib məsələlərdəndir.

Selenin üzərinə nazik *CdSe* və ya *CdS* təbəqəsi çəkmək yolu ilə yüksək voltlu selen düzləndirici elementləri alınmışdır.

Maraqlı məsələlərdən biri də *p-n* keçiddə rentgen şüalarının təsiri ilə ventil elektrik hərəkət qüvvəsinin yaranmasıdır. Bu cür effekt gözləmək olar, çünki yuxarıda təsvir edilən düzləndiricilərin quruluşu ventil fotoelementlərinin quruluşuna uyğundur. Elektronlu yarımkeçiricilərin keçiriciliyi selenin keçiriciliyinə nisbətən təxminən $10^6$ dəfə azdır.

Bu sistemlərdə *n*-növ yarımkeçirici kimyəvi bağlayıcı təbəqə rolunu oynayır. Düzləndirici elementlərdə hər iki metal elektrod işıq üçün qeyri-şəffafdır. Rentgen şüaları elektrodlardan keçərkən

əsaslı udulmur.

Burada iki məsələni aydınlaşdırmaq qarşıya qoyulmuşdur.

1. Süni *p-n* keçidli selen düzləndiricilərində rentgen şüalarının təsirilə daxili fotoeffekt yaranırmı?

2. Süni keçidli selen elementlərində rentgen şüalarının təsirilə ventil *ehə* - yaranırmı?

Tədqiqat obyekti olaraq yuxarıda qeyd olunan üsullarla hazırlanmış selen düzləndirici elementləri götürülmüşdür. Element çox dəqiqliklə işığın təsirindən mühafizə olunmuş və rentgen borusunun pəncərəsindən sabit məsafədə yerləşdirilmişdir. Nümunədən keçən cərəyan az olduqda daxili müqaviməti 161 *om* və həssaslığı 1000 *mm/ma* olan güzgülü qalvanometrlə, böyük olduqda isə milliampermetrlə ölçülmüşdür.

Rentgen şüaları mənbəyi olaraq, molibden anti-katodlu BSV-4 borusu götürülmüşdür. Rentgen borusundan sürətləndirici potensial 30kv-dan 55kv-dək emissiya cərəyanı isə 2 *ma*-dən 30 *ma*-a qədər dəyişmişdir (1) .

Təcrübələr göstərdi ki, rentgen şüalarının təsirilə *p-n* keçidin keçiriciliyi artır, onun qiyməti sürətləndirici potensial, emissiya cərəyanı və nümunəyə tətbiq olunan gərginlikdən asılı olur.

Sabit gərginlik və emissiya cərəyanında sürətləndirici potensialın artması ilə fotocərəyan əvvəlcə sürətlə, sonra isə yavaş artaraq, müəyyən sabitə yaxınlaşır.

Emissiya cərəyanı artdığına görə fotocərəyanın sürətləndirici gərginlikdən asılılıq əyriləri öz şəkillərini dəyişmədən yerlərini dəyişirlər. 2 nömrəli nümunə fotocərəyanın qaranlıqdakı cərəyana nisbətinin nümunəyə 30 *ev* tətbiq və müxtəlif emissiya cərəyanlarında sürətləndirici potensialdan asılılıq göstərilmişdir. Göründüyü kimi, fotocərəyan 45 *ev*-a qədər kəskin artıq. Emissiya cərəyanı 20 *ma* olduqda fotocərəyandan 2-2,5 dəfə çox olur.

Fotocərəyanın qaranlıqdakı cərəyana nisbətinin 30*v* yerdəyişmə gərginliyində və müxtəlif sürətləndirici sahələrdə emissiya cərəyanından asılılıq əyrilərində göstərir ki, emissiya cərəyanı artdıqca fotocərəyan da artır. Sürətləndirici gərginlik çox olduqda fotocərəyan da o qədər kəskin artır.

Elementlərdə daxili fotoeffekt selenin qalınlığında deyil, *p-n* keçiddə baş verir. Bu onunla təsdiq olunur ki, buraxıcı istiqamətdə gərginlik tətbiq edildikdə və nümunə rentgen şüalandırdıqda elementdən keçən cərəyanda heç bir dəyişiklik hiss olunmamışdır.

Təmiz kristal selendə rentgen şüalarının təsirilə daxili fotoeffekt yaranır, lakin bizim tədqiq etdiyimiz nümunədə selenin qalınlığından brom aşqarı olduğuna görə, onun keçiriciliyi iki tərtib artmışdır.

1-ci şəkildə ventil və emissiya cərəyanının müxtəlif qiymətlərində sürətləndirici gərginlikdən asılılıq əyriləri verilmişdir. Burada absis oxu üzrə kilovatlarla sürətləndirici potensial, ordinat oxu üzrə ventil cərəyanının qiyməti göstərilmişdir. Sürətləndirici gərginliyin artması ilə fotocərəyan da artır. Fotocərəyanın emissiya cərəyanından asılılığına gəldikdə, emissiya cərəyanı artdıqca, müxtəlif sürətləndirici gərginliklərdə fotocərəyan da böyüyür. Fotocərəyanın emissiya cərəyanından asılılığı sürətləndirici gərginlik artdıqda daha da kəskin olur.




**Şəkil 1.** *Müxtəlif emissiya cərəyanlarında fotocərəyanın qaranlıqdakı cərəyana nisbətinin yerdəyişmə gərginliyindən asılılığı*

Müxtəlif sürətləndirici gərginliklərdə 1 elementi üçün fotocərəyanın emissiya cərəyanından asılılıq əyriləri 2-ci şəkildə göstərilmişdir. Absis oxuna emissiya cərəyanı, ordinat oxunda isə fotocərəyan göstərilmişdir. Bu nəticələr aşağıdakı kimi izah edilə bilər.

Selen düzləndiricilərində daxili fotoeffektin yaranması fiziki bağlayıcı təbəqənin istər deşikli, istərsə də elektronlu hissəsinin rentgen şüalarının təsiri altında sərbəst yükdaşıyanlarla zənginləşməsilə əlaqədardır.

Düz istiqamətdə *p-n* keçid pozulur, elektronlu sahə yaranır və yükdaşıyanların konsentrasiyasının artmasının keçiriciliyin dəyişməsində rolu olmur. *p-n* keçiddə bağlayıcı təbəqənin inkişafı ilə əlaqədar olaraq bağlayıcı istiqamətdə sistemin keçiriciliyi bir neçə tərtib kiçilir.

Rentgen şüalarının təsirilə *p-n* keçiddə daşıyıcıların konsentrasiyasının artması cərəyanın artmasına səbəb olur.

Sürətləndirici gərginliyin böyüməsilə fotocərəyan da artır. Bu, onunla izah olunur ki, rentgen şüaları kvantların enerjisinin artması ilə qoparılan elektronların sayı da çoxalır. Yarımkeçiricidə elektronlar aşqar atomlardan və əsas ionlardan qopurlar.

Rentgen kvantlarının təsirilə elektronlar elektronlu deşikli yarımkeçiricilərdə aşqar səviyyələrdən və dolu zolaqdan boş zolağa keçir. Bu halda boş zolaqda elektronların, dolu zolaqda deşiklərin konsentrasiyası artır ki, bu da keçiriciliyin artmasına səbəb olur.

Aşqarlardakı və dolu zolaqdakı bağlı elektronların konsentrasiyası yuxarı sərhəddən asılı olaraq artır. Sürətləndirici gərginlik artdıqda, rentgen şüalarının kvantları ən dərindən olan elektronları da azad edilə bilir. Emissiya cərəyanı artdıqca çıxan elektronların da sayı çoxalır ki, bu da *p-n* keçidin keçiriciliyinin artması üçün şərtdir.

Ventil fotoeffektinin artmasına gəldikdə, onu aşağıdakı kimi izah etmək olar. Rentgen şüaları ilə *p-n* keçidə təsir etdikdə sistemdə istilik elektronlarının dinamik tarazlığı pozulur.

Aşqar səviyyələri ilə zolaqlar arasındakı elektron keçidləri ventil effektinə səbəb ola bilməz, çünki bu halda bir yarımkeçiricidə yüklərin miqdarı sabit qalır (2).

Rentgen kvantları elektronları elektronlu yarımkeçiricinin dolu zolağından çıxaraq, onları keçirici zolağa aparır. Sərbəst elektronlar metala keçərək, onu mənfi yükləndirirlər. Selenin dolu zolağının elektronları elektronlu yarımkeçiricidəki boş yerlərə keçirlər ki, nəticədə selen, beləliklə də alt elektrod müsbət yüklənir.




**Şəkil 2.** *Emissiya cərəyanının müxtəlif qiymətində fotocərəyanın sürətləndirici gərginlikdən asılılıq əyriləri*

Dinamik rejimdə və müxtəlif temperaturlarda rentgen şüalarının *p-n* keçidin keçiriciliyinə təsiri də öyrənilmişdir. Keçiriciliyin dəyişməsi haqqında elektron ossilloqrafında əks cərəyanın şəklinin dəyişməsinə görə mühakimə yürüdülmüşdür.

Göründüyü kimi, düzləndiricilərin dinamik rejimində selen düzləndiricilərinin rentgen şüaları

ilə şüalandırılması əks cərəyanın kəskin artmasına səbəb olur.

Eyni gərginlikdə (30 *v*), lakin müxtəlif temperaturlarda (+20 və -180°C) rentgen şüalarının əks cərəyanın artmasına təsiri dəyişir. Aşağı temperaturlarda qüvvəti sahə effekti başqa faktorlara üstün gəlir, odur ki, rentgen şüalarının təsiri zəifləyir.

M.Ə.Talıbi yuxarıdakı qayda ilə hazırlanmış süni *p-n* keçidli selen düzləndiricilərinə qamma şüalarının təsirini öyrənmişdir. Təcrübə aparmaq üçün yaxşı düzləndirmə xassəsinə malik olan və rentgen şüalarına həssas nümunələr hazırlanmışdır.

Şüalanma mənbəyi olaraq, yarımparçalanma dövrü 5,27 il olan kobaltın radioaktiv izotopundan istifadə edilmişdir. Göstərilən izotopun şüalanması 1,313 *Mev* olan qamma kvantlarından və 0,318 *Mev* olan betta hissəciklərdən ibarətdir. Tədqiq edilən nümunələri beta hissəciklərdən mühafizə etmək məqsədilə əlavə filtirlər götürülmüşdür (3).

Təcrübələr aparılarkən mənbənin aktivliyi üç Küriyə yaxın olmuşdur.

Fotoelektrik cərəyan şiddətinin (1) xarici müqavimət $(R_2)$-də potensial düşgüsündən asılılığını öyrənərək, xarici müqaviməti $(R_1)$, habelə *fotoehz*-ni (*E*) öyrənmək olur.

$$\dot{I} = \frac{E}{R_1 + R_2} \quad \text{düsturundan alırıq ki,} \quad \dot{I} = \frac{E}{R_1} - \frac{+\dot{I}R_2}{+R_1}$$

Burada $\dot{I}R_2$ - xarici dövrədə potensial düşgüsüdür. Dövrə açıq olduqda fotoelementin daxili müqavimət və foto *ehz*-nın xarici dövrdəki potensial düşgüsündən asılı olmadığını fərz edərək, cərəyan şiddətinin xarici dövrdə potensial düşgüsündən asılılıq qrafikini qurmaq olar. Bu halda alınan düz xəttin koordinat oxlarından birilə əmələ gətirdiyi meyil bucağının tangensinə görə $tg\alpha = \frac{1}{R_1}$ - ə əsasən, fotoelementin daxili müqaviməti hesablanır. Fotoelementlərin daxili müqavimətinin adi ölçmə üsullarından fərqli olaraq, bu ölçmə fotoelementdən elektrik cərəyanı buraxdıqda yaranan kənar hadisələrdən azaddır.

## ƏDƏBİYYAT


1. Axundov Q.A. Yarımkeçiricilər. Bakı: 1966
2. Abdullayev H.B. Selen düzləndiriciləri. Bakı: 1956
3. Zərbəliyev M.M. Yarımkeçiricilər fizikası. Bakı: 2008. s.454
4. Hümbətov R.T. “Elektronika” I hissə. Bakı: 2002, “Maarif” nəşriyyatı
5. Abbasov V.M., Tağıyeva A.M., Həsənov Z.Ə., Salmanzadə Ş.V. Kimya və həyat. Bakı: 2011, “Kövsər”. s.234


## SUMMARY

**Aygun Sultanova, Arifa Elizade**

### OF HIGH VOLTAGE SELENIUM ELEMENTS PRODUCTION AND PROSPECTS


In recent years, the deeper study of the electrical properties of bodies by modern physical methods has created new correct ideas about the distribution, release and movement of electrons in solid and liquid bodies. The ability to control the concentration, lifetime, mobility, and motion of free electrons (as well as holes) in a group of solids has made it possible to appropriately change the electrical properties of those bodies as required by technology. This raises electrical engineering to a new stage of development.

It is enough to note that semiconductors can be called the armory of modern electrical engineering, as well as their role in the creation of new scientific and technical fields. By means of semiconductors, an alternating electric current is rectified, a weak current is amplified, the energy of

heat, ordinary and radioactive rays is converted into electricity, nuclear particles are counted, a weak electron stream is multiplied, sound energy is converted into electricity and vice versa, cooling is achieved with electricity, catalysis is carried out in a number of chemical reactions, electricity current and voltage are regulated in the lines, complex processes are automated, ferromagnetic metals are replaced in a number of places, etc.

Based on a number of experiments, modern physics confirms that the atom is a complex electrical system consisting of a positively charged nucleus and negatively charged electrons. Electrons move in complex orbits around the nucleus

For semiconductor rectifiers, especially for special selenium rectifiers, the study of thermal conductivity is as important as electrical conductivity. In selenium rectifiers, a small amount of chlorine, bromine or iodine additives are added to the semiconductor in order to reduce the rectification resistance.

***Key words**: Selenium, radioactive, electrode, ferromagnet, voltage*

## РЕЗЮМЕ

**Айгюн Султанова, Арифа Элизаде**

**ВЫСОКОВОЛЬТНЫХ СЕЛЕНОВЫХ ЭЛЕМЕНТОВ ПРОИЗВОДСТВО И ПЕРСПЕКТИВЫ**

В последние годы более глубокое изучение электрических свойств тел современными физическими методами создало новые правильные представления о распределении, выделении и движении электронов в твердых и жидких телах. Возможность управлять концентрацией, временем жизни, подвижностью и движением свободных электронов (а также дырок) в группе твердых тел позволила соответствующим образом изменять электрические свойства этих тел в соответствии с требованиями технологии. Это поднимает электротехнику на новую ступень развития.

Достаточно отметить, что полупроводники можно назвать арсеналом современной электротехники, а также их роль в создании новых научных и технических направлений. С помощью полупроводников осуществляется выпрямление переменного электрического тока, усиление слабого тока, преобразование энергии тепловых, обычных и радиоактивных лучей в электричество, подсчет ядерных частиц, умножение слабого потока электронов, преобразование звуковой энергии в электричество. и наоборот, охлаждение осуществляется электричеством, в ряде химических реакций осуществляется катализ, в линиях регулируется ток и напряжение электричества, автоматизируются сложные процессы, в ряде мест заменяются ферромагнитные металлы и т. д.

Современная физика на основании ряда экспериментов подтверждает, что атом представляет собой сложную электрическую систему, состоящую из положительно заряженного ядра и отрицательно заряженных электронов. Электроны движутся по сложным орбитам вокруг ядра.

Для полупроводниковых выпрямителей, особенно для специальных селеновых, изучение теплопроводности столь же важно, как и электропроводности. В селеновых выпрямителях в полупроводник добавляют небольшое количество добавок хлора, брома или йода с целью снижения сопротивления выпрямлению.

***Ключевые слова:** Селен, радиоактивный, электрод, ферромагнетик, напряжение*

***Məqaləni çapa təqdim etdi:** Fizika-riyaziyyat elmləri doktoru, professor Sabir Sultanağa oğlu Mirzəyev*
***Məqalə daxil olmuşdur:** 20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:** 27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 121-124
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 121-124
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 121-124

**FƏRMAN QOCAYEV**
*ferman.qocayev@gmail.com*
**BİLLURƏ HACIYEVA**
*billurehaciyeva76@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.008**

# MAYE HELİUM VƏ ONUN ƏSAS XASSƏLƏRİ

*Məqalədə kriogen maye (soyuq maye) olan helium izotoplarının ($_2He^4$ və $_2He^3$) alınması və mühüm fiziki xassələri haqqında geniş məlumatlar verilir. İfrataxıcı maye He II-in kəşfi, onun istilik tutumunun temperaturdan asılılığı, ifrataxıcılıq xassələri, onun təzyiqinin temperaturdan asılılığını xarakterizə edən diaqram haqqında ətraflı məlumatlar şərh edilir. Aşağı temperaturların alınması üsulları geniş şəkildə izah edilir. He II-in ifratistilikkeçirmə xassəsinə malik olması izah edilir. $_2He^4$ və $_2He^3$-ün özlülüyü haqqında konkret faktlar verilir. He II mayesinin praktik tətbiq sahələri göstərilir, ifrataşağı temperaturların dəqiq ölçülməsində ondan istifadə edərək kondensiyalı termometrlərin hazırlanması qaydası şərh edilir.*

***Açar sözlər:*** *İfrataxıcılıq, aşağı temperatur, özlülük, ifratistilikkeçirmə, böhran temperaturu, hal diaqramı*

Helium ($_2He^4$) D.İ.Mendeleyevin tərtib etdiyi elementlərin dövrü sistem cədvəlində 2-ci kimyəvi element olub, təsirsiz qazlar qrupunda yerləşir. Təbii halda atmosfer tərkibində mövcud olan bu təsirsiz qaz, faiz etibarı ilə onun ümumi kütləsinin çox kiçik bir hissəsini (1%-dən az) təşkil edir. Helium üç aqreqat halında - qaz, maye və bərk halda ola bilir. Təbiətdə rast gəlinən ən soyuq maye heliumdur. Maye helium 1 atm. təzyiqdə 4,21 K temperaturda qaynayır. O, təbiətdə yeganə maddədir ki, adi təzyiqdə mütləq sıfır temperaturuna qədər (0 K) soyudulduqda belə bərk hala keçmir (kristallaşmır). Lakin təzyiqi 25 atmosferə qədər qaldırdıqda 0 K oblastında kristallaşa bilir. T=60K-də P=10000 atmosfer təzyiqdə helium rəngsiz və şəffaf olan bərk heliuma çevrilir. Maye heliumun sıxlığı 0,12 q\sm$^3$ olub, kifayət qədər sıxılabilmə xassəsinə malikdir.

Maye helium dünyada ilk dəfə olaraq 1908-ci ildə Niderlandda, Leyden universitetinin fizika laboratoriyasında holland fiziki Komerlinq-Onnesin rəhbərliyi altında alınmışdır. Qeyd edək ki, məhz maye heliumun kəşfindən sonra 1911-ci ildə ilk dəfə olaraq Komerlinq-Onnes təmiz maye metal olan civədə (Hg) 4,21 K temperaturunda ifratkeçiricilik hadisəsini kəşf etdi.

İndi isə qazların mayeləşdirilməsi mexanizminin fiziki əsasını müəyyənləşdirək. İlk baxışda adama elə gəlir ki, guya istənilən temperaturdakı qazı kifayət qədər böyük təzyiq altında sıxmaqla mayeləşdirmək olar. Əslində bu heç də belə deyildir. Qazı böyük təzyiq altında sıxmaqdan asılı olmayaraq, bir qaz molekuluna düşən orta kinetik enerji iki molekul arasındakı qarşılıqlı cazibəyə uyğun gələn potensial enerjidən böyükdürsə, bu temperaturda və bundan yüksək temperaturlarda qaz mayeləşməz. Deməli, qazın mayeləşməsi üçün bir molekula düşən orta kinetik enerjinin iki molekul arasındakı qarşılıqlı cazibənin potensial enerjisindən kiçik olmasına nail olmaq lazımdır. Bunun üçün isə qazın temperaturunu aşağı salmaq lazımdır. İstənilən qazı mayeləşdirmək üçün onu öz böhran temperaturuna, yaxud da ondan aşağı temperaturadək soyutmaqla sıxmaq lazımdır.

Aşağı temperaturlu mayeləri almaq üçün, əsasən, Coul-Tomson effektindən istifadə olunur. Bunun üçün, atmosfer havası xüsusi qurğuların (məsələn, P.T.Kapitsa qurğusunun) köməyi ilə sorulub, yüksək təzyiq altında sıxılır və sonra onu kiçik diametrli dar mis borulardan keçməklə ona adiabatik genişlənmə verilir. Prosesi bir neçə dəfə təkrar etməklə, azot, oksigen, hidrogen və helium

qazlarını mayeləşdirmək olar. Heliumun ($_2He^4$) üzərindəki təzyiqi çox aşağı salmaqla onun temperaturunu 1 K-ə qədər aşağı salmaq mümkündür. 1 K-dən aşağı temperaturu, yəni ifrataşağı temperaturu almaq üçün isə adiabatik maqnitsizləşdirmə metodlarından istifadə edilir. Bunun üçün maqnit duzlarından istifadə olunur.

Heliumun iki izotopu mövcuddur: $_2He^4$ və $_2He^3$. Bu modifikasiyalar He I və He II adlanır. 1932-ci ildə Keezom və Klauzius heliumun istilik tutumunu müşahidə etmişlər. Bu hadisə λ-hadisə, uyğun temperatur isə λ temperatur və ya λ nöqtə adlanır (şəkil 1).



Şəkil 1.

He I adi mayedir. He II isə fiziki xassələrinin kəskin anomaliyası ilə fərqlənən mayedir. He II ifrataxıcı mayedir. Onun özlülüyü $\eta \approx 10^{-11}$ puazdır. Bunu 1940-cı ildə akademik P.L.Kapitsa müəyyən etmişdir. He I-in özlülük əmsalı isə $\eta \approx 2 \cdot 10^{-5}$ puazdır. İfrataxıcılığın nəzəriyyəsi 1941-ci ildə akademik L.D.Landan tərəfindən yaradılmışdır. Müəyyən edilmişdir ki, təbii heliumda ($_2He^4$) yüngül izotop olan $_2He^3$ izotopunun miqdarı çox azdır. Havadan alınan $_2He^4$ izotopunda $_2He^3$-ün miqdarı ümumi qaz kütləsinin $10^{-7}$%-i təşkil edir. Ona görə də bu izotopun alınması çətindir.

$_2He^3$ izotopunun böhran temperaturu 3,35K-dir. O, 1 atm. təzyiqdə 3,195K-də qaynayır. He II ən kiçik diametrli kapilyar borudan, deşiklərdən və yarıqlardan sərbəst axa bilir. Onun axma qanunu adi mayelərin hərəkət qanunlarından kəskin fərqlənir. Nazik kapilyar borularda ($d \approx 10^{-4}$-$10^{-5}$ sm) He II axma sürəti kapilyar borunun uzunluğundan və təzyiqlər fərqindən asılı deyildir. Kapilyarın qalınlığı artdıqca onun axma sürəti artmır, əksinə azalır. Bu isə onu göstərir ki, He II belə kapilyar borularda tam özlülüyü olmayan maye kimi axır.

He II ən mühüm xüsusiyyətlərindən biri də onun ifrat istilikkeçirmə xassəsinə malik olmasıdır. Onun istilikkeçiriciliyi otaq temperaturunda götürülmüş misin (Cu) istilikkeçirməsindən 200 dəfə, He I istilikkeçirməsindən isə milyon dəfələrlə çoxdur.

$_2He^3$ izotopunu süni yolla hidrogenin ağır izotopu olan tritumun ($_1H^3$) β-parçalanması üsulu ilə almaq olar:

$$_1H^3 \rightarrow {}_2He^3 + e^-$$

Qeyd edək ki, $_1H^3$-ün yarımparçalanma periodu 12,5 ilə bərabərdir. $_1H^3$ izotopunu digər nüvə reaksiyaları vasitəsilə, məsələn Litumun nüvəsini neytronla bombardman etməklə də almaq olar:

$$_3Li^6 + {}_0n^1 \rightarrow {}_1H^3 + {}_2He^4$$

Maye $_2He^3$-dən kondensasiyalı termometrlərin düzəldilməsində istifadə olunur. Belə termometrlərin köməyi ilə 1K-dən aşağı temperaturları ölçmək mümkündür. Çünki, $_2He^3$ mayesi 0K oblastına yaxın temperaturlarda belə donmayıb, maye halında qala bilir.

Heliumun qaz, maye və bərk hallarını xarakterizə edən diaqram şəkil 2-də verilmişdir.




Şəkil 2. Helium I - Helium II keçidi

Şəkildən göründüyü kimi diaqramda təzyiqin (P) temperaturdan (T) asılılığı xarakterizə olunmuşdur. Diaqramda 1-əyrisi heliumun qaz halından maye halına keçməsini, 2-əyrisi λ-nöqtəsini (temperaturu) xarakterizə edir. Yəni He I və He II keçidini göstərir. 3-əyrisi isə yüksək təzyiqdə heliumun bərk halda keçməsini yəni kristallaşmasını müəyyən edir.

Diaqramdan göründüyü kimi bərk-qaz halının tarazlıq əyrisi-hal diaqramı mütləq sıfır (T=0K) nöqtəsindən başlayır. Bu isə o deməkdir ki, üzərinə göstərilən təzyiqin qiymətindən asılı olmayaraq, maddə mütləq sıfır temperaturunda yalnız bərk halda olur. Müəyyən edilmişdir ki, təbiətdə yalnız bir maddə-helium bu qaydaya tabe olur. O, mütləq sıfır temperaturunadək maye halında qalmaqda davam edir. Ona görə də, heliumu bəzən də "ən soyuq maye" adlandırırlar.

Heliumun hal diaqramına nəzər salsaq deyə bilərik:

1. Kristallaşma əyrisi mütləq sıfır temperaturunda təzyiq əyrisini 25 atmosferdə kəsir. Bu isə o deməkdir ki, təzyiqin 25 atmosferdən kiçik qiymətlərində helium maye halında olur. Mütləq sıfırda heliumu bərk hala gətirmək üçün ona 25 atmosferdən böyük təzyiq tətbiq etmək lazımdır.

2. Diaqramdan göründüyü kimi bərk-maye və maye-qaz hal diaqramları, yəni ərimə və mayeləşmə əyriləri bir-biri ilə kəsişmir. Deməli, heliumun 3 aqreqat halı (bərk, maye və qaz) heç zaman birlikdə tarazlıq halında olmur, yəni heliumun üçqat nöqtəsi yoxdur.

3. Maye helium 2,19K-də ikinci növ faza keçidinə uğrayır-helium I helium II-yə çevrilir.

Helium II mütləq sıfır temperaturunda maye halında qalma səbəbi, yalnız kvant mexanikası ilə izah olunduğuna görə, onu "kvant mayesi" də adlandırırlar.

Helium II mayesinin qəribə "sərgüzəştləri" də mövcuddur. İçərisində helium II mayesi olan geniş qaba helium II tökülmüş sınaq borusu yerləşdirsək, görərik ki, bu halda helium II mayesi borunun divarı boyunca yuxarı qalxaraq geniş qaba tökülür və proses hər iki qabda mayelərin səviyyələri bərabərləşənədək davam edir.

Ölçmələr nəticəsində müəyyən edilmişdir ki, şüşə borunun divarı boyunca qalxan maye təbəqəsinin qalınlığı $2 \cdot 10^{-6}$ santimetrdir, yəni təxminən 100 atomdan ibarətdir. Bu proses yalnız temperaturu 2,2K olan nöqtələrə qədər mümkündür. 2,2 Kelvindən böyük olan temperaturlarda helium II mayesi helium I mayesinə çevrildiyindən və helium I adi maye olduğundan, heç bir qeyri-adi hadisə baş vermir.

Məsələ ondadır ki, helium II mayesi digər növ mayelər kimi islatma qabiliyyətinə malikdir, konkret desək, şüşəni isladır. O, həmçinin ifrataxıcı olduğundan, bu iki əlamətin birlikdə mövcudluğu qabın divarı boyunca yuxarıya doğru hərəkət edən nazik maye təbəqəsinin meydana gəlməsinə səbəb olur.

He I və He II mühüm xassələrinin istər nəzəri və istərsə də təcrübi öyrənilməsi nəinki, aşağı temperaturlar fizikasının, eyni zamanda astrofizikanın bu günə qədər öyrənilməmiş məsələlərinin öyrənilməsində mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. Qocayev F.R., Tağıyev E.B. Aşağı temperaturların alınması üsulları. İfratkeçiricilik effekti və onun praktik tətbiq sahələri. NDU, Elmi əsərlər, 2022, №4 (117),S.6-9
2. Кресин В.З. Сверхпроводимость и сверхтекучесть. Москва:1978 г
3. Кикоин А.К., Кикоин И.К. Молекулярная физика. Москва: 1976 г
4. Халатников И.М. В ведение в теорию сверхтекучести. Москва: 1965 г



## SUMMARY

**Farman Gocayev, Billura Hajiyeva**

## LIQUID HELIUM AND ITS MAIN PROPERTIES

| 18. | *Erysimum collinum* (Bieb.) Andrz. | + | | | | |
| 19. | *Erysimum crassipes* Fisch. & C.A. Mey. | | | + | | |
| 20. | *Erysimum cuspidatum* (Bieb.) DC. | | | | + | |
| 21. | *Erysimum gelidum* Bunge | + | | | | |
| 22. | *Erysimum lilacinum* Steinb. | + | + | + | | |
| 23. | *Erysimum leptophyllum* (Bieb.) Andrz. | + | | | | |
| 24. | *Erysimum leucanthemum* (Steph.) B.Fedtsch. | + | | + | | |
| 25. | *Erysimum pulchellum* (Willd.) J.Gay | | | + | | |
| 26. | *Erysimum sisymbrioides* C.A. Mey. | | + | | | |
| 27. | *Erysimum subulatum* J. Gay | + | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 28. | *Lepidium campestre* (L.) R.Br. | | | + | | |
| 29. | *Lepidium perfoliatum* L. | + | + | | | |
| 30. | *Lepidium ruderale* L. | + | | | | |
| 31. | *Lepidium sativum* L. | | | | + | |

Cədvəldəki məlumatlardan göründüyü kimi Kələmkimilər fəsiləsinin çoxsaylı növləri olan cinslərinin dekorativ, yem, dərman, balverən və qida əhəmiyyətli nümayəndələri var. Bu cinslər daha çox dekorativ əhəmiyyətli növlərlə zəngindir (3; s.122-132, 8; s.23-35).

## ƏDƏBİYYAT


1. Aliyeva A. The genus of *Aethıonema* R. Br. Spreadıng ın flora of Nakchivan Autonomous Republic of Azerbaijan // Science of Europe, Praha № 106, 2022, p. 17-19
2. Əsgərov A. Azərbaycanın bitki aləmi. Bakı: 2016, TEAS Press, s.183-198
3. Nəbiyeva F. Brassicaceae Burnett. fəsiləsinin Şahbuz rayonunda yayılmış faydalı bitkiləri, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Xəbərlər, Təbiət və texniki elmlər seriyası, cild 9, № 4, 2013, s.122-132
4. Seyidov M., İbadullayeva S., Qasımov H., Salayeva Z. Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyi, Naxçıvan: 2014, "Əcəmi", s.267-293
5. Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər, II nəşr), Naxçıvan: 2021, s.147-157
6. Плаксина Т.И. Конспект флоры Волго-Уральского региона, Самара: Издательство "Самарский университет", 2001, с.135-144
7. Погорелова Евгения Сергеевна (студент Пермская государственная фармацевтическая академия). Лекарственные растения семейства Капустные, Молодой учёный международный научный журнал, № 1 (105) / 2016, с.69-70
8. Колчанов А.Ф., Колчанов Р.А., Фан Чонг Хуан Семейство Крестоцветные (Crucıferae) во флоре Белгородской области, научные ведомости Серия Естественные науки, № 3 (122), Выпуск 18, 2012, с.23-35


## SUMMARY

**Afag Aliyeva**

## BRASSICACEAE BURNETT IN FLORA OF NAKHCHİVAN AUTONOMOUS REPUBLİC. – DIFFERENT SPECIES AND BENEFICIAL PROPERTIES OF CAULBUM

Article Brassicaceae Burnett spread in the flora of Nakhchivan Autonomous Republic. the genera of the family, which include many species, are discussed. In the local flora, the genera of the family such as Aethionema R.Br.-Pulcugluot, Alyssum L.-Beetroot, Erysimum L.-Isitmaotu, Isatis L.-Rangotu, Lepidium L.-Bozalag are considered numerous genera with 8-13 species. Information about the characteristic species of the mentioned plants for the subendemic and Nakhchivan flora of Azerbaijan is also given here. The useful characteristics of the multispecies breeds of the section are listed in the form of a table.

***Key words**: Cabbage, family, genus, species, plant*

## РЕЗЮМЕ

**Афаг Алиева**

### BRASSICACEAE BURNETT ВО ФЛОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ. РАЗНЫЕ ВИДЫ И ПОЛЕЗНЫЕ СВОЙСТВА КОЛБУМА

Статья Brassicaceae Burnett распространена во флоре Нахчыванской Автономной Республики. обсуждаются роды семейства, включающие многие виды. В местной флоре многочисленными родами с 8-ми считаются такие роды семейства, как Aethionema R.Br.-Pulcugluot, Alyssum L.-Beetroot, Erysimum L.-Isitmaotu, Isatis L.-Rangotu, Lepidium L.-Bozalag. 13 видов. Здесь же приведены сведения о характерных видах упомянутых растений для субэндемической и нахчыванской флоры Азербайджана. Полезные характеристики многовидовых пород раздела приведены в виде таблицы.

***Ключевые слова:*** *Капуста, семейство, род, вид, растение*



***Məqaləni çapa təqdim etdi:*** *biologiya elmləri doktoru, AMEA-nın həqiqi üzvü Tariyel Hüseynəli oğlu Talıbov*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 159-162
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 159-162
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 159-162

**HÜSEYN FEYZULLAYEV**
*hfeyzulla91@gmail.com*
*Əkinçilik Elmi Tədqiqat İnstitutu*

**DOI: 10.30546/155244.2024.2.127.012**

# ƏSAS BECƏRMƏ ÜSULLARININ "QOBUSTAN" YUMŞAQ BUĞDA SORTUNUN DƏN MƏHSULDARLIĞINA VƏ MƏHSULUN STRUKTUR ELEMENTLƏRİNƏ TƏSİRİ

*Sələf, torpaq becərmələri və qidalanma şəraiti fonunda əsas becərmə üsullarının buğda bitkisinin dən məhsuldarlığına və məhsulun struktur elementlərinə təsiri Cəlilabad Bölgə Təcrübə Stansiyasının ərazisində qoyduğumuz 3 amilli (2×3×3) tarla təcrübəsində apardığımız tədqiqatlarda öyrənilmiş və alınan nəticələr məqalədə öz əksini tapmışdır. Tədqiqatlar 2019-2021-ci vegetasiya illərində aparılmaqla standart metodlardan istifadə olunmuşdur. Belə ki, faktiki məhsuldarlıq təcrübədə hər bir lək üzrə birbaşa kombaynla yığılmış dən məhsulunun kütləsinə görə müəyyən edilmişdir. Məhsulun struktur analizi isə 1m$^2$ sahədən (ləklərin diaqonalı üzrə 4 yerdə uzunluğu 83 sm olan iki nişanlanmış cərgə (0,8 m × 0,3 m × 4 = 1 m$^2$) yığılmış dərz nümunəsində aparılmışdır. Tədqiqatın obyekti "Qobustan" yumşaq buğda sortu olmuşdur.*

*Beləliklə, apardığımız 3 illik tədqiqatın orta nəticəsinə əsasən, demək olar ki, öyrənilən amillərin "Qobustan" yumşaq buğda sortunun dən məhsuldarlığına və məhsulun struktur elementlərinə təsiri vardır və dispersiya analizinə əsasən, bu təsir 0,01 ehtimal səviyyəsində əhəmiyyətlidir. Məhsuldarlıq isə variantdan asılı olaraq dinamik xarakter daşısa da, Dunkan kriteriyasına görə dispersiya analizinin nəticəsindən məlum olmuşdur ki, ən yüksək dən məhsulu noxud sələfindən sonra $N_{60}P_{60}$ + 10 ton peyin fonunda torpağı ağır diskli mala ilə 10-12 sm dərinlikdə 2 dəfə (çarpaz) diskləmədə alınmışdır. Nəticədə tədqiqatın optimal variantında "Qobustan" yumşaq buğda sortunun dən məhsuldarlığı 45,8 s/ha müəyyən edilmişdir.*

***Açar sözlər:*** *Quraq dəmyə, qidalanma şəraiti, torpaq becərməsi, sələflər, struktur göstəricilər, dən məhsuldarlığı*

## Giriş

Payızlıq buğdanın məhsuldarlığı vahid sahədə yerləşən bitkilərin və məhsuldar gövdələrin sayından, dənin kütləsindən və digər struktur elementlərdən asılı olaraq dəyişir. Respublikada aparılan bir çox tədqiqatlarda müəyyən edilmişdir ki, becərmə amillərinin düzgün təyin olunması, sortun bioloji xüsusiyyətləri, becərmə aqrotexnikası və torpaq-iqlim şəraiti məhsulun struktur elementlərinin və eyni zamanda dən məhsuldarlığının artırılmasında mühüm əhəmiyyət kəsb edir (1,2,3,4).

Sələf bitkilərinin düzgün seçilməsi məhsuldarlığın yüksəldilməsində mühüm amillərdəndir. Belə ki, azot fiksasiyası xüsusiyyətinə görə aparılan tədqiqatlarda sələfi paxlalı bitkilər olan taxılların məhsuldarlığında əhəmiyyətli artımlar müşahidə edilmişdir (6). Həmçinin torpaq becərmələrinin düzgün seçilməsi də vacib amillərdəndir. Çünki müxtəlif dərinliklərdə şumlamanın torpağın aqrokimyəvi, su-fiziki xassələrinə mənfi təsirini zəiflətmək, o cümlədən istehsala sərf olunan enerji və əmək xərclərini azaltmaq, müasir kənd təsərrüfatının mühüm məsələlərindən biridir (7).

Payızlıq buğdadan yüksək məhsul alınması gübrələrdən istifadə etmədən mümkün deyildir. Ekoloji kənd təsərrüfatında üzvi gübrələrdən istifadə isə üzvi əkinçilik sistemini inteqrasiya olunmuş istehsal sisteminin bir hissəsinə çevirir (5). Ümumiyyətlə, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul alınması üçün bölgəyə uyğun düzgün becərmə üsullarının işlənib təsərrüfatlara tətbiq edilməsi vacib məsələlərdəndir.

**Material və metodika**

Cənubi Muğanın quraq dəmyə şəraitində Cəlilabad BTS-in ərazisində qoyduğumuz tarla təcrübəsində məhsuldarlığa və məhsulun struktur elementlərinə təsirini öyrəndiyimiz amillər - Sələflər: a) payızlıq buğda; b) noxud; Torpaq becərmələri: a) ənənəvi becərmə (20-22 sm dərinlikdə şum + diskləmə + malalama); b) ağır diskli mala ilə 10-12 sm dərinlikdə 2 dəfə diskləmə; c) ağır diskli mala ilə 10-12 sm dərinlikdə 1 dəfə diskləmə; Qidalanma şəraiti:

a) gübrəsiz;

b) $N_{60}P_{60}$ + 10 ton peyin;

c) $N_{90}P_{60}K_{45}$.

Təcrübə 4 təkrarda qoyulmuşdur. Hər bir becərmə variantında 3 gübrə norması öyrənilmişdir. Tədqiqatın obyekti isə Qobustan yumşaq buğda sortu olmuşdur.

**Alınan nəticələr və onların müzakirəsi**

Buğda bitkisindən yüksək və keyfiyyətli dən məhsulunun alınmasında səmərəli becərmə üsulunun tətbiqi mühüm əhəmiyyət kəsb edir. Becərmənin əhəmiyyəti apardığımız 3 illik təcrübədə də öz əksini tapmışdır. Belə ki, məhsulun struktur göstəriciləri və dən məhsuldarlığı variantdan asılı olaraq müxtəlif intervallarda dəyişmişdir. Tədqiqatın 2019-2021-ci vegetasiya illəri üzrə alınan nəticələrinin 3 illik orta qiyməti isə cədvəl 1-də verilmişdir. Cədvələ əsasən, demək olar ki, məhsulun struktur göstəriciləri buğda sələfinə nisbətən noxud sələfində daha yüksək olmuşdur. Buğda sələfindən sonra gübrəsiz variantda tətbiq edilən torpaq becərmələrində əsas struktur göstəricilərdən olan sünbülün uzunluğu, 1 $m^2$-də məhsuldar gövdələrin sayı, sünbüldə dənin sayı, bir sünbüldən çıxan dənin kütləsi və 1000 dənin kütləsi uyğun olaraq 6,1-6,6 sm; 261-294 ədəd; 29-33 ədəd; 1,03-1,21q və 31,4-34,1q arasında dəyişdiyi halda bu göstəricilər noxud sələfindən sonra uyğun olaraq 6,4-7,0 sm; 283-314 ədəd; 31-35 ədəd; 1,07-1,25q və 32,9-35,5q müəyyən edilmişdir. Dən məhsuldarlığı isə buğda sələfindən sonra becərmələr üzrə 13,8-43,1 s/ha intervalında dəyişdiyi halda noxud sələfindən sonra məhsuldarlıq 15,1-45,8 s/ha təşkil etmişdir.

*Cədvəl 1. Əsas becərmə üsullarının Qobustan sortunda dən məhsuldarlığına və məhsulun struktur elementlərinə təsiri (2019-2021-ci illər üzrə orta)*

| Torpaq becərmələri | Qidalanma şəraiti | Sünbülün uzunluğu, sm | | 1 $m^2$ – də məhsuldar gövdələrin sayı, ədəd | | Sünbüldə dənin sayı, ədəd | | Bir sünbüldən çıxan dənin kütləsi, q | | 1000 dənin kütləsi, q | | Faktiki dən məhsuldarlığı, s/ha | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | $S_b$ | $S_n$ | $S_b$ | $S_n$ | $S_b$ | $S_n$ | $S_b$ | $S_n$ | $S_b$ | $S_n$ | $S_b$ | $S_n$ |
| $T_1$ | $C_1$ | 6,1 | 6,4 | 261 | 283 | 29 | 31 | 1,03 | 1,07 | 31,4 | 32,9 | 13,8 | 15,1 |
| | $C_2$ | 7,8 | 8,3 | 397 | 416 | 41 | 44 | 1,49 | 1,55 | 44,8 | 46,1 | 38,5 | 41,1 |
| | $C_3$ | 7,4 | 7,8 | 390 | 401 | 39 | 41 | 1,42 | 1,47 | 41,2 | 42,6 | 36,4 | 38,2 |
| $T_2$ | $C_1$ | 6,6 | 7,0 | 294 | 314 | 33 | 35 | 1,21 | 1,25 | 34,1 | 35,5 | 17,3 | 19,1 |
| | $C_2$ | 8,7 | 9,3 | 418 | 442 | 46 | 50 | 1,66 | 1,69 | 47,3 | 48,5 | 43,1 | 45,8 |
| | $C_3$ | 8,1 | 8,6 | 405 | 423 | 44 | 46 | 1,57 | 1,62 | 43,8 | 45,4 | 41,5 | 43,8 |
| $T_3$ | $C_1$ | 6,3 | 6,7 | 281 | 301 | 31 | 33 | 1,14 | 1,19 | 33,6 | 34,0 | 15,5 | 17,6 |
| | $C_2$ | 8,2 | 8,7 | 407 | 428 | 45 | 48 | 1,58 | 1,62 | 46,4 | 47,9 | 40,8 | 43,3 |
| | $C_3$ | 7,7 | 8,1 | 399 | 415 | 42 | 44 | 1,47 | 1,52 | 42,9 | 44,7 | 38,3 | 40,9 |

***Qeyd:*** *$T_1$- Ənənəvi becərmə (20-22 sm dərinlikdə şum+diskləmə+malalama); $T_2$- Ağır diskli mala ilə 10-12 sm dərinlikdə 2 dəfə diskləmə; $T_3$-Ağır diskli mala ilə 10-12 sm dərinlikdə 1 dəfə diskləmə; $C_1$- Gübrəsiz; $C_2$- $N_{60}P_{60}$ + 10t peyin; $C_3$- $N_{90}P_{60}K_{40}$; $S_b$- sələf buğda; $S_n$-sələf noxud.*

Amillərin məhsuldarlığa təsirinin üç amilli dispersiya analizi aparılmış və alınan nəticələr cədvəl 2-də verilmişdir. Dispersiya analizindən də məlum olmuşdur ki, amillərin dən məhsuldarlığına təsiri vardır və bu təsir 0,01 ehtimal səviyyəsində əhəmiyyətlidir.

Dunkan kriteriyasına görə dispersiya analizi isə öyrəndiyimiz amillər arasında optimal variantı müəyyən etməyə imkan verir ki, bu kriteriyaya əsasən, ən yüksək nəticələr noxud sələfində tətbiq edilən becərmələrdə alınmışdır. Qidalanma şəraiti və torpaq becərmələrində isə optimal variant uyğun olaraq $N_{60}P_{60}$ + 10t peyin və ağır diskli mala ilə 10-12 sm dərinlikdə 2 dəfə diskləmə olmuşdur.

*Cədvəl 2. Sələf, torpaq becərmələri və qidalanma şəraitinin "Qobustan" yumşaq buğda sortunun məhsuldarlığına təsirinin üç amilli dispersiya analizinin nəticələri*

| ***Amillər*** | ***Sərbəstlik dərəcəsi*** | ***Kvadratlar cəmi*** | ***Orta kvadrat*** | ***F*** |
|---|---|---|---|---|
| Sələf | 1 | 86.681 | 86.681 | 35.605** |
| Torpaq becərməsi | 2 | 252.333 | 126.167 | 51.824** |
| Qidalanma şəraiti | 2 | 9728.781 | 4864.390 | 1.998E3** |
| **Qeyd:** ns: təsir yoxdur; **: 0.01 ehtimal səviyyəsində əhəmiyyətli (əhəmiyyətli təsir: $F \geq F_{kritik}$) | | | | |

**Nəticə**

Beləliklə, tədqiqatın 3 illik orta nəticəsindən məlum olmuşdur ki, ən yüksək dən məhsulu və məhsulun struktur göstəriciləri noxud sələfindən sonra $N_{60}P_{60}$ + 10t peyin fonunda tətbiq edilən ağır diskli mala ilə 10-12 sm dərinlikdə 2 dəfə (çarpaz) diskləmə variantında alınmışdır ki, bu varianta dən məhsuldarlığı uyğun olaraq 45,8 s/ha təşkil etmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov Ş.H., Məmmədova P.M., İbadov V.F. Səpin və gübrə normalarının payızlıq buğda sortlarının struktur göstəricilərinə təsiri. // Bakı: 2019, Əkinçilik ET İnstitutunun elmi əsərlər məcmuəsi, c.1(30), № 2, s.77-81
2. Orucov O.B., Rzayev M.Y. Dağlıq Şirvanın dəyişən yağmurlu dəmyə şəraitində kövşənli sələflərdən sonra torpaq becərmələrinin və qidalanma şəraitinin payızlıq buğdanın struktur elementləri və dən məhsuldarlığına təsiri. // Bakı: 2018, Azərbaycan Aqrar Elmi jurnalı, № 1, s.39-41
3. Rzayev M.Y. Az yağmurlu dəmyə şəraitində payızlıq buğda üçün torpağın səthi becərilməsi. Bakı: 1980, Kənd təsərrüfatı elmi xəbərləri jurnalı, № 6, s.16-18
4. Rzayev M.Y. Quraq dəmyə şəraitində bitkili heriyin becərilməsi. Bakı: 1979, Kənd təsərrüfatı elmi xəbərləri jurnalı, № 5, s.14-16
5. Abbas G. Effect of Organic Manures with Recommended Dose of NPK on the Performance of Wheat (Triticum aestivum L.) Abbas G., Khattak Z., Mir A., Ishaque M.(et al.) // Kenya: J.Anim. Plant. Sci.- 2012, v. 22(3), p.683-687
6. Agnieszka F. The long-term effect of legumes as forecrops on the productivity of rotation (winter rape-winter wheat-winter wheat) with nitrogen fertilization./ Agnieszka F., Grazyna S., Katarzyna P., Jerzy S. (et al.). *Czech Republic*: Plant Soil and Environment. 2019, v. 65(3), p.138-144
7. Данилов А.Н., Летучий А.В., Шагиев Б.З. Влияние удобрений и обработки почвы на элементы ее плодородия и урожайность яровой пшеницы на Черноземах Поволжья. Пенза: Нива Поволжья, 2015. №3 (36), с.46-53

## SUMMARY

**Huseyn Feyzullayev**

## THE EFFECT OF THE MAIN CULTIVATION METHODS ON THE PRODUCTIVITY AND STRUCTURAL ELEMENTS OF THE "GOBUSTAN" COMMON WHEAT VARIETY

The effect of the main cultivation methods on the grain yield of the wheat plant and the structural elements of the crop against the background of the predecessor, soil cultivation and nutritional conditions was studied in the research conducted in the 3-factor (2× 3× 3) field experiment that we set up in the territory of Jalilabad Regional Experimental Station, and the obtained results were reflected in the article. The research was conducted in the 2019-2021 vegetation years and standard methods were used. Thus, the actual productivity was determined in the experiment according to the mass of grain harvested directly by the combine on each spot. The structural analysis of the product was carried out on a seam sample collected from a 1m2 area (two marked rows of 83 cm length in 4 places on the diagonal of the spots (0.8 m × 0.3 m × 4 = 1 m2)). The object of the research was "Gobustan" soft wheat variety.

Thus, based on the average result of our 3-year research, it can be said that the studied factors have an effect on the grain yield of Gobustan soft wheat variety and the structural elements of the product, and according to the variance analysis, this effect is significant at the 0.01 probability level. Although productivity is dynamic depending on the variant, according to Duncan's criterion, it is known from the results of dispersion analysis that the highest grain yield was obtained after the predecessor of peas, $N_{60}P_{60}$ + 10 tons of manure, when the soil was disked 10-12 cm deep with a heavy disc trowel 2 times (cross). As a result, in the optimal version of the study, the grain yield of Gobustan soft wheat variety was determined to be 45.8 s/ha.


***Key words:*** *Arid not irrigated, nutrition condition, land cultivation, predecessors, structural parameters, grain yield*


## РЕЗЮМЕ

**Гусейн Файзуллаев**

## ВЛИЯНИЕ ОСНОВНЫХ СПОСОБОВ ВОЗДЕЛЫВАНИЯ НА ПРОДУКТИВНОСТЬ И СТРУКТУРНЫЕ ЭЛЕМЕНТЫ СОРТА МЯКОЙ ПШЕНИЦЫ "ГОБУСТАН"

Влияние основных способов возделывания на урожайность зерна растения пшеницы и структурные элементы урожая на фоне предшественника, обработки почвы и условий питания изучали в исследованиях, проведенных в 3-факторном (2×3× 3) полевой эксперимент, который мы провели на территории Джалилабадской региональной опытной станции, полученные результаты отражены в статье. Исследования проводились в 2019-2021 вегетационные годы по стандартным методикам. Таким образом, фактическая урожайность в опыте определялась по массе зерна, убранного непосредственно комбайном на каждой точке. Структурный анализ изделия проводился на образце шва, отобранном с площади 1 м2 (два отмеченных ряда длиной 83 см в 4 местах по диагонали пятен (0,8 м×0,3 м×4 = 1 м2)). Объектом исследования был сорт мягкой пшеницы Гобустан.

Таким образом, по среднему результату наших 3-летних исследований можно сказать, что изученные факторы оказывают влияние на урожайность зерна сорта мягкой пшеницы Гобустан и структурные элементы продукта, а по данным дисперсионного анализа это эффект значим на уровне вероятности 0,01. Хотя урожайность динамична в зависимости от варианта, по критерию Дункана по результатам дисперсионного анализа известно, что наибольшая урожайность зерна получена после предшественника гороха $N_{60}P_{60}$ + 10 т навоза при дисковании почвы 10- На глубину 12 см тяжелым дисковым шпателем 2 раза (крест). В результате в оптимальном варианте исследования урожайность зерна сорта мягкой пшеницы Гобустан определена на уровне 45,8 ц/га.


***Ключевые слова:*** *Засушливая богара, условия питания, обработка почвы, предшественники, структурные показатели, урожайность зерна*

***Məqaləni çapa təqdim etdi:*** *biologiya elmləri doktoru, AMEA-nın həqiqi üzvü Tariyel Talıbov*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 163-168
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 163-168
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 163-168

**ŞƏFA XASAYEVA**
*shafa_xasayeva@mail.ru*
*ARETN Zoologiya İnstitutu*

**DOI: 10.30546/155244.2024.2.127.023**

# SİYƏZƏN RAYONUNDA QEYD OLUNAN BƏZİ HÖRÜMÇƏK NÖVLƏRİNİN (ARACHNIDA, ARANEAE) QİDA SPEKTRİ

*Məqalədə 2021-2023-cü illərdə Siyəzən rayonu ərazisində aparılmış tədqiqatlar zamanı qida spektri öyrənilmiş bəzi hörümçək növləri (Thanatus vulgaris Simon, 1870, Cyrba algerina (Lucas, 1846), Heliophanus dunini Rakov et Logunov, 1997, Philaeus chrysops (Poda, 1761), Runcinia grammica (C.L.Koch, 1837) haqqında məlumatlar qeyd olunmuşdur.*

***Açar sözlər:*** *Arachnida, Araneae, Azərbaycan, Siyəzən rayonu, hörümçək, qida spektri*

## Giriş

Siyəzən rayonu Azərbaycanın şimalında, Böyük Qafqazın şimal-qərbində, Böyük Qafqaz dağları ilə Xəzər sahilində olan Samur-Dəvəçi ovalığında yerləşir. Landşaftı seyrək meşələrdən və kolluqlardan ibarətdir. Ovalığın cənub-şərqində yarımsəhra landşaftı, dağətəyi hissələrdə isə boz-çəmən, şabalıdı-qəhvəyi torpaqlar yerləşməklə meşə-çəmən landşaftı xarakterikdir. Altıağac Milli Parkının bir hissəsi bu əraziyə düşür (1, 2).

## Material və metodlar

Müşahidələr Siyəzən rayonu ərazisində 2021-2023-cü illərdə yaz (aprel ayının sonu-mayın əvvəli), yay (iyul ayının sonu-avqustun əvvəli) və payız (sentyabr ayının sonu) ekspedisiyaları zamanı aparılmışdır. Gündüz müşahidələri (saat $10^{00}$-dan $19^{00}$-a qədər) hər fəsildə 5 gün olmaqla, gecə müşahidələri (saat $00^{00}$-dan $06^{00}$-a qədər) isə hər fəsildə 3 gün olmaqla hər gün aparılmışdır. Tədqiqatlar zamanı rast gəlinən növlərin təyin olunması və ölçülməsi üçün içərisində 75%-li etil spirti olan flakonlara yerləşdirilərək laboratoriyaya gətirilmişdir.

## Nəticələr və onların müzakirəsi

Tədqiqat ərazisində 5 növ hörümçəyin qidalanma spektri öyrənilmişdir. Aparılan müşahidələrdən aşağıdakı nəticələr əldə olunub:

**Fəsilə: Philodromidae Thorell, 1870**

***Thanatus vulgaris*** **Simon, 1870**

Azərbaycanda Abşeron yarımadasında (13, 21), Muğan düzündə (15), Lənkəran təbii vilayətində (9), Şərur, Şahbuz (23), Qobustan, Qəbələ, Salyan (21), Şamaxı (10), Xızı (11), Ağstafa (4), Goranboy (6) və Siyəzən rayonlarında qeyd olunub.

Siyəzən rayonunun Qalaaltı kəndində tədqiqatlarımız zamanı bu növə çəmənliklərdə, quru ot və ya yarpaqların üzərində rast gəlinib. Yetkin fərdlərin ən çox rast gəlindiyi dövr may, iyun aylarıdır.

Müşahidələr zamanı 67 fərdə (19 erkək-28,3%, 31 dişi-46,2%, 17 yuvenil-25,3%) baxılıb. 10 erkək (52,6%) və 25 dişidə (80,6%) qida obyektləri var idi. Şikarların tədqiqi zamanı buğumayaqlıların 9 dəstəsinə (Araneae, Acari, Diptera, Homoptera, Hymenoptera, Orthoptera, Lepidoptera, Psocoptera, Collembola) aid 35 fərd şikar müəyyən olunmuşdur (Cədvəl 1.).

*Cədvəl 1. Thanatus vulgaris növünün qida tərkibi*

| **Qida tərkibi** | **Şikarların sayı** | **%** |
|---|---|---|
| Acari | 5 | 14,2 |
| Araneae | 2 | 5,7 |
| Brachycera | 3 | 8,5 |
| Nematocera | 2 | 5,7 |
| Aphidia | 3 | 8,5 |
| Cicadina | 4 | 11,4 |
| Coccinea | 1 | 2,8 |
| Hemiptera | 1 | 2,8 |
| Hymenoptera parasitica | 2 | 5,7 |
| Orthoptera | 4 | 11,4 |
| Lepidoptera | 2 | 5,7 |
| Collembola | 1 | 2,8 |
| Psocoptera | 1 | 2,8 |
| Sürfə (Coleoptera) | 4 | 11,4 |
| **Cəmi** | **35** | **100** |

***Cyrba algerina* (Lucas, 1846)**

Azərbaycanda Abşeron yarımadasında (13, 20, 22), Şəki-Zaqatala bölgəsində (14), Lənkəran təbii vilayətində (9), Göygöl, Neftçala (12), Siyəzən (22), Ağdaş, Salyan, Xızı, Şərur (23), Qobustan (12, 20), Ağstafa (4), Goranboy (6) rayonlarında və Qarayazı Dövlət Təbiət Qoruğunda (19) qeyd olunub.

Yetkin fərdlərə tədqiqat ərazisində ilin müxtəlif aylarında rast gəlmişik. *C.algerina* yarımsəhra və dağlıq ərazilərdə daşların altında, çəmənliklərdə yaşayır.

Müşahidələr zamanı 95 fərdə (22 erkək-23,1%, 50 dişi-52,6%, 23 yuvenil-24,2) baxılıb. 16 erkək (73%) və 34 dişidə (68%) qida obyektləri var idi. Şikarların tədqiqi zamanı buğumayaqlıların 9 dəstəsinə (Araneae, *Colembola, Diptera, Heteroptera, Homoptera, Hymenoptera, Lepidoptera, Opiliones, Pseudoscorpiones*) aid 50 fərd müəyyən olunub (Cədvəl 2.).

*Cədvəl 2.Cyrba algerina növünün qida tərkibi*

| **Qida tərkibi** | **Şikarların sayı** | **%** |
|---|---|---|
| Araneae | 19 | 38 |
| Colembola | 4 | 8 |
| Diptera | 6 | 12 |
| Heteroptera | 4 | 8 |
| Homoptera | 5 | 10 |
| Hymenoptera | 4 | 8 |
| Lepidoptera | 5 | 10 |
| Opiliones | 2 | 4 |
| Pseudoscorpiones | 1 | 2 |
| **Cəmi** | **50** | **100** |

***Heliophanus dunini* Rakov et Logunov, 1997**

Azərbaycanda Abşeron yarımadasında (12), Muğan düzündə (15), Lerik, Salyan (24) və Qobustan (20, 8) rayonlarında qeyd olunub.

Növün yetkin fərdlərinə Siyəzən rayonu ərazisində ot bitkilərinin arasında rast gəlmişik.

Hortobiont növ olduğuna görə ona, əsasən, ot örtüyündə, qısaboylu ağac və kolların yarpaq və budaqlarında rast gəlinir.

Müşahidələr zamanı 71 fərdə (22 erkək-31%, 34 dişi-48%, 15 yuvenil-21) baxılıb. 11 erkək (50%) və 29 dişidə (85%) qida obyektləri var idi. Onlardan 5-i Insecta sinfinə (Diptera, Lepidoptera, Hymenoptera, Hemiptera, Homoptera), biri isə Arachnida sinfinə (Araneae) aiddir (Cədvəl 3.)

*Cədvəl 3. Heliophanus dunini növünün qida tərkibi*

| Qida tərkibi | Şikarların sayı | % |
|---|---|---|
| Araneae | 15 | 37,5 |
| Brachycera | 7 | 17,5 |
| Lepidoptera | 6 | 15 |
| Hymenoptera parasitica | 2 | 5 |
| Hemiptera | 4 | 10 |
| Formicidae apterous | 1 | 2,5 |
| Aphidina | 2 | 5 |
| Cicadina | 3 | 7,5 |
| **Cəmi** | **40** | **100** |

***Philaeus chrysops* (Poda, 1761)**

Azərbaycanda Abşeron yarımadasında (13, 20, 22), Şəki-Zaqatala bölgəsində (14), Lənkəran Təbii Vilayətində (10), Göygöl, Neftçala (12), Göygöl Milli Parkında (18), İsmayıllı, Şamaxı, Xaçmaz, Lerik, Şuşa, Balakən, Qax, Ağdaş (20, 22), Şahbuz (23), Qobustan (8, 16), Goranboy (6), Gədəbəy (7), Ağstafa (3), Siyəzən rayonlarında və Qarayazı Dövlət Təbiət Qoruğunda (19) qeyd olunub.

P.chrysops tədqiqatlarımız zamanı Siyəzən rayonunda və Qalaaltı kəndində yaz, yay, payız və qış fəsillərində rast gəlinib. Yetkin fərdlər daşlı yerlərdə, divarlarda, xüsusilə də binaların xarici divarlarında, ağac və kollarda, otların arasında yaşayır.

Müşahidələr zamanı 103 fərdə (26 erkək-25,2%, 68 dişi-66%, 9 yuvenil-8,7) baxılıb. 19 erkək (73%) və 55 dişidə (80%) qida obyektləri var idi. Şikarların tədqiqi zamanı 74 fərd qida obyekti müəyyən olunmuşdur (Cədvəl 4).

*Cədvəl 4. Philaeus chrysops növünün qida tərkibi*

| Qida tərkibi | Şikarların sayı | % |
|---|---|---|
| Araneae | 14 | 18,9 |
| Hemiptera | 9 | 12,1 |
| Homoptera | 8 | 10,8 |
| Hymenoptera | 6 | 8,1 |
| Coleoptera | 7 | 9,4 |
| Diptera | 10 | 13,5 |
| Lepidoptera | 5 | 6,7 |
| Orthoptera | 2 | 2,7 |
| Sürfə (Coleoptera) | 6 | 8,1 |
| Opiliones | 4 | 5,4 |
| Acari | 3 | 4 |
| **Cəmi** | **74** | **100** |

***Runcinia grammica* (C.L.Koch, 1837)**

Azərbaycanda Abşeron yarımadasında (13), Şəki-Zaqatala bölgəsində (14), Muğan düzündə (15), Lənkəran təbii vilayətində (9), Göygöl (17), Şamaxı (10), Qobustan (8, 16), Xızı (11), Ağstafa (5) və Goranboy (6) rayonlarında qeyd olunub.

Tədqiqat zamanı yetkin və yuvenil fərdlərə Qalaaltı kəndində may ayında rast gəlinib.

Müşahidələr zamanı 41 fərdə (11 erkək-27%, 30 dişi-73%) baxılıb. 8 erkək (73%) və 26 dişidə (87%) qida obyektləri var idi. Şikarların tədqiqi zamanı buğumayaqlıların 4 dəstəsinə (Araneae, Diptera, Lepidoptera, Hymenoptera) aid 34 fərd qida obyekti müəyyən olunmuşdur (Cədvəl 5.).

*Cədvəl 5. Runcinia grammica növünün qida tərkibi*

| Qida tərkibi | Şikarların sayı | % |
|---|---|---|
| Araneae | 11 | 32,3 |
| Lepidoptera | 6 | 17,6 |
| Hymenoptera aculeata | 4 | 11,4 |
| Hymenoptera parasitica | 3 | 8,8 |
| Formicidae apterous | 10 | 29,4 |
| **Cəmi** | **34** | **100** |

**Yekun nəticə**

Apardığımız tədqiqatların nəticələrinin təhlili zamanı məlum oldu ki, qida xüsusiyyətlərini öyrəndiyimiz 5 növün hər birinin qidasının əsas hissəsini Araneae dəstəsinin nümayəndələri təşkil etsə də, onlar həm də buğumayaqlıların digər siniflərinin nümayəndələri ilə də qidalanırlar. Həmçinin hər bir növün öz qidasını ovlama üsulu fərqlidir. Belə ki, yarımsəhra və dağlıq ərazilərdə daşların altında, çəmənliklərdə yaşayan *Cyrba algerina* növü tor quran hörümçəkləri xüsusi metodla ovlayır. O, ovlamaq istədiyi hörümçəyin toruna daxil olub özünü onun qurbanı kimi təqlid edir və bu zaman həm də sahibin xəbərdaredici siqnal xəttini titrədir. Bundan sonra o, sahibə hücum edir.

Hoppanan hörümçəklərdən ən böyüyü hesab olunan *Philaeus chrysops* (dişi fərd 13 mm, erkək isə 10 mm) əksər hoppanan hörümçəklər kimi gecələmək üçün hər gün yeni yuva qurmur. O, uzun müddət eyni yuvadan istifadə edir və çox vaxt öz yuvasının ətrafında olur. Ancaq ovunu gördükdə yuvadan uzaqlaşır və ona hücum edir.

*Runcinia grammica* çiçəkli bitkilərin, otların, ağac və kolların üzərində yaşayır. Tor toxumur, qidasını yer səthində aktiv gəzərək ovlayır. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, bu növün erkək fərdləri özlərindən kiçik buğumayaqlıları tutmağa üstünlük versələr də, digər fərdlər, əsasən, böyük ölçüdə olanları ovlayırlar.

*Thanatus vulgaris*, *Cyrba algerina* və *Heliophanus dunini* növlərinin qidasını, əsasən, hörümçəklər təşkil etdiyinə görə onları spesifik araneofaq hesab etmək olar. *Runcinia grammica* polifaqdır. Həşəratların *Diptera, Hymenoptera, Lepidoptera* dəstələrinin nümayəndələri ilə, həmçinin çiçəklərdə yaşayan Thomisidlərlə qidalanır. *Philaeus chrysops* növünün qidasının tərkibi isə yaşadığı yerdən asılıdır. Məsələn, divar və hasarlarda yaşayan *P.chrysops,* əsasən, ikiqanadlılarla (*Diptera*), yer səthində yaşayanlar isə müxtəlif buğumayaqlılarla qidalanır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının coğrafiyası. Fiziki coğrafiya: (3 cilddə). Bakı: 2014, c.1. s.529
2. Məmmədov Q.Ş. Azərbaycan ekoturizm potensialı: (2 cilddə) / Məmmədov Q., Yusifov E.F., Xəlilov M. və b. Bakı: 2012, “Şərq-Qərb”, c.2. s.419
3. Xasayeva Ş.İ. Gəncə-Qazax bölgəsinin Salticidae (Araneae, Salticidae) hörümçəkləri, Bakı: Zoologiya İnstitutunun əsərləri, 2016. c. 34, № 2, s.111-119
4. Xasayeva Ş.İ., Hüseynov E.F. Gəncə-Qazax bölgəsinin hörümçək (Arachnida, Araneae) faunasının yeni növləri // - Zoologiya İnstitutunun Əsərləri. c. 33, Bakı: 2015, № 1, s.50-54
5. Xasayeva Ş.İ., Hüseynov E.F. Ağstafa rayonu ərazisində hörümçəklərin (Arachnida, Araneae) öyrənilməsinə dair // AMEA-nın Xəbərləri, Biologiya və Tibb elmləri seriyası. Bakı: 2015, c. 70, № 2, s.68-74
6. Xasayeva Ş.İ., Hüseynov E.F. Goranboy rayonu ərazisində hörümçəklərin (Arachnida, Araneae) öyrənilməsinə dair // - AMEA-nın Xəbərləri, Biologiya və Tibb elmləri seriyası, Bakı:2016, c.

71, № 2, s.85-90

7. Xasayeva Ş.İ., Məhərrəmov M.M. Gədəbəy rayonu ərazisində hörümçəklərin (Arachnida, Araneae) öyrənilməsinə dair // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Təbiət elmləri və tibb seriyası. Naxçıvan: 2017, c. 84, № 3, s.114-119
8. Алиева Т.В. К изучению фауны пауков (Arachnida: Aranei) Гобустанского заповедника Азербайджана // - Кавказский Энтомологический Бюллетень, - Ростов-на-Дону: 2010. т.6, № 2, с.133-142
9. Гусейнов Э.Ф. Пауки Ленкоранской природной зоны и Апшеронского полуострова Азербайджана: Автореферат диссертации доктора философии по биологии. Баку: 1999. с29
10. Гусейнов Э.Ф., Алиева Т.В. Фауна пауков (Arachnida: Araneae) Пиркулинского заповедника Азербайджана // - Институт Зоологии НАН Азербайджана, Баку: 2008. с.281-287
11. Гусейнов Э.Ф., Хасаева, Ш.И. К изучению фауны пауков (Arachnida, Araneae) Алтыагачского национального парка // - Институт Зоологии НАН Азербайджана, - Баку: 2013, т. 31, № 2, с.205-211
12. Дунин П.М. Материалы по фауне пауков сем. Salticidae Азербайджана // Науч.тр. Азерб.ун-та.,1979 а, Сер.биол. н., № 1. С. 35-40
13. Дунин П.М. Фауна и экология пауков (Aranei) Апшеронского полуострова (Азербайджанская ССР) // - Пермь: Фауна и экол. паукообразных, 1984. с.45-60
14. Дунин П.М. Фауна и высотное распределение пауков (Arachnida, Aranei) Азербайджанской части южного макросклона Большого Кавказа // Москва: 1989. Фауна и экология пауков и скорпионов, Арахнол. сб.. с.31-39
15. Дунин П.М., Мамедов А.А. Пауки хлопковых полей юго-восточной части Азербайджана // Москва: 1992. Бюллетень Московского общества испытателей природы, Отдел биологический, - т. 97, № 6, с.53-61
16. Нуруева Т.В., Гусейнов Э.Ф. К изучению фауны пауков прибрежной зоны Каспийского моря в пределах Гобустана // Zoologiya İnstitutunun əsərləri, Bakı: 2011. т.29, с 448-455
17. Харитонов Д.Е. Дополнение к каталогу русских пауков // Учение записки Пермского Государственного университета, Перм:1936. т. 2, № 1, с.167-225
18. Хасаева Ш.И. К изучению фауны пауков (Arachnida, Araneae) Гёй-Гёльского Государственного Природного заповедника // Материалы Международной научной конференции “Каспийское море: прошлое, настоящее, будущее”, Махачкала: 2014, 26-28 октября, с.203-205
19. Khasayeva Sh. New species of spiders (Arachnida, Araneae) of Gyanja-Gazakh region // Proccedings of young scientists, Baku:2016. № 14, p.141-145
20. Logunov D., Guseynov E. Faunistic review of the jumping spiders of Azerbaijan (Aranei, Salticidae), with additional faunistic records from neighbouring Caucasian countries // Arthropoda Selecta, 2001. v.10, № 3, p.243-260
21. Logunov D. A faunistic review of the spider family Philodromidae (Aranei) of Azerbaijan / D.Logunov, E.Huseynov // Arthropoda Selecta, 2008. v.17, p.117-131
22. Logunov D., Rakov S. Miscellaneous notes on Middle Asian jumping spiders (Aranei: Salticidae) // Arthropoda Selecta, 1998. v.7, p.117-144
23. Marusik Y., Guseinov E., Aliyev H. Spiders (Arachnida: Aranei) of Azerbaijan. 4. Fauna of Naxcivan // Arthropoda Selecta, 2004. v.13, p.135-149
24. Rakov S., Logunov D. A critical review of the genus *Heliophanus* C. L. Koch, 1833, of Middle Asia and the Caucasus (Aranei Salticidae) // Arthropoda Selecta, 1997 a. v. 5, p.67-104

**SUMMARY**

**Shafa Khasayeva**

**FOOD SPECTRUM OF SOME SPECIES OF SPIDERS (ARACHNIDA, ARANEAE) RECORDED IN THE SIAZAN DISTRICT (ARACHNIDA, ARANEAE)**

The article provides information about the nutritional spectrum of some species of spiders (*Thanatus vulgaris* Simon, 1*870, Cyrba algerina (Lucas, 1846), Heliophanus dunini Rakov et Logunov, 1997,* Philaeus chrysops (Poda, 1761), *Runcinia grammica* (C.L. Koch, 1837) studied as a result of research conducted in 2021-2023 in the Siyazan district.

***Key words*: *Aranei*, *Azerbaijan*, *Siyazan district*, *spider*, *food spectrum***

**РЕЗЮМЕ**

**Шафа Хасаева**

**СПЕКТР ПИТАНИЯ ОТМЕЧЕННЫХ В СИАЗАНЬСКОМ РАЙОНЕ НЕКОТОРЫХ ВИДОВ ПАУКОВ (ARACHNIDA, ARANEAE)**

В статье приводятся сведения о спектре питания некоторых видов пауков *(Thanatus vulgaris* Simon, 1870, *Cyrba algerina* (Lucas, 1846), *Heliophanus dunini* Rakov et Logunov, 1997, *Philaeus chrysops* (Poda, 1761), *Runcinia grammica* (C.L.Koch, 1837) изученных в результате исследований, проведённых в 2021-2023 гг в Сиазаньском районе.

***Ключевые слова*: *Arachnida*, *Araneae*, *Азербайджан, Сиазаньский район, паук, спектр питания***

---

***Məqaləni çapa təqdim etdi:*** *Biologiya üzrə fəlsəfə doktoru, dosent Mahir Musa oğlu Məhərrəmov*
***Məqalə daxil olmuşdur:*** *20 may 2024-cü il*
***Çapa qəbul edilmişdir:*** *27 may 2024-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 2 (127), 169-180
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 2 (127), 169-180
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 2 (127), 169-180

**AİDƏ ABBASOVA**
*aida_abbasova_2015@mail.ru*
*Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

**DOI: 10.30546/155244.2024.2.127.002**

# GƏNCƏ-DAŞKƏSƏN VƏ QAZAX-TOVUZ İQTİSADİ RAYONLARINDA AQRAR TƏSƏRRÜFATIN İNKİŞAFINDA DÖVLƏT PROQRAMLARININ ROLU

*Məqalədə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında Dövlət Proqramlarının, eləcə də kənd təsərrüfatının ayrı-ayrı sahələrini və istiqamətlərini dəstəkləyən proqramların həyata keçirilməsinin məhsul istehsalının artmasında rolu araşdırılmışdır. Məqsəd aqrar təsərrüfatın inkişafında bu proqramların əhəmiyyətini və dəyişikliklərin təhlilinə əsasən, regionun istehsal potensialını müəyyənləşdirmək olmuşdur.*

*Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları respublikanın əsas kənd təsərrüfatı regionlarıdır. Bu rayonlarda kənd təsərrüfatının kifayət qədər inkişaf etmiş sahələri vardır. Belə ki, rayonlar bəzi kənd təsərrüfatı bitkilərinin: üzüm, kartof, şəkər çuğunduru, günəbaxan, tərəvəz və s. əkildiyi mərkəzlərdir. Ölkə üzrə günəbaxan istehsalının 46,7%-i Gəncə-Daşkəsən iqtisadi rayonunun, kartof istehsalının 50,9%-i, üzüm istehsalının 31,7%-i, tərəvəz istehsalının 20,6%-i, o cümlədən örtülü torpaqlarda tərəvəz istehsalının 36,4%-i, şəkər çuğunduru istehsalının 30,4%-i Qazax-Tovuz iqtisadi rayonunun payına düşür. Bu bitkilər əhalinin gündəlik ərzaq tələbatının ödənilməsində və yeyinti sənayesinin xammalla təminatında xüsusi əhəmiyyət kəsb etməklə, ərzaq təhlükəsizliyində mühüm rol oynayır. Burada kənd təsərrüfatı müəssisələrinin kifayət qədər olmaması bəzi məhsullardan tam yararlanmağa imkan vermir. Onların emalı müəssisələrinin ərazidə yerləşdirilməsi mühüm iqtisadi səmərə verə bilər.*

*Dövlət Proqramlarının icrası aqrar sahədə müsbət nəticələrin əldə olunmasına, məhsuldarlığın və istehsalın yüksəlməsinə şərait yaratmışdır. Regionlarda davamlı inkişafı təmin etmək üçün hazırki Dövlət Proqramında da kənd təsərrüfatının inkişafı prioritet məsələlərdəndir.*

***Açar sözlər:*** *İqtisadi rayon, kənd təsərrüfatı, aqropark, Dövlət Proqramları, bitkiçilik, heyvandarlıq*

## Giriş

Dövlətin iqtisadiyyatında aqrar sahənin inkişafı əhəmiyyətli rol oynayır. Əhalinin ərzaq təminatı və ölkənin ərzaq təhlükəsizliyi, əsasən, aqrar sahənin inkişafı ilə bağlıdır. Bu sahə kənd təsərrüfatı ilə əlaqəli sənaye sahələrinin inkişafında, əhalinin ərzaqla davamlı təminatı və məşğulluğunda mühüm əhəmiyyətə malikdir. Hazırda, kənd təsərrüfatının inkişafı və ixrac potensialının artırılması əsas məsələlərdən biridir. Bu baxımdan, bitkiçilik sahələrinin səmərəli ərazi təşkili, onların bazar tələbatlarına cavab verə biləcək keyfiyyətdə olması, ixrac imkanları və bu sahədə olan problemlərin araşdırılması mühüm iqtisadi-coğrafi əhəmiyyət kəsb edir.

Son zamanlarda kənd təsərrüfatı sahəsində aparılan davamlı islahatlar, dövlət proqramlarının icrası regionlarda bitkiçilik sahələrinin inkişafına müsbət təsir göstərmiş, fermerlərin bu sahəyə marağını artırmışdır. Müxtəlif bitkiçilik sahələrinin stimullaşdırılması istiqamətində bir sıra işlər görülmüş, subsidiyalar verilmişdir.

Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonunun əlverişli təbii şəraiti, məhsuldar torpaq ehtiyatları və əhalinin kənd təsərrüfatı sahəsində ənənəvi əmək vərdişləri bitkiçiliyin ərazi təşkilinə və inkişaf etdirilməsinə geniş imkanlar yaratmışdır. Bu səbəbdən də bu iqtisadi rayonlar ölkənin əsas kənd təsərrüfatı regionlarından biridir. Potensial imkanların olduğunu nəzərə alsaq, kənd təsərrüfatının bölgədə inkişafı gələcəkdə yerli tələbatın öz daxili imkanları hesabına ödəyəcəyini, rəqabətqabiliyyətli məhsul istehsalının artacağını söyləməyə imkan verir. Bu baxımdan, tədqiqat

işində Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında regionların sosial-iqtisadi inkişafı məqsədi ilə həyata keçirilmiş Dövlət Proqramlarının, eyni zamanda aqrar sahənin inkişafı istiqamətində həyata keçirilmiş digər proqramların kənd təsərrüfatına inkişaf təsirini və son illərdəki vəziyyətini tədqiq etmişik.

**Tədqiqat regionu**

Tədqiq olunan Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları 2021-ci ilə kimi birlikdə Gəncə-Qazax iqtisadi-coğrafi rayonu adlandırılmışdır. 2020-ci ildə Azərbaycan Respublikası Ermənistanın uzun müddət işğal altında saxladığı rayonları azad etdikdən sonra, həmin ərazilərin bərpası, gələcək inkişafını təmin etmək məqsədi ilə ölkə başçısı 07 iyul 2021-ci il "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzaladı. Fərmana əsasən, Gəncə-Qazax iqtisadi-coğrafi rayonu iki ayrı iqtisadi rayona bölünmüşdür. İqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyinin və iqtisadi idarəetmənin çevikliyinin təmin edilməsi məqsədi ilə verilmiş fərmana əsasən, rayon: Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl, Samux rayonları) və Qazax-Tovuz iqtisadi rayonuna (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir, Tovuz rayonları) ayrılmışdır. 2021-ci ilin statistik məlumatlarına əsasən, ölkə əhalisinin 6,0%-i (612,1 min nəfər) Gəncə-Daşkəsən, 6,8%-i (690,6 min nəfər) isə Qazax-Tovuz iqtisadi rayonunda məskunlaşmışdır.

Gəncə-Daşkəsən iqtisadi rayonu ölkə ərazisinin 6,1%-ni (5,27 min $km^2$), Qazax-Tovuz iqtisadi rayonu isə 8,1%-i (7,03 $km^2$) əhatə etməklə respublikanın qərbində, Kiçik Qafqaz dağlarının şimal yamacında yerləşmişdir. Ərazilərinə Kür çökəkliyində yerləşən Gəncə-Qazax maili düzənliyi və Kür çayının sol hissəsində yerləşən Ceyrançöl düzü də daxildir. Əlverişli təbii şəraitə və ehtiyatlara, iqtisadi-coğrafi mövqeyə malik olan iqtisadi rayonlar ölkənin əsas nəqliyyat yollarının üzərində yerləşir. İqtisadi rayonların təbii və iqtisadi potensialından səmərəli istifadə etməklə regionun davamlı yüksək inkişafını təmin etmək olar.

2021-ci ildə ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışının 3,1%-i Gəncə-Daşkəsən, 3,4%-i Qazax-Daşkəsən iqtisadi rayonunun payına düşmüşdür (13).

**Material və metod**

Regionla əlaqədar mənbələrdən, ərazidə aparılan sorğu materiallarından Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının kənd təsərrüfatının müasir vəziyyəti, bu sahənin inkişafına təsir edən təbii-coğrafi və iqtisadi amillər öyrənilmişdir.

Məqalədə məlumat mənbəyi kimi ədəbiyyat materialları ilə yanaşı (kənd təsərrüfatına dair əsərlər), Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafı və müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına dair qəbul etdiyi fərmanlarından, ARDSK-nin məlumatları, tədqiqat regionunda apardığımız araşdırmalardan və internet resurslarından istifadə edilmişdir.

Tədqiqatın aparılmasında statistik, müqayisəli təhlil, sistem-struktur üsullarından istifadə edilmişdir.

**Təhlil və müzakirə**

Respublikanın hər yerində olduğu kimi 1990-2000-ci illərdə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında da aqrar sahədə çətinliklər, durğunluq yaranmış, əmək ehtiyatlarının çalışdığı iş yerlərinin əksəriyyəti fəaliyyətini dayandırmışdır. Kənd təsərrüfatı sahəsində məhsuldarlığın, istehsalın həcminin aşağı olması ciddi problemlər yaratmış, daxili bazarda tələbatı ödəmək üçün digər ölkələrdən alınan məhsullardan asılılıq yaranmışdır. Həmin dövrlərdə əkinçilikdə keyfiyyətli toxum növləri, su çatışmamazlığı, təsərrüfatdaxili suvarma sistemlərinin köhnəlmiş, yararsız halda olması, maddi-texniki bazanın zəif olması, xəstəliklərin artması, dərman çatışmamazlıqları, heyvandarlıqda ot ehtiyatlarının azalması, həmçinin otlaq sahələrinin eroziyası, baytarlıq xidmətlərinin aşağı olması kənd təsərrüfatına mənfi təsir göstərmişdir. Bu sahədə olan çətinliklərin aradan qaldırılması, inkişaf etdirilməsi məqsədi ilə 2000-ci illərdən başlayaraq ölkə miqyasında mühüm proqramlar həyata keçirilməyə başlanıldı. Ardıcıl həyata keçirilən proqramlar kənd təsərrüfatının inkişafına mühüm təkan vermiş, regionların potensial imkanlarından istifadə etməklə, kənd təsərrüfatının hərtərəfli inkişaf etdirilməsinə zəmin yaranmışdır.

Kənd təsərrüfatı sahəsində olan problemlərin aradan qaldırılması və inkişafına dəstək məqsədilə 2002-ci ildə "Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair proqram"ı təsdiq olunmuşdur. Proqramda əsas məsələlər kənd təsərrüfatında suvarma, meliorasiya təminatının bərpası, torpaq ehtiyatlarından səmərəli istifadənin təmin olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi,

xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması, həmçinin aqrar bölmədə təşkilati strukturların yaradılması, hüquqi normativ bazanın təkmilləşdirilməsi, elmi-metodik təminatının, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, maliyyə vəziyyətinin yaxşılaşdırılması kimi məsələlər öz əksini tapmışdır (1). Proqramın icrası dövründə, 2002-ci ildə Gəncə-Daşkəsən və Qazax- Tovuz iqtisadi rayonlarında kənd təsərrüfatı bitkilərinin əkin sahəsi müvafiq olaraq 48,5 və 103,7 min hektar olmuşdur. 4 il müddətində Gəncə-Daşkəsən iqtisadi rayonunda əkinlər 9,7%, Qazax-Tovuz iqtisadi rayonunda isə 3,4% genişləndirilmişdir. Bu da hər iki rayonda məhsul istehsalının artmasına şərait yaratmışdır (10).

2004-cü ildən etibarən regionlarda kənd təsərrüfatının inkişafı, ardıcıl olaraq qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqram"larında da prioritet məsələlərdən olmuşdur. Proqramlarda bölgələrdə mövcud əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə aqrar sektorda inkişafa nail olmaq, yoxsulluğun səviyyəsini azaltmaq, yerli əhalinin məşğulluğunu yüksəltmək və bununla bağlı olaraq ərazidə infrastrukturu yeniləmək, əlverişli investisiya şəraiti yaratmaq əsas istiqamətlərdən olmuşdur.

Dövlət Proqramlarının regionlarda həyata keçirilməsi aqrar sektorla yanaşı, iqtisadiyyatın digər sahələrinin inkişafına geniş vüsət vermiş, sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni müəssisələrin və yeni iş yerlərinin yaranmasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsinə, əhalinin rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir.

İcrası tamamlanmış üç ardıcıl proqram sayəsində hər iki iqtisadi rayonda birlikdə ümumi məhsul buraxılışı 2004-cü ildən 2008-ci ilə təxminən 2,7 dəfə artaraq 1604,7 mln, 2009-cu ildən 2013-cü ilə 1,8 dəfə artaraq 2734,4 mln manat, 2014-cü ildən 2018-ci ilə isə 1,4 dəfə artaraq 3724,2 mln manat təşkil etmişdir (Şəkil 1). Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi təxminən 3 dəfə artmışdır (2, 3, 4, 10).

2009-2013-cü illəri əhatə edən Dövlət Proqramının icrası dövründə iqtisadi rayonlarda kənd təsərrüfatı sahəsində aparılmış islahatlar bitkiçilik sahələrinin bəzilərində nəzərə çarpacaq inkişafa səbəb olmuşdur. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda tərəvəz istehsalında 8,3%, kartof istehsalında 13,9%, meyvə və giləmeyvəlilərin istehsalında 7,4%, pambıq istehsalında 21,0%, dən üçün günəbaxan istehsalında 95,5%, üzüm istehsalında 2,2 dəfə, Qazax-Tovuz iqtisadi rayonunda isə kartof istehsalında 3,1%, üzüm istehsalında 24,9%, dən üçün günəbaxan istehsalında 25,6% artım olmuşdur (10).

İqtisadi rayonda 2012-ci ildən etibarən davamlı olaraq Gəncə-Daşkəsən rayonunda şəkər çuğunduru əkilməyə başlanmışdır. Ötən bir il müddətində onun istehsalı 4 dəfədən çox artaraq 1,8 min tondan 7,8 min tona yüksəlmişdir. Qeyd edək ki, ilk dəfə 2006-cı ildə hər iki iqtisadi rayonda şəkər çuğunduru əkilmişdir. Gəncə-Daşkəsən iqtisadi rayonunda 47, Qazax-Tovuz iqtisadi rayonunda isə 110 hektar sahədə əkilmiş şəkər çuğundurundan müvafiq olaraq 1983 və 1963 ton məhsul əldə edilmişdir. Sonrakı illərdə Gəncə-Daşkəsən iqtisadi rayonunda əkinlər azaldılmış, Qazax-Tovuz iqtisadi rayonunda isə əkilməmişdir.

Göstərilən dövr müddətində hər iki iqtisadi rayonda dənli bitkilərin istehsalında geriləmə müşahidə olunmuşdur. Belə ki, 2009-cu ildən 2013-cü ilə Gəncə-Daşkəsən iqtisadi rayonunda istehsalda 12% (130,3 min ton), Qazax-Tovuz iqtisadi rayonunda isə 3,6% (191,9 min ton) azalma olmuşdur. Bunlardan əlavə olaraq Qazax-Tovuz iqtisadi rayonunda tərəvəz istehsalında 0,6%, meyvə və giləmeyvəlilərin istehsalında isə 0,3% azalma müşahidə edilmişdir (Cədvəl 1) (10, 12, 13).

*Cədvəl 1. Dövlət Proqramlarının icrası dövründə əsas kənd təsərrüfatı bitkiləri istehsalının dinamikası*

| Əsas kənd təsərrüfatı bitkiləri istehsalı | I Dövlət Proqramı dövründə | | | II Dövlət Proqramı dövründə | | | III Dövlət Proqramı dövründə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | Fərq | 2009 | 2013 | Fərq | 2014 | 2018 | Fərq |
| | Min ton | Min ton | Dəfə | Min ton | Min ton | Dəfə | Min ton | Min ton | Dəfə |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Gəncə - Daşkəsən iqtisadi rayonu** | | | | | | | | | |
| Dənli bitkilər | 86,5 | 111,7 | 1,3 | 148,0 | 130,3 | 1,1* | 102,8 | 130,2 | 1,3 |
| Pambıq | 2,1 | 3,5 | 1.7 | 1,2 | 1,5 | 1,3 | 1,1 | 10,1 | 9 |
| Şəkər çuğunduru | - | 0,2 | | - | 7,8 | | 11,3 | 45,4 | 4 |
| Dən üçün günəbaxan | 0,5 | 2,9 | 6 | 4,3 | 8,4 | 2 | 8,6 | 11,2 | 1,3 |
| Kartof | 22,4 | 32,2 | 1,4 | 31,3 | 35,7 | 1,1 | 38,2 | 24,4 | 1,6* |
| Tərəvəz | 15,8 | 28,1 | 1,8 | 26,6 | 28,9 | 1,1 | 26,3 | 28,3 | 1,1 |
| Meyvə və giləmeyvəlilər | 8,9 | 37,3 | 4 | 38,2 | 41,0 | 1,1 | 34,7 | 40,5 | 1,2 |
| Üzüm | 0,7 | 5,9 | 8 | 6,2 | 14,0 | 2 | 13,8 | 20,0 | 1,4 |
| **Qazax - Tovuz iqtisadi rayonu** | | | | | | | | | |
| Dənli bitkilər | 183,5 | 164,1 | 10,6* | 199,0 | 191,9 | 3,6* | 161,8 | 231,9 | 43,3 |
| Şəkər çuğunduru | - | - | - | - | - | - | - | 49,4 | |
| Dən üçün günəbaxan | 1,4 | 1,6 | 14,3 | 1,1 | 1,4 | 27,3 | 2,1 | 3,3 | 57,1 |
| Kartof | 542,6 | 608,4 | 12,1 | 534,7 | 551,3 | 3,1* | 415,5 | 437,9 | 5,4 |
| Tərəvəz | 165,0 | 182,3 | 10,5 | 176,2 | 175,2 | 0,6* | 172,8 | 279,4 | 61,7 |
| Meyvə və giləmeyvəlilər | 22,2 | 97,1 | 4 dəfə | 90,6 | 100,0 | 10,4 | 99,4 | 131,8 | 32,6 |
| Üzüm | 22,0 | 29,6 | 34,5 | 31,8 | 39,7 | 24,8 | 41,9 | 44,6 | 6,4 |

**azalmanı göstərir*

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: 2021, DSK, s.772*

Cədvəldən də göründüyü kimi həyata keçirilən Dövlət Proqramları iqtisadi rayonlarda kənd təsərrüfatı məhsullarının istehsalında dəyişikliklərə səbəb olmuşdur. İqtisadi rayonlarda əsas bitkiçilik sahələrinin bir çoxunda artım baş vermişdir. Bununla belə bəzi bitkiçilik sahələrində azalma müşahidə edilmişdi. Xüsusilə də ölkənin əsas kartofçuluq rayonu olan Qazax-Tovuz iqtisadi rayonunda kartof istehsalında azalma baş vermişdir. Buna iqtisadi rayonda əkinlərin getdikcə azaldılması, torpaqların düzgün istifadə edilməməsi, bəzi ərazilərdə müşahidə edilən təhlükəli təbiət hadisələri, suvarma suyunda olan çətinliklər, toxumçuluqda yaranmış problemlər və s. səbəb olmuşdur (10, 11).

Bu müddətdə heyvandarlıq məhsullarının istehsalında da artım müşahidə edilmiş, Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 43,2%, süd istehsalı 28,2%, yun istehsalı isə 7,5%, Qazax-Tovuz iqtisadi rayonunda isə ət istehsalı 22,1%, süd istehsalı 38,8%, yun istehsalı 9,2%, yumurta istehsalında isə 84,2% yüksəlmişdir. Həmin dövrdə yalnız Gəncə-Daşkəsən iqtisadi rayonunda yumurta istehsalında azalma baş vermişdir (17,3%) (Cədvəl 2).

Dövlət Proqramlarının icrası dövründə iqtisadi rayonda müasir texnologiyalar quraşdırılmış müəssisələr yaradılmış, kənd təsərrüfatı sahəsində sahibkarlığı dəstəkləmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə yeni təsərrüfat sahələri, obyektlər yaradılmışdır. Bu müddət ərzində kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara və ilk sahibkarlıq fəaliyyətinə başlayanlara müxtəlif mövzularda treninqlər və s. tədbirlər keçirilmişdir.

İqtisadi rayonda kənd təsərrüfatı məhsullarının emalı, saxlanılması və aqrar sahənin inkişafına xidmət edən yeni infrastruktur obyektlərinin inşası həyata keçirilmişdir. Belə obyektlərdən: Samux rayonunda istixana, Tovuz rayonunda taxıl anbarı, Süd məhsulları emalı zavodu, Qazax rayonunda Konserv zavodu, Gədəbəy rayonunda soyuducu, bundan başqa gündəlik istehsal gücü 10 ton olan "Halal Qida" süd emalı zavodu, habelə onlarla digər istehsal və emal müəssisələrini misal göstərə bilərik.

2011-ci ildə Samux rayonunda ölkə bazarında aparıcı soyuducu-anbarlardan olan, fermerlərdən və ticarət şirkətlərindən 5 min tondan artıq məhsul qəbul edərək anbar xidmətləri göstərən, meyvə qurudulması və emalı üçün gücü 1,5 min ton olan "NAA Agrotara" müəssisəsi yaradılmışdır (3).

Digər bir müəssisə texniki təchizatın təkmilləşdirilməsi ilə əlaqədar olaraq 2012-ci ildə Ağstafa rayonunda istifadəyə verilmiş "Ağstafa Aqroservis" MMC olmuşdur. 14 min hektar sahəyə xidmət göstərə bilmək gücünə sahib olan müəssisəyə müasir standartlara uyğun texnika və avadanlıqlar quraşdırılmışdır.

Dövlət Proqramlarının icrası dövründə əsas məsələlərdən biri də regionlarda kənd təsərrüfatı su

təchizatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi olmuşdur. Bu məqsədlə regionda su anbarları inşa edilmiş, bəziləri isə əsaslı təmir olunmuşdur. Həmçinin hidroqovşaqlar, kanallar, subartezian quyuları istifadəyə verilmişdir. Planlaşdırılmış bir sıra su obyektlərinin inşası daha sonra qəbul edilmiş 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramı müddətində yekunlaşdırılaraq fəaliyyətə başlamışdır (Şəmkirçay və Tovuzçay su anbarları). Su təchizatının yaxşılaşdırılması suvarma suyuna olan tələbatın ödənilməsi ilə yanaşı, yeni aqroparkların yaradılmasına da imkan yaratmışdır. Yaradılmış aqroparklar ölkənin ixrac potensialının artmasına, məhsuldarlığın yüksəldilməsinə geniş imkanlar açmışdır (3,4).

Regionda yaradılmış Şəmkir aqroparkı 543 hektar ərazini əhatə etməklə, müasir istixana kompleksləri, soyuducu anbar, satış mərkəzi, logistika və aqroservis mərkəzi, meyvə-tərəvəz emalı, tara istehsalı fabriki, araşdırma mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələrini özündə birləşdirmişdir. 2017-ci ildən Aqroparkın Logistika Mərkəzi fəaliyyətə başlamışdır. Burada kənd təsərrüfatı məhsullarını çeşidləmə, qablaşdırma, saxlama, etiketləmə, daşınma, satışı və s. həyata keçirilir. Mərkəzdə meyvə-tərəvəzlərin keyfiyyətini, bakterioloji və mikrobioloji göstəricilərini, toksikliyini analiz edəcək müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya fəaliyyət göstərir. Burada yaşıl marketlər, fermer satış mərkəzlərinin cəmləşməsi rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaratmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Ağstafa rayonunda taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanı inşa edilmiş və “Birinci Şıxlı Kəndli fermer təsərrüfatı” MMC fəaliyyətə başlamışdır. 151 hektar ərazini əhatə edən təsərrüfat sahəsinin 15 hektarında müasir suvarma, pivot sistem quraşdırılmışdır. Müəssisədə iqtisadi rayonun əsas kənd təsərrüfatı məhsullarından olan kartof və tərəvəzlərin təmizlənməsi, qurudulması, çeşidlənməsi və qablaşdırılması üçün müasir texnologiyalardan istifadə edilir. Burada, həmçinin məhsulların saxlanılması üçün tutumu 2 min ton olan anbar və texnika üçün park inşa edilmişdir (2).

Qeyd edək ki, təzə kartof və tərəvəzin, o cümlədən istixana şəraitində faraş tərəvəz istehsalının dəstəklənməsi üçün geniş imkanların olduğu iqtisadi rayonlarda inkişaf planlarının hazırlanaraq həyata keçirilməsi “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə də nəzərə alınmışdır (8).

Həyata keçirilmiş uğurlu fəaliyyətlərin nəticəsi olaraq 2014-2018-ci illəri əhatə edən müddətdə Gəncə-Daşkəsən iqtisadi rayonunda əsas bitkiçilik sahələrinin: dənli bitkilərin istehsalı 26,7% artaraq 130,2 min ton, dən üçün günəbaxan 29,4% artaraq 11,1 min ton, tərəvəz 7,5% artaraq 28,3 min ton, meyvə və giləmeyvəlilər 16,7% artaraq 40,5 min ton, üzüm 45,5% artaraq 20,0 min ton, şəkər çuğunduru 4 dəfə artaraq 45,4 min ton, pambıq istehsalı isə 9,2 dəfə artaraq 10,1 min ton olmuşdur. Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 43,3% artaraq 231,9 min ton, dən üçün günəbaxan 59,4% artaraq 3,3 min ton, tərəvəz 61,7% artaraq 279,4 min ton, meyvə və giləmeyvəlilər 32,5% artaraq 131,8 min ton, üzüm 6,6% artaraq 44,6 min ton, 2015-ci ildən əkilən şəkər çuğunduru istehsalı isə 33,6 dəfə artaraq 49,4 min ton olmuşdur.




**Şəkil 1.** *Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında Dövlət Proqramlarının icrası dövründə əsas kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsullarının istehsal dinamikasındakı dəyişikliklər (birlikdə cəmi %-lə)*

İqtisadi rayonlarda heyvandarlığın inkişafı üçün yüksək perspektiv mövcuddur. Belə ki, təbii şəraitin əlverişliliyi, yaylaq-qışlaq şəraiti ilə təmin olunma bu sahənin inkişafına geniş imkan yaradır. Südlük və ətlik istiqamətli iribuynuzlu heyvandarlıq təsərrüfatlarının yaradılmasına dəstək məqsədilə 2015-ci ildən “Aqrolizinq” ASC vasitəsilə iqtisadi rayonlara damazlıq heyvanlar gətirilmiş və kənd

təsərrüfatı məhsulları istehsalçılarına güzəştlə lizinqə verilmişdir. Heyvandarlıq məhsullarının istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalandırma işlərini sürətləndirmək məqsədilə 2017-ci ildə Göygöl rayonunda süni mayalanma mərkəzi fəaliyyətə başlamışdır.

III Dövlət Proqramının icrası dövründə heyvandarlıq məhsullarının bəzilərinin istehsalında artım müşahidə edilmişdir. Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 8,8%, süd istehsalı 18,2%, yumurta istehsalı 47,2%, Qazax-Tovuz iqtisadi rayonunda ət istehsalı 12,5%, süd istehsalı isə 12,1% yüksəlmişdir. Bunlarla yanaşı həmin dövrdə Gəncə-Daşkəsən iqtisadi rayonunda yun istehsalında (34,5%), Qazax-Tovuz iqtisadi rayonunda isə yun (2,0%) və yumurta istehsalında (48,8%) azalma baş vermişdir (Cədvəl 2). Bu məhsulların (yun, yumurta) istehsalının aşağı düşməsi heyvanların sayının azalması ilə bağlı olmuşdur. Belə ki, 2014-cü il ilə müqayisədə 2018-ci ildə hər iki iqtisadi rayonda qoyunların sayında 6,1%, eyni zamanda Qazax-Tovuz iqtisadi rayonunda quşların sayında 27,2% azalma olmuşdur.

*Cədvəl 2. Dövlət Proqramlarının icrası dövründə heyvandarlıq məhsullarının istehsalında baş verən dəyişikliklər*

| Məhsul istehsalının adı | I Dövlət Proqramı | | | II Dövlət Proqramı | | | III Dövlət Proqramı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | Fərq | 2009 | 2013 | Fərq | 2014 | 2018 | Fərq |
| | Min ton | Min ton | %-lə | Min ton | Min ton | %-lə | Min ton | Min ton | %-lə |
| **Gəncə - Daşkəsən iqtisadi rayonu** | | | | | | | | | |
| Ət, ton | 5909 | 6023 | 1,9 | 6156 | 8815 | 43,2 | 9671 | 10521 | 8,8 |
| Süd, ton | 53761 | 70583 | 31,3 | 73901 | 94737 | 28,2 | 95803 | 113205 | 18,2 |
| Yun, fiziki çəkidə | 894 | 1470 | 64,4 | 1540 | 1655 | 7,5 | 1683 | 1103 | 34,5* |
| Yumurta, mln ədəd | 22048 | 24065 | 9,1 | 33140 | 27416 | 17,3* | 27560 | 40573 | 47,2 |
| **Qazax - Tovuz iqtisadi rayonu** | | | | | | | | | |
| Ət, ton | 13061 | 13865 | 6,2 | 14200 | 17339 | 22,1 | 17893 | 20130 | 12,5 |
| Süd, ton | 100753 | 115477 | 14,6 | 119082 | 165245 | 38,8 | 171059 | 191808 | 12,1 |
| Yun, fiziki çəkidə | 1511 | 1906 | 26,1 | 1954 | 2133 | 9,2 | 2158 | 2116 | 2* |
| Yumurta, mln ədəd | 54155 | 77548 | 43,2 | 80385 | 148054 | 84,2 | 183328 | 93820 | 48,8* |

**azalmanı göstərir*

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: DSK, 2021, 772 s.*

2018-ci ildə Gəncə-Daşkəsən iqtisadi rayonunda aqrar sahənin inkişafında mühüm rola malik ikinci aqropark fəaliyyətə başlamışdır. Yaradılan "Region Aqroparkı" Goranboy rayonu ərazisində istifadəsiz olan 3,5 min hektar torpaq sahəsini və Samux rayonu ərazisində Nazirlər Kabinetinin qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş 1,2 min hektar qış otlaqları sahəsini əhatə edir. Bu aqroparkda istehsal olunan məhsulları uzun müddət saxlamaq üçün hər birinin tutumu 3 min ton olan 6 taxıl anbarı və saatda gücü 10 ton olan qurutma sistemi inşa edilmişdir. Qeyd edək ki, regionlarda yaradılan belə aqroparkların və müasir iri fermer təsərrüfatlarının aqrar sektorun inkişafında əhəmiyyəti olduqca böyükdür. Belə ki, iqtisadi rayonda tərəfimizdən aparılan sorğu zamanı məlum oldu ki, kiçik təsərrüfata malik olan fermerlər intensiv üsulun tətbiqinə nail ola bilmirlər. Kifayət qədər maddi-texniki bazaya imkanları olmadığından əkin sahəsinə vaxtında düzgün qulluq göstərə bilmirlər və bu da öz növbəsində təsərrüfat sahələrində məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır.

Araşdırmalar göstərir ki, müasir dövrdə kənd təsərrüfatı istehsalının effektiv təşkili, torpaqdan səmərəli istifadəni və fermerlərin gəlirlərinin artırılmasını tələb edir. Buna görə də kənd təsərrüfatında kiçik əmtəə istehsalından rəqabətqabiliyyətli məhsul istehsalına keçmək, yeni texnika və texnologiyalar tətbiq etməklə məhsuldarlığı artırmaq və xarici bazarlara çıxışı təmin etmək lazımdır. Bunun üçün ən optimal yol birgə təsərrüfatçılıq forması hesab edilən kooperativlərin yaradılmasıdır. Hazırda birgə təsərrüfatların yaradılması, kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsi aqrar

siyasətin aktual məsələlərindən birinə çevrilmişdir. Bu məqsədlə 2017-ci ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Bu Proqramın icrasında əsas hədəf kənd təsərrüfatı məhsulları istehsalçılarını birgə təsərrüfatçılıq fəaliyyətinə təşviq etmək, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq və dayanıqlı fəaliyyətini təmin etmək, həmçinin aqrar sahədə kooperasiyanın formalaşmasına və inkişafına dəstək vermək olmuşdur (6).

Dövlət Proqramlarında əsas məsələlərdən biri olan sahibkarlığın inkişafı istiqamətində də iqtisadi rayonlarda bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, sahibkarlar investisiya təşviqi sənədinə əsasən, vergi və gömrük sahəsində güzəştlər əldə etmişdirlər. Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların fəaliyyətinin dəstəklənməsi məqsədilə məhsul istehsalçılarına əkinçiliyə görə yardım edilmiş, güzəştli şərtlərlə mineral gübrə və kreditlər verilmişdir.

2014-2018-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən müxtəlif yönümlü layihələrin icrası üçün güzəştli kreditlər verilmişdir. Göstərilən dövr müddətində Fond vasitəsilə hər iki iqtisadi rayona birlikdə 3,3 min (20,4%) layihəyə 139,9 min (13,5%) manat dəyərində güzəştli kreditləri verilmişdir. Bu layihələrin də çox hissəsi məhz aqrar sektorun payına düşmüş və iqtisadi rayonlarda aqrar sahə ilə əlaqəli bir sıra müəssisələr istifadəyə verilmişdir. Şəmkirdə logistika mərkəzi, Ağstafada "Karvan-L EKO" sənaye parkı, "Moden" mebel fabriki, Gədəbəydə limonad zavodu, Şəmkirdə Çörək zavodu bu dövrdə fəaliyyətə başlamışdır (4).

Proqramların icrası dövründə məhz aqrar sektora xüsusi diqqətin ayrılması iqtisadiyyatda payının artması ilə yanaşı, onu əsas gəlir gətirən sahələrindən birinə çevirmişdir. Kənd təsərrüfatı ilə məşğul olan hüquqi və fiziki şəxslərin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalına görə hər hektara sərf olunan yanacaq və motor yağlarına görə vəsaitin bir qisminin dövlət tərəfindən ödənilməsi, mineral gübrələrin 70% güzəştlə satılması, texnikaların "Aqrolizinq" ASC vasitəsi ilə 40% güzəştli şərtlərlə lizinqə verilməsi, bu sahənin inkişafına mühüm təkan vermişdir. Bunlardan əlavə, toxumçuluq və tinglik təsərrüfatlarında satılan birinci və ikinci reproduksiyalı toxumlara görə dövlət tərəfindən subsidiyaların, kənd təsərrüfatı əmlakının sığortalanmasına görə müqavilə üzrə hesablanmış sığorta haqqının 50%-nin dövlət büdcəsi hesabına ödənilməsi təmin olunmuş, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, eləcə də suvarma suyu və qış otlaq sahələrinə verilən suyun aşağı tariflərlə satışı həyata keçirilmişdir.

Bu dövrdə pambıq, tütün, şəkər çuğunduru və barama istehsalında son məhsula, həmçinin saxlanılan hər arı ailəsinə görə subsidiyaların verilməsi də bu sahələrin sürətli inkişafına səbəb olmuşdur.

Dövlət Proqramlarından əlavə olaraq keçən dövr ərzində aqrar sferanın inkişafına yönəldilmiş başqa tədbirlər də həyata keçirilmişdir. Fermerlər, sahibkarlar, alim və mütəxəssislərin maraqlarını təmin edən bir sıra fərman və sərəncamlar verilmiş, proqramlar hazırlanmış, təsdiq edilmişdir. Əhalinin ərzaq tələbatını yerli istehsal hesabına təmin etmək, kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədi ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında", "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və digər qəbul edilmiş hüquqi-normativ sənədlər aqrar sahənin inkişafına mühüm təkan vermişdir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda inkişaf etdirilməsi nəzərdə tutulmuş ənənəvi bitkiçilik sahələrindən taxılçılıq, üzümçülük, kartofçuluqla yanaşı regionda nisbətən az əkinləri olan günəbaxan və yeni əkilən şəkər çuğunduru sahələrinə də diqqət ayrılmışdır. İstixana şəraitində tərəvəz yetişdirilməsinə böyük maraq oyanmış, örtülü torpaqlarda tərəvəz əkinləri sürətlə inkişaf etdirilməyə başlanılmışdır (9). Keçən dövr ərzində 2008-ci ildən 2015-ci ilə Gəncə-Daşkəsən iqtisadi rayonunda dənli bitkilərin istehsalı 6,2% artaraq 118,7 min ton olmuş, bəzi bitkiçilik sahələrində isə istehsal dəfələrlə artırılmışdır. Belə ki, üzüm istehsalı 2,4 dəfə artaraq 14,1 min ton, günəbaxan istehsalı 2,5 dəfə artaraq 7,2 min ton, şəkər çuğunduru istehsalı 98,6 dəfə artaraq 15,8 min ton olmuşdur.

Qazax-Tovuz iqtisadi rayonunda üzüm istehsalı 45,4% artaraq 43,1 min ton, meyvə və

giləmeyvəlilərin istehsalı 3,3% artaraq 100,3 min ton, günəbaxan istehsalı 61,5% artaraq 2,5 min ton olmuşdur. 2015-ci ildə əkilmiş şəkər çuğundurunun istehsalı isə 1,5 ton olmuşdur.

Bununla yanaşı həmin dövrdə bəzi bitkilərin istehsalında azalma müşahidə olunmuşdur. Gəncə-Daşkəsən iqtisadi rayonunda meyvə və giləmeyvəlilərin istehsalı 4,6% azalaraq 35,6 min ton olmuşdur. 2015-ci ildə isə iqtisadi rayonda pambıq istehsalının (8,5 dəfə azalma) isə ən aşağı həddi (0,4 min ton) müşahidə olunmuşdur. Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 0,7% azalaraq 162,9 min ton olmuşdur. Bu proqramın əhatə etdiyi dövrdə tərəvəz və kartof istehsalı isə hər iki iqtisadi rayonda azalmışdır. Belə ki, tərəvəz istehsalı Gəncə-Daşkəsən iqtisadi rayonunda 14,9% (23,9 min tona), Qazax-Tovuz iqtisadi rayonunda isə 1,7% (179,2 min tona), kartof istehsalı isə müvafiq olaraq 5,4% (30,4 min tona) və 34,9% (396,1 min tona) azalmışdır.

Bitkiçilik sahələrindən fərqli olaraq heyvandarlıq məhsullarının istehsalında artım olmuşdur. 2008-ci illə müqayisədə 2015-ci ildə Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 61,5%, süd istehsalı 41,7%, yun istehsalı 15,2%, yumurta istehsalı 28,7%, Qazax-Tovuz iqtisadi rayonunda isə ət istehsalı 33,8%, süd istehsalı 53,1%, yun istehsalı 15,3%, yumurta istehsalı 57,2% yüksəlmişdir (10).

Yuxarıda qeyd etdiyimiz kimi hər iki iqtisadi rayonda üzüm istehsalında kifayət qədər yüksək artım müşahidə olunmuşdur. Buna həmin dövrləri əhatə edən proqramla yanaşı “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın icrası da təkan vermişdir. Beynəlxalq standartlara cavab verən üzümçülük və şərabçılığın inkişafına nail olmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, üzümçülüyün inkişaf etdirilməsini dəstəkləmək məqsədi ilə fiziki şəxslərə güzəştli kreditlər verilmişdir. Eyni zamanda iqtisadi rayonlarda üzüm istehsalı və emalı sahəsində yüksək nəticə əldə etmək üçün xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında kooperativlərdə birləşməsi təbliğ edilmişdir (7).

Şəmkir rayonunda fəaliyyət göstərən “Şərq ulduzu” ASC-də yeni konyak spirti istehsal edən müasir avadanlıqlar quraşdırılmışdır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq iqtisadi rayonlardan “Gəncə Şərab-2” ASC, “Şərq Ulduzu”, “Tovuz-Baltiya” Co MMC və bir sıra digər şirkətlərin şərab məhsulları müxtəlif ölkələrə uğurla ixrac edilmişdir.

Proqramın icrası dövründə Gəncə-Daşkəsən iqtisadi rayonunda üzüm əkinlərində azalma müşahidə olunsa da, intensiv üsulun tətbiqi ilə əlaqədar olaraq məhsuldarlıq yüksəlmiş və bunun nəticəsi olaraq istehsal 52,5% artmışdır. Qazax-Tovuz iqtisadi rayonunda isə əkinlərin genişləndirilməsi və məhsuldarlığın artması istehsalın 50%-dən çox yüksəlməsinə şərait yaratmışdır.

*Cədvəl 3. 2012-2020-ci illərdə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında üzümçülükdə olan dəyişikliklər*

| İllər / Rayonlar | **Əkin sahəsi, min ha** | | **Fərq (%-lə)** | **İstehsal, min ton** | | **Fərq (%-lə)** | **Məhsuldarlıq, sent/ha** | | **Fərq (%-lə)** |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **2012** | **2020** | | **2012** | **2020** | | **2012** | **2020** | |
| **Gəncə - Daşkəsən** | **2,6** | **2.0** | **23,1*** | **13,5** | **20,5** | **51,8** | **102,9** | **103,8** | **0,9** |
| Gəncə şəhəri | 0.3 | 0,1 | 66,7* | 2,2 | 0,5 | 77,3* | 79,5 | 58,8 | 26* |
| Naftalan şəhəri | 0,003 | 0,002 | 33,3* | 0,004 | 0,015 | 375 | 45,0 | 38,2 | 15,1 |
| Goranboy rayonu | 0,08 | 0,08 | - | 1,7 | 1,3 | 23,5* | 269,4 | 160,0 | 40,6* |
| Göygöl rayonu | 1.1 | 0,7 | 36,4* | 3,7 | 7,1 | 91,9 | 46,3 | 90,8 | 96,1 |
| Samux rayonu | 1,1 | 1, 0 | 9,1* | 5,8 | 1,2 | 79,3* | 74,4 | 112,4 | 51,1 |
| **Qazax - Tovuz** | **1,9** | **2,1** | **10,5** | **39,0** | **59,2** | **51,8** | **169,4** | **190,8** | **12,6** |
| Qazax rayonu | 0,4 | 0,3 | 25* | 3,5 | 4,1 | 17,1 | 96,4 | 130,0 | 34,8 |
| Ağstafa rayonu | 0,4 | 0,5 | 25 | 5,6 | 7,6 | 35,7 | 151,6 | 160,7 | 6,0 |
| Tovuz rayonu | 0,6 | 0,8 | 33,3 | 7,9 | 17,8 | 125 | 174,4 | 246,0 | 41,0 |
| Şəmkir rayonu | 0.5 | 0,6 | 20 | 21,9 | 29,6 | 35,2 | 255,2 | 175,8 | 31,1* |
| Gədəbəy rayonu | | 8,5 | | | 131,9 | | | 155,1 | |

****azalmanı göstərir***

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: 2021, DSK, s.772*

İqtisadi rayonlarda proqramın icrası dövründə üzüm əkinləri Şəmkir (5,7%), Ağstafa (11,2%) və Tovuz (39,1%) rayonları ərazisində genişləndirilmiş, digər rayonlarda isə azaldılmışdır. Uğurlu islahatlar nəticəsində üzüm istehsalı Göygöl rayonunda 1,9 dəfə, Samux rayonunda 2 dəfə, Tovuz rayonunda 2,2 dəfə, Naftalan şəhəri ərazisində 3,4 dəfə artmışdır.

2020-ci ildə Gədəbəy rayonunda 8,5 hektar sahədə üzümlük salınmışdır. Məhsuldarlığı 155,1 sentner təşkil etmiş, bağlardan 131,9 ton məhsul toplanmışdır.

Hər iki iqtisadi rayonda üzümün məhsuldarlığı uzun illər respublika üzrə göstəricidən yüksək olmuşdur. 2020-ci ildə respublika üzrə məhsuldarlıq 99,4, Gəncə-Daşkəsən iqtisadi rayonunda 103,8, Qazax-Tovuz iqtisadi rayonunda isə 190,8 sentner olmuşdur. Məhsuldarlıq inzibati rayonlar içərisində ən çox 246,0 sentner olmaqla Tovuz rayonunda müşahidə olunmuşdur (10, 12, 13).

Böyük potensiala malik aqrar sektorun inkişafının dəstəklənməsi siyasəti, o cümlədən bu sahənin vergilərdən azad olunması, fermerlərə subsidiyaların verilməsi kənd təsərrüfatı istehsalçılarına geniş şərait yaratmışdır. "Aqrolizinq" xətti ilə güzəştli kənd təsərrüfatı texnikası, avadanlıqlar, toxum, gübrə və cins mal-qara əldə edilməsi, dövlətin dəstəyi ilə regionda aqroservislər yaradılması bölgədə kənd təsərrüfatının inkişafına təkan vermişdir.

Hazırda, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində iqtisadi rayonlarda əvvəlki proqramlarda olduğu kimi taxılçılıq, kartofçuluq, üzümçülüyün, tərəvəzçiliyin, meyvəçiliyin, arıçılığın inkişafı, kiçik istixana və cins heyvandarlıq təsərrüfatlarının yaradılması işləri, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı, bu sahəyə xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir (5).

2019-2023-cü illəri əhatə edən dövrlərdə iqtisadi rayonların kənd təsərrüfatı məhsulları istehsalında dəyişikliklər baş vermiş, bəzi sahələrdə artım, bəzilərində isə ciddi azalmalar müşahidə edilmişdir. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda dənli bitkilərin istehsalı 7,4% artaraq 151,9 min ton, pambıq istehsalı 1,2% artaraq 7,4 min ton, meyvə və giləmeyvəlilər 4,4% artaraq 46,1 min ton, tərəvəz 15,8% artaraq 35,6 min ton, Qazax-Tovuz iqtisadi rayonunda üzüm istehsalı 22,3% artaraq 66,4 min ton, meyvə və giləmeyvəlilər 6,9% artaraq 164,6 min ton, tərəvəz 18,5% artaraq 373,4 min ton, kartof 12,6% artaraq 540,4 min ton olmuşdur. Digər bitkiçilik sahələrində isə geriləmələr olmuş, Gəncə-Daşkəsən iqtisadi rayonunda şəkər çuğunduru istehsalı kəskin azalaraq (9,3 dəfə) 2,0 min ton, günəbaxan istehsalında 25,4% azalaraq 11,8 min ton, kartof 22,4% azalaraq 21,5 min ton, üzüm 15,4% azalaraq 17,5 min ton, Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 9,9% azalaraq 212,8 min ton olmuş, şəkər çuğunduru 16,6% azalaraq 53,8 min ton, günəbaxan 18,8% azalaraq 3,5 min ton olmuşdur.

Bitkiçilikdən fərqli olaraq heyvandarlıq məhsullarının istehsalında qismən dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 11,3% azalaraq 9,1 min ton, süd istehsalı 4,5% artaraq 125,8 min ton, yumurta 2,3% artaraq 46,2 min ədəd, yun istehsalı 1,3% azalaraq 1,0 min ton, Qazax-Tovuz iqtisadi rayonunda ət istehsalı 7,3% artaraq 21,7 min ton, süd 2,1% artaraq 188,9 min ton, yumurta 6,3% artaraq 88,7 min ədəd, yun 0,8% artaraq 2,2 min ton olmuşdur (10, 11, 12).

Hazırkı Dövlət Proqramının (2019-2023) əhatə etdiyi dövrdə Gəncə-Daşkəsən iqtisadi rayonu ərazisində Goranboyda 1,6 min hektar, Samuxda 4,9 min hektar, Qazax-Tovuz iqtisadi rayonunda isə Şəmkirdə 8,0 min hektar, Ağstafada 8,4 min hektar, Tovuzda 3,0 min hektar ərazidə şəkər çuğunduru, qarğıdalı, soya, arpa əkilməsi və müvafiq infrastrukturun qurulması nəzərdə tutulmuşdur. Həmçinin maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində:

1. Goranboy rayonunda İstixana kompleksinin yaradılması, 2,5 min hektar ərazidə yaradılmış taxılçılıq və pambıqçılıq üzrə mövcud aqroparkın genişləndirilməsi, mahlıc və çiyid istehsalı müəssisəsinin yaradılması;

2. Göygöl rayonunda Azərbaycan Bioloji Kombinatının yenidənqurulması, iri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin tikintisi;

3. Samux rayonunda 5,0 min ha və 2,2 min hektar ərazilərdə yaradılmış taxılçılıq üzrə mövcud aqroparkların genişləndirilməsi, 100 hektar kartofçuluq təsərrüfatının yaradılması, pambığın yerli

torpaq iqlim şəraitinə uyğunlaşdırılmış məhsuldar, xəstəlik və zərərvericilərə davamlı tezyetişən sortlarının yaradılması və toxumçuluğunun təşkili ilə bağlı tədbirlərin görülməsi;

4. Ağstafa rayonunda Dilbaz Atçılıq təsərrüfatı üçün yeni kompleksın tikilməsi;

5. Qazax rayonunda 0,8 min ha ərazidə yaradılmış taxılçılıq və kartofçuluq üzrə mövcud aqroparkın genişləndirilməsi;

6. Şəmkir rayonunda 5,0 min hektar ərazidə bitkiçilik üzrə aqroparkın yaradılması, 8,6 min hektar ərazidə mövcud aqroparkın heyvandarlıq kompleksi yaratmaqla genişləndirilməsi, Könüllü və Abbaslı kəndlərinin ərazisində intensiv bağçılıq təsərrüfatının yaradılması, Mahmudlu kəndi ərazisində soyuducu anbar kompleksinin yaradılması, Könüllü bələdiyyəsi ərazisində istixana kompleksinin yaradılması, meyvə çeşidləmə və soyuducu anbar kompleksinin tikintisi;

7. Tovuz rayonunda dənli bitki toxumlarının emalı zavodunun tikintisi, 12,0 min hektar ərazidə yaradılmış bitkiçilik üzrə və Ceyrançöl ərazisində 1,2 min başlıq heyvandarlıq üzrə mövcud aqroparkların genişləndirilməsi, əmtəəlik kartof əkini sahəsinin yaradılması, Düz Cırdaxan kəndi ərazisində soyuducu anbar kompleksinin genişləndirilməsi, yeni regional kartof anbarının tikintisi nəzərdə tutulmuşdur (5).

Bu Proqramda aqrar sektorun inkişaf etdirilməsi, əsas istehsal vasitəsi olan torpaqların münbitliyinin artırılması, rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi və istehsalçıların ixrac fəaliyyətinin stimullaşdırılması, emal və yeyinti sənayesinin xammala və əhalinin ərzaq məhsullarına olan tələbatının yerli mənbələr hesabına ödənilməsini təmin etmək məqsədi daşıyır.

Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında proqramların icrası müddətində aparılmış təhlildən aşağıdakı nəticələr əldə olunmuşdur.

Ardıcıl olaraq həyata keçirilmiş islahatlar Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının iqtisadiyyatına müsbət təsir göstərmiş, Dövlət Proqramlarının icrası dövrlərini müqayisə etdikdə, 2014-2018-ci illər daha məhsuldar olmuşdur. Qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalı və yeni yaradılan müəssisələrin sayı xeyli artmış, hər iki iqtisadi rayonun birlikdə kənd təsərrüfatı məhsulu buraxılışı 2,5 dəfə yüksəlmişdir. Həmin müddətdə dənli bitkilər, pambıq (Qazax-Tovuz iqtisadi rayonunda əkilmir), dən üçün günəbaxan, tərəvəz, meyvə və giləmeyvəlilər, üzüm, ət, süd, yumurta (Qazax-Tovuz iqtisadi rayonu istisna) istehsalı artmışdır.

2012-ci ildən etibarən Gəncə-Daşkəsən iqtisadi rayonunda, 2015-ci ildən isə Qazax-Tovuz iqtisadi rayonunda davamlı əkilən şəkər çuğunduru istehsalı ilbəil yüksəlmiş, III Dövlət Proqramının yekununda ölkə üzrə cəmi istehsalın 1/3 hissəsi bu rayonların payına düşmüşdür. Bu da onu deməyə imkan verir ki, bu iqtisadi rayonlarda şəkər çuğunduru istehsalının artırılması üçün kifayət qədər potensial imkan mövcuddur.

Yun istehsalının hər iki iqtisadi rayonda aşağı düşməsi xırdabuynuzlu heyvanların sayının getdikcə azalması və əlçatan yun qəbulu məntəqələrinin olmaması ilə əlaqədar olmuşdur.

Qazax-Tovuz iqtisadi rayonunda digər kənd təsərrüfatı məhsullarından fərqli olaraq, kartof və yumurta istehsalında kəskin azalma müşahidə olunmuşdur. Belə ki, kartof istehsalı təqribən 20,0%, yumurta istehsalı isə 48,8% aşağı düşmüşdür. Kartof istehsalının aşağı düşməsi iqtisadi rayonda əkinlərinin azaldılması (17,6%), uzun illərdir eyni sahələrdə becərildiyindən torpağın məhsuldarlığının aşağı düşməsi, suvarma suyunda və toxumçuluqda olan çətinliklər, yumurta istehsalındakı problem isə quşların sayının azalması, son illərdə onların yetişdirilməsindəki çətinliklər, xəstəliklərin çoxalması və s. ilə bağlı olmuşdur.

Üzümçülüyün inkişafına dair Dövlət Proqramının icrası dövründə iqtisadi rayonlarda üzüm əkinlərinin sahəsi azalsa da, məhsuldarlıq və istehsal yüksəlmişdir. Hər iki iqtisadi rayonda üzüm istehsalında artım 50,0%-dən yüksək olmuşdur. Bu regionlarda üzümçülüyün inkişaf etdirilməsi, şərab istehsalının yüksəldilməsi, ixrac qabiliyyətinin artırılması üçün həyata keçirilən uğurlu islahatların nəticəsində baş vermişdir.

Dövlət Proqramlarının icrası dövründə kənd təsərrüfatı sahələrinin inkişafına göstərilən genişmiqyaslı dövlət dəstəyi, subsidiyaların verilməsi, lizinqin tətbiq olunması, yeni infrastruktur sahələrinin, istehsal müəssisələrinin regionda yaradılması, kənd təsərrüfatına və məşğulluğa olduqca müsbət təsir göstərmişdir. Qeyd edək ki, bu tədbirlərin davam etdirilməsi gələcəkdə regionların potensial imkanlarından daha da çox yararlanmağa imkan yaradacaqdır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafına dair Proqram" (2002-2006): // 2002-ci ildə qəbul edilmişdir. Bakı: 2002, s.10
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər): // Bakı: 2009, s.204
3. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2009-2013-cü illər) icrasının yekunları. Bakı: 2014, s.233
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunları. Bakı: 2019, s.324
5. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2019-2023). Bakı: 2019, s.352
6. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair Dövlət Proqramı" (2017-2022): // 14 iyul 2017-ci ildə qəbul edilmişdir
7. "Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" (2012-2020): // Bakı: 2011, s.7
8. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı: 2016, s.177
9. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" (2008-2015):// 25 avqust 2008-ci ildə qəbul edilmişdir. Bakı: 2009, s.61
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi səhifəsi. Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts
11. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin rəsmi səhifəsi. Mənbə: https://www.agro.gov.az/az/bitkicilik/terevezcilik/kartof
12. Azərbaycanın kənd təsərrüfatı. Bakı: 2022, DSK, s.774
13. Azərbaycanın regionları. Bakı: 2022, DSK, s.775


## SUMMARY

**Aida Abbasova**

## THE ROLE OF STATE PROGRAMMES IN THE DEVELOPMENT OF AGRICULTURE IN GANJA- DASHKASAN AND GAZAKH-TOVUZ ECONOMIC REGIONS


The role of implementation of state programmes,as well as the programmes supporting separate branches and directions of agriculture in the increase of production in Ganja-Dashkasan and Tovuz-Kazakh regions has been investigated in the article.

The aim is to determine the importance of these programmes in the development of agriculture and the production potential of the region based on the analysis of changes.

Ganja-Dashkasan and Tovuz-Kazakh economic regions are the main agricultural regions of the republic. There are sufficiently developed areas of agriculture in these regions. Thus, they are the central regions where some agricultural crops, such as grapes, potato, sugar beet, sunflower are cultivated. 46,7% of sunflower production in Ganja-Dashkasan economic region,50,9% of potato production, 31,7% of grape production, 20,6% of vegetable production in covered lands, and 30,4% of sugar beet production falls on the share of Gazakh-Tovuz economic region. These plants play a leading role in food security being of particular importance in meeting the daily food needs of the population and supplying the food industry with raw materials. The lack of agricultural enterprises here does not allow to make full use of some products. Placing their processing facilities in the area can bring significant economic benefits.

The implementation of state programmes has created conditions for achieving positive results in the agricultural sector, increasing productivity and production. The development of agriculture in

economic regions is one of the priority issues in the current state programme to ensure sustainable development.

***Key words**: Economic region, agriculture, agropark, State Programs, horticulture, animal husbandry*

**РЕЗЮМЕ**

**Аида Аббасова**

**РОЛЬ ГОСУДАРСТВЕННЫХ ПРОГРАМ В РАЗВИТИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ГЯНДЖИ-ДАШКАСЕНСКОЙ И ГАЗАХ-ТОВУЗСКОЙ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ**

В статье исследована роль реализации Государственных программ, а также программ поддержки отдельных областей и направлений сельского хозяйства в увеличении производства в экономических районах Гянджа-Дашкасан и Газах-Товуз. Цель состояла в том, чтобы определить значение этих программ в развитии сельского хозяйства и производственного потенциала региона на основе анализа изменений.

Гянджа-Дашкесанский и Газах-Товузский экономические районы являются основными сельскохозяйственными районами республики. В этих районах имеются достаточно развитые направления сельского хозяйства. Таким образом, регионы являются центрами для выращивания сельскохозяйственных растени: виноград, картофель, сахарная свёкла, подсолнечник, овощи и др. Производства 46,7% подсолнечника в стране приходится на Гянджа-Дашкесанский экономический район, 50,9% производства картофеля, 31,7% производства винограда, 20,6% производства овощей, в том числе 36,4% производства овощей в покрытых землях, 30,4% производства сахарной свёклы на Газах-Товузский экономический район. Эти растения играют важную роль в продовольственной безопасности имея особое значение в обеспечении повседневных потребностей населения в продуктах питания и обеспечении пищевой промышленности сырьём. Отсутствие здесь сельскохозяйственных предприятий не позволяет в полной мере использовать некоторые продукты. Размещение их перерабатывающих мощностей в этом районе может принести значительный экономический эффект.

Реализация Государственных программ создала условия для достижения положительных результатов в агропромышленном комплексе, повышения урожайности и производства. Развитие сельского хозяйства в экономических районах является одним из приоритетных вопросов в действующей Государственной программе обеспечения устойчивого развития.

***Ключевые слова:** Экономический район, сельское хозяйство, агропарк, растениеводство, животноводство*

---

**Məqaləni çapa təqdim etdi:** *Coğrafiya üzrə fəlsəfə doktoru, dosent Lətifə Mədət qızı Novruzova*
**Məqalə daxil olmuşdur:** *20 may 2024-cü il*
**Çapa qəbul edilmişdir:** *27 may 2024-cü il*

# DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

# MƏQALƏ VƏ TEZİSLƏRİN TƏRTİBİ QAYDALARI

**MƏQALƏNİN TAM ADI (Azərbaycan dilində)**

**FULL TITLE OF THE ARTICLE (in English)**

**ПОЛНОЕ НАЗВАНИЕ СТАТЬИ (на русском языке)**

**Adı SOYADI[1]**
**aaaaaaaaaaaa@ndu.edu.az**
**ORCID ID: 0000-0000-0000-0000**

**Adı SOYADI[2]**
**bbbbbbbbbbb@mail.ru**
**ORCID ID: 0000-0000-0000-0000**

**[1]Naxçıvan Dövlət Universiteti**
**[2]Gəncə Dövlət Universiteti**

**XÜLASƏ** (200-400 söz)

**Açar sözlər:** (4-5 söz)

**ABSTRACT** (200-400 words)

**Key words:** (4-5 words)

**АННОТАЦИЯ** (200-400 слов)

**Ключевые слова:** (4-5 слов)

**GİRİŞ** (Introduction, Введение)

**MATERİAL VƏ METODLAR** (Methods, Методы)

**ƏLDƏ OLUNAN NƏTİCƏLƏR** (Results, Полученные результаты)

**MÜZAKİRƏ** (Discussion, Обсуждение)

**ƏDƏBİYYAT** (Reference, Литература)

**Qeyd:**

• *Ədəbiyyat siyahısı APA stili üzrə, əlifba sırası ardıcıllığı ilə yığılmalıdı. Ədəbiyyat istinadları mətnin içərisində verilməli, ədəbiyyat siyahısı rəqəmlə göstərilməməlidir.*

• *Məqalənin üslubuna və elm sahəsinə görə yuxarıda qeyd olunan sistemdə dəyişikliklər ola bilər (Xüsusilə humanitar sahədə)*

**APA stili ədəbiyyat siyahısı (Nümunə):**

Hsieh, D., Xia, Y., Qian, D., Wray, L., Dil, J. H., Meier, F., ... & Hasan, M. Z. (2009). A tunable topological insulator in the spin helical Dirac transport regime. Nature, 460(7259), 1101-1105.

Oraman, Y. (2015). Türkiye'de coğrafi işaretli ürünler. Balkan ve Yakın Doğu Sosyal Bilimler Dergisi, 1(1), 76-85.

Sönmez, İ., Kaplan, M., & Sönmez, S. (2008). Kimyasal gübrelerin çevre kirliliği üzerine etkileri ve çözüm önerileri. Batı Akdeniz Tarımsal Araştırma Enstitüsü Derim Dergisi, 25(2), 24-34.

**QEYD:**

Məqalələrə istinad (məqalələrin içərisində) aşağıdakı qaydada göstərilməlidi:
• Tək müəllifli məqalə və ya tezis. Nümunə: (Həsənov, 2018)
• İki müəllifli məqalə və ya tezis. Nümunə: (Qarayev və Faziolğlu, 2011)
• Üç və ya daha çox müəllifli məqalə. Nümunə: (Babayev və b., 2021)

Kitablara istinad aşağıdakı qaydada göstərilməlidi:
• Tək müəllifli kitab. Nümunə: (Həsənov, 2018, s.94-95)
• İki müəllifli məqalə və ya tezis. Nümunə: (Qarayev və Faziloğlu, 2011, s.45-48)
• Üç və ya daha çox müəllifli məqalə. Nümunə: (Babayev və b., 2021, s.95-99)

**TEXNİKİ TƏLƏBLƏR**

– A4 formatı, Word redaktoru, Times New Roman şrifti, 12 Pt;
– səhifənin parametrləri – hər tərəfdən 2 sm;
– sətirlərarası interval – 1;
– materialın başlığı tünd, böyük hərflərlə ortada;
– mətnin yazıldığı dildə xülasə (xülasə və açar sözlər əlavə olaraq ingilis və rus dilində tərcümə olunaraq) və açar sözlər, sonra əsas hissə;
– xülasə: 200-400 söz;
– açar sözlər: 4-5 söz və ya söz birləşməsi;
– materialın həcmi: 5-10 səhifə (Xülasə və Açar sözlər daxil).

Nəşriyyat direktoru:
Mətbəə müdiri: Vidadi Kazımov
Qrafik dizayner: Sahilə Abbasova
Redaktor: Zəhra Rəhimova
Redaktor: Minəvvər Ələkbərova
Aparıcı korrektor: Sitarə Əlizadə
Aparıcı korrektor: Zərri Məmmədova
Texniki korrektor: Nərgiz Həsənova

Yığılmağa verilib: 10.06.2024
Çapa imzalanıb: 17.06.2024
Formatı: 60/90, 32/1, həcmi 10.75 ç/v
Sifariş №312, sayı 100 nüsxə

NDU-nun nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*